QILMAN İLKİN

# SEÇİLMİŞ ƏSƏRLƏRİ

İKİ CİLDDƏ

I CİLD

"AVRASİYA PRESS"
BAKI-2006

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

*Bu kitab "Qılman İlkin. Dağlı məhəlləsi" (Bakı, Yazıçı, 1978) nəşri əsasında təkrar nəşrə hazırlanmışdır*

Tərtib edəni: **Ayaz Musayev**

**894.3613-dc22**
**AZE**
**Qılman İlkin. Seçilmiş əsərləri.** İki cilddə. I cild. Bakı, "Avrasiya press", 2006, 232 səh.

Görkəmli yazıçımız Qılman İlkinin bu kitabına müəllifin hekayələri və povestləri daxil edilmişdir.

Hekayələrdə müasirlərimizin gündəlik qayğılarından, onların həyatında baş verən hadisələrdən, vətənin azadlığı, müstəqilliyi və ərazi bütövlüyü uğrunda qəhrəmanlıq göstərmiş oğul və qızlarımızın döyüş yolundan söhbət açılır.

"Dəniz həmişə göy olmur" povestinin mövzusu Böyük Vətən müharibəsi illərində arxa cəbhədə baş verən olaylardan, "Dağlı məhəlləsi"nin mövzusu isə müasir həyatımızdan götürülmüşdür.

**ISBN10 9952-421-84-0**
**ISBN13 978-9952-421-84-2**

© "AVRASİYA PRESS", 2006

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Azərbaycan Respublikasının Prezidenti
İLHAM ƏLİYEVİN
**“Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında”**
12 yanvar 2004-cü il tarixli sərəncamı ilə nəşr olunur və ölkə kitabxanalarına hədiyyə edilir

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

# ÖN SÖZ

Elə yazıçılar var ki, onların yaradıcılıqları ilk baxışda ədəbi prosesdə mərkəzi, böyük planda nəzərə çarpmır. Lakin qəribəsi odur ki, eyni zamanda ədəbi prosesi, ədəbiyyatın ümumi inkişafını və ahəngini belə yazıçılarsız da qətiyyən təsəvvür etmək olmur, onların əsərlərini nəzərə almadan dövrün ədəbiyyatını tam əhatə etmək mümkün olmur. Çünki belə yazıçılar dövrlərinin ədəbi prosesi və ictimai-mənəvi həyatı ilə daxilən bağlı şəxsiyyətlərdir. Onlar ədəbiyyatda səssiz-küysüz çalışır, yazıb-yaradır, əsərləri ilə ədəbiyyatın yeni meyillərinin dərinləşməsinə bilavasitə təsir göstərirlər. Müasir Azərbaycan ədəbiyyatının, daha dəqiq desək, nəsrinin belə görkəmli simalardan biri yazıçı Qılman İlkindir, – desəm, yəqin ki, bu yazıçı haqqında, onun çağdaş nəsrimizdəki diqqətəlayiq yeri və mövqeyi haqqında müəyyən bir həqiqəti ifadə etmiş olaram.

Q.İlkin ədəbiyyata, yaradıcılıq aləminə qırxıncı illərdə gəlmişdir. Ancaq hələ tələbəlik illərində maddi çətinlik üzündən natamam qalmış aspiranturada təhsil çağlarında ədəbi yaradıcılığa ciddi həvəs göstərmişdir və bu həvəs onu bir müddət "Uşaqgəncnəşr"də baş ədəbi məsləhətçi vəzifəsində işləməyə gətirib çıxarmışdır. "Yararlı şahin" adlı ilk hekayəsi isə müharibə illərində, 1943-cü ildə dərc olunmuşdur. Və o vaxtdan etibarən də Q.İlkin bədii və publisistik nəsr janrında yorulmadan çalışır, müasir və tarixi mövzularda əsərlər yazır, bu əsərləri ilə müasir nəsrdə öz üslubunu, öz mövzu və qəhrəman tipini inadla axtarır, təsdiq edir, yaradıcılıq prinsiplərini dərinləşdirir.

Q.İlkin bir müddət daha çox uşaq ədəbiyyatı ilə bağlı yazıçı kimi tanınırdı. Lakin müharibədən sonra, daha çox isə 60-cı illərdə yazıçı bir sıra əsərləri ilə böyük nəsrin yoluna çıxdı, bununla da nəsrinin yaradıcılıq imkanlarına öz oxucusunda dərin bir inam yaratdı. Bununla əlaqədar çox təəssüflə qeyd etməli oluruq ki, bu yazıçının çoxillik, dəqiq desək, yarım əsrdən artıq bir dövrü əhatə edən yaradıcılığı hələ kifayət dərəcədə tədqiq edilməmişdir, ciddi tənqidin mövzusuna çevrilməmişdir. Halbuki Q.İlkin nəsrinin bir çox elə xüsusiyyəti vardır ki, bu xüsusiyyət onun əsərlərinin, nəsrinin orijinal, özünəməxsus cəhətləri olmaqla bərabər bütövlükdə ədəbiyyatımızın ümumi inkişafı, ümumi axarı və ahəngi ilə son dərəcə sıxı surətdə, üzvi şəkildə bağlıdır.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Q.İlkin müasir nəsrin müxtəlif janrlarında yazıb-yaratmış sənətkardır. Hekayə, povest, roman, ssenari onun bədii nəsrinin əsas janrları olaraq qeyd edilə bilər. Xüsusilə o, bir yazıçı kimi ilk dövrlərdə özünü hekayə janrında axtarmış və təsdiq etmişdir. Onun iki cildlik seçilmiş əsərlərində hekayə əsas janr səviyyəsində diqqəti cəlb edirdi. Və bu cəhət tamamilə təbiidir. Hekayə milli nəsrin təməl janrıdır. Q.İlkin isə hər şeydən əvvəl milli nəsrin gözəl, realist ənənələri, mənəvi və sənətkarlıq dəyərləri əsasında formalaşmış yazıçılarımızdandır. Bizə elə gəlir ki, onun nəsr üslubunun bu dərəcədə yetkin və zəngin olmasını məhz həmin xüsusiyyətlə izah etmək olar və lazımdır. Yazıçının "Küləkqıran", "Yalquzaq", "Bir parça səma", "Fırtına, insan və vaxt" lap bu yaxınlarda çap etdirdiyi "Qatil" hekayələri, habelə digər əsərləri bu janrın onun nəsrinin əsas, daimi bir janrı olduğunu təsdiqləyir.

Yazıçının hekayələri ilə tanışlıq əsasında deyə bilərik ki, ədib bu janrı, *onun imkanlarını və poetikasını dərindən mənimsəmişdir; belə ki, hər dəfə bu* janrda yazdıqda janrın ölçüləri daxilində təhkiyə axarında özünü olduqca sərbəst hiss etdiyi duyulur. O da çox səciyyəvidir ki, hekayədə yazıçı insanın böyük həyatının müəyyən bir zaman parçasını götürüb göstərir və bu vasitə ilə insanın bütün həyatı, bütün xarakteri və şəxsiyyəti haqqında canlı təsəvvür yaradır. Bir cəhəti ilə də Q.İlkinin hekayələri maraqlı və özünəməxsusdur. O da Q.İlkin hekayələrinin əsasən realist-lirik üslubda yazılmasıdır. Bununla belə etiraf etməliyik ki, hekayə ədibin nəsri üçün hər nə qədər doğma və əsas bir janr olsa da, o, öz nəsrini yalnız bu janrla məhdudlaşdırmamışdır.

Ədəbiyyatımızın ümumi hərəkətindən geri qalmayaraq Q.İlkin özünün romanlarını da yaratmışdır. "Qalada üsyan", "Şimal küləyi" müəllifin bu janrda yazdığı diqqətəlayiq əsərlərindən sayıla bilər. Ədib bu əsərlərilə ədəbiyyatımızın, nəsrimizin inqilabi-tarixi janr sahəsindəki axtarışlarını öz yaradıcılığında layiqincə təmsil etmişdir. Romanlarında isə tarixin müəyyən hadisələri qələmə alınmışdır, onlarda güclü insan xarakterləri və taleləri vardır. Ən əsas cəhət isə bu romanlarda azadlıq hərəkatının geniş və epik planda təsviridir ki, həmin təsvir sayəsində bu romanları biz indi də yüksək qiymətləndirməliyik. Bizdə tarixi roman çox mürəkkəb bir yol keçməli olmuşdur və bu cəhət tarixi roman təfəkkürünə təsirsiz qalmamışdır. Lakin buna baxmayaraq əsas tarixi romanlarımız kimi Q.İlkinin də tarixi romanları bu janrın təşəkkülündə mühüm bir mərhələnin hadisələri olaraq dəyərlidir. Maraqlıdır ki, son illərdə də Q.İlkin əsasən tarixi yaddaşa müraciət edir, müharibə illərində Təbrizdə olarkən şahidi olduğu hadisələri, ünsiyyətdə olduğu insanları qələmə alır. Onun axır vaxtlarda "Azərbaycan" jurnalında dərc olunmuş böyük həcmli "Təbriz xatirələri"



Created with
nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

bu mənada sadəcə xatirə, yol qeydləri sayıla bilməz; yazıçı bu əsərdə öz şəxsi xatirələri və təəssüratları vasitəsi ilə oxucunu bu şəhərin həyatı və tarixi aləminə daxil edir, bir növ qədim şəhərin obrazını yaradır. Yazıçının bu qəbildən olan digər son əsəri isə "Bakı və bakılılar" kitabıdır. Bu kitabı da sözün geniş mənasında Bakının tarixi hesab etmək olmaz. Yazıçı özü kitabını bu səpgidə düşünməmiş və yazmamışdır. O, daha çox öz tale şəhərini, içərisində doğulduğu, yaşadığı şəhəri necə tanıyırsa, o cür də təsvir edir, şəhərin tarixi və adamları, şəhərin hadisələri və əhvalatları, həyat tərzi, koloriti haqqında yazır, öz təhkiyəsini bu cür başlayır və tamamlayır. Bakının şəxsi-fərdi təəssüratları və yaddaşı vasitəsilə bədii təqdimi – kitabın janrını, bizcə, belə təyin etmək daha doğru olardı.

Mən Qılman İlkin haqqında bu qeydlərimi onun həm də ədəbi prosesin təşkilatçısı kimi, jurnal redaktoru, nəşriyyat başçısı kimi qızğın fəaliyyəti barədə düşüncələrimlə bitirmək istəyirəm. Q.İlkinin bu sahədəki fəaliyyəti də məhsuldar və səmərəli olmuşdur. Məlumdur ki, 60-cı illərdə Q.İlkin bir müddət "Azərbaycan" jurnalının baş redaktoru olmuşdur. Bu o illər idi ki, ədəbiyyatımız özünü yeni, daha bir mürəkkəb mərhələsinə daxil olurdu. Q.İlkin öz fəaliyyəti ilə jurnalı ədəbi prosesin sürətli yeniləşməsinin əsas sahəsinə çevirdi. Bu isə yeni bir ədəbi mərhələnin təşəkkülü üçün çox mühüm və dəyərli bir amil idi.

Qılman İlkinə böyük, zəngin, qaynar bir ömür yaşamaq qismət olmuşdur. O, bu gün də qələmi yerə qoymamışdır. Yenə ilhamla, şövqlə yazıb-yaradır. Yenə də yaddaşa, tarixə, müasirliyə müraciət edir və arzu edirik ki, bu hiss görkəmli ədibimizi hələ bundan sonra da tərk etməsin. Yazıçı səadəti yaradıcılıqdadır...

***Şamil Salmanov***



Created with
nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

# HEKAYƏLƏR

Created with
nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Created with
nitroPDF® professional
download the free trial online at nitropdf.com/professional

## “ÇƏYİRTKƏ”

Qatar yarımstansiyaya yan alan kimi, Kəramət əlində kiçik çamadanı hamıdan qabaq vaqonun pilləsinə hoppanıb içəri keçdi. Tamburda durmuş bələdçi qadın əlindəki papirosu tez ağzına aparaq qolu ilə onun qabağını kəsdi:

– Nə olub, qaçaqaçdır? Qatar dayanmamış çəyirtkə kimi hoppanırsan, – deyib biletini yoxladıqdan sonra Kəraməti boğanaq dəhlizə itələdi.

Bələdçi qadının bu sözləri ona iki-üç il qabaq qonşuları Pərizad qarı ilə nənəsinin söhbətini xatırlatdı. Nənəsi Kəramətin cansızlığından şikayətlənərkən Pərizad qarı demişdi: “Sən o barədə heç narahat olma. Beləleri çəyirtkə kimi şeydirlər. Təki can sağ olsun”. Tərslikdən Pərizadın nəvəsi, Kəramətlə bir sinifdə oxuyan Yelmar orada idi. Ertəsi gün Kəramət sinfə girəndə uşaqlar hamı bir ağızdan çığırışdılar:

– “Çəyirtkə” gəldi. “Çəyirtkə” gəldi.

O gündən məktəbdə hamı Kəraməti “Çəyirtkə” deyə çağırmağa başladı. Əlbəttə, müəllimlərdən başqa...

Kəramət anasının tapşırdığı kimi bileti yuxarı yerə almışdı ki, minən kimi yerinə qalxıb sübhədək kitab oxusun. Tez çamadanını açdı, oradan fizika kitabını götürüb dəhlizə çıxdı. Fikirləşdi ki, qatar yola düşəndən sonra əvvəlcə dəhlizdə oxuyar, sonra qalxıb yatağına uzanar.

Bir azdan dördüncü kupenin o biri sərnişinləri də çığır-bağır ilə içəri girdilər. Üç nəfər idi. Biri yeniyetmə idi, o dəqiqə bilinirdi ki, ali məktəbə girməyə gedir. Kişilərdən hündürboylusu bu bürküdə qara kostyum geymiş və qalstuk taxmışdı. Digəri isə qısaboy, iri gövdəli bir adamdı. Kupenin qapısından güclə içəri keçib oturdu.

– Ə, sən öl, bircə dəqiqə də gecikseydik, çatmayacaqdıq.

– Düz deyirsən, Babaş, – deyə o biri təsdiq etdi.

Qatar elə bil ki, onun sözlərinə bənddi. Fısıltı ilə hərəkətə gəldi. Cavan oğlan tez yuxarı qalxmaq istədi. Tosqun kişi onun ətəyindən yapışdı:



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Ə, haraya qalxırsan? Yeyək, sonra.

– Mən yemək istəmirəm.

– Az danış. Sənə bu saat yaxşı yemək lazımdır. Beş imtahandır. Zarafat deyil. Gərək canını möhkəmlədəsən. Keç otur.

Oğlan onun sözünə tabe olub qalstuklu kişinin yanında oturdu.

– Mahmud müəllim, bəlkə Seyfəlini də çağırasan?

Tosqun kişinin bu sözlərindən sonra qalstuklu kişi qalxıb qonşu kupeyə keçdi və bir nəfəri çəkə-çəkə kupeyə gətirdi. Orta yaşlarında olan Seyfəlinin bir gözü əyri baxırdı. Kəramətə elə gəlirdi ki, Seyfəli kiminlə danışsa da bir gözü dəhlizdə ona baxır.

Tez zənbillər, boğçalar açıldı. Kupe stolunun üstünə bozartma, lavaş, pendir, xiyar, pomidor və iki dənə kiçik sarı yemiş düzüldü. Sonra tosqun kişi çamadanından üç araq şüşəsi çıxarıb süfrəyə qoydu.

Kəramət bayaqdan içəri keçməməsinə peşman oldu. İndi bu dəsgahdan sonra necə içəri keçsin? Belə ki, görürdü, bu məclis tezliklə qurtarası deyildi.

– Seyfəli, bu Köçərinin canı üçün, – deyə tosqun kişi kösöv kimi qara qıllı qolunu cavan oğlanın çiyninə qoydu, – uşaq var ki, iki şey öyrənir, imtahanda da bəxtinə o çıxır. Ə, sən öl, bəxtin gətirdi, qurtardı. Bir də, canımız nə qədər sağdır, gərək borcumuzu verək də, yetim-zad deyil ha, məktəbin qapısında boynunu büküb dayansın. Başa düşürsən, Seyfəli?

– Başa düşürəm, başa düşürəm.

Mahmud müəllim pencəyini çıxarsa da, qalstukunu hələ açmamışdı. Ancaq dördüncü stəkanı içəndən sonra daha dözə bilməyib qalstukunu açdı.

Yenə içdilər. Babaş bu dəfə içəndən sonra lap at kimi fınxırdı. Ağzına yağlı bir tikə qoyub udquna-udquna dedi:

– Mahmud müəllimə də əziyyət vermişəm. İşinin-gücünün qızğın vaxtında mənimlə gəlməyə razılıq verdi. Kişi oğludur. Gərək bu işdə sağ əlim olsun. Deyirəm bunu da içək Mahmud müəllimin sağlığına!

Stəkanlar yenə boşaldı. Babaş fınxırıb sözünə davam etdi:

– Deyirəm ki, Mahmud müəllim onları tanıyır da. Bəlkə rastına çıxanı oldu. Tapşırsın, xahiş eləsin. Öz köhnə müəllimləridir, hə, Mahmud müəllim, necə bilirsən?

Mahmud müəllim elə bil öz-özünə mızıldandı:



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Görək də.

– Ancaq nə deyirsiniz, deyin, mən bəxtə inanıram, – deyə Babaş sözünə davam etdi. – Dünən çayçıda Uzun Məlik danışırdı ki, oğlu instituta necə girib. İki sualı yaxşı bilirmiş, onlar da çıxıb qabağına. Ə, sən öl, bəs sən bəxti nə bilmisən? Ə, Köçəri, sualın biri necə imiş? Başına ağacdan alma düşən kişini deyirəm.

Oğlu Köçəri gülümsədi:

– Nyutonun qanunu.

– Hə, Nyutonun, deyirəm elə o kişinin də bəxti üzdəymiş. Oturub ağacın altında özü üçün kef eləyirmiş. Birdən tappıltı ilə alma düşür başına. O da qanun tapır, adı kitablara düşür. Sən öl, bizim başımıza lap qarpız da düşsəydi adımızı heç çəkən olmazdı.

Kəramət hiss edirdi ki, belə getsə, Babaş onu heç kupeyə də buraxmayacaq. Canını dişinə yığıb, kupeyə keçdi. Üzr istəyərək, yerinə qalxmaq istədi.

– Bu haradan pırtdayıb çıxdı? – deyə Babaş küt, ifadəsiz nəzərlərini Kəramətə zillədi. – Hə, haradan çıxdın?

– Yuxarı yer mənimdir.

– Ə, sənin yerindisə, bəs haradaydın? Elə şey yoxdur. Bütöv kupe bizimdir.

Kəramət köynəyinin cibindən biletini çıxarıb göstərmək istəyəndə Babaş əli ilə onu itələdi:

– Mən heç nə bilmirəm. Bu kupe bizimdir, vəssalam. Get, bələdçini bura çağır.

– Bələdçini niyə çağırım? Bilet əlimdədir.

Mahmud müəllim Kəramətdən bileti alıb yoxladı.

– Düz deyir, yuxarı yer onundur. – Sonra nə isə fikirləşib soruşdu: – Olmaya sən də Bakıya oxumağa gedirsən?

– Bəli.

Bunu eşitdikdə Babaşdan bir qəhqəhə qopdu ki, səsə o biri kupelərdən boylanan da oldu.

– Ə, səni heç qapıdan içəri buraxmazlar, – deyə yenə bərkdən qəhqəhə çəkdi. – Heç olmasa, bir az gözləyəydin, boyun çıxaydı, ətə-cana gələydin. – Sonra çox ciddi bir tərzdə xəbər aldı: – Ə, tək gedirsən?

– Bəli.

– Bəlkə dayın var?



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Anamdan başqa heç kimim yoxdur.

– Ə, bəs nəyə arxayın olub gedirsən?

Seyfəli zarafatla dedi:

– Bəxtinə.

– Hə, sən öl, – Babaş əlini dizinə vurdu, – elə belələrinin bəxti gətirir də.

– Boş şeydir. Mən bəxtə inanmıram.

Babaşın gözləri bərəldi:

– Ə, bacıoğlu, belə dilin varsa, dilçəyin də var yəni?

Kəramət daha bir söz demədən kupedən çıxdı. Bir azdan bələdçi qadınla qayıtdı. Babaş ona ağzını açmağa macal vermədi:

– Bacım, anam, bir xahişim var. Bu kişinin, – o Seyfəlini göstərdi, – yerini dəyiş bizim kupeyə. Xahiş eləyirik. Bu uşaq da keçər onun yerinə.

Seyfəli ayağa qalxdı:

– Yox, mən yuxarıda yata bilmərəm, – dedi.

Babaş onun ətəyindən yapışıb yerinə oturtdu:

– Ə, əyləş. Səni öz yerimdə yatırdacağam, sən öl.

Seyfəli razı olmasa da Babaş ayağa qalxıb səndirləyə-səndirləyə yanaşı kupeyə keçdi və bir azdan əlində Seyfəlinin çamadanı və bağlaması ilə birlikdə qayıtdı.

– Ə, yekə kişisən, adam kampaniyanı dağıtmaz. – O, Seyfəlinin çamadanını öz yatağına qoydu. – Ə, sən öl sübhədək yatdı yoxdur. – Sonra qapı ağzında durmuş Kəramətə tərəf çöndü. – Bala, sən də keç onun yerinə.

Bələdçi getdi. Kəramət də çamadanını qaldırıb qonşu kupeyə köçdü.

İnstitutun həyətində və bitişik küçələrdə adam qarışqa kimi qaynaşırdı. Buraya toplaşanlar təkcə abituriyentlər olsaydı, dərd yarı idi. Məsələ orasında idi ki, hər abituriyentlə birlikdə üç-dörd adam da gəlmişdi. Babaş küçənin nisbətən kölgəli tərəfində özünə yer seçib rahatlanmışdı. İki saatdan artıq idi ki, Mahmudun yolunu gözləyirdi. Bir azdan imtahanlar başlayacaqdı. Nəhayət, Mahmud müəllim uşaqları aralaya-aralaya yaxınlaşdı. Babaş ayağa qalxıb səbri tükənmiş halda soruşdu:

– Ə, nə oldu, bir şey eləyə bildin?



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Murtuzovu çox axtardım. Axırda məlum oldu ki, xəstəxanada yatır. Kor bağırsağını kəsiblər. Məmməd müəllimin evinə getdim. Qonşuları dedi ki, bağdadır. Əlacım təkcə Nəsirliyə qaldı. Birtəhər boynuna qoydum. Bu gün özü imtahanda iştirak eyləyəcək.

– Ə, deyirəm də, sən istəsən dağı dağ üstünə qoyarsan.

O, azca aralıda durmuş oğlanların arasında kimi isə göstərib Mahmudun ətəyini dartdı:

– Ə, bax. Bizimlə vaqonda gələn oğlandır.

Mahmud gözlərini qıyıb, diqqətlə baxdıqda Kəraməti tanıdı. O, bu gün vaqondakından daha sısqa və xırdaca görünürdü.

Radio səsləndi. İçəri dəvət olunan uşaqların arasında Köçərinin də adı çəkildi. Babaş əl-ayağa düşdü.

Köçəri tez qapıya yüyürdü...

O gecə Babaş nə özü yatdı, nə də Mahmudu qoydu yatmağa.

– Ə, yatdın?

Mahmud Babaşa bu dəfə cavab vermək istəmədi. "Qoy elə bilsin ki, yatmışam". Babaş isə əl çəkən deyildi.

– Ə, yuxu ki, əlindən qaçmır ha. Kəndə qayıdandan sonra nə qədər yatırsan, yat da.

– Sözünü de, – Mahmud yuxulu-yuxulu dilləndi.

– Deyirəm ki, sənə güvəndiyim dağlar, sənə də qar yağarmış.

– O nə üçün?

– Daha nə üçünü yoxdur ki. Uşağa bir dənə "dörd" yazdıra bilmədin.

– A Babaş, axı üç sualdan ancaq birinə cavab verib. O "üçü" də hörmət eləyib yazıb.

– Hörmət eləyib "dörd" yaza bilməzdi? Mən məgər xəcalətindən pis çıxacaqdım? Sən öl, verəydi "beş", dırnaqlarını qızıla tutardım. Ə, yatdın? – deyə təkrar soruşanda yuxulayan Mahmud dik atılıb durdu:

– Məni yox, onu oyat, – küncdəki çarpayıda şirin-şirin yatan Köçərini göstərdi. – Qoy dursun təkrar eləsin. Niyə başqaları sübhədək oyaq qala bilirlər? Kimya ilə zarafat eləmək olmaz. Ağır predmetdir.

Söz Babaşı aldı:

– Ə, yoxsa gümanın yoxdur? – deyə narahatlıqla soruşdu. – Uşağın evini yıxarsan ha?



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Gümanım nə üçün yoxdur? O elə adam deyil. Söz verdi, eləyəsidir. Ancaq uşaq da gərək bir şey bilsin, ya yox?

– Ə, sən də başlamısan bəzi adamlar kimi. Bu saat biliyə baxan kimdi? Əgər tapşırılmayıbsa, istəyir lap professorcan bilsin, kəsəcəklər, sən öl!..

Babaş birnəfəsə doğrayıb tökür, Mahmud isə eşitmirdi. Bu dəfə bərk yuxuya getmişdi.

O gün sübh tezdən institutun qapısında hamı kimya imtahanı barədə danışırdı. Deyirdilər ki, guya müəllimlər əllərinə qılınc alıb düşüblər uşaqların üstünə, kəsdi-kəsdidir. Atalar içərisində təkcə Babaş nəyə isə arxayındı. Görünürdü ki, Mahmud müəllim bu dəfə bərk tapşırıb. Babaş astadan Köçəriyə deyirdi:

– Ə, özünü itirib-zad eləmə. Kişi möhkəm söz verib.

Bir azdan radio dilləndi. Xəbər verdilər ki, tarixdən imtahana girəcək abituriyentlər ikinci mərtəbədə 13-cü otağa toplaşsınlar. Sonra kimyadan imtahan verənləri də içəri çağıracaqdılar. Mahmud isə hələ də qayıtmamışdı. Babaş çox istəyirdi ki, Köçəri içəri keçənədək üçüncü imtahan barədə xatircəm olsun.

Bir azdan Mahmud müəllim gəldi.

– Ə, oğlan gəldin, ya qız?

– Əvvəlcə naz elədi. Ancaq düzələcək.

Yenə Babaşın başına hirs vurdu:

– Ə, mən bu şəhərdə oxumuş olsaydım, o müəllimlər də mənə dərs demiş olsaydılar, gör onları necə ələ alardım, sən öl.

Mahmud papirosa axırıncı qullab vurandan sonra kötüyü hirslə yerə atıb ayağı ilə əzişdirdi. O, Babaşla gəlməsinə peşman olmuşdu. Ancaq üzünə qayıda bilmirdi. Babaşın kiçik oğlunun sünnət toyunda az qala bütün kənd camaatı qabağında söz vermişdi ki, Köçərini məktəbə düzəltmək onun boynuna. İndi tüpürdüyünü yalasaydı, gərək kəndə qayıtmayaydı.

Tarixdən imtahanın gedişi radio ilə verilirdi. Kiminsə adı çəkildi. Babaşgilin yanında durmuş oğlanlardan biri bərkdən o biri yoldaşlarını səslədi:

– Ə, gəlin, "Çəyirtkə"ni çağırıblar.

Daha iki nəfər oğlan onlara yaxınlaşdı. Radioda hər şey aydın eşidilirdi. Elə bil imtahan içəridə deyil, həyətdə, Babaşgilin böyründəki ağacın altında gedirdi. Budur, kiminsə səsi eşidildi:



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Danışım?

– Fikirləş sonra.

– Fikirləşmişəm, müəllim.

Babaşgilin yanındakı oğlanlardan biri dilləndi:

– Pa atonnan, "Çəyirtkə" heç fikirləşmək də istəmir.

Oğlan biletin suallarına cavab verməyə başladı.

Arada imtahan qəbul edən müəllimin səsi eşidildi:

– Kifayətdir, keç ikinci suala.

Yoldaşlarının "Çəyirtkə" çağırdıqları oğlan bir o qədər danışmamışdı ki, müəllim yenə onun sözünü kəsdi:

– Üçüncü suala keç!

Babaşa aydın deyildi ki, "Çəyirtkə" deyilən oğlan suallara düzgün cavab verdiyi üçün müəllim onu saxlayıb, o biri suallara keçməyi tapşırır, ya ki, cavab onu qane etmədiyi üçün tez yaxa qurtarmaq istəyir. Oğlan üçüncü suala da cavab verəndən sonra müəllim dedi:

– Sənə əlavə bir sualım var. De görək...

Babaş bunu eşidən kimi hündürdən dedi:

–Ə, sən öl, kəsdilər yazığı. Əgər əlavə suallar verirlərsə, demək, əvvəlkilərin cavabı düz olmayıb.

Oğlanlardan biri hirslə Babaşa tərəf çöndü:

– Onu kim deyir?

– Ə, kəsdilər, deyirəm sənə, hə sən öl. Görərsiniz.

"Çəyirtkə" ağzını açıb danışmaq istəyirdi ki, radionun səsi birdən-birə xırıldamağa başladı.

Çox gözlədilər. Radioda xırıltı kəsilmədi. Xırıltı kəsiləndə isə cavab verən bir nəfər qız idi.

– Belə olur, ə, sən öl. Adamı durmasınlar kəsməyə. Elə kəsirlər ki, heç səsi çıxmır.

Oğlanlar Babaşa tərs-tərs baxaraq, uzaqlaşdılar.

Birdən qapı ağzında səs-küy qopdu. İçəridən bayıra çıxan bir oğlanı yoldaşları təbrik edirdilər. Hamı sakitləşəndən sonra boynundan aparatı asılmış fotoqraf içəridən çıxmış oğlanın əlindən tutaraq, görünür ki, şəklini çəkmək üçün sakit bir yer axtarmağa başladı. Babaş oğlanı görəndə gözlərinə inanmadı. Onlarla bir vaqonda gələn sısqa oğlandı, yoldaşlarından biri onun boynunu qucaqlayıb dedi:

– Əhsən, "Çəyirtkə"...



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Babaş bir tərəfə qalsın, Mahmud özü də heç gözləməzdi ki, İsmi müəllim belə iş tutsun. Köçəri kimya imtahanında kəsilmişdi. Babaş institutdan birbaş mehmanxanaya gəlib, özünü çarpayıya yıxmışdı. Yemək də heç yadına düşmürdü. Qəribə orası idi ki, həmişə Mahmudun zəhləsini tökdüyü halda, indi ağzını açıb bir kəlmə də dinmirdi. Mahmud onun belə vəziyyətindən qorxuya düşdü. O yaşda kişinin ürəyinin partlamasına nə var ki?

– Babaş, özünü ələ al. – Mahmud yavaşca və çəkinə-çəkinə dilləndi: – Bu il girməsin, gələn il girsin. Bundan ötrü özünü niyə üzürsən? Sən yaşda adama ürəklə zarafat eləmək olmaz. Allah eləməmiş, infarkt zad vurar.

Babaş elə çığırdı ki, Mahmud geri çəkilmək istərkən stula toxunub az qaldı, yıxılsın.

– Ə, rədd elə getsin infarktı. Bu boyda kişini yıxmısan bura, indi deyirsən ki, infarkt vurar? Yox, gözlə bir ildırım da vurar.

– Olub da, Babaş. Özün həmişə deyirsən ki, hər şey bəxtəbəxtdir.

Babaş hirslə sıçrayıb yerindən qalxdı:

– Ə, onu mən demişəmsə, qələt eləmişəm dədəmlə. Burada nə bəxtəbəxt? Tapşırmısan ona, canı çıxaydı, düzəldəydi. – Otaqda gəzişən Babaş dodaqlarını gəmirirdi. – Təqsir mən səfehdədir. Deyən yoxdur ki, bəs bu qədər pulla niyə gəlmisən. Gəlmisən, özün qollarını çırma, düş meydana da. Bu əfələ də adam etibar eləyərlər?

Mahmud Babaşın bu dərəcədə baş alıb gedəcəyini gözləmirdi. Hirsindən boğazı qəhər bağladı.

– Babaş, sən daha təhqirə keçdin. Bu yaxşılıqlarımın əvəzidir? İndi ki, belədir, xudahafiz! – deyib otaqdan çıxdı.

Babaşla oğlu Köçəri evə qayıdırdılar. Kupedə ikisi idi. Ancaq Babaş dörd yerin dördünə də bilet almışdı. Gecə yarıdan ötürdü. Köçəri yuxarı yerlərdən birində çoxdan yuxuya getmişdi. Babaş təkbaşına bir şüşə arağı içəndən sonra kupenin qapısını açıb dəhlizə çıxdı. Orada təkcə bir oğlandan başqa heç kəsi görmədi. Bu, Kəramət idi. Başını aşağı dikərək kitab oxuyurdu. Babaş onu görəndə hirsindən bədəni əsməyə başladı: "İlanın zəhləsi getdiyi yarpızdır, o da həmişə yuvasının ağzında bitər", fikirləşdi. Kəramət pəncərə qabağında durmuş Babaşı gördü və salamlaşdı: Babaş onun



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

salamını nəinki almadı, əksinə, sifətini elə turşutdu ki, Kəramət gözlərini təzədən kitaba dikməyə məcbur oldu. Babaş bir istədi ki, Kəramətin əlindəki kitabı alıb parça-parça etsin və desin ki, indi kitab daha nəyinə lazımdır, sən ki, mənimki kimi kəsilməmisən?!

Ancaq nə onun kitabını parçaladı, nə də acı bir söz deməyə dili gəldi. Bələdçidən sərin suyu olub-olmadığını soruşdu. Cavab alan kimi onun kupesinə tərəf irəlilədi. Kəramət tez ayağa qalxıb yol verdi. Oğlanın belə nəzakətliliyi onu daha da əsəbiləşdirdi:

– Ə, burada niyə oturmusan? Gedib yatsana.

– Yerim yoxdur. – Kəramət günahkar adamlar kimi çiyinlərini qısdı.

– Niyə bilet almamısan?

– Kassada mənə bilet çatmadı. Bələdçidən xahiş elədim...

Babaş bir anlığa fikrə getdi, nə isə onu düşündürdü.

– Ə, sən də deyəsən bizim rayondansan, hansı kənddənsən?

– Çıraqlıdan.

Babaş əlini yellədi:

– Eh, çox pis kənddir, – dedi. – Sizin kənddə kişi yoxdur ki. Bir kişi vardı, o da getdi. Müharibədə məni ölümdən qurtarıb. Bir qolunu verdi, ancaq yoldaşını darda qoymadı. Belə kişidən danış. Allah rəhmət eləsin. Ondan başqa o kənddə daha kişi yoxdur. Ə, tanıyırdın onu, Şahmarı?

– Niyə tanımırdım. Atamdı.

– Nəəə? Nə dedin? – Babaş gözlərini döyəclədi.

– Deyirəm ki, Şahmar mənim atamdı.

Babaşın gözləri Kəramətə zillənib, qaldı. İçdiyi arağın təsirindənmi, ya da eşitdiyi sözlərin sarsıntısındanmı ağlı korşalmış adamlar kimi düşdüyü vəziyyətdən heç cür çıxa bilmirdi. Bələdçi qadının səsi eşidildi:

– A yoldaş, su istəyirdin, bəs niyə gəlib içmirsən?



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

## İSTİNTAQ

Axır zamanlar büküklərində duyduğu ağrı və gizilti bu gün səhərki çiskin və dumanlı havadan daha da bərkimişdi. Çəkməsinin içində barmaqları da göynəyirdi. Ayaqlarını az qala sürütləyərək, kabinetinə yaxınlaşanda, süpürgəçi qadın, qoltuğunda uzun döşəməsilənlə içəridən çıxdı.

– Sabahınız xeyir, müstəntiq Şükürov! – dedi. – Pəncərəni açıq qoymuşam ki, otağın havası dəyişsin.

– Eybi yoxdur.

Otağa keçdi. Pəncərə açıq olsa da parket döşəmədən qalxan kəsif benzin qoxusu otaqdan hələ də çəkilməmişdi. O, papiros yandırmağa da ehtiyat etdi. Stolun arxasına keçib, kreslosuna çökdü. Son günlər sümüklərindəki ağrılardan qəribə bir qənaətə gəlmişdi ki, guya vaxtından qabaq qocalır. Onun təsəvvürüncə yel xəstəliyi sümükləri kövrəklədir, bu da ömrün sürətlə qısalmasına səbəb olur. Əslində, o, qoca deyildi. Qırx yaşını ötən həftə kiçik mənzilində ən yaxın yoldaşları ilə qeyd eləmişdi. Qocalığının yaxınlaşdığını hiss eləməyən adamlara həsəd aparırdı. “Belə adamlar ağaclar kimi ayaqüstə çürüyürlər, – fikirləşdi, – xəstəlik bilmədən, yataq üzü görmədən”.

Xəstəliyi ilə bağlı belə qüssəli fikirləri özündən yayındırmaq niyyəti ilə qarşısındakı qovluğu araşdırmağa başladı. Cinayətkarın vaxtı ilə işlədiyi idarədən tələb etdiyi xasiyyətnaməni qovluqdan çıxarıb, təkrar nəzərdən keçirdi. Sətirlərdəki səmimilik heç bir şübhə doğurmurdu. “Sadə həyat sürür. İdarədə işə başladığı ilk günlərdən kollektivin hörmət və etibarını qazanmışdır. Əxlaq və rəftar cəhətdən də həmişə nümunəvi işçi kimi tanınıb...” Və sairə, və sairə. Həsəd aparılası xasiyyətnamə. Ancaq belə bir adam cinayət eləmişdi. Bir otaqda oturduqları xəzinədar tələsik eşiyə çıxdığından kassanı bağlamağı unutmuşdu. Müttəhim də bundan istifadə edərək, oradan üç min manat oğurlamışdı. Cinayətkar aşkar edilənədək, kollektivdə heç kəs onun belə iş tuta biləcəyinə inanmayıb. Onu yaxından tanıyanların çoxu hətta milis idarəsində, ilk istintaq zamanı, müttəhim cinayət etdiyini boynuna alandan sonra belə deyirlərmiş ki, biz hələ də onun belə iş tutmuş olduğuna inanmırıq. Deyənlərin də əksəriy-



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

yəti idarənin hörmətli və mötəbər adamları idi. O, xasiyyətnaməni təzədən qovluğa qoydu. Gözləri qıyıldı: "Bəs nə üçün belə adam cinayətə getsin? – fikirləşdi. – Onu nə məcbur eləyə bilər?"

Beş-on dəqiqədən sonra cinayətkarı yanına gətirəcəkdilər. İstintaq başlayacaqdı. Əslinə baxsan, nə istintaq?! Cinayətkar cinayəti boynuna almışdı və bununla da hər şey bitirdi. Yalnız o qalırdı ki, sənədlər tərtib edilib, iş məhkəməyə verilsin. O isə buna tələsmirdi. İşdə çox gizli bir şübhə közərtisi sezmişdi. Onu düşündürən, narahat edən də bu idi. Xasiyyətnamədən və cinayətkarı tanıyanların dediklərindən belə nəticəyə gəlmək olardı ki, cinayət bu adamın həyatında gözlənilməz bir hadisədir. Buna görə də rəva bilmirdi ki, cinayətin səbəblərini araşdırmadan işi məhkəməyə göndərsin.

Qapı açıldı və xəbər verildi ki, dustaq gətirilmişdir. Bir azdan içəri milis nəfəri ilə birlikdə ortaboylu, gənc, zərif bir qız daxil oldu. Milis nəfəri onu astanada buraxıb çıxdı. Qız gur saçlarını boynunun arxasında yumaq kimi topladığından dəyirmi, solğun sifətinin bütün gözəlliyi tam aşkarda qalmışdı. Sənədlərdə yaşı 25 göstərilsə də üzdən ona iyirmidən artıq vermək olmazdı. Qız qüssəli qonur gözlərini çəkingənliklə otaqda gəzdirdi və müstəntiqin təklifi ilə səssiz addımlarla keçib stulda oturdu.

Şükürov qovluğu açdı. Bir neçə rəsmi sorğu-sualdan sonra hələ də başını aşağı dikib oturmuş qızdan soruşdu:

– Bilirsiniz, nədə ittiham olunursunuz?

– Bəli, bilirəm. – O, başını qaldırmadan dilləndi.

– Bu vaxtadək heç mühakimə olunmuşsunuz?

– Xeyr.

– Onda danışın görüm, üç min manatı necə götürmüşsünüz?

O, birdən-birə dillənmədi. Sinəsində saxladığı yaylığı çıxarıb çənəsinin, boynunun tərini sildi. Boğazının qəhrini açmaq məqsədilə udqundu. Şükürov hiss eləyirdi ki, o, törətdiyi cinayəti danışmağa çətinlik çəkir, su töküb, ona uzatdı. Qız stəkanı almadı. "Çox sağ olun" deyə mızıldandı və aramla nağıl eləməyə başladı. Danışdıqca qaysaq tutmuş nazik dodaqlarını tez-tez yalayırdı. Həyəcanlansa da, səsi titrəsə də, danışığında ardıcıllıq və məntiqi itirmirdi. Müstəntiq arada onun sözünü kəsdi:

– Necə bilirsiniz, xəzinədar doğrudan da o qədər pulla kassanı bağlamağı unutmuşdu?



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Bəli.
– Bəlkə sizə arxayın olub çıxıb? Ya da sizi sınayırmış?
– Buna ehtiyac yoxdu.
– Nə üçün?
– Çünki iki il qabaq məni yoxlamadan keçirmişdilər.
– Necə yoxlamışdılar, danışa bilərsiniz?
O, köksünü ötürdü. Əlindəki yaylığı dartışdıra-dartışdıra dedi:
– Bir gün tənəffüsdən qayıdanda idarədə heç kəsi görmədim.
– Bu nə vaxt olmuşdu? – Müstəntiq yenə onun sözünü kəsdi. – Yəni neçə ay olardı ki, işləyirdiniz?
Qız fikrə getdi.
– Deyəsən iki aydı.
– Aydındır. Davam edin.
– Birdən xəzinədarın stolu üstündə iki paçka qırmızı onluqlar gördüm. Təəccübləndim. Bu qədər pulu yaddan çıxarmaq olar? Özü də açıqda, stolun üstündə? Əllərimi yumaq üçün dəhlizə çıxmalı idim. Fikirləşdim ki, mən çıxandan sonra başqa bir adam onları götürə bilər. Buna görə də oturub xəzinədarı gözlədim. Yerimdən tərpənmədim. Bir neçə dəqiqədən sonra xəzinədar gəldi. "Şölə xanım, – dedim, – bu qədər pulu açıqda qoyub gedərlər?" O, heç təəccüblənmədi də. Mənə yaxınlaşıb üzümdən öpdü. "Əhsən qızım, – dedi, – sınaqdan yaxşı çıxdın". Sonra öyrəndim ki, məni yoxlayırmış. İki gün özümə gələ bilmədim.
– Nə üçün?
– Ona görə ki, mənimlə oyun oynayırdılar. Pulu stolun üstünə qoyur, özləri isə qapı dalında pusurlar. Bəlkə mən səhv eləyəydim. Pulu götürəydim. İstədim ki, ərizə verib işdən gedim. Ancaq getmədim. Özüm də bilmirəm, nə üçün.
– Bu kimin tapşırığı ilə edilmişdi?
– Bilmirəm.
– Direktorun xəbəri vardı?
– Sonra öyrəndim ki, direktorun razılığı ilə edilib.
Şükürov qızın dediklərini qeyd edib başını qaldırdı:
– Axırıncı dəfə kassadan pulu götürəndə orada pul çoxdu?
– Çoxdu. İşçilərə maaş veriləcəkdi.
– Siz çox da götürə bilərdiniz?
– Əlbəttə, götürə bilərdim, – deyib, qız sinədolusu nəfəs aldı.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Bəs niyə çox götürmədiniz?
– Mənə ancaq üç min lazımdı.
– Nə üçün lazımdı?
Qız qüssəli ala gözlərini müstəntiqin sifətində gəzdirdi.
– Bilmirəm, – dedi və başını aşağı dikdi.
– Bəlkə borcunuz varmış?
– Mən borc almağı sevmirəm.
– Bəlkə şuba, brilyant üzük...
O, müstəntiqin sözünü ağzında qoydu:
– Alın təri ilə qazanmadığım pula geyinəcəkdim?
– Elə isə üç mini nə üçün götürmüşsünüz, cinayət dili ilə desək, oğurlamısınız?
Axırıncı sözlərdən qızın mis kimi pörtdüyünü görən müstəntiq, qızı bunun səbəbini deməyə məcbur etmək məqsədilə, həmləsində davam etdi:
– Bəs heç fikirləşmirdiniz ki, o yazıq qadın bu qədər pulu haradan tapıb yerinə qoyacaq? Heç bilirsiniz, buna nə deyərlər?
Qız həyəcanını gizlədə bilmədi. Əsəbiliklə kükrədi:
– Sizdən də yaxşı bilirəm nə deyirlər: alçaqlıq, vicdansızlıq. Sizin dilinizlə desəm: cinayət. İndi sakit oldunuz? Onu da bilin ki, bunun üçün mən vicdan əzabı çəkəcəyəm, siz yox. Ömrüm boyu çəkəcəyəm. Bundan artıq nə istəyirsiniz?
O, başını əlləri üstə qoyub hıçqırtı ilə ağladı. Müstəntiq susaraq, onun hər bir hərəkətini soyuqqanlılıqla izləyir, sözlərini mənalandırmağa çalışırdı. Müttəhimin mühakimə və danışığında məntiq onu cəzb etmişdi. Cinayət yoluna çox düşüncəli halda qədəm qoymuş bu qızın daxilində nə isə gizli saxladığı və özündən ötrü "müqəddəs" bildiyi, lakin heç cür faş etmək istəmədiyi bir məqsədi görürdü. Ancaq nə idi o? Necə məqsəd, necə hissdir ki, qız onun xatirinə belə cinayət eləyib? Qız başını qaldırdı və saçlarını yelpazə kimi havalandıraraq, az qala boğula-boğula dedi:
– Nə üçün məsələni uzadırsınız? Mən cinayətkaram, boynuma da aldım ki, pulları oğurlamışam. Eşidirsinizmi oğurlamışam. Bundan artıq sizə nə lazımdır? Bununla istintaq bitmir?
Müstəntiq əvvəlki soyuqqanlılıqla başını buladı:
– Yox, – dedi. – Mən işi bitmiş hesab etmirəm. İstintaqı o zaman bitmiş hesab etmək olar ki, pulu nə üçün götürdüyünüzü deyəsiniz.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Qanun məcəlləsində də belə yazılıb?

– Mən bunu bir müstəntiq kimi öyrənməliyəm.

Müttəhim yanağında sırğalanmış göz yaşını barmağı ilə silərək, dedi:

– Elə isə öyrənin. Mənsə sizə heç bir şey deməyəcəyəm.

Şükürov onun ikinci dəfə yanına gətirilməsinə tələsmirdi. Valideynləri barədə arayış toplamaq, işlədiyi idarədən bəzi əlavə məlumatlar almaq da bir xeyli vaxt apardı. Bu müddətdə müttəhimin vaxtı ilə işlədiyi idarə rəisi ilə də danışdı. Məlum oldu ki, qızın bir kimsənəsi də yoxdur. Ata və anası öləndən sonra o, demək olar ki, tək-tənha qalıb. Rəislə olan söhbəti zamanı Şükürov soruşdu:

– Siz, şəxsən onu necə tanıyırdınız?

Rəis artıq çallaşmaqda olan saçlarını barmaqları ilə darayıb arxaya verdi. Gözləri qıyıldı. Deyəcəyi sözləri, sanki, əvvəlcədən ölçüb-biçirmiş kimi, xeyli fikirləşəndən sonra dedi:

– Necə deyim, biz onu namuslu, düz adam kimi tanıyırdıq. Ancaq bu əhvalatdan sonra onun yaxşılığına heç nə demək olmaz. – Köksünü ötürdü. – Görünür ki, onun barəsində yanılmışıq.

– Eşitdiyimə görə onu yoxlamadan da keçirmişsiniz?

– Bəli, belə bir şey olub.

– Bu yoxlama nə məqsədlə idi?

Rəis fikrə getdi:

– Bilirsiniz, böyük idarədir. – dedi. – Mühasibatda hər gün böyük məbləğdə operasiyalar gedir. Xəzinədar olmayanda biz mühasibatın başqa işçilərindən də bu məqsədlə istifadə edirik. Belə şeylər bəzən lazımdır.

– Ancaq təəssüf ki, nəticəsi yaxşı olmayıb.

– Orası elədir. İnsan ki var çox mürəkkəb mexanizmdir, onu bir dəfəliyə öyrənmək olmur.

Şükürov əlindəki karandaşı kağıza döyəcləyə-döyəcləyə gülümsədi.

– Nəyə gülürsünüz? – Rəisin qalın pırpız qaşları alnına tərəf dartıldı. – Düz demirəm?

– Bilirsiniz, niyə gülürəm. Bizim həyət uşaqlarının bir oyunu yadıma düşdü. Beşliyin, ya da üçlüyün bir ucuna sap bağlayıb küçəyə atırdılar. Özləri isə pusquya girib gözləyirdilər. Küçə ilə ötənlər əyilib pulu götürmək istəyəndə sapı dərhal dartırdılar. Pulu götürmək



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

istəyən pərt olurdu. Məsələ orasındaydı ki, pulu götürmək üçün böyük də əyilirdi, kiçik də, yaşlı da, uşaq da. Ancaq kim deyə bilərdi ki, əyilib pulu qaldırmaq istəyən namuslu, düz adam deyil?

– Başa düşmədim, bu oyunun buraya nə dəxli var?

– Dərindən fikirləşsəniz, görərsiniz ki, dəxli var. Qızı yoxlamaq üçün düzəltdiyiniz o tələ məgər uşaqların oyununa oxşamır? İnsan mənəviyyatını bu yolla yoxlamaq olar? Siz idarənizdəki adamların əxlaqi sifətinə şübhələnmək əvəzinə idarədə qayda-qanunu, ictimai qaydaları möhkəmlətsəydiniz, daha yaxşı olardı. Eldə deyirlər ki, işini möhkəm tut ki, qonşunu oğru bilməyəsən. Onu da deyim ki, bu yolla siz o qızı təhqir etmişsiniz.

– Oğrunu?

– O zaman oğru deyildi. Və tamaha salmaq üçün qoyduğunuz pullara da toxunmamışdı. Bilirsiniz ki, bu əhvalatdan sonra o, ərizə verib, işdən getmək istəyirmiş?

Rəisə elə gəlirdi ki, bütün bu söhbətlərlə müstəntiq qıza bəraət qazandırmaq fikrindədir. Vaxtı ilə idarə işçisinin düzgünlüyünü ancaq xeyirxah məqsədlə yoxlamaqdan ötrü görülmüş tədbir indi müstəntiq tərəfindən cinayətkarın xeyrinə bir fakt kimi izah olunurdu.

– Bəlkə siz onu təmizə çıxarmaq niyyətindəsiniz?

Müstəntiq rəisin sözlərindəki istehzanı hiss etdi:

– Xeyr. Əsla, – dedi, – o cinayət eləyib və özü də cinayəti boynuna alıb. İndi söhbət başqa məsələdən gedir. Cinayəti törədən səbəblərdən. Sizin tətbiq etdiyiniz metod ona elə bir yara vurmuşdur ki, ağrısını hələ də duyur. İstintaq zamanı sözarası dedi ki, pulu götürməklə sizdən də intiqam alıb.

Rəis başını buladı:

– Qəribədir.

– Qəribədir, ancaq faktdır. Deyiniz görüm, o kassadan götürdüyündən də artıq pul götürə bilərdimi?

– Əlbəttə, götürərdi.

– Bəs nə üçün ancaq üç min götürüb?

Rəisin dodaqları büzüldü. Çiyinlərini çəkib, qollarını açdı:

– Nə deyim, yəqin ki, imkanı olmayıb. Sizcə bunun əhəmiyyəti var?

– Axı nə üçün ancaq üç min? Özünün dediyindən belə çıxır ki, ona ancaq üç min lazımmış. Bu bəlkə bir hadisə ilə əlaqədar olaraq ona lazım olub? Bu barədə siz nə deyə bilərsiniz?



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Özü nə deyir?

– Məsələ də burasındadır ki, burasını demir, susur. Cinayəti boynuna alır, ancaq nə üçün götürdüyünü etiraf etmir.

– Buradan nə nəticə çıxarmaq olar?

– Hələlik heç bir nəticə. Ancaq qızın susmasından belə qənaətə gəlmək olar ki, onu buna, bəlkə də, məcbur ediblər. Mən əminəm ki, pul özünə lazım olsaydı, bəlkə də çox götürərdi.

Rəis əlini qırış tutmuş alnında gəzdirdi.

– Onu kim məcbur eləyə bilərdi? – Öz-özünə söyləndi.

– Heç kəs. – Rəis qətiyyətlə bildirdi. – Belə bir şey olsaydı, idarədəkilər bilərdilər. Ancaq onu bilirlər ki, tezliklə ərə gedəcək. – Onun qaşları çatıldı və müstəntiqə tərəf qanrılaraq, əlavə etdi: – Bəlkə özünə cehiz almaq üçün götürüb, hə, necə bilirsiniz?

Müstəntiqin qayğılı siması birdən-birə ayazıdı. Gözləri qeyri-adi bir şövqlə işıldadı:

– Kimdir nişanlısı? – soruşdu.

– Bilmirik. Ancaq öyrənmək olar.

– Xahiş edirəm.

Beş gündən sonra müstəntiq Şükürovun kabinetində 26-27 yaşlarında nazik bığlı, uzun bakenbardlı bir gənc oturmuşdu. Müstəntiq bilərəkdən onu intizarda qoyaraq, nə üçün çağırıldığını birdən-birə demək istəmirdi. Gəncin, nəhayət əsəbiləşdiyini və cibindən avtomaşın açarını çıxararaq barmaqları arasında hərləməsini görəndə, elə bil düşüncələrinə gözlənilməz bir işıq şüası yayıldı.

– Maşınınız hansındandır? – soruşdu.

– "Jiquli"... – Hələ də nə üçün çağırıldığından nigaran qalmış gənc, nəhayət, rahat nəfəs aldı. Ona elə gəldi ki, yəqin hər hansı bir sürücünün əlindən xata çıxıb və onu da bu işdə başqası ilə dolaşıq salıblar. Özünə isə arxayındı, çünki maşını alan gündən bəri nəinki bir adama xəsarət toxundurmamış, hətta bir dəfə də olsun küçə hərəkəti qaydasını pozmamışdı.

– Çoxdan almışsınız?

– Cəmi iyirmi gündür.

– Özünüz harada işləyirsiniz?

– İnşaat trestində tabelçi işləyirəm.

Müstəntiq diqqətlə onu süzdü. Gənc onun baxışlarındakı müəmmalı mənanı dərhal sezdi. Süni bir təbəssümlə dedi:



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Bilirəm, nə fikirləşirsiniz. Fikirləşirsiniz ki, tabelçinin maaşı nə qədərdi ki, onunla maşın da ala bilsin?

Şükürov hiss edirdi ki, qarşısında oturan heç də tez-tez rast gəldiyi sadəlövh, hərcayi cavanlardan deyil, sözdən söz çəkməyi bacaran bu adam, doğrudan da, onun fikrini oxuya bilmişdi.

– Tutaq ki, nə fikirləşdiyimi doğru başa düşmüşsünüz. Bəs həqiqətdə necədir?

Gənc elə bil, əvvəl-axır ona belə bir sual veriləcəyini bilirmiş kimi, prokurorluğa hazır cavabla gəlmişdi:

– Yarısını öz əməyimlə qazanmışam. Qalanını isə dostlarımdan biri mənə borc verib.

– Nə qədər borc eləmişsiniz?

– Üç min.

"Üç min, üç min..." – Bu sözlər əks-səda ilə müstəntiqin qulaqlarında təkrar olundu.

– Südabə Cəfərovadan aldığınızı deyirsiniz? – soruşdu. Gənc oturduğu yerdə sarsıldı, çünki heç ağlına gətirə bilməzdi ki, ancaq Südabə ilə onun arasında baş vermiş bu əhvalatdan üçüncü bir adamın xəbəri olsun. "Bunu ancaq Südabə özü deyə bilər", – fikirləşdi və buna görə də etiraf etməyə məcbur oldu.

– Bəli! – dedi və gözlərini döyəclədi. – Yəni borc almaq da qadağandır?

– Qətiyyən yox. Xüsusilə sevdiyin bir adamdan.

O, müstəntiqin hər şeydən xəbərdar olduğunu yəqin eləyəndən sonra onunla açıq danışmaq qərarına gəldi.

– Bəli, biz bir-birimizi sevirik.

– İnanmıram. Arada sevgi olmasaydı, hansı qız yad bir adama üç min pul verə bilərdi. Deməк, qız sizi daha çox sevir. Bəs siz heç maraqlanmadınız ki, onun üçün bu qədər pul hardandır?

– Mən bildiyimə görə atasından ona çoxlu pul qalıb.

– Barı maşınınızda onu gəzdirmişsinizmi?

– Xeyr. Maşını alandan sonra onu yalnız bir dəfə görmüşəm. İşdən çox yorğun qayıdır. Ona görə də istirahətinə mane olmaq istəmirəm.

Müstəntiq papiros çıxarıb yandırdı. Tüstünü burum-burum havaya buraxaraq, xəyalən hər şeyi özünə aydınlaşdırmağa çalışdı... Demək, oğlan pulu alandan sonra onunla görüşməyə tələsmir.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Belə çıxır ki, onu yalnız pul maraqlandırırmış. Yəqin ki, Südabənin həbs edilməsindən də xəbərsizdir. Yox, yox arada heç bir qarşılıqlı məhəbbət olmayıb. Yalnız qız sevirmiş. Çünki belə fədakarlığı ancaq sevən adamlardan gözləmək olar. Hərəkətlərində, mülahizələrində çox sayıq olan belə bir qız nə əcəb ona aldanıb? Maşın almaq üçün ondan pul istəyəndə hətta cinayətə gedib? Qız aldanıb, mütləq aldanıb. Belə adam ondan düz yolla pul ala bilməz. Bunu necə öyrənsin? Həqiqəti yalnız dolaşıq suallarla aşkara çıxarmağa cəhd etdi:

– Südabə isə başqa cür deyir. Onun dediyinə görə siz pulu ondan başqa bəhanə ilə almışsınız.

Müstəntiqin iti baxışları altında gənc özünü itirdi. Özünə qəti yəqin etdi ki, Südabə prokurorluğa şikayətə gəlib və hər şeyi yerli-yerində xəbər verib.

– Mənə pul təcili lazımdı, çünki maşın növbəm çatmışdı.

– Deməli, Südabənin sözləri doğrudur. İndi özünüz deyin görüm, pulu ondan nə bəhanə ilə aldınız?

– Südabə necə deyibsə, eləcə də almışam. Ona dedim ki, işlədiyim idarədə ayağıma üç min manat pul qalıb. Əgər onu, üç günə düzəldib yerinə qoymasam, məni həbsə alacaqlar... Ancaq mən pulu ona qaytaracağam. Özünə də demişəm. Sizə də söz verirəm ki, bir aya qaytararam.

– Bəs bu həqiqəti Südabənin özünə necə dediniz?

– Elə belə də dedim. Dedim ki, idarəyə borcum ləğv olundu. Pula isə maşın almışam.

– O nə dedi?

– Heç bir söz.

– Sonra da onunla daha görüşmədiniz?

Gənc dinmədi. Müstəntiq Südabənin gətirildiyini və qapı arxasında gözlədiyini bilirdi. Zəngin düyməsini basdı və işarə ilə başa saldı ki, dustağı içəri gətirsinlər. Gəncin gözləri təəccüblə qapıya dikildi. Kiminsə çağırıldığını başa düşsə də, gözləməzdi ki, çağırılan Südabə ola bilər. Qız içəri girib, adəti üzrə başını qaldırmadan, astanada durdu. Müstəntiq onu oturmaq üçün çağıranda başını qaldırdı və müstəntiqin yanında oturan adamın Firudin olduğunu indicə gördü. Hövlnak geri qayıtmaq istədi. Onunla birlikdə içəri girmiş milis nəfəri astanada qabağını kəsdi. Südabə qapının yanında başını



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

divara dayayaraq hönkürtü ilə ağladı. Müstəntiq onun sakit olmayacağını görüb, milis nəfərinə tapşırdı ki, çıxıb, bayırda gözləsinlər.

Onlar çıxandan sonra otağa ağır, üzüntülü bir sükut çökdü. Firudin hələ də özünə gəlməmişdi. Udqunub, heyrətlə soruşdu:

– Onu həbs eləyiblər?

Müstəntiq dinmədən, başı ilə onun sözünü təsdiq etdi.

– Nə üçün axı?

– Sənə verdiyi üç minin üstündə. Onu kassadan oğurlayıb.

Müstəntiqin sözləri Firudinin qulaqlarında dəhşətli bir gurultuya çevrildi. Sözlər elə bil iri qaya parçaları tək dağla üzüaşağı yuvarlanır, harasa, dibsiz bir dərəyə tökülür və orada qulaqbatırıcı, vahiməli bir fəğan qoparırdı. Sonra bu dəhşətli gurultu birdən kəsildi. Otaqda hava çatmadı. Firudin köynəyinin yaxasını dartışdırıb açdı. Müstəntiqin səsini eşitdi:

– Siz elə bilirsiniz ki, o sizdən xəcalət çəkdi? Qətiyyən yox. O öz aldanmış məhəbbətindən utandı. Çünki onun xatirinə cinayət törədib.

Yox, Firudin daha heç bir şey eşitmirdi. Müstəntiqin tərpənən dodaqlarını görsə də, onun ağzından çıxan sözlər, sanki, havada buxarlanaraq, gəncə çatmırdı. Ürəyi də, sanki, sinəsindən qopub tıxac kimi boğazına dirənmişdi. Əgər bu anda qalxıb otaqdan çıxmasa boğulacaqdı. Ancaq çıxa bilməzdi. Yadına düşdü ki, buraya öz xoşu ilə gəlməyib, onu istintaqa çağırıblar. Budur, buraxılış vərəqi də əlindədir. Ovcunun içərisində tərdən büzüşüb, əskiyə dönüb. Barmaqlarının qatını açıb onu imza üçün müstəntiqə uzatmaq nə qədər çətinmiş. Daha dəhşətlisi o idi ki, qapıdan çıxarkən, dəhlizdə təzədən Südabə ilə rastlaşacaqdı. Bundansa, burada, bu hava çatışmamazlığı içərisində boğulmağa hazırdı. Təki onunla üzbəüz gəlməsin...

Müstəntiq sözünü qurtarıb, susmuşdu. Bu dəqiqədə o, ancaq, öz xəyalları ilə məşğuldu: yalan və təhqir. İdarə rəisinin insan hisslərinə laqeydliklə təşkil etdiyi təhqirli oyun, ya da gənc oğlanın öz xudbinliyi üzündən qurşandığı yalan onun xəyalında iki yalquzağa dönmüşdü. Geniş yolda gözlənilmədən qarşıya çıxan iki yırtıcı. Onlar qızı cinayətə itələmişdilər. Özləri isə yad adamlar kimi kənarda durub baxırdılar. Tənbehsiz, cəzasız... Nə üçün, nə üçün axı, tənbehsiz?..

Ayaqlarında birdən-birə başlayan ağrı onu bu fikirlərdən ayırdı. Əli ilə göynəyən dizini ovxaladı: "yox, deyəsən doğrudan da



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

vaxtından qabaq qocalmışam", – deyə öz-özünə pıçıldadı. Xəyalında səf-səf durmuş uca sərvlər canlandı. Birdən yadına düşdü ki, dustağı onun yanına gətiriblər, dəhlizdə gözləyir. O zəngin düyməsini basmaq istədikdə, Firudin əlləri əsə-əsə buraxılış vərəqini imzalamaq üçün ona tərəf uzatdı...

## KÖŞK-BALABAN

Əmməmin dərdini yaylağın səfası da dağıda bilmədi. Güman eləyirdim ki, elat Şivərin döşünə qalxıb, alaçıqlar quranda onun da könlü açılar, üzü gülər. Ancaq di gəl, tamam əksinə oldu. Yazıq əmməmin yuxusu lap ərşə çəkildi. Sübhədək çimir eləmədi. Gecəyarısı nə vaxt oyanırdımsa onu yatağında dirsəklənərək gözlərini eşiyə zilləmiş görürdüm. Bir dəfə ondan soruşdum:

– Əmmə, niyə yatmırsan?

– Heç. Yuxum yoxdur, sən yat, – dedi.

Əmməmin bu halı məni çox düşündürdü. Düzünü deyim ki, ağlıma cürbəcür fikirlər də gəlirdi: "Bəlkə yad bir kişini gözləyir? Yox, yox, ola bilməz. Bəs niyə yatmır? Adam da bu qədər yuxusuz qalarmı?" Bir dəfə əmməm yerinə uzananda balışının altında balta gizlətdiyini gördüm. "Demək, əmməm qorxur, ona görə də gecələri oyaq qalır, – fikirləşdim, – axı bizim elatda oğurluq olmayıb. Burada hamı bir-birini tanıyır. Əmməmi vahiməyə salan nədir, bəs?" Yalnız bir neçə gündən sonra inandım ki, əmməmin narahatçılığı boş yerə deyilmiş. Gecənin bir yarısı əmməmin səsinə oyandım.

– Səfi, Səfi, dur, gör it niyə hürür?

Mən tez qalxıb eşiyə qaçdım. Uzaqda gözümə bir kölgə dəydi. Ay işığında gah uzanır, gah qısalırdı. Sonra alaçıqların arasında yoxa çıxdı. İçəri qayıdanda əmməmi yarpaq kimi əsən gördüm. Baltanı da möhkəm-möhkəm əlində tutmuşdu.

– Kim idi? – soruşdu.

– Bilmirəm, – dedim.

Sübhədək nə o yatdı, nə də mən. Ertəsi gün alaqaranlıqda əmməm məni yuxudan oyatdı:

– Dur, alaçığı yığışdıraq.

– Niyə, əmmə? – maraqlandım.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Arana qayıdırıq.

Nə deyə bilərdim? Alaçığı səssiz-səmirsiz yığışdırdıq. Ulağa yüklədik. Gün çırtlayanda yola düşdük. Qaradağın ən səfalı yaylaqları sayılan Şivər və Yaylıca yenicə yuxudan oyanırdı. Biz isə üzüaşağı qıvrılan gədikləri burula-burula arana, təndir kimi şölə çəkən Araz qırağına enirdik. Bu vaxt arana qayıtmağa heç kəs sevinməzdi. Ancaq nə eləyəydim, əmməmə yazığım gəlirdi. Fikirlərim isə məni rahat qoymurdu: "Kimdir əmməmin dalınca belə qarabaqara gəzən? Elatın hansı kişisidir?"

Mənim əmməm kəndimizin birinci gözəli idi. Hamı onun həsrətini çəkərdi. Qızlığında çox igid onun üstündə qanlı düşmüşdü. Danışırdılar ki, bir dəfə onu qaçırtmaq da istəmişlər, ancaq əmilərim qırğı kimi gədiyin başını almış və onu geri qaytarmışlar. Ondan sonra daha heç kəs cürət eləyib bizim qapıya yaxın düşməmişdi. Sonra, hələ xan nənəmin sağlığında, əmməmi Sərxan adlı bir cavana ərə verdilər. Çox boy-buxunlu idi. Xan nənəm rahat nəfəs aldı: "*Allaha şükür ki, indi qabağında bir başı börklüsü var*". Evlənəndən bir neçə ay sonra Sərxanın kənddə qərarı tutmadı. Bir neçə başqa cavana qoşulub, dumanlı bir gecədə gözətçilərdən yayınaraq Arazın o tayına keçdi. Aradan bir müddət ötəndən sonra ondan kağız gəldi. Yazırdı ki, Bakıda Mantaşovların neft mədənlərində işləyir, üzümüzə gələn baharda gəlib əmməmi də aparacaq.

O vaxtdan əmməm onun yolunu gözləyirdi. İki bahar ötüb keçmişdi. Sərxandan səs-soraq yox idi. Ancaq arada bir dəfə xəbər göndərmişdi ki, işləri dolaşıqdır, ləngiyir. Bunun üstündən bir il də keçdi. Xan nənəm bu ayrılığa davam gətirmədi. İki ay yorğan-döşəkdə yatdı. Yaxşı yadımdadır, nəfəsi boğazından çıxanadək gözləri qapıda idi. Atam və anam heç yadıma gəlmir. Körpə ikən onları itirmişdim. Xan nənəm idi mənim yeganə pənahım. O da getdi bir yuxu kimi. İndi tək qalmışdım. Nənəmi basdırandan sonra əmməm tamam yığışıb, köçdü bizə. Çardağımızda xana qurdu, gecə-gündüz onun qabağından qalxmadı. Oradan onun həmişə xoş zümzüməsini eşidərdim: "Vur, qadan alım, ilmə üstə ilməni, gəl, qadan alım, ilmə üstə ilməni".

Bu il də yaylaqdan qayıdan kimi keçdi xananın dalına. Çardaqdan gecəli-gündüzlü xananın cıqqıltısı kəsilmədi. Heç bir şey onu işindən ayıra bilmirdi. Kənddə çərçilər görünəndə də o, yerindən tərpənmirdi. Qabaqlar çərçilərin qabağına hamıdan əvvəl o çıxardı.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Ayından-oyundan nə vardısa, seçib yaxşısını götürərdi. Saqqızın da, nabatın da siftəsini o elərdi. İndi isə...

Ayyarımdan sonra elat da yaylaqdan qayıtdı. Yüklü ulaqlar gədiyin başında görünəndə ürəyim atlandı. Yamanca darıxmışdım kəndin uşaqları üçün. Həyət-bacalardan tüstü baş qaldırıb dirəndi göyə. Qapılarda, damlarda uşaqların səsi qarışdı bir-birinə. Qoyun-quzu mələşdi. Çağalar qığıldadı, arvadlar qıy vurdu. Əlimdən alınan ömrüm elə bil təzədən qayıtdı öz yerinə. Bizim kənd Məmmədxanlılar elatının Araza ən yaxın kəndi idi. Buna görə də günümüz orada – çayın sahilində keçərdi. Atılardıq o daşdan bu daşa, bu daşdan o daşa. Yorulmazdıq. Araz nərə çəkər, biz çığırışardıq. Çılpaq qayaların arasından boğula-boğula keçən Araz vəhşi heyvan kimi nərildədiyindən gecələr də yata bilməzdik. Leysan başlayanda, su narıncı dağların sinəsini yalayıb, torpağı üzüaşağı, çayın içinə axıdardı. Suların qabağını zəhmli qayalar kəsərdi. Bundan Araz elə qəzəblənib köpüklənərdi ki, elə bil yarğanlarda yüzlərcə ac canavar ağız-ağıza verib ulaşır. Səs dağlara dəyib, əks-səda verərdi. Bəzən isə boz buludlar şiş zirvələrdən tamam aşağı enərdi, suyun üzünü örtərdi. Hündür qayalar görünməz olardı. Sular da, qayalar da, daşlar da tamam bozarardı. Biri-birimizi ancaq əl havasına axtarıb tapardıq. Araz kədərli olardı, qəmli olardı belə dəqiqələrdə, elə bil sakitləşərdi...

Payızın son nəfəsində dağlara və gədiklərə bir məhzunluq çökdü. Durnaların səsi də göylərdən çəkilməyə başladı. Biz onları görmür, ancaq gecələr səslərini eşidirdik. Çünki kəndin üstündən zülmətdə ötüb keçirdilər. Bir gün əmməmdən soruşdum:

– Əmməcan, durnalar niyə gecə uçur?

Əmməm əvvəlcə dinmədi. Sonra dərindən ah çəkdi:

– Durnalar gündüzlər də uçur. Bizim dönərgəmiz dönüb. Ona görə buradan gecə ötür...

Bunu deyib, əlindəki çaydanı dəm almaq üçün ərsinin üstünə qoydu. Ocaqda səngiməyə başlayan odu üflədi. Kömür közərdi və mən onun işığında əmməmin yaşarmış gözlərini gördüm.

O ilin qışı da sərt keçdi. Dağların başından qar hələm-hələm əskilmirdi. Ancaq hər şeyin sonu olan kimi, qışın da vaxt-vədəsi başa çatdı. Zirvələrdə torpaq zolaqları göründü.

Bahar yaxınlaşırdı. Axırıncı çərşənbədə kəndin uşaqları ilə birlikdə dağın güney döşünə səpələnib, çoxlu novruzgülü və qarçiçəyi



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

topladım, dəstə tutub, əmməmə gətirdim. O, dəstəni alıb iri, qüssəli gözlərini yerə zillədi və yavaşcadan pıçıldadı:

– Novruzgülü də çıxdı, o isə...

Kövrəldi, sözünün gerisini yetirə bilmədi.

Axşamı bütün həyətlərdə üskülər tüstüləndi, tonqallar qalandı. Adət idi, bu zaman əli-ayağı xınalı qızlar, cavan gəlinlər odun üstündən hoppanıb oxuyardılar...

Atıl-matıl çərşənbə,
Baxtım açıl, çərşənbə!

Bu çərşənbə üskülləri də, Novruz şənliyi də əmməmin könlünü açmadı, gözlərinin dumanı çəkilmədi. Ürəyinin dərdini elə bil ilmə-ilmə tökürdü toxuduğu xalıya. Bir dəfə, bayramdan bir neçə gün keçmiş, qalxdım çardağa, onun yanına.

– Əmmə, sənə nə olub, niyə beləsən axı? – soruşdum.

O cavab vermək əvəzinə məni bağrına basdı, gözlərimdən öpdü. Onun bu sözləri pıçıldadığını eşitdim: "Aman Allah, gözləri necə də Sərxanın gözlərinə oxşayır". Onun kövrəldiyini hiss etdim. Başımın altında qabarıq, ılıq sinəsi qalxıb endi.

– Əmməcan, sən yenə qorxursan?

Bilmirəm, sözümmü xətrinə dəydi, ya da nədənsə, qəzəblə sıçrayıb ayağa qalxdı. Yaşı qurumuş gözlərində qığılcım parıldadı:

– Ondanmı qorxacağam? – ağzından qaçırtdı. – Elələri ancaq meyitimin üstündən keçə bilərlər.

– Kimdir o?

Əmməm tutuldu. Başa düşdüm ki, dediyinə peşman olub. Sonra birdən kəskin bir hərəkətlə mənə tərəf qanrıldı:

– Uşaqlarnan köşk-balaban qura bilərsən?

– Bilərəm, əlbəttə.

– Köşk-balaban qurun, tez-tez Arazın o tayına baxın. Bəlkə Sərxan bu günlərdə qayıtdı. Elə Xudafərini də bəlkə görə bildiniz.

Başa düşmədim ki, o, Sərxanın bu günlərdə qayıdacağını haradan bilir, çünki nə onun yanından gələn olmuşdu, nə də kağız göndərmişdi.

Ertəsi gündən Arazın qırağında köşk-balaban qurduq. Bu qədim bir oyun idi. Yeddi-səkkiz adam öz yoldaşlarının çiyinlərinə qalxıb, bir-birinin qolundan tutur, dövrə vurur və oxuyurdular:

Köşk-balaban Araza baxar,
Arazın suyu gözlərdən axar.

Biz də elə etdik. Canlı uşaqlardan bir neçəsi aşağıda durdu, bala-calar, o cümlədən də mən onların çiyinlərinə qalxdıq. Qol-qola girib oxumağa başladıq:

Köşk-balaban Araza baxar,
Arazın suyu gözlərdən axar.

Mən gözlərimi Arazın o tayından çəkmirdim. Bozaraq dağların arasında, çınqıllı cığırlarda Sərxanı axtarırdım. Oxuduğumuz sözlər-dən özümüz də kədərlənirdik. Nə qəmli oyunmuş bu! Bu vaxtadək sanki kədərin nə olduğunu bilmirmişik. Köşk-balaban qurandan son-ra hər şey gözümüzdə dəyişdi. Mənə elə gəldi ki, Arazın o tayında qalan təkcə Sərxan deyil, xatirimdə qalan bütün əziz adamlarımızdır. Öz-özümə təəccüb edirdim. Mənə nə olmuşdur? Nə üçün ürəyim belə çırpınır? Bu köşk-balabanda nə hikmət varmış! İztirab ürəyimi üzməyə başlamışdı. Əvvəllər heç xəyalıma da gəlməzdi ki, Arazın o tayında gördüyüm adi dağlar, ensiz cığırlar, qamışlıq sahillər qəl-bimdə hikməti bilinməyən bu cür acı və həm də şirin hisslər doğura bilər. Əmməmi indi-indi başa düşməyə başlamışdım. Demə, dərdi böyükmüş əmməmin! İndi bu tayda qanad çalan bir quş kimi başım üstündəki səmanın o tayı üçün də qəribsəyirdim. Bu lətif və meyxoş hisslər məni kəndimizin torpağından, səmasından ayırıb, o tərəfə çəkir və oralarda nəyə isə qovuşmaq həsrəti ilə vurnuxdururdu. O tayda Xudafərini görməyə çalışırdım. Ancaq görünmürdü. Əmməm ümidini o körpüyə bağlamışdı. Mən ona deyəndə ki, köşk-balabandan Xudafərin görünmür, əmməm daha da qüssələndi. Ala gözləri payız səması tək tutuldu. Günlər isə ötür, oyunumuz davam edirdi.

Bəzən uşaqlar oynamaqdan yorulub, evlərinə dağılışanda mən saatlarla oturub Arazın dərdli mahnısına qulaq asardım. Onun sula-rında təkcə əmməmin deyil, bütün kənd qızlarının göz yaşlarını görərdim.

Bir dəfə Sərxan yuxuma girdi. Gördüm ki, o at belində çapır. Dalınca da beş-altı nəfər düşüb, onu tutmaq istəyir. Atlılardan biri tüfəngini çəkib Sərxanı nişan alanda mən bərkdən çığırdım və öz



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

səsimə yuxudan ayıldım. Yuxumu əmməmə danışmaq istədim, ancaq qorxdum ki, o bundan daha da kövrələr, dərdi təzələnər. Demədim. Ancaq kaş deyəydim, çünki iki-üç gündən sonra Sərxandan kağız gəldi, desəydim, indi ondan muştuluq alardım. Sərxan gələn adama tapşırmışdı ki, kağızı məbada molla Əkbərə oxutdura. Əmməm də deyirdi ki, əgər Sərxan məsləhət bilibsə ki, onu molla Əkbər oxumasın, onda kənddə başqa adama da oxutdurmaq lazım deyil. Məni tez qonşu kənddə yaşayan Miriş xalaoğlunun dalınca göndərdi. Miriş gəldi və kağızı oxudu. Sərxanın başında bəla varmış. Atlı kazakla vuruşma üstündə onu damlayıblarmış. İndi damdan çıxıb işləyir. Özünə mənzil də kirələyib. Tezliklə əmməmin dalınca gələcək. Miriş kağızı oxuyub qurtarandan sonra da əmməm göz yaşını saxlaya bilmədi. İçini çəkib dedi:

– Deyirəm axı başında bəla olmasaydı, məni yaddan çıxarmazdı.

Bir müddət əmməmin üzü güldü, cyni açıldı. Ancaq bu da uzun sürmədi. Əvvəlki qəmli fikirləri yenə ona həmdəm oldu. Bir gün çayın qırağında oturub, suya baxırdım. Çiynimə bir əl toxundu. Qanırılıb əmməmi görəndə təəccüb elədim:

– Əmmə, səndən nə əcəb, buraya gəlmisən?

O dinmədi. Həsrətli nəzərlərlə çayın o tərəfini süzdü:

– Evdə darıxdım, – dedi və başı ilə çayın ortasındakı daşları göstərib sözünə davam etdi: – Bu daşların üstü ilə çayın o tayına addamaq olar?

Sual mənə qəribə göründü: "Bu onun nəyinə lazımdır?"

– Əlbəttə, keçmək olar. Ancaq ortada iki qaya bir-birindən çox aralıdır. Gərək hoppanasan.

– Sən hoppana bilərsən?

– Hoppanaram, – deyə inamla səsləndim.

– Mən də hoppana bilərəm?

– Bilmirəm. Niyə soruşursan?

– Heç, elə-belə. – O, zorla gülümsədi. – Güman eləyirsən ki, mən o taya addamaq istəyirəm? Səfeh, keşikçilər heç buraxarlar?

– Keşikçiləri aldatmağa nə var ki? İstəyirsən bu saat o taya addayım?

– Yox, yox, lazım deyil. Keşikçilər vurarlar.

Bunu deyib, qoltuğundakı paltarlardan bir neçəsini suda isladaraq bağlamaya bükdü. Başa düşdüm ki, paltar yumaq buraya gəlmək



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

üçün bir bəhanə imiş. Çünki əmməm heç zaman çay qırağında paltar yumazdı.

Günlər isə öz işində idi: bir-birini qovalaya-qovalaya ötüb keçirdilər. Sərxandan hələ də xəbər yox idi. Əmməm şam kimi gözümün qabağında əriyirdi. Sərxandan ötrümü darıxırdı, ya da yaylaqda gördüyüm kölgəmi onu təqib edirdi, deyə bilmərəm. Ürəyini heç kəsə açmırdı, şam kimi öz alovuna yanırdı. Adam da ağac kimi ayaq üstə quruyarmış! Çox zaman mənə elə gəlirdi ki, əmməm bu kəndə tamam başqa yerdən gəlmişdir, ya da göydən düşmüş bir məxluqdur. Buradakılara heç oxşarı yoxdu. Axı nə üçün o dərd çəkməyi bacarmır? Bizim kənddə dərdi olmayan adam tapılmazdı. Ancaq görürdüm ki, lap dərdlilər də yeri düşəndə gülür, danışır, ulaqla çırpı da daşıyır, Araz qırağında xalça-palaz da yuyur. Qızların həyətlərdə bərkdən güldüklərini eşitdikdə, çox zaman həsəd aparardım. Nə üçün mənim əmməm belə ürəkdən gülmür, şənlənmir? Yoxsa, onun dərdi daha böyükdür? Axı, nə dərd idi bu dərd?

Bir gün hələ sübhün gözü açılmamış kəndin ortasında qaraqışqırıq qopdu. Evlərdən, həyətlərdən hamı tökülüşüb ora qaçışdı. Mən də özümü yetirəndə meydan adamla dolmuşdu. Kişili-arvadlı nəyi isə araya alıb, baxırdılar. Özümü birtəhər qabağa verdim. Ortada bir nəfər üzüüstə yerə sərilmişdi. Tamam al-qana bulaşmışdı. Qaradəstək balta hələ də kürəyinə sancılıb qalmışdı. Üz-gözü qana bulaşsa da, mən onu dərhal tanıdım. Kəndin mübaşiri idi. Diriliyində kənd əhlini boğazına yığmışdı. Naxırçı Əhməd bərkdən deyirdi:

– Onu axşamdan öldürüblər, görmürsünüz qan necə laxtalanıb?

Toplaşanlardan başqa birisi də onun sözlərini təsdiq etdi:

– Düz deyir, çoxdan vurulub.

Hərə bir söz deyirdi. Molla Əkbər adamları aralayıb qabağa çıxdı. Diqqətlə cəsədə baxandan sonra üzünü camaata tərəf tutub hündürdən dedi:

– Camaat baltadan bilmək olar, onu kim vurub. Diqqətlə baxın. Görün kimin baltasıdır?

Molla Əkbərin sözlərindən sonra hamının gözləri qara dəstək baltaya zilləndi. Diqqətlə baxanda gözlərimə inanmadım. Tüklərim biz-biz oldu. Əmməmin baltası idi! Qayıdıb xəlvəti evə sarı yüyürdüm. Qapımızda da qan izləri gördüm. Hər şey mənim üçün aydınlaşdı: mübaşiri əmməm öldürmüşdü. Deməli, neçə ildən bəri onu təqib



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

edən mübaşirmiş, yaylaqda gördüyüm də onun kölgəsi imiş. O, burada yaralansa da özünü meydana yarımcan çatdıra bilmişdi. Torpaqla qan izlərini örtüb çardağa qalxdım. Əmməm yox idi. Tövlədə də, samanlıqda da onu tapa bilmədim. Birdən çay qırağındakı söhbətimizi xatırladım. Çığıra-çığıra çaya tərəf qaçdım. Araz həmin Araz idi: sularını bura-bura yosunlu qayalara çırpıb fəğan edirdi. "Araz, hanı mənim əmməm?" – qışqırdım. Gözümü sularda gəzdirdim, dilsiz qayalardan cavab gözlədim ki, bəlkə bircə dəfə dilə gəlib söyləyələr: görməmişik. Qayalar lal, Araz sağır! Göz yaşları üstümü islatdı. Bir mən idim, bir Araz. Kimsəsiz qalmışdım bu tayda. Bir əmməm vardı, onu da tale əlimdən aldı. İndi hər şey mənə qərib görünürdü. Elə bil elimdən-obamdan ayrı düşmüş bir tifil idim. Köşk-balaban, köşk-balaban, sən əmməmin də dərdini mənə verdin...

Bir gün Arazın o tayından kağız gəldi. Onu qoğal Turab gətirmişdi. Çox mülayim bir kişi idi. Sifəti qoğal kimi gipgirdə olduğu üçün kənddə adını belə çağırırdılar. Ulağa minib xalaoğlu Mirişin yanına getdim. Kağız əmməmdən idi. Bütün gecəni kağızı sinəmə basıb ağladım və eləcə yuxuya getdim.

Çox keçmədi ki, çayın o tayından qulağımıza təzə-təzə xəbərlər çatdı. Kənddə danışırdılar ki, o tayda Nikolay padşahı yıxıblar. Hökumət fəhlələrin, yoxsulların əlinə keçib. "Yəqin Sərxan da onlardan biridir, özü də sağ-salamatdır", fikirləşdim və sevindim ki, əmməm də axır ki, onunla birlikdə ağ bir gün gördü.

İndi daha köşk-balaban qurmuruq. Hamımız böyümüşük. Uşaqlığımızdan ancaq kədərli bir xatirə qalmışdır. Köşk-balabanın sözlərini xatırlayıb içəridən sızlayıram. Yanıram, tüstüm çıxmır. Nisgilli könlümün gözləri isə o taydan ayrılmır. Eh, köşk-balaban, köşk-balaban.

Köşk-balaban Araza baxar,
Arazın suyu gözlərdən axar...



Created with
nitro PDF professional
download the free trial online at nitropdf.com/professional

## KÖÇƏRİ BULUDLAR

Çox gec idi və o, heç kəsi oyatmamaq üçün yavaşca qapını aralayıb, öz otağına keçdi. Bugünkü kimi yorulduğu olmamışdı. Sübhün gözü açılandan pay-piyada sahələri gəzmişdi. Rəngi solmuş brezent çəkmələrinin içində bişmiş barmaqları gizildəyirdi. Bunun dərdindən ayaqqabılarını da çıxarmaq istəmirdi, bilirdi ki, bərk ağrı verəcəkdir. Onları ayaqlarından, adətən, rahatlıqla çəkib çıxardan təkcə ortancıl oğlu idi ki, o da indi yatırdı. Onu oyatmaq istəmədi, özü ayaqlarını birtəhər çarpayının şaquli nikel çubuqları arasına keçirib çıxardı. Yatağına girdi. Ayaqlarını uzadanda elə bil dünyaya təzədən gəldi. Adyalı təri hələ də soyumamış sinəsinə çəkərək, gözlərini yumdu. Açıq pəncərədən içəri soxulan sərin külək onun tərli daz başına vururdu. Qolunu uzadıb, pəncərəni örtmək istədi, ancaq şiddətlənən külək pəncərənin qalın pərdəsini havalandırıb divara elə çırpdı ki, az qala bəndlərindən qırılıb uçacaqdı. Qalxmağa məcbur oldu. Pəncərəni örtdü və xeyli müddət durub, qaranlıq gecəyə, ağacların üstündən görünən səmaya baxdı. Kirəcli təpələrin arxasında tez-tez şimşək çaxırdı. Axşamdan hərəkətsiz dayanan qara buludlar indi lopa-lopa aşağı tökülür, qaynaşır, bir-birinə sarılırdı. Belə küləyin öz dalınca yağış gətirəcəyini o çox gözəl bilirdi. Bəs nə üçün axşamdan bəri özünə və briqadirlərə təkidlə aşılayırdı ki, belə buludlardan heç zaman yağış gözlənmir, köçəri buludlardır, sovuşub keçəcəklər? Başqa cür də edə bilməzdi. Sabah onlarca maşının ilk yığıma başlayacağı bir zamanda adamları yağışın tökəcəyi ilə ruhdan salaydımı? Tökəcəksə, qoy töksün, daha əvvəlcədən onun vahiməsinə züy tutmağın mənası nə idi?! Bununla belə özündən də gizlətməyə çalışdığı bir xof, bir vahimə onun ürəyinə yol tapır, bədəninə titrətmə yayırdı. “Yox, yağmayacaq! – deyə o öz-özünə söyləndi, – göyün belə dolub seyrəlməsini çox görmüşük, damcı atdığı da olub, ancaq yağmayıb!” O, bu qətiyyətlə yerinə uzanıb təzədən gözlərini yumdu. Bir anlığa hər şeyi unutmağa, özünü gündüzün qayğılarından uzaqlaşdıraraq xəyalında yaratdığı sakit və dinc bir bucağa çəkilib xumarlanmağa çalışdı, ancaq mümkün olmadı. O dəqiqə gündüzkü əhvalatlar yer-yerdən üstünə hücum çəkdi. Əvvəlcə rayon partiya komitəsi katibinin dediyi sözlər təzədən qulağında səsləndi: “Nuruş dayı, saqqalını qırxdırsana,



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

iş öz yerində, təmizlik də lazımdır". Yadına düşdü ki, üzünü axırıncı dəfə üç gün qabaq qırxdırmışdır. Katibin sözlərinə o ancaq indi qımışdı: "Rəhmətliyin oğlu, katibsən, məndən pambığını istə, daha saqqalımda nə işin var?!" Ancaq o biri tərəfdən katibə də haqq verirdi: "O kişi bilən yaxşıdır, bir şey olmasa, mənim saqqalımın dərdinə niyə qalır?" Sonra da katibin verdiyi vədləri xatırladı. Kolxozda lafet sarıdan bərk korluq çəkirdilər. Bu barədə katibə deyəndə, o, on lafet göndərəcəyini vəd etdi. Nuru o saat rayon mərkəzinə lafetlərin dalınca adam göndərdi. Ancaq onlardan indiyədək heç bir xəbər yox idi. Narahat idi ki, katib fikrini dəyişər, başqa bir kolxoz sədrinin təkidi, ya da, xahişi ilə lafetlər onun əlindən çıxar. "Belədirsə, bizim uşaqlar əliboş da olsalar, çoxdan qayıtmışdılar!" deyə özünə təsəlli verdi. Pəncərənin örtülü olması onu darıxdırırdı. Bayırdan, yağışdan xəbəri olmayacaqdı. Qalxıb pəncərəni azca araladı. Elə bu vaxt orta qapının arxasından arvadı Sənəmin yuxulu səsi gəldi:

– Nuruş, yatmamısan ki?

– Yox, nə var ki?

– Səndən yarım saat qabaq Zəri gəlmişdi, o təzə mexanizator qız...

Nuru Zərinin adını eşidən kimi dik qalxıb yatağında oturdu. Bir mövsümdə maşınla 200 ton pambıq toplamağı söz vermiş bir adam gecə vaxtı boş yerə sədrin qapısını döyməz.

– Nə üçün gəlmişdi, nə dedi?

– Nə bilim, dedi ki, maşının harası isə xarab olub, sənə xəbər verim.

– Necə yəni xarab olub? Onun maşını ki, axşamdan saz idi.

– Mən daha nə bilim. Mənə dediyi belə idi.

Nuru yatağından düşüb otağın içərisində vurnuxmağa başladı:

– Başa düşmürəm, onun maşınına birdən-birə nə ola bilər? Sənəm, bəlkə sən dolaşıq salmısan, başqası imiş?

Ərinin onu belə sorğu-suala tutmasından xoşlanmayan Sənəm:

– Eh, sən də, – dedi, – Zərini tanımıram, nədir...

Hövsələdən çıxmış Nuru daha evdə qərar tuta bilmədi. Çəkmələri hirslə təzədən ayaqlarına çəkdi, barmaqlarının göynətməsinə baxmayaraq, iti addımlarla eyvana çıxdı. Həyətdə göz-gözü görmürdü. Sağda, tut ağacının altındakı hində toyuqlar qaqqıldaşırdılar. Sərasər tənəklə örtülmüş talvarın altında o, əl fənərini yandırıb



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

qapıya tərəf irəlilədi. Ayağı boş bir vedrəyə toxunub, büdrədi. Səsə talvardan bir xoruz qaqqıltı ilə Nurunun çiyninə atıldı, özünü saxlaya bilməyib, hovuza düşdü. Bu sədri daha da özündən çıxardı:

– Min dəfə demişəm ki, quşu ertə hinə salın, ağacda yatmasın.

Qapını çırpıb həyətdən çıxdı. Zərini evdə tapmadı. Qapını açan qarı Nurunu səsindən tanıdı:

– Nuru qardaş, Zəri gecəni heç evə gəlməyib, sahədə maşınla əlləşir. Mən də nigaranam.

– Yaxşı, nigaran qalma, ay arvad, bu saat gedib göndərərəm.

Yolboyu fikir onu götürdü: "Qızın maşını, yəqin ki, xarab olub, bu vaxtadək evə gəlməməsindən görünür ki, o sabah yığına çıxa bilməyəcək". Bu fikri özündən uzaqlaşdırmağa çalışdı. "Yox, ola bilməz", deyə dönə-dönə təkrar etdi. Yağış təhlükəsi də bu tərəfdən. Gözləri istər-istəməz qaranlıq göyə sancılırdı. Orada heç bir şey görünməsə də buludların rütubətini hiss edirdi. Nə olursa-olsun, bircə leysan tökməsin. Keçən il üç-dörd gün dalbadal tökmüş leysan onun gözünü yamanca qorxutmuşdu. Ara verəndən sonra maşınlar üç gün sahəyə çıxa bilməmişdilər.

Zərinin sahəsinə yaxınlaşanda gözünə işıq dəydi. Bir azdan pambıqyığan maşının iri, nəhəng gövdəsi də seçildi. Addım səslərinə Zəri çığırdı:

– Ehey, kimdir gələn?

Nuru qızın belə təlaşlı səsindən onun sahədə tək olduğunu başa düşdü. Anası nigaran qalmağa haqlı imiş!

– Mənəm, Nurudur.

Zəri rahat nəfəs aldı:

– Nuruş dayı, nə yaxşı gəldiniz.

– Nə olub, a qızım?

– Bunkerin ağzı yaxşı açılmır.

– Bəs axşamdan niyə deməmisən? Mexaniklər düzəldərdilər.

– Fərmanın xəbəri var. Amma, bilirsən də, o mənim maşınıma yaxın düşmür. Briqadir iki dəfə xəbər göndərib. Həmişə bir bəhanə tapır.

Nuru hirsini güclə boğdu. Əlini cod tüklü yanağında gəzdirdi:

– Yaxşı, mən ona göstərərəm...

Sözünü qurtarmamış gəldiyi yolla geri qayıtdı. Gənc mexanik Fərmangilin evləri yolun kənarında, vaxtı ilə gur bir çayxana olan



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

tikilinin böyründə idi. Burada əvvəllər gecəyarıyadək səs-küy kəsilməzdi. Kabab iyi ərşə qalxardı. Sonralar yol kəndin içərisindən götürülüb, kənardan salındığı üçün indi bu ətrafda nə bir nəfər adam nəzərə çarpırdı, nə də əvvəlki gur işıqlardan əsər qalmışdı. Nuru ayaqlarını sürütləyərək, əl fənərinin zəif işığında gedirdi. Onu da unutmuşdu ki, vaxtı ilə bu tərəfdə arxın üstündən atılmış körpü çoxdan sınıb dağılmışdı. Fərmangilə tərəf burulmaq istəyirdi ki, ayağı sürüşdü. Yaxşı ki, tez əlini atıb arxın qırağındakı söyüdün budağından yapışdı, yoxsa, tamam bulanacaqdı. Brezent çəkmələri arxın palçıqlı suyundan qat bağladı. Fərmangilin evindən işıq gəlirdi. Barıya yaxınlaşıb Fərmanı çağırdı. Səsə onun atası çıxdı. Fərmanın yatdığını söylədi.

– Oyadın, vacib sözüm var.

Bir azdan əynində ağ mayka olan Fərmanın arıq, cılız bədəni artırmada göründü. Nuru onu yaxına çağırdı. Fərman yaxınlaşıb salamlaşmağa macal tapmamışdı ki, sədr onun qulağından yapışdı.

– Nuruş dayı, siz nə edirsiniz?

O, çırpınıb Nurunun əlindən çıxmağa çalışdı. Lakin Nurunun barmaqları maqqaş kimi onun qulaqlarına ilişib qalmışdı.

– Səsini kəs, tənbəl. Buraxası deyiləm. Düş qabağıma, gedək.

– Haraya?

– O yerə ki, səni iki dəfə çağırıblar, getməmisən. Bilmirsən ki, indi hər dəqiqənin də bizim üçün qiyməti var? Əgər sabah bircə maşın da yığına çıxmasa, hamısının heyifini səndən çıxacağam.

Nurunun əlindən canını qurtara bilməyəcəyini gördükdə Fərman yalvarmağa başladı:

– Nuruş dayı, qadan alım heç olmasa, qulağımı burax, görən olar.

Nuru istehza ilə dedi:

– Mən çox istərdim ki, görsünlər, ancaq heyif hamı yatır. Yaxşı, tez ol, geyin görüm.

Kəndin axırıncı evi arxada qaldıqda Nuru çönüb mexanika baxdı. Fərman bir əli ilə qulağını ovxalayaraq, tələsik ayaqlarına keçirdiyi iri çəkmələri tappıldada-tappıldada onun dalınca addımlayırdı. Fərman uzaqdan Zərinin maşını yanından gələn işığı gördükdə orada adam olduğunu başa düşdü.

– Nuruş dayı, orada deyəsən adam var. Qoymadın bir əməlli geyinim də... gecənin bu vaxtı, maykada...



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Başqası deyil, Zəri özüdür.

Zərinin adını eşidəndə Fərmanın dili-damağı da qurudu. Geri dönüb qaçmaq istədi. Nuru biləyindən yapışdı:

– Hara? Darıxma, bu saat.

– Nuruş dayı, məni öldür, ancaq oraya getməyəcəyəm.

– Bu dəqiqə, darıxma, dedim. – Sonra Zərini səslədi: – Zəri, sən kənara çəkil. Mən bilmirdim bu belə kinlidir.

Zəri məsələnin nə yerdə olduğunu başa düşməsə də, sədrin tapşırığına əməl eləyib, qaranlıq səmtə tərəf çəkildi.

– Hə, indi get başla. Mən bir papiros çəkib qurtaranadək hazır olmalıdır.

Fərman işə başladı. Ancaq bir gözü elə Zəri çəkilən tərəfdə qalmışdı. Nuru papirosunu yandırdı.

Bir azdan yolla gələn maşının faralarından düşən gur işıq tarlaya yayıldı. Nuru özünün QAZ-69 maşınını işığından tanıdı. Demək, qayıdıblar. Maşın hələ yaxınlaşmamışdan sürücü Əhməd, Nurunun xasiyyətinə və səbirsizliyinə bələd olduğu üçün, uzaqdan qışqırdı:

– Nuruş dayı, hamısını gətirdik.

Nuru dərindən nəfəs aldı. Maşın yaxınlaşıb, pöhrəliyin yanında durdu. Üç nəfər düşüb, yaxınlaşdı. Bunlardan biri onun öz sürücüsü Əhməd idi. İki nəfər isə lafetlərin dalınca getmiş sürücülərdi.

– Bəs niyə ləngidiniz? – deyə Nuru üzünü gödəkboylu dolu sürücüyə tutdu.

– Məndə nə günah, Nuruş dayı. Deyəndə oluram pis. Neçə dəfə dedim ki, benzin çatmaz, heç qulaq asan olmadı. Yolda da bir maşın saxlamadı. Rəsulun da benzini – o, yanındakı sürücünü göstərdi, – ancaq özünə çatardı. Nə yaxşı ki, Əhmədi dalımızca göndərmişsiniz.

– Bəs lafetlər haradadır?

– İdarənin qabağında.

– Orada niyə? Gedin tez sahələrə bölüşdürün. Dördünü də buraya Zəri üçün gətirin.

Yenə gödəkboylu sürücü gileyləndi:

– Bəlkə səhərə qalsın, Nuruş dayı?!

– Yox, yox, bütün lafetlər sübhədək sahələrdə olmalıdır. Mexanizatorlar məəttəl qalmasınlar.

Söhbətin bu yerində Fərman əllərini tiftiklə silə-silə yaxınlaşdı:

– Qurtardım.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Sürücülər Fərmanı görən kimi elə bil hər şeyi unutdular və onun görkəminə baxıb bir ağızdan bərkdən gülüşdülər. Gödəkboylu sürücü isə uğunub keçinmişdi:

– Ayə, səni kim soyundurub?

Fərman tiftiyi hirslə yerə atıb, xudahafizləşmədən yeyin addımlarla uzaqlaşdı. Yola çıxan kimi qaçmağa başladı. Sürücülər hələ də onun dalınca baxıb gülürdülər.

– Hə, siz də bəsdir güldünüz, – deyə Nuru sürücülərə tərəf çöndü, – tərpənin, sübhə çox qalmayıb... Gedəndə Zərini də evlərinə qoyun.

Zəri maşının yanında vurnuxurdu.

– Hə, necədir, yaxşı düzəltdimi?

– Yaxşıdır, Nuruş dayı, indi rahat açılıb-bağlanır.

– Əlləri qızıldır, – deyə Əhməd Fərmanı təriflədi.

– Di gəl, gedir, uşaqlar səni evinizə qoyarlar. Səhər yubanma, – deyə Nuru acıqlandı.

Əhməd sürücüləri də, Zərini də maşına mindirdi. Maşın uğuldadı.

– Nuruş dayı, sonra sənin dalınca gəlimmi? – deyə pöhrəliyin dalından Əhmədin səsi eşidildi.

– Lazım deyil, sən də onlarla köməkləş, lafetləri sübhədək sahələrə çatdırın.

Maşının işıqları axırıncı dəfə tarlanı yalayaraq, yola tərəf yönəldi. Bir azdan hər tərəfə ağır sükut çökdü. Qaranlıq elə bil daha da qatılaşmışdı. Nuru çəkmələrini çıxarıb barmaqlarına azca dinclik vermək istədi. Ancaq fikirləşdi ki, çıxarsa, onları geymək daha çətin olacaqdır. Fosforlu qol saatına baxdı. Gecə ikidən ötmüşdü. Zərinin maşınından sonra o başqa maşınlardan da nigarandı. Onları yoxlamamış evə qayıtmaq istəmirdi. Ayaqları ağrısa da, barmaqları gizildəsə də, yola düzəldi.

Hər şey öz qaydasında idi. Hətta iki maşının sürücü-mexanizatoru elə sahədə, düşərgədə yatmışdılar. Bu onun çox xoşuna gəldi. Yadına düşdü ki, bu iki nəfər gənc mexanizator söz vermişdilər ki, hava aydın, ulduzlu olsa, gecə də pambıq yığacaqlar. Qayıdan baş yolunu yenə Zərinin sahəsindən saldı. Burada yaxın günlərdə tikdirdiyi düşərgə onun çox xoşuna gəlirdi. Talvarın altına keçib, skamyada oturdu və belini talvarın tən ortasına düşmüş çinarın iri gövdəsinə dayadı, ayaqlarını uzatdı. Pambıqyığan maşınlardan daha



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

arxayın idi. Yeddi maşının yeddisi də sübhün açılmasını gözləyirdi. Yeddi cəngavər oturacaqdı bu maşınlara. O, daha hansı bir işin kəsir qaldığını fikirləşirdi... Talvarın kirəmit örtüyünü nə isə tıqqıldatmağa başladı. "Bu nədir, doğrudanmı yağış başlayır? Gör damcıları necə yeyinləyir"... Yox yağış deyildi. Kiçik nəvəsi idi, dayısının onun üçün rayon univermağından aldığı təbili döyəcləyirdi, qırmızı sazanaqlı təbili.

O, birdən yaxınlıqdakı çığırtıya oyandı. Hava bozarmışdı. Cavan bir oğlan sürahinin yanında durub çığırırdı:

– Buradadır, Nuruş dayı buradadır, yatıb!

– Niyə çığırırsan, əyə? – deyə Nuru ayağa sıçrayıb guya yatmadığını bildirmək istədi.

– Nuruş dayı, hamı səni axtarır. Deyirlər ki, sədr itib.

Nuru talvardan çıxdı. Yağış tökürdü. Maşınlar isə heç bir şeyə əhəmiyyət vermədən yağışın boz pərdəsini yara-yara aramla irəliləyirdilər. O, Zərinin maşınının yanına çatanda qız baş barmağını ona göstərdi və gülümsədi: "İşlər əla gedir!" Sonra bərkdən dedi:

– Nuruş dayı, siz düz deyirmişsiniz, köçəri buludlardır. İndicə sovuşub keçəcəklər...

Nuru gülümsədi:

– Elədir, elədir, – dedi və gözləri ilə lafetləri axtardı.

Pöhrəliyin dalında dörd lafet qoyulmuşdu. Mexanik Fərman lafetlərdə nə isə düzəldir, hərdən dönüb, Zəri tərəfə baxırdı. Elə geyinmişdi ki, guya pambıq yığımına yox, toya gəlmişdi.

## FLAMİNQO

Mən dənizin xəzridən kükrəyən tüğyanlı dəmlərini çox sevirəm. Ağır sular bütün günü nehrə kimi çalxalanıb köpüklənəndə, dalğalar nərilti ilə sahillərə hücum çəkəndə dəniz daha əzəmətli olur.

Belə küləkli günlərdən birində sübh tezdən sahilə endim. Göbələyə bənzər əlvan çətirlərin həmişə günəşdə alışıb yandığı çimərlik boş və kimsəsiz idi. Üzgüçülərin hündür, kürsülü taxta qülləsində də gözümə heç kəs dəymədi. Qüllənin sivri ucu nizə kimi boz səmaya sancılıb qalmışdı. Çimərliyin böyük bir hissəsini su basmışdı. Sahil mənə yetim, məhzun göründü.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Lırt qumluqla qayalara tərəf irəlilədim. Çopur, ovuqlu qayaların arasında boğulan sular qəzəblə daşlara çırpılırdı. Üstümə sıçrayan su damcıları məni əməlli-başlı üşütməyə başladı. Geri dönmək istədim. Birdən iyirmi addım aralıda, qayalıqların nisbətən daldey yerində qəribə bir quş gördüm: dayaz ləpədöyəndə uzun qılçalarını bükərək iri, əyri dimdiyi ilə yem axtarırdı. Quş deyəsən məni görmüşdü və tez qanadlarını açıb uçmağa hazırlaşdı. Ağ tükləri birdən-birə çəhrayı rəngə boyandı. "Bu ki, flaminqodur!" – fikirləşib tez qayanın dalına yatdım. Bir az gözlədim. Sonra özümə daha rahat yer seçib iki qayanın arasından gizlicə ona göz qoydum. Yanılmamışdım. O, doğrudan da flaminqo idi. Bizim ovçular ona qızıl qaz deyirlər. Bu yerlər üçün o, çox nadir quş hesab olunurdu. Flaminqo adətən qatarla uçur. Bəs o nə üçün tək-tənhadır?

Quş özünün xarici görkəmi ilə bu vaxtadək burada gördüyüm quşlardan tamam fərqlənirdi. Təhlükənin sovuşduğunu gördükdə o, qanadlarını bükdü və yenə dayaz suda gəzinməyə başladı. Yeriyəndə qılçaları elə bükülürdü ki, sanki indicə nazik çöp kimi ikiyə bölünəcək. Qəribə orası idi ki, ətrafında çığırışan qağayılardan heç biri onun yanına qonmağa cürət etmirdi. Mən bir şeyi də sezə bildim. Quş hər dəfə pərvazlanmaq istərkən bir qanadı azca asılı qalırdı. Yəqin ki, yaralanmışdı. Görəsən hansı qəddar ovçu bu yazıq quşa qıymışdı?! Bu fikirlər içərisində ikən flaminqo birdən qanadlarını şappıltı ilə çırpdı və bir göz qırpımında havaya qalxdı. O nə görmüşdü, kim onu ürkütmüşdü? Ətrafa boylandım. Sağ tərəfimdə bir qızın qayanın üstünə qalxdığını gördüm.

Oturduğum yerdən hirslə qıza tərəf çığırdım:

– Siz nə etdiniz?

Səsin hansı tərəfdən gəldiyini ayırd eləyə bilməyən qız diksinib döyükdü. Deyəsən onu qorxutmuşdum. Qayanın dalından qalxaraq, üzr istəməli oldum:

– Bağışlayın, – dedim, – bayaqdan onun pusqusunda durmuşam.

Təxminən iyirmi-iyirmi bir yaşlarında olan qız karıxdığından əvvəlcə heç bir söz demədi. Sonra günahkar adamlar kimi çiyinlərini qısdı və zorla gülümsəyərək dedi:

– İstəyirdim ki, ona lap yaxından baxım. Fikrimə də gəlməzdi ki, onu ürkütə bilərəm.

Qızın əynində güllü ev xalatı vardı. Yuxarı düyməsi açıq qaldığından altdan geydiyi çimərlik paltarı görünürdü. Başa düşdüm ki,



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

çimməyə gəlmişdir. İri qonur gözlərinin rəngi çiyinlərinə tökülmüş saçları ilə xoş bir vəhdət yaratmışdı. Küləkdə oynayan saçları girdə, yaraşıqlı sifətini tez-tez gizlədirdi. Günəşdə qaralmış yalın ayaqları sahilin yaş qumuna bulaşmışdı. Düzü, belə erkən burada tanımadığım bir qızla rastlaşacağımı heç təsəvvürümə də gətirə bilməzdim. Fikirləşdim ki, onunla birlikdə çimməyə gələnlər bəlkə də qayanın ətəyində gözləyirlər. Ancaq ətrafda heç kəs görünmürdü. İkimiz də susurduq. Məni düşündürən qızın buralarda tək-tənha gəzməsi idi. Soruşmaq istəyirdim ki, qızın buralarda tək-tənha gəzməsi idi. Bəlkə üzgüçüdür? Ancaq elə bil ki, sehrlənmişdim.

Nəhayət qız özü dilləndi:

– O, nə quş idi?

Üzündəki ifadədən başa düşdüm ki, bu qəribə quşu yaxından görə bilməməsinə təəssüflənir.

– Məncə flaminqo idi, – dedim. – Bu yerlərdə onların görünməsi nadir hadisədir. Özü də tək... Deyəsən qanadı zədəli idi.

Qız başını aşağı dikdi. Uzun kirpikləri sanki yanaqlarına kölgə saldı. Külək xalatının ətəyini oynatdıqda o, əlini dizinin üstünə basdı:

– Siz də məni bağışlayın, – dedi. – Bilmədim ki, belə nadir quşdur... Daha qayıtmaz?

– Onu demək olmaz. Bəlkə də qayıtdı. Təkdir, çətin ki, uzağa uça bilə.

Yaxınlığımızda adamlar göründü, hənirti eşidildi. Qız xudahafizləşib, getmək istədi.

– Bəs, çimməli olmadınız? – soruşdum.

Onun dodaqlarında xəfif bir təbəssüm gəzdi:

– Yox, – dedi. – Evdən çıxanda güman eləməzdim ki, dəniz belə fırtınalı ola bilər. Çimməli hava deyil.

Mən onu bir az da ləngitmək məqsədilə sorğu-suala tutdum:

– Belə erkən buraya gəlməkdən qorxmursunuz?

Qız hündürdən güldü:

– Nədən qorxacağam, dənizdən?

– Tutaq ki, elə dənizdən. Belə havada dəniz qorxulu olur.

Qız gülə-gülə dedi:

– Özün qorxmasan, dəniz qorxulu deyil.

Qız bunları deyib, qayadan yerə hoppandı. Sahildəki gölməçələrin üstü ilə tullana-tullana qumlu maşın yoluna çıxdı. O, dəmir yolu



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

keçidini qalxıb o tərəfdə gözdən itənədək durub arxasınca baxdım. Qəribə əhval-ruhiyyə içindəydim. Ağ və çəhrayı rənglərin mülayim, xoş ahəngi xəyalımda bütöv bir aləmə çevrildi. Flaminqo da, indicə dəmir yolunun o tayında gözdən itən qız da, quşun bir anlığa qəzəbli dənizin üzərinə yaydığı çəhrayı rəngə bürünmüşdü. Bir ümidsizlik və pərişanlıq duydum içimdə. Əvvəlcə flaminqo, sonra da qonur gözlü qız yoxa çıxaraq məni yalqız buraxmışdılar. Tək-tənha qalmışdım sahildə. Bir dəniz, bir mən. İçərimdə meyxoş, həzin duyğular, dəniz isə tüğyanlı, coşqun. Elə bil gördüklərim bir xəyal, bir sərab idi ki, birdən-birə yoxa çəkilmişdi. qızın ləpiri qalmışdı. Bir azdan onlar suda əridi. Nə pis şeymiş təklik! Halbuki bu dəqiqələrədək təklik hissi mənə yad deyildi. Fikirlərim, düşüncələrimlə təkbətək qalanda, əksinə, heç darıxmazdım. Tənhalıqdan içimdə rahat və mülayim bir sükunət yaranardı. Fikirlərim rəssam palitrasındakı əlvan boyalar tək qaynayıb qarışar, burulub, durulardı. Sonra isə dənizin coşqun ləpələri kimi bir-birini qovalayaraq, məni xəyallarımın zəngin və pırpızlı bir aləminə çəkib aparırdı. İndi isə təklikdən darıxıram. Mənə nə olmuşdu?.. Yaxınlıqdan qoxumuş balıq iyi gəlirdi. Suların vurub çıxardığı suitinin qara yağlı dərisi tünd havada da ayna tək işıldayırdı. Ətrafımda hər şey mənə biçimsiz və məhzun göründü. Nəzərimdə o qız da indi bu çəhrayı rəngdə idi.

Çəhrayılıq onun gənclik öcəşkənliyi ilə parıldayan yanaqlarına, zərif dodaqlarına da qonmuşdu. Çəhrayı rəng fəcrin rəngi idi. Dənizin üzərində açılan səhərlərin mülayim xəfif işartısı bu rəngdə olur.

Geri qayıtdım. Yolumu relsin o tayındakı bağların arasından saldım. Alçaq hasarların üstündən qumsal həyətlər ovucun içi kimi aşkar görünürdü. Xəzridən yarpaqları qaralıb büzüşmüş əncir ağacları hasarların daldasına sığınmışdı. Xırdaca kollarda şirələnən nar qızaran köz kimi salxım-salxım yellənirdi. Kəhrəba rəngli sarıgilə, xatını, ağ şanı salxımları yarpaqsız budaqlardan asılı dururdu. Bəzi həyətlərdə qara şanı tənəkləri talvara qaldırılmışdı. Yaşıl rəngli dövrə balkonlu bir evin yanından ötəndə qulağıma səs gəldi. Deyəsən məni səsləyirdilər. Qanrıldım. Sol əldə divar dibi boyu qalxmış qum təpəsinin üstündə onu gördüm. Gözlərinə qara eynək taxmışdı, qumun üstündə uzanmışdı. Gülümsəyirdi.

– Flaminqo qayıtdımı? – bərkdən soruşdu.

– Yox, qayıtmadı. – dedim.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Atam deyir ki, bu yerlərdə flaminqo olmur. Yəqin ki, adi qazmış.

Atasının hansı peşəyə qulluq etdiyini bilməsəm də, zəndimi azdırmaq fikrinə düşmüş kişiyə bərk acığım tutdu.

– Flaminqo idi, – dedim.

Qız gülümsədi:

– Yaman inadkar adama oxşayırsınız. – Sonra üzü ciddi bir ifadə aldı. – Quş üçün yəni belə qüssələnirsiniz?

O, çox söz dedi, ancaq heç birini eşitmədim. İşarə ilə başa saldım ki, külək eşitməyə mane olur. Təpənin üstünə qalxıb hasara yaxınlaşdı.

– Eşitmirsiniz?

– İndi eşidirəm.

– Buyurun həyətə.

O həyət qapısını açıb, məni içəri çağırdı.

– Gəlin, gəlin, – dedi. – Atam evdədir. Qoy özü sizə desin.

Heç gözləmədiyim halda qolumdan tutub məni içəri çəkdi. Bir anlığa nə isə fikirləşdi və sonra mənə tərəf əyilərək yavaşcadan pıçıldadı:

– Heç tanış da olmamışıq. Mənim adım Nurlandır. Bəs sizinki?

– Qaya.

– Oho! Nə möhkəm adınız var?!

Biz eyvanın pillələrinə yetişəndə qız əlini qolumdan çəkdi. Geniş eyvanda toxuma kreslolar qoyulmuşdu. Külək tutmayan tərəfdə isə divan vardı. Onun üstündə kiminsə uzandığını gördüm. Nurlan həyətdən atasını səslədi:

– Ata, budur, Qaya özü də gəldi. Sən mənə inanmırsan. Qoy özü desin ki, quşu necə gördük.

Onun səsinə divanda uzanan adam ayağa qalxdı. Bu ortaboylu, gümrah bir kişi idi. Gicgahları tamam ağarmışdı. O da məni qızı kimi gülərüzlə qarşıladı.

– Buyur, buyur yuxarı! – dedi.

Eyvana qalxdım. Qoca kreslolardan birində oturmaq üçün mənə yer göstərdi. Məni təəccübləndirən Nurlanın hərəkətləri idi. Özünü elə aparırdı ki, guya biz neçə ilin dostuyuq. Atası məni bir anlığa tək buraxıb, otağa keçdi. İçəridə bir ov tüfəngi asılmışdı. İndi başa düşdüm ki, qoca nə üçün quşlarla belə maraqlanır. Heç bir dəqiqə keçmədi ki, o çiynində yüngül yay pencəyi otaqdan çıxdı.



Created with
nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Bu zəhrimar xəzridə, deyəsən, otura bilməyəcəyik, – gileyləndi və sonra mənə müraciətlə: – Sizə soyuq olmaz ki? – soruşdu.

– Xeyr, xeyr.

– Hə, indi danışın görüm quşu necə gördünüz?

Mən gördüyümü yerli-yerində ona danışdım, quşu təfərrüatı ilə təsvir etdim.

– Ancaq mənə elə gəldi ki, o, yaralanmışdı, – dedim. – Bir qanadını yaxşı aça bilmirdi.

Kişi fikrə getdi. Qalın qaşları alnında düyünləndi. Onun günəşdə qarsalanmış mərd sifəti mənə çox xoş təsir bağışladı.

– Düzü, Nurlan deyəndə inanmadım. – Onun azca dalğın baxışları mənə zilləndi. – Ancaq indi görürəm ki, iş həqiqətə oxşayır. – O əlini cod tüklü çənəsində gəzdirdi. – O, əgər siz deyən kimi yaralanıbsa, uzağa uça bilməz. Onların qatarını bir dəfə lap yaxından görmüşəm. Gəminin üstü ilə uçurdular. Elə alçaqdan uçurdular ki, sallana qalmış ayaqları, əyri dimdikləri aydın seçilirdi. Başımızın üstündə elə bil çəhrayı bir çətir açılmışdı... Gözəl quşlardır. Bizim qoruqlara tez-tez gəlirlər. Ancaq bu tərəflərdə onlara rast gəlməmişəm.

Nurlan əlində süfrə gəldi. Onu stolun üstünə açmaq istərkən atası qoymadı.

– Yox, külək burada oturmağa qoymayacaq. Keçək gilavar tərəfə, – dedi.

Eyvanın divan qoyulmuş tərəfinə keçdik. Mən özümü nağıl dünyasında hiss edirdim. İki-üç saat bundan qabaq heç tanımadığım bu adamlar mənə yaxın bir dost kimi hörmət edirdilər. Gördüyüm, duyduğum bu səmimiyyət və mehribanlıqdan, doğrusu, karıxmışdım. İki saatdan çox onlarda qaldım. Evə qayıtdığım zaman anamı çox narahat gördüm.

– A bala, hardasan? – dedi. – Bu tufanda da adam dənizə gedər? Bayaqdan ürəyimin içini yeyirəm.

Anamın ürəyini almağa nə var ki?! Həmişəki kimi onu qucaqlayıb, bağrıma basdım...

Ertəsi gün səhər tezdən sahilə endim. Külək kəsmişdi. Taqətdən düşmüş dəniz yorğun-yorğun uğuldayırdı. Dünənki yerdə qayanın arxasına yatıb gözlədim. Dənizin üzərində sübh açılırdı. Bir azdan fəcrin çəhrayı parıltıları sularda əks olundu. Sonra günəş iri qırmızı



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

qarpız dilimi boyda dənizin arxasından boylandı. Böyüdü, böyüdü. Közərmiş mis məcməyi boyda olanda dənizdə sanki yanğın başladı. Qayaların ovuqlarında gecələmiş qağayılar başımın üstündə çığırışdılar. Mən qımıldanmadan gözləyirdim. Bir saat keçdi. Flaminqo gəlmədi. Əlimi üzüb geri qayıtmaq istəyirdim ki, qumsal yolla Nurlanın gəldiyini gördüm. Əynində yenə dünənki xələt idi. Bu dəfə o, qayalara qısıla-qısıla ehmalca mənə yaxınlaşdı.

– Salam, – deyə yavaşdan pıçıldadı. – Bir xəbər var?

– Yoxdur. Deyəsən daha gəlməyəcək. Çimərlikdə adamlar çoxalır. Bu qələbəlikdə heç bir quş yerə enməz.

Nurlan gözümə çox bikef göründü.

– Sizə nə olub? – soruşdum.

– Heç bir şey olmayıb. Quş üçün təəssüflənirəm.

Məni dünənki görüşüm düşündürürdü. O mehmannəvazlıqdan, o nəvazişdən hələ də özümə gəlməmişdim.

– Atanız çox xoşuma gəldi, – dedim. – Ancaq...

Fikirləşdim sözə necə başlayım ki, qızın xətrinə dəyməsin.

– Nə ancaq?

– Axı atanız məndən heç soruşmadı ki, kiməm, nəçiyəm? Sizinlə harada tanış olmuşam?

Nurlan gülümsədi:

– Atam sizi mənim institut yoldaşım bilir. Mən indi hamısını sizə danışaram. Yayda dənizdə ancaq sübh tezdən çimməyi sevirəm. Atam isə məni tək buraxmırdı. Axırda atama dedim ki, institut yoldaşlarımdan çoxu bu vaxt çimirlər və onlar həmişə bu vaxt məni burada gözləyirlər. O da icazə verdi.

– Belə de! Demək mən sizin üçün əşyayi-dəlil olmuşam?!

– Hm! – Nurlan yavaşdan pıqqıldadı.

– Bəs ananız? O, nə əcəb buna razı olur?

Bu sualımdan qız birdən-birə tutuldu. Gözəl çöhrəsindəki gülüşdən əsər qalmadı. Başını aşağı dikdi.

– Anam yoxdur, – dedi. – Heç yadıma gəlmir..mən iki yaşında olanda onu itirmişəm. Atam mənə həm ata, həm ana olub.

Sual verdiyimə peşman oldum. Qızın qəlbini kövrəltmişdim. Belə hallarda təsəlli verməyi də bacarmırdım. Susmuşduq. Hər halda mən bir bəhanə tapıb, araya çökmüş pərtliyi qaldırmalıydım. Çünki bu mənim günahım idi. Zarafatla dedim:



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Əcəb institut yoldaşıyıq... Heç bilmirəm hansı institutda oxuyuruq?

Qızın deyəsən ürəyini açmışdım. Hətta dodaqlarının qaçdığını da sezdim.

– Politexnikin dördüncü kursundayam, – dedi. – Memarlıq fakültəsində. Atam da kapitandır. Xəzərdə üzür. İndi məzuniyyətdədir. Bir ay bağda qalacayıq.

– Dünən atanız birdən söhbəti institutdan salsaydı, mən nə edərdim? – deyə zarafatla soruşdum. – Bu barədə heç fikirləşmədiniz?

– Sizi hər halda darda qoymayacaqdım. Mən işlə məşğul olsam da qulağım sizdə idi.

– Deməк hər işi planla görürsünüz?

O cavab əvəzində ancaq gülümsədi. Sonra birdən-birə tutuldu:

– Mənim barəmdə, yəqin, pis fikrə düşmüsünüz, eləmi?

O iri gözlərini mənə zilləyib cavab gözləyirdi.

– Qətiyyən yox, – dedim. – Əksinə, mənim...

Sözümü axıradək demədim. Əslinə baxsan deməyə çəkindim...

Sonra düz bir həftə onu görmədim. Ezamiyyətə getmişdim. Ancaq nə isə, düşüncələrim həmişə Nurlanla məşğuldu. Ürəyimdə də, xəyalımda da o idi. Geri qayıtmağa tələsirdim. Hər gün bir ay qədər uzun görünürdü.

Səkkizinci gün sübh tezdən evə qayıtdım. Anamgil yenicə oyanmışdılar. Kiçik qardaşım Gündüz səkinin üstündə oturub təzə qamışdan səbət toxuyurdu. Anam mənə çox bikef göründü.

– Nə var, nə olub, ana? – soruşdum.

Səkinin üstünü süpürən anam başını qaldırmadan süpürgə ilə qardaşımı göstərib dedi:

– Özündən soruş, nə olub?.. Allah onu bizə təzədən verib.

Gündüz öz işi ilə məşğul olaraq, elə bil ki, anamın dediklərini heç eşitmirdi.

– Axı, nə olub, bir deyin görüm?

– Nə olacaq, dənizdə az qala boğulurmuş... Dedim ona ki, getmə, küləkdir. Elə bil daşa-divara deyirdim. Mənim acığıma qonşu uşaqlarına qoşulub getdi. O, tufanda yer-göyə qovuşmuşdu. – Anam Gündüzün susmasından daha da odlandı: – Bir gör, elə bil bu sözlərin ona heç bir dəxli yoxdur... Ona deyirəm ki, bir səbət üzüm apar ver, o üzgüçülərə, xəcalətlərindən çıx. Gör nə deyir: “Utanıram”. Bəs o kişiləri əziyyətə salanda niyə utanmırdın?..



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Bu nə vaxt olub? – anamın sözünü kəsdim.
– Sən gedən günün ertəsi. Bərk xəzridə.
Yolun yorğunluğu bədənimdən çıxmasa da, üzgüçülərin yanına gedib, onlara minnətdarlığımı bildirməyi özümə borc bildim. Gündüzü üzüm dərməyə göndərdim.
– Təpənin üstündəki ağ şanılardan dər. Bir az da cəld ol.
Əslinə baxsan Nurlanı görməyə tələsirdim. Gündüz səbəti üzümlə dolduranda sonra sahilə yönəldik... Biz dənizə adətən, bağlararası qısa yolla gedərdik. Bu gün isə yolumu Nurlangilin qapısından salmaq istədim: “Bəlkə həyətdə onu gördüm”.
Gündüzə dedim ki, məndən qabaq gedib, dəmir yolunun keçidində gözləsin.
O gedəndən sonra mən təzədən geri qayıdıb, qumsal maşın yoluna çıxdım və bir az getdikdən sonra Nurlangilin evlərinə tərəf buruldum. Yaxınlaşdıqca ürəyim sinəmdə aram tapmırdı. Qorxurdum ki, onlar yığışıb getmiş olsunlar. Həyətdə doğrudan da heç kəsi görmədikdə pərtləşdim. O narın qum təpəsi, kölgəli sərin dövrə balkon onsuz necə məyus görünərmiş?! Axırıncı dəfə hasarın üstündən boylanıb yola düzəldim. Bir-iki addım atmışdım ki, onun səsini eşitdim:
– Salam!
Bütün dünya nəzərlərimdə başqalaşdı. Bir sözdə də bu qədər hikmət olarmış!
– Deyəsən flaminqo üçün gedirsiniz?
– Xeyr. Üzgüçülərin yanına gedirəm.
– Xeyir ola?
Gizlətməyin mənası yox idi.
– Qardaşımı xilas eləyiblər, – dedim. – Mən burada olmayanda az qalıb ki, boğulsun.
– Aaa!.. Bəs siz haradaydınız?
– Məzuniyyətdəydim. İndicə gəlmişəm... Üzgüçülərə dəyib tez qayıdacağam.
Addımlarımı yeyinlətdim. Gündüz məni dəmir yolunun keçidində gözləyirdi. Çimərlikdə adam az idi. Taxta qüllənin yanında üzgüçülər motorlu qayığı təmir etməklə məşğuldular. Onlara nə üçün gəldiyimi söylədim. Yaşca o birilərindən fərqlənən uzun boylu üzgüçü gülümsəyərək zarafatla dedi:
– Üzümü biz yeyərik. Belə üzümdən keçmək olmaz. O ki qaldı minnətdarlığa, onu bizə yox, başqasına eləməlisiniz.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Kimə?
– Bu saat.
O, əlini ağzına qoyub, üzüyuxarı, qüllənin başındakı üzgüçüyə çığırdı:
– Səftər, bu qəhrəmanın xilaskarını görməmisən? Hələ gəlməyib?
Səftər aşağı baxıb Gündüzü tanıdı. Sonra bütün sahil boyu göz gəzdirdi:
– Yoxdur, deyəsən, bu gün gəlməyib.
Yaşlı üzgüçü təəssüflə çiyinlərini çəkdi:
– Həmişə bu vaxtlar burada olur. Bu günsə, deyəsən, gecikir. Bir az gözləsəniz...
O sözünü qurtarmamışdı ki, qüllədəki üzgüçü səsləndi:
– Odur, gəlir.
Oturub "xilaskarı" gözləməli oldum. Gündüz xəcalətindən hələ də başını qaldırmırdı. Birdən Nurlanın qayalara tərəf getdiyini gördüm. Səsləndim. O, yolunu dəyişib bizə yaxınlaşdı. Yaşlı üzgüçü yenə zarafatla dedi:
– Deyəsən, bizə ehtiyac qalmadı.
– Nə üçün? – soruşdum.
– Daha nə üçün yoxdur ki. Demə qardaşınızın xilaskarı ilə özünüz tanışsınız.
Mən heyrət içərisində qıza baxdım.
– Nurlan?!.
Nurlan təmkinlə soruşdu:
– Sizin qardaşınızdır?
Nə Gündüz başını qaldırdı, nə də mən cavab verə bildim. Yenə Nurlan özü məni vəziyyətdən çıxardı.
– Gedək, – dedi. – Bəlkə flaminqo qayıtmışdır.
Mən onun dodaqlarındakı təbəssümü sezdim. Bu, təbəssümdən daha çox zərif bir istehzaya oxşayırdı. Qayaların yanına gəldik.
– Sizə minnətdaram, – dedim.
O, dinmədi. Sonra gözlərini qıyaraq altdan-yuxarı məni süzdü.
– Birə qarşı bir olduq, – dedi və bərkdən güldü. – Mən sizdən xəcalətli idim. Əvəzi çıxdı.
– Nə xəcalət?
– Flaminqonu ürkütdüyüm üçün. Bilirəm ki, indi də onun üçün qüssələnirsiniz.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Özüm də bilmədim ki, bu cəsarət mənə haradan gəldi.

Nurlanın əlini ovuclarım arasına aldım.

– Yox, mən flaminqonu tapmışam, – dedim.

Nurlan məkrli bir əda ilə gözlərini döyəclədi:

– Sizi başa düşmürəm, – dedi. – Axı flaminqo bir daha qayıtmayacaq...

Bunları deyib, xalatını çıxardı və çəhrayı rəngli çimərlik paltarında dənizə atıldı. Suların sinəsinə elə bil çəhrayı bir ləçək sərildi. Hər tərəf göy rəngdə idi: sular da, başımızın üstündəki səma da... Nurlan isə bu mavilikdə sanki flaminqo idi...

Evə qayıtdıqda anam dedi ki, "Bala, barı mənim yerimə Gündüzün xilaskarını bir öpəydin". Gülümsədim. Özlüyümdə dedim: "Tələsmə, ana"...

## İNTİQAM

Bütün gecə kəndi lərzəyə salmış top səsləri səhərə yaxın kəsildi. Xəzangül elə bil birdən-birə gurultulu, çaxnaşıq bir aləmdən dibsiz, qaranlıq bir yarğana yuvarlandı. Lakin bu səssizlik ona top və mərmilərin qulaqbatırıcı gurultusundan daha müdhiş göründü. Qulaqları səs aldı. Axşamdan çaxnaşma içərisində vurnuxan camaatın çığır-bağırtısı da daha eşidilmirdi. "Bu nədir. Hamı qaçıbmı? – fikirləşdi, – tək-tənhamı qalmışam bu cəhənnəmdə? Yəni camaatın içərisində bir nəfər də tapılmadı ki, məni yada salsın? Yox, bu ola bilməz. Kim bilməsə də, Xeyransa ilə əri gözəl bilirlər ki, mən tərpənə bilmirəm. Yoxsa ermənilər başlarının üstünü birdən-birə elə alıblar ki, hərəsi ağzını bir səmtə tutub, qaçıb? Əlləri heç yerə çatmayıb?" Xəzangül bunları fikirləşəndə qonşularını o qədər də qınamırdı. Bilirdi ki, hərəsinin bir çətən uşağı var. Bu mərəkədə hamı öz başının hayında olub.

Boylanıb şüşələri qırıq-qırıq olmuş pəncərədən eşiyə baxmaq istədi. Lakin hələ də qan sızan ayağının yarası elə sızıldadı ki, yerindən tərpənə bilmədi. Başında da bərk ağrı başlamışdı. Çünki bütün gecəni bir dəqiqə belə çimir vurmamışdı. Top mərmiləri evlərinin lap böyründə partlayırdı. Dəqiqəbədəqiqə gözləmişdi ki,



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

onlardan biri də indicə damlarına düşəcək və onu körpəsi ilə birlikdə göyə sovuracaqdır. Zavallı körpə də sübhədək kiriməmişdi.

Üç gün qabaq həyətlərinin ortasında partlamış top mərmisindən yaralanmış ayağının sızıltısı isə ara vermirdi. Baldırının sallana qalmış ətini yerinə yapışdırıb, üstündən bərk-bərk sarısa da, ağrısı kəsmirdi. Qanı hələ də sızırdı.

Bu zaman burnuna hardansa yanğın iyi gəldi. Canını dişinə tutaraq, yenə pəncərəyə tərəf boylandı. Dağların başı tüstüdən görünmürdü. Aşağılarda qoşa çinar tərəfdəki bütün evlər alov içində idi. Uçuq daş-divardan qalxan toz-torpaq buludları yanğının tüstülərinə qarışaraq, burula-burula onlara tərəf yayılırdı. Birdən eşik tərəfdən hənirti eşidildi. Səslər getdikcə gücləndi. Xəzangül yaxınlıqda erməni danışıqlarını aydın ayırd edə bildi. Bundan dəhşətə gəldi: "Aman Allah, ermənilər kəndə giriblər". Bədənini titrətmə bürüdü. Yarpaq kimi əsən əlləri ilə körpəsini beşiyindən qaldırıb, sinəsinə basdı. Buz kimi soyuq yanaqları ilə süzülən göz yaşları anasını əmməyə başlamış körpənin də sifətini islatdı. Xəzangülün ürəyi sanki sinəsindən qopub, boğazında çırpınırdı.

Birdən qapıya vurulan təpik onu daha da sarsıtdı. Qapının cəftəsi yerindən qopub düşdü. İki nəfər yekəpər saqqallı erməni içəri soxuldu. Bir anlığa astanada durub, otağa göz gəzdirdilər. Sonra əllərindəki avtomatları düz Xəzangülə tərəf tuşladılar. Uzandığı yerdə sanki daşa dönmüş Xəzangülün gözləri bərələ qalmışdı. Qorxudan kirpik də çala bilmirdi: yoldaşından xeyli cavan görünən o biri ermənininin belindən dəstəyi ceyran ayağından olan bıçaq da asılmışdı. O yoldaşını dümsüklədi:

– Sarkis dayı, bunu, deyəsən, bizə qənimət qoyub gediblər, axı.

Bunu deyərək, Xəzangülün yatağına yaxınlaşdı. Bir həmlə ilə əlini uzadıb yorğanı onun üstündən çəkdi. Xəzangülün sarıqlı ayağını görüb istehza ilə gülümsədi:

– Belə de. Demək, buna görə qaçmamısan, – o, Xəzangülün açıqda qalmış dizlərini ehtiraslı gözləri ilə süzəndə Xəzangül gücbəla əyilib, yorğanı sinəsinədək yuxarı çəkdi. Ermənininin saqqallı sifətində yenə iyrənc bir istehza duyuldu:

– Ay yazıq, niyə gizlədirsən? Onsuz da bir matah deyilsən. Dişə dəyən olsaydın, çoxdan qaçıb getmişdin.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Sonra avtomatlarını çiyinlərindən çıxarıb, otağın künc-bucağını axtarmağa başladılar. Hər yeri eşib tökdülər. Yoldaşının "Sarkis" çağırdığı yaşlı erməni dedi:

– Levon, sən bunların dilini yaxşı bilirsən. Soruş ki, qızıl və bəzək şeylərini harada gizlədib.

Cavan erməni yenə Xəzangülə yaxınlaşıb, amiranə bir tərzdə soruşdu:

– Axçi, de görüm, qızıllarınızı harada gizlətmisən?

Gözləri hələ də bərələ qalmış Xəzangüldən səs çıxmadı. Dinə bilmirdi. Sözlər elə bil boğazında ilişib qalmışdı.

– Hə, dinsənə, cavab ver.

Xəzangül nəhayət səsi boğazında tıxana-tıxana dedi:

– Bizim qızılımız yoxdur.

– Yalan deyirsən, qızılların yerini de. Görürəm, sırğalarını da çıxarıb, gizlətmisən.

– Bizim qızılımız yoxdur, – Xəzangül yenə təkrar etdi, – inanmırsan, axtar, bax.

Yoldaşı soruşdu:

– Hə, nə deyir?

– Deyir ki, qızılımız yoxdur.

– Zərər yoxdur. Özümüz axtarıb, taparıq. Müsəlman ola, qızılı olmaya. Gəl bəri, özümüz taparıq.

Levon Xəzangüldən uzaqlaşanda onu hədələdi:

– Heç eybi yoxdur. Bunun əvəzində gör sənin başına nə oyun açacağam.

Onlar yenə də otağı eşələməyə başladılar. Bütün boğça-bağlamalar açılıb, evin içərisinə səpələndi. Əllərinə qiymətli bir şey keçməyəndə burunlarının altında ev sahibinin ünvanına söyüş yağdırırdılar. Quldurların hündürdən danışmalarından körpə ağlamağa başladı. Anası onu hər vasitə ilə sakitləşdirməyə çalışırdı. Ermənilər otaqda bir şey tapmadıqda aynabəndə çıxdılar. Bir azdan orada sındırılan qab-qacaq səsindən körpə daha da vahimələnib, səsini ucaltdı. Oradan cavan erməninin səsi eşidildi:

– Axçi. Ay it qızı, onun səsini kəsə bilmirsən?! Bacarmırsansa, bu saat gəlib, bir güllə ilə susdurram.

Bu sözlərdən bütün otaq Xəzangülün başına hərləndi. Ona elə gəldi ki, quldur indicə içəri keçərək, balasını qanına qəltan edəcəkdir.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Əlləri əsə-əsə körpəsinin ağzını yumdu. Balası isə nəfəsi darıxdığından ayaqlarını çırparaq, ağlamağında davam edirdi. Çarəsi kəsilmiş ana təzədən döşünü onun ağzına saldı. Körpə axır ki, sakit düşüb, içini çəkə-çəkə anasını əmməyə başladı.

Bayırdakı yanğının isti nəfəsi içəri dolub onların nəfəsini tıxayırdı. Görünürdü ki, yanğın onlara lap yaxınlaşıb. Xəzangül başa düşdü ki, yanan onlarla qapıbir qonşu olan Səfər kişinin ikimərtəbəli mülküdür. "Görünür ki, – fikirləşdi, – bizi də ev qarışıq yandırmaq niyyətindədirlər". Ancaq bununla belə özünə təskinlik verirdi ki, ermənilər tez evdən çıxıb getsələr, birtəhər sürünüb, körpəsi ilə birlikdə eşiyə çıxa bilər.

Quldurlar aynabəndi axtarandan sonra təkrar otağa qayıtdılar. Otağı yenə ələk-vələk elədilər. Bir yer qalmadı ki, burunlarını soxmamış olsunlar. Birdən gözləri üstünə köhnə palaz parçası salınmış oturacağa sataşdı. Bu, əslində köhnə bir sandıqdı. Əri Cahangir Gədəbəyə vuruşmağa getməmişdən qabaq ondan oturacaq kimi istifadə edirdi. Belə baxanda heç kəs deməzdi ki, köhnə palaz parçasının altında kotil deyil, sandıqdır. Xəzangül bütün pal-paltarını onun içində saxlayırdı. Orada elə paltar vardı ki, heç qatı açılmamışdı. Bir dəfə də olsun, əyninə geyməmişdi. Yaşlı erməni oturacaqdan şübhələnib, yaxınlaşdı. Köhnə palaz parçasını çəkib yerə saldı. Onun altındakı sandığı görüb, sevincək qapağını qaldırdı. Sandığın içindəkiləri görəndə gözləri bərələ qaldı.

– Levon, buraya gəl! Xəzinə tapmışam.

Sandıqdakı pal-paltarı birlikdə çıxarıb, otağın içərisinə səpələdilər. Cavan erməni üzünü Xəzangülə tərəf çevirib, dedi:

– Ay it qızı, belə pal-paltarı olanın qızılı olmaz?! Sənin dərini soyacağam qızılların yerini deməsən. Heyif qızlığın əlimə keçməyib, başına bir oyun açardım ki, gözlərin kəllənə çıxardı. İndi isə elə kifirsən ki, heç üzünə tüpürmək istəmirəm.

Yaşlı erməni dinmədən tələsik, yerə sərilmiş pal-paltarı, Xəzangülün qatı açılmamış donlarını, koftalarını, baş yaylıqlarını kisəyə doldurdu. Bayırda maşın səsi eşidilən kimi kisəni dalına alıb, çıxdı. Cavan erməni isə hələ də axtarırdı. Avtomatının qundağı ilə divarları, döşəmənin taxtalarını döyəcləyir, hər yerdə qızıl axtarırdı.

Sonra yaxınlaşıb, Xəzangülün başı üstündə ağac kimi bitdi. Ehtiraslı gözlərini onun sinəsinə zilləyib, beləcə durdu. Xəzangül yorğanını bir az da yuxarı çəkib, sinəsini örtdü.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Aç sinəni. Matah şeyin var ki, bir gizlədirsən də.

O, əlini atıb, yorğanı güclə onun sinəsindən aşağı çəkdi. Sonra yanındakı körpəni qaldırıb, onun ayaqları altına atdı. Xəzangüldən acı bir fəryad qopdu. Bayırdakı erməni həyəcanla içəri girdi:

– Levon, nə eyləyirsən? – soruşdu.

– Heç. Sən işində ol. Mən onun dilini açacağam.

Yaşlı erməni yerdə qalan süfrə və dəsmalları və Xəzangülün heç geymədiyi iki cüt ayaqqabını və başqa xırım-xırda şeyləri də kisəyə doldurub çıxdı. Xəzangülün ayaqları altına atılmış körpə az qala özünü yırtırdı. Ana əyilib onu qaldırmağa cəhd etsə də, bacarmadı. Levon əmr etdi ki, tərpənməsin. Birdən nə fikirləşdisə, əlini atıb, Xəzangülün əynindəki köynəyini iki yerə parçaladı. Qadının açıq döşləri aşkarda qaldı. Xəzangül qollarını sinəsində çarpazlayıb, döşlərini örtdü.

– Qızılların yerini deyəcəksən, ya yox?

– Dedim ki, bizim qızılımız yoxdur.

– Yalan deyirsən!

– Allah haqqı, düz sözümdür.

– Sizin Allahınızı da... indi deyərsən.

O kəmərinə bağladığı bıçağını çıxarıb yorğanın üstünə atdı:

– Al, öldür körpəni öz əlinlə. Ya qızılların yerini deyəcəksən, ya onu öz əlinlə öldürməlisən. Boğazını üzməlisən.

Xəzangül qulaqlarına inanmadı. Ayaqları altında ağlamaqdan səsi xırıldayan körpəsini görməsəydi, ona elə gələrdi ki, yuxu görür. "Yox, yox. İnsan övladı bu sözləri dilinə gətirə bilməz. Bu, ancaq heyvan bağırtısıdır. O, cəhənnəmdə idi. Ona əmr eyləyənsə Əzrayıl idi. Aman Allah, kaş onun özünü öldürəydi, körpəsinin qətlini gözləri ilə görməyəydi. Kin, qəzəblə dolu quldur gözləri ilə, mərhəmət diləyən kövrək yalvarışlarla cilvələnən ana gözləri bir-birinə zillənmişdi. Biri qana hərisdi, o biri isə məsum bir körpənin keşiyində durmuşdu. Kim kimi yeyəcəkdi?

Araya çökən sükut erməninin səbrini tükəndirdi. Əlini uzadıb, Xəzangülün döşlərini örtmək üçün sinəsində çarpazladığı qollarını araladı:

– Deyəcəksən, ya yox?

Xəzangül var gücü ilə çırpınıb, erməninin əlindən xilas oldu və ağzını doldurub, onun üzünə tüpürdü.

– Alçaq! – dedi.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Erməni tövrünü pozmadan üzünü sildi:

– Gördün ki, mən sənin hərəkətini necə qəbul eylədim. İndi görək sən də mənim hərəkətim qarşısında belə sakit dura biləcəksən. Götür bıçağı.

Xəzangül onun niyyətini əvvəlcədən başa düşmüşdü. Körpəsini öz əlilə ona öldürtmək istəyirdi. Buna görə ona yalvarmadı, qürurunu pozmadı. Bıçağı əlinə alıb, öz hökmünü verdi:

– Körpəni ver mənə. Mən əyilə bilmirəm.

Erməni onun belə qətiyyətinə məəttəl qaldı. Qaşlarını çatıb diqqətlə ona baxdı.

– Niyə durmusan? Uşağı mənə ver. İndi görərsən ki, mən səndən də sakit duracağam. Onu necə sakit doğmuşam, eləcə də sakit öldürəcəyəm.

Levon uşağı götürmək üçün Xəzangülün ayaqlarına tərəf dartınarkən, Xəzangülün qarşısında qəribə bir mənzərə açıldı: ermənin kürəyi Xəzangülün gözlərində ani olaraq elə böyüyüb açıldı ki, sanki geniş bir meydandır. Ürəyində Allahı köməyə səslədi və bir anı belə itirmədən bıçağı elə bir hardansa qüvvət almış əli ilə düşmənin kürəyinə elə sancdı ki, erməni heyvan kimi bağırıb, üzüüstə düşdü. Sonra bıçağı kürəyindən çıxarmağa çox cəhd etdisə də, bacarmadı. Kürəyindən qan fəvvarə vururdu. Axırda üzüüstə Xəzangülün yorğanı üstə düşüb hərəkətsiz qaldı. Bıçaq düz ürəyinə sancılmışdı. Xəzangül donub qalmışdı. İnana bilmirdi ki, bu işi o tutmuşdur. Belə bir gücü o haradan ala bildi? Bir azdan yaşlı erməni yüyürə-yüyürə içəri girdi.

– Levon, nə olub? – soruşdu.

Levonun kürəyinə sancılmış bıçaqla üzüüstə düşdüyünü görüb, bir anlığa özünü itirdi. Yoldaşına kömək eləyib, kürəyinə sancılmış bıçağı çıxarmaq əvəzinə bayıra yüyürdü. Xəzangül isə daş heykəl kimi donub qalmışdı, nə bir şey duyur, nə də bir şey eşidirdi. Ağlamaqda davam edən körpəsinin səsinə də sanki biganə kəsilmişdi. Ancaq onu hiss etdi ki, əlində avtomat içəri girən qoca erməni onu nişan alıb atəş açdı.

Bundan sonra araya sükut çökdü. Yaşlı erməni Levonun yanına yüyürdü. Xəncəri onun kürəyindən çıxartdı. Bütün üst-başı qana bulaşdı. Sonra Levonu nə qədər çağırdısa, ondan cavab çıxmadı. Ayağa qalxıb, papağını çıxardı və xaç vurdu. Bir an keçmədi ki, ikinci bir güllə də açıldı. Lakin bu güllənin səsini Xəzangül daha eşitmədi.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

# GÖY DELFİN

Havalar yenə bulaşmışdı. Bir həftəydi xəzri aramsız əsirdi. Çimərlik büsbütün boşalmışdı. Sahil boyu ins-cins gözə dəymirdi. Həmişə günəşin altında parıldaşan əlvan göbələk çadırlar elə məhzun və pərişan görünürdü ki, adamın ürəyi sıxılırdı. Ləpədöyənə, qayıqlara qəribə bir hüzn çökmüşdü. Xüsusilə onsuz bu şəhər hər şey yetim və qəribə görünürdü... O çiməndən sonra qumsallıqda gəzişərkən hamıdan fərqlənirdi. Göy rəngli köynəyində elə bil dənizdən qopmuş bir ləpə idi. Fikirləşirdim ki, xəzri yəqin onun ayağını birdəfəlik bu yerlərdən üzmüşdür. İndi kim bilir harada, bəlkə də Göygölün laciverd sahilində, ya da Kislovodskın səfalı sinəsində dincəlir. Ancaq özümü zorla da olsa inandırırdım ki, onu dənizdən heç bir qüvvə ayıra bilməz. Dəniz ləpəsi dənizdə gərək.

Günortadan xeyli keçmişdi. Mən hələ də yosunlu qayalıqlarda oturub onu fikirləşirdim. Uzaqlarda dənizlə göyün maviliyi qarışmışdı bir-birinə. Qaynaya-qaynaya sahilə hücum çəkən ləpələr ayaqlarımın altında köpüklənib parçalanırdı. Üzümə çırpılan şor zərrəciklərdən dodaqlarım duzlaşmışdı. Ancaq bununla belə, yerimdən tərpənmək istəmirdim. Sanki nə isə məni bu gün çimərliyə bağlamışdı. İçərimdə bir həsrət, dumanlı bir intizar ağırlığı duyurdum. Başımın üstündə qağayılar çığırışırdı. Sahil boş və kimsəsiz olduğu zaman onlar adətən alçaqdan uçur və ləpələrin uğultusu ilə yarışırlarmış kimi qulaqbatırıcı bir səslə çığırışırdılar. Birdən arxa tərəfimdə motor səsi eşidildi. Geriyə qanrıldım. Həmin boz rəngli "Jiquli" idi. Maşın gölməçələrin suyunu yara-yara sahilə tərəf gəlirdi. O idi. Məndən azca aralıda duran maşından düşdü. Mənə laqeyd bir nəzər salıb maşının qanadına dirsəkləndi. Hiss etdim ki, çimmək fikrində deyildir. Bəs belə tufanlı havada niyə sahilə gəlib?! Yoxsa... Yox, yox. Bundan öz xeyrimə nəticə çıxarmağa cəsarətim çatmadı. Bəlkə evdə ürəyi qısılmışdır. Ya da dəniz üçün darıxmışdır. O, gözlərini köpüklənib coşan ləpələrdən ayırmadan hərəkətsiz donub qalmışdı. Əynində bənövşəyi güllü paltar vardı. Dizlərindən azca yuxarı. Küləyin də şıltaqlığı tutmuşdu elə bil. Gah saçlarını oynadırdı, gah da bənövşəyi paltarının ətəklərini. O özü isə heç nəyə əhəmiyyət vermədən gözlərini dənizdən çəkmirdi, nəzərləri oynaq ləpələrə ilişib qalmışdı. Mən uzaqdan-uzağa olsa da, onun üzündəki xəfif kədəri



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

sezə bilmişdim. O dərdli idimi, ya da başqa bir könülün kaşanəsi həsrətindəydimi?.. Bir xeyli beləcə durduqdan sonra yenə mənə tərəf ötəri bir nəzər salıb getdi. Mən yəqin elədim ki, o, sahilə, yaxın Tuğayı bağlarından birinə köçmüşdür. Ancaq hansına?..

Xəzri hər şeyi alt-üst eləyəndən sonra, nəhayət ki, kəsdi. Birdən başladığı kimi birdən də kiridi. Çimərlikdə əlvan yelpikli göbələklər yenə göz oxşamağa başladı. Erkən olduğu üçün çimərlikdə adam azdı. Mən də bu səhər sahilə obaşdan gəlmişdim. Bilirdim ki, o sübh tezdən çimməyi sevir. Budur, qum təpəsinin ortası ilə salınmış yolda onun maşını göründü, lakin maşın yaxınlaşanda gözlərimə inanmadım. Sükan arxasında qara, tosqun bir kişi əyləşmişdi. Bu adam onun atası ola bilməzdi. Çünki nisbətən cavandı. Maşın duran kimi qız əynindəki xalatı çıxardı, həmin göy dəniz köynəyində yerə sıçrayıb yüyürə-yüyürə suya atıldı. Sonra sükanın arxasındakı kişi də düşdü. Qarnı az qala yarım arşın özündən qabağa çıxmış bu kişi ovuclarını ağzının yanlarında lülələyib çığırdı:

– Turan, uzağa getmə ha.

Özlüyümdə kişiyə minnətdar oldum. Qızı adı ilə çağırdığına görə. Bu dəqiqələrdə onun adını öyrənmək mənim üçün bir qucaq sevincə bərabərdi... Suyun içi ilə qaçan Turanın gur saçları arxasında quş qanadları kimi pərvazlanırdı. İçərimdə meyxoş bir hiss yarandı və qızın arxasınca suya atıldım və üzə-üzə Turanın yanından ötüb ikinci xəndəyə çatdım. O da mənim arxamca gəldi və dövrəmdə hərlənməyə başladı. Bir delfin kimi burada suya baş vurub o biri tərəfdən çıxırdı. Gah sağımda, gah solumda nadinc bir uşaq sayağı az qala oyun çıxarırdı. Axırıncı dəfə lap böyrümdə baş vurub sudan çıxdı və üzünə səpələnmiş saçlarını əli ilə arxaya verərək dediyi sözləri eşitdim:

– Xəzrilərdən sonra su hələ də qızmayıb.

Sahildə oturmuş kişi Turanın mənim yaxınlığımda üzməyinə qısqanaraq onu səslədi:

– Turan, çıx, bir az dincini al.

Başa düşmədim, Turan onun səsini doğrudan eşitmədi, ya da özünü eşitməzliyə vurdu. Kişi bu dəfə qollarını başının üstündə hərləyərək daha bərkdən çığırdı. Turan yenə saymazyanalıq göstərdi. O məndən azca aralıda baş vurub sudan çıxanda:

– Sizi çağırırlar, – dedim.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Kim çağırır?

– Sizi maşınla gətirən kişi.

– Qoy çağırsın, – yenə saymazyana suya baş vurdu. Kişi isə daha bərkdən çığırırdı. İndi onun səsindəki hədəni də hiss etmək mümkündü. Turan, nəhayət, sudan çıxdı. Saçlarının suyunu sıxa-sıxa sahilə yaxınlaşanda kişinin qəzəblə dediyi sözləri aydın eşitdim: "Bilmirəm sən uzağa getməkdə nə görmüsən? Görürsən də, mən heç zaman uzağa getmirəm".

Turan onun sözlərini yenə də saya almadan qumun üstündə uzandı. Gözləyirdim ki, qız onun cavabını verəcək. Deyəcək: "Sən uzağa gedə də bilməzsən". Ancaq dinmədi. Onun belə mütiliyi qəlbimi sıxdı. Sonra kişi özü suya girdi. Bir-iki addım gedən kimi dizi üstə suya çöküb oturdu. Əlləri ilə suyu şappıldadaraq bədənini islatmağa başladı. Məni gülmək tutdu. Dərinlərə nifrətlilər ancaq dayazı sevənlər olur. Kişi sərçə kimi ləpədöyəndə çimərkən bir qadın Turana yaxınlaşdı:

– Ay qız, tək gəlmisən. Bəs ərin hanı? – soruşdu.

Bu sözlərdən sonra onların arasında nə söhbət oldusa, daha eşitmədim. Elə bil başıma dəyən ağır bir zərbədən qulaqlarım batdı. Ancaq onu gördüm ki, Turan barmağı ilə ləpədöyəndəki kişini göstərdi.

Üzüüstə quma sərələndim. Deyəsən, yuxuya getmişdim. Çünki başımı qaldıranda "Jiquli"ni görmədim.

İstirahətimin axırıncı günləri idi. İstilər isə hələ də davam edir, heç cür səngimək bilmirdi. Bu yerlərlə, dənizlə vidalaşmağa hazırlaşırdım. Aynatək parıldaşan sulardan və uzaqlarda qum təpələrinin üstündə oynaşan ilğımlardan göz qamaşırdı. Sanki o tərəflərdə yüzlərcə təndir qalanmışdı və o təndirlərdən qalxan burum-burum istidən hava qurğuşun kimi ağırlaşırdı. Birdən yenə tanış "Jiquli"nin cır siqnalını eşitdim. Maşın uğuldayır, ancaq sahilə yaxınlaşmırdı. Maşın quma batmışdı. Sürücü maşını çıxarmaq üçün qazı artırdıqca təkərlər, əksinə, daha dərinə batırdı. Cavan uşaqlar da maşının ətrafına toplaşıb tamaşa edirdilər. Mən də yaxınlaşdım. Kişi məni görən kimi qazı daha da artırdı. Maşın şir kimi nərildədi və təkərlər nəm qumu ətrafa səpələyərək yerində donub qaldı. Başımı buladım. Görünürdü ki, sürücü təcrübəsizdi. Motora heyifim gəldi:



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– İcazə verin, mən çıxarım. – dedim.

Kişidən səs çıxmadı. Elə bil mənim acığıma maşını təzədən nərildətdi, ancaq faydası olmadı. Turan mənə tərəf baxdı. Hiss etdim ki, məndən kömək umur.

– Belə getsə, siz motoru sıradan çıxara bilərsiniz. Verin kömək eləyim.

Turan da sözümə qüvvət verdi:

– Qafar, qoysana sənə kömək eləsinlər.

Qan-tərə batmış kişi, nəhayət, tərs-tərs mənə baxıb maşından düşdü və sükanı göstərdi:

– Buyurun.

Mən dal təkərlərin arxasında quma batmış taxta parçasını görmüşdüm və gümanım da ona gəlirdi. Arxadan sürətlə dal təkərləri onun üstünə qaldırsaydım, maşını qumdan çıxara biləcəkdim. Maşını geriyə verdim. Motor uğuldadı, dal təkərlər taxta parçasının üstünə qalxdı və maşın geriyə dartıldı. Sonra bir neçə metr geri çəkildikdən sonra təzədən irəliləyib maşını sahibinin yanında saxladım. Yerə düşəndə maşın sahibi bir kəlmə də dinmədi. Yalnız Turan gülümsəyərək sanki minnətdarlığını bildirdi...

* * *

Yenə də mənimlə yanaşı çimirdilər. Kişi ləpədöyəndə, Turan isə adəti üzrə dənizin içərisində. Ancaq bu dəfə qız çox dərinlərə getmirdi. Hiss olunurdu ki, kişinin bütün diqqəti ondadır. Gözləri yalnız ona zillənmişdi. Yox. Ona zillənən təkcə iki göz deyildi. Mənə elə gəldi ki, üzü dənizə tərəf durmuş “Jiquli”nin də faraları qıza nəzarət edirdi. Xəyalımda qurbağa ilə delfinin müqayisəsi keçdi. Biri ləpədöyəndə suyu şappıldadır, o birisi isə dənizin içərilərinə can atırdı.

Qəribədir, o gün yuxuma da delfin girdi. Gördüm ki, sakit dənizdir, çimirəm, özüm də hiss etmədən sular məni içərilərə çəkir. Birdən qarşıma bir delfin çıxdı. O gah sağımda görünürdü, gah da solumda. Onu bildim ki, məni daha dərinliklərdə üzməyə həvəsləndirir. Mən də onunla birlikdə suları yara-yara üzməyə başladım. O getdi, mən getdim. Sahildən o qədər uzaqlaşmışdım ki, göy səmadan və göy



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

sulardan başqa heç bir şey görünmürdü. Hər tərəf sakit bir dinclik içərisində uyuyurdu. İrəlidə isə delfin yenə öz dəcəlliyindəydi. Birdən gözlənilmədən delfin yoxa çıxdı. Onu axtarmaq üçün dənizin dibinə baş vurdum. Getdim, getdim, elə rahatca dənizin dibinə gedirdim ki, sanki qanad taxıb uçuram... elə bu zaman oyandım.

Hava yenicə qaralmağa başlamışdı. Birinci dəfə idi ki, gündüz yuxu görürdüm.

Tuğayı bağlarının hündür bir yerində yaxın dostumun qəşəng bir bağı vardı. Onun eyvanından dəniz və Tuğayı bağlarının mənzərəsi insanın gözləri qarşısında elə yelpazələnib açılırdı ki, tamaşasından doymaq olmurdu.

Eyvanda oturub çay içirdik. Xoşbəxtlikdən, bu axşam ağcaqanad da az idi. Sağ tərəfdəki bağ öz səliqəsi ilə diqqətimi çəkdi. Dostumdan sahibini xəbər aldım.

– Gön fabriki direktorunun bağıdı. Arvadı da memardır.

Öz-özümə fikirləşdim: "Taleyin də qəribə oyunları var. Gön mütəxəssisi hara, memarlıq hara".

– Deyirəm ki, tale bəzən bizimlə qəribə oyun oynayır.

– Nə mənada? – dostum soruşdu.

– Yunan əfsanəsinə görə, haçansa kişi ilə qadın bir bədəndə imiş. İldırım çaxıb onları yarı bölmüşdür. O vaxtdan bu yarımlar bir-birini axtarırlar. Hərə öz yarımını tapanda xoşbəxtlik quşu başlarına qonarmış. Vay o gündən ki, bir-birini tapan yarımlar səhv düşəydi.

– Onu düz deyirsən. Mənim bu qonşularımın da yarımları, deyəsən, səhv düşüb. Kişi tündməcazın biri, arvadı isə çox nəcib qadındır. Həm də qızı yerindədir.

Söhbətimizin bu yerində qonşunun həyətində əynində gödək şalvar olan Turan qoltuğunda kiçik bir xalça və kitab divar dibindəki qum təpəsinə yaxınlaşdı, xalını yerə döşəyib, üstündə uzandı və mütaliəyə başladı. Mən özümü itirdim.

– Bu qadın burda nə gəzir? – deyə təəccüblə soruşdum.

Səsimin titrədiyini özüm də hiss etdim.

– Sənə dediyim həmin qızdır. Ancaq heyif ondan.

Turanın məni tanıyacağından çəkinib eyvanın sürahisindən uzaqlaşdım və özümü gizlətməyə çalışdım. Bununla belə gözlərimi ondan çəkmirdim. Dostum həyəcanımı duymasın deyə, araya söz



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

qatdım. Bu il əncirin gec dəyməsindən gileyləndim. Bir azdan Turan əlindəki kitabı yerə qoydu və qollarını başının altında çarpazlayaraq fikrə getdi. Hiss olunurdu ki, o, doğrudan da dərdlidir. Onun məhzun baxışları içərisini, dərdli, hüznlü dünyasını gizlədə bilmirdi. Mənə tam aydın idi ki, indi onun xəyalında yaratdığı aləmdə əri yox idi.

Dostumun sözləri məni xəyaldan ayırdı:

– Eşitdiyimə görə, qızın ata-anası da onların evlənməsinə razı deyillərmiş. Ancaq pul öz işini görüb. Onu da bilirəm ki, aralarında tez-tez narazılıqlar baş verir. Hətta deyilənlərə görə qız bir neçə dəfə acıq eləyib evdən gedib.

– Bəli, mən bu qızın acı taleyini onunla rastlaşdığım ilk dəqiqələrdən hiss etmişdim.

* * *

Onları bir də dörd gündən sonra gördüm. Bu dəfə əri çimərliyə özü ilə hava döşəyi də gətirmişdi. Mən sahilə yaxınlaşanda kişi hava döşəyində üzürdü. O, döşəkçənin üstündə uzanmışdı, Turan da onun həndəvərində hərlənirdi. Qıza yenə acıdım. Əri onu sanki öz hava döşəyinə bağlamışdı. Dayazda çimməyə alışmayan Turan bir azdan sudan çıxıb sahil qumsallığında uzandı. Çoxmu keçdi, azmı keçdi, bilmirəm. Birdən sahildən qopan səsə boylandım.

– Kişi köməyə çağırır, – deyə kimsə çağırırdı.

Turan tərəfə baxdım, o da bu səsi eşitcək, hövlnak yerindən qalxıb dənizə cumdu. Hava döşəyi sahildən xeyli aralanmışdı. Görünür, kişi mürgü vurduğundan bunun fərqinə varmamışdı. Döşəyin üstündə uzandığı halda əl-qolunu oynada-oynada köməyə çağırırdı. Mən də özümü suya atdım. Çünki döşək dördüncü xəndəyə çatardısa, onu xilas etmək çox çətin olacaqdı. Qorxdum ki, Turan bu işin öhdəsindən gələ bilməyə. Qıza çatıb, onu geri qaytardım. "Siz qayıdın, – dedim. – Arxayın olun ki, mən ərinizi sağ-salamat sahilə çıxaracağam". Özüm isə sürətlə irəli üzməyə başladım. Kişinin səsi hələ də eşidilirdi: "Tez olun, tez olun". Döşəyə yaxınlaşanda Turanı da yanımda gördüm. Görünür, belə anlarda kənarda durmağı qüruruna sığışdırmamışdır. Döşəyi birlikdə sahilə çıxartdıq. Kişi elə qorxmuşdu ki, dili söz



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

tutmurdu. Bədəni tir-tir əsirdi. Dodaqları göm-göy göyərmişdi. Sahilə çatsaq da, o, döşəkçənin üstündən qalxmaq istəmirdi.

Turan çımxırdı:

– Düşsənə.

Əri çətinliklə döşəkçənin üstündən qalxdı və Turan qoluna girərək onu sahil qumsallığında yerə uzatdı. Mən döşəyin yanında qalmışdım. Turan döşəyin dalınca qayıdanda dodaqucu gülümsəyərək dedi:

– Siz bununla ikinci dəfədir ki, bizi çətinlikdən qurtarırsınız.

Mən də gülümsədim:

– Ərənlər isə üçdən deyiblər.

– Doğrudanmı? Siz mənə telefon nömrənizi verin. Sizə öz minnətdarlığımı bildirəcəyəm.

– Mənim telefonumun nömrəsi yaddaqalandır: Altı dəfə beş rəqəmi.

Şəhərə qayıtdım. Bağ fəsli qurtarmışdı. Ancaq Turandan hələ heç bir xəbər yoxdu. Günün çox vaxtı evdə olurdum ki, o zəng çalacaq. Bir gün qapı döyüldü. Açdım. Cavan bir oğlandı. Əlində də kiçik bir bağlama tutmuşdu.

– Bağışlayın, 55-55-55 nömrəli telefon sizindirmi?

– Bəli. Nəyinə gərəkdir?

O, əlindəki bağlamanı mənə uzatdı:

– Bu sizə çatacaq, – dedi.

Bağlamanı aldım. Üstündə 55-55-55 rəqəmlərindən başqa heç bir şey yazılmamışdı. Bağlamanın kim tərəfindən göndərildiyini xəbər almağa macal tapmamış, oğlan pillələrlə sürətlə enib uzaqlaşmışdı. Bağlamanı açdım. İçərisində gümüş bir portsiqar vardı. Onun üstündə həkk olunmuş bu sözləri oxudum: "Talesiz bir qadından sizə hədiyyə".

Bağlamanın içərisində kiçik bir məktub da vardı. Açıb oxudum. Yazırdı: "Siz mənə iki dəfə kömək əlinizi uzatdınız. Əvvəla maşınımıza kömək etdiniz. İkinci dəfə dənizdə batan ərimin köməyinə çatdınız. O zaman bir söz dediniz: "Ərənlər üç dəfədən deyiblər. Ancaq indi təəssüflə deyirəm ki, üçüncü dəfə daha mənə kömək edə bilməyəcəksiniz. Çünki bu mənim qismətimdir. Ona görə dözməliyəm. Sizi də ömrüm boyu unutmayacağam. İmza: Talesiz qadın..."

Kövrəldim. Zavallı Turan!..



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

## DÖNÜKLÜK

Nuru vağzaldan küçəyə çıxanda gözlərinə inanmadı. Şəhər sanki tamam dəyişmişdi. Doğulduğu və böyüdüyü bu doğma şəhərindən uzaqlaşdığı on il içərisində onun adamları da elə bil bambaşqa olmuşdular. Qadınlı-kişili hamının geyimi də dəyişmişdi. Xüsusilə qız və gəlinlər kişi sayağı kostyum və şalvarda gəzirdilər. Bəziləri isə yubkalarını dizindən xeyli yuxarıyadək qısaltmışdılar. O, ömründə bu qədər çılpaq qadın ayaqları görməmişdi. Şəhərin təzə tikililərinə, çoxmərtəbəli imarətlərinə tamaşa etmək məqsədilə pay-piyada evlərinə tərəf yönəldi. Bir-birindən qəşəng və yaraşıqlı binaların arxitekturası onu valeh etdi. Par-par parıldayan ayna şüşəli mağazaların bər-bəzəkli, zəngin vitrinaları gözlərini oxşadı. Ancaq bir şeyə təəssüflənirdi: evlərinə qədər olan yol boyu bir nəfər də tanışa rast gəlmədi, bir nəfərlə də salaməleyküm kəsmədi. Səkilərlə ötüb keçənlərin hamısı tanımadığı yad adamlardı. Evlərinə çatanda təkcə qoca anasının dəyişmədiyini görüb, rahat nəfəs aldı. Həmin çallaşmış seyrək saçlar, alnındakı həmin şırımlar, nazik dodaqlarının uclarında sıxlaşmış həmin narın qırışlar on il bundan əvvəl necə idisə, eləcə də qalmışdı. Hətta anası onu qucaqlayıb, bağrına basarkən uşaqlıq və gəncliyində olduğu kimi onun bədəninin əvvəlki ətrini də duydu.

Axşam şər qarışanadək yatıb dincəldi. Sonra on il ərzində özü ilə cibində gəzdirdiyi köhnə cib dəftərçəsini çıxarıb, dostlarının telefon nömrələrini axtarmağa başladı. Birinci olaraq, nə çox hörmət etdiyi Murtuzun nömrəsini yığdı. Dəstəkdə gənc bir kişi səsi eşitdi.

– Allo, salaməleyküm, – dedi.

– Əleykümsalam, buyurun, eşidirəm.

– Mənə Murtuz lazımdır.

– Bağışlayın, kimdir onu soruşan?

– Deyin ki, köhnə dostu Nurudur.

– Məni bağışlayın, deyə bilməyəcəyəm.

– Niyə?

– Ona görə ki, burada yaşamır?

– Bəs harada yaşayır?

– Qocalar evində.

– Bəs niyə qocalar evində?

– Ona görə ki, çox qocalmışdı. Bir də ki, özü istədi.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Bəs mənlə danışan kimdir?
– Oğludur.
– Afərin belə oğula.
– Nə dediniz?
Səs kəsildi. Nuru dəstəyi yerə qoymuşdu. Murtuzun halı onu çox düşündürdü. Evinə-eşiyinə həmişə bağlı olan bir adam necə olub ki, ailəsini tərk edib, qocalar evinə düşmüşdür?
Nuru sonra dəftərçəsinə baxıb, başqa bir dostuna zəng çaldı.
– Bağışlayın, Fəttahı olarmı?
– Kimi?
– Fəttahı. Bura məyər onun evi deyil?
– Onun evidir. Ancaq özü yoxdur.
– Bəs nə vaxt gələcək?
– Daha gəlməyəcək. Allah rəhmətinə gedib.
Bunu eşidən kimi Nuru bir anlığa duruxub qaldı. Heç inanmazdı ki, şux xasiyyətli, nikbin bir adam belə tez həyatını dəyişə bilsin.
– Allah, rəhmət eləsin. Bilməmişəm. Nə vaxt rəhmətə gedib?
– Yeddi ilə yaxındır. Bəs niyə indi xəbər tutmusunuz?
– Mən on ildir ki, Bakıdan çıxmışam. Bu gün səhər qayıtmışam. Gələn kimi zəng vurdum ki, kefini xəbər alım. Üzr istəyirəm.
Fəttahla Nuru yaşıd idilər. Ancaq Fəttah həmişə yaşına görə cavan görünərdi. Dostları da ona "həmişəcavan" adı qoymuşdular. Belə bir adamın ölümü onu çox təəccübləndirdi. Onun ölən vaxtı deyildi. Görünür ki, güzəran onu vaxtından qabaq qəbr evinə sürütləyib.
Nuru yenə barmağını siyahıda gəzdirib, başqa bir nömrə yığdı.
– Bağışlayın, Soltanı telefona çağırmaq olarmı?
– Kimi? Yox bir xortdanı, – deyə istehzalı bir cavab eşidildi.
– Bilmirəm, yaşlısınız ya cavansınız. Onu deyim ki, mən zarafat eləmirəm. Ciddi soruşuram, Soltan evdədirmi?
– Mən də ciddi cavab verirəm. Dedim ki, sənin Soltanın xortdanla birlikdə getdilər o dünyaya. Onu ancaq adres bürodan öyrənə bilərsiniz orada nə eləyirlər.
– Bəs bu danışan kimdir?
– Əyər sənin Soltanın yoxsa, bunun sənin üçün nə əhəmiyyəti var.
Nuru özünü təhqir olunmuş hesab etdi. Elə bil daxili müvazinətini itirmişdi. "Əyər insanlar belə korlanıblarsa, demək dünyanın axırı çatıb" – deyə fikirləşdi. Yenə bir nömrə yığdı:



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Mənə Cahangir lazımdır.

Cavab verən gənc bir qadın idi.

– Mənim evimdə Cahangir də yoxdur, Bahadur da. Belə şeyləri çox eşitmişəm. Bayaqdan on dəfə zəng vurub, adboy vermisiniz. Elə bilirsiniz mən bunları başa düşmürəm. Mən çörəyi burnuma yemirəm ha.

– Qızım, mən sizə birinci dəfədir ki, zəng çalıram.

– Əlbəttə, elə deyəcəksiniz, başqa nə deyə bilərsiniz. Ancaq qulaq as gör nə deyirəm. Mənə zəng vuranların içərisində yeganə adamsınız ki, səsiniz xoşuma gəlir. Deyin görüm harada görüşə bilərik?

– Qızım, mən yaşlı adamam. Görüş təyin etmək vaxtım çoxdan keçib. Xahiş edirəm ki, Cahangiri telefona çağırasınız.

– Mənə bax hey, araya söz salma. Sən şükür elə ki, səninlə görüşməyə razılıq verirəm. Əgər razılıq verirəmsə demək səninlə yaxşı əylənə biləcəyəm. Bu Cahangiri-Bahadır sözlərini də yığışdır qoy qırağa. Sənə bundan artıq daha nə lazımdır?

– Qızım. Dedim ki, mən yaşlıyam.

– Eybi yoxdur, o da qəbulumdur. İndi sözün nədir?

Nuru ondan Cahangir barədə söz almaq məqsədilə manevr etməyə məcbur oldu.

– Yaxşı, mən razı, əvvəlcə de görüm, Cahangir haradadır?

– Pa atonnan. Genə dedi Cahangir. Axı o Cahangir kimdir?

– Ev yiyəsini deyirəm.

– Dayan, dayan bəlkə o çolağı deyirsən?

– Bəli, şikəst Cahangiri.

– Eh, mən də deyirəm, bu Cahangir kimdir. Mən onun şələşüləsini çoxdan vermişəm qoltuğuna. Evi almışam yerli-dibli. İndi ev mənim adımadır. Yaxşı, dincəldin? Hə indi de görüm harada görüşürük. Dediyindən belə çıxır ki, evi də, deyəsən, tanıyırsan. İstəyirsən evə gəl, ancaq vaxtını de, nə vaxt gələcəksən?

– İltifatın artıq olsun, xanım.

Nuru bu sözləri deyib, dəstəyi yerinə qoydu. Qadınla olan söhbət bütün ovqatını pozmuşdu. Öz-özünə: “Bu dostlarıma nə olub belə. Elə bil üstlərindən səmum yeli əsib” Bir neçə dəqiqə özünə gələ bilmədi. Saatına baxdı, on tamama yaxındı. Qərara gəldi ki, bir-iki nəfərə də zəng çalsın, bəlkə dostlarından heç olmasa biri ilə danışa bildi.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Bir stəkan çay içib, başqa bir dostuna zəng çaldı:

– Allo, sizin telefonunuz 95-23-53-dürmü?

Dəstəkdə qəzəbli bir qadın səsi eşidildi:

– Bəli, bəli, bəli!.. Pərvərdigara, neçə dəfə soruşarlar... hə soruşursunuz, ancaq həkim gəlib çıxmır. Xəstə əldən gedir axı, heç vicdanınız yoxdur? Utanmırsınız adınızı hələ bir "Təcili yardım" da qoymusunuz.

– Bacı, mən həkim deyiləm. Mədəti, əgər mümkünsə, telefona çağırın.

– Qardaş, siz də vaxt tapdınız zəng vurmağa. Mən həkim gözləyirəm. Başa düşürsünüzmü? Başı batmış Mədəti də göndərmişəm həkim dalınca. İndiyədək gəlib çıxmayıb.

– Bacı, əsəbləşməyin. Mən Mədətin dostuyam. On ildir ki, onu görmürəm. Bu gün Bakıya gəlmişəm. Dedim ki, bir zəng çalıb kefini xəbər alım.

– Qardaş, onun mürdəşir sifətini görməsən yaxşıdır. Xahiş edirəm, buna görə telefonu məşğul eləməyin. Həkim zəng çalmalıdır.

– Baş üstə. Bağışlayın.

Nurunu dərd bürümüşdü. Fikirləşirdi ki, görən bu adamlara nə olub belə, söz soruşmağına peşman olursan. Yəni bu axşam dostlarımdan bircəsini də tapıb danışa bilməyəcəyəm?

Qeyri-ixtiyari əlini telefona tərəf uzatdı. Səlim adlı bir dostunun nömrəsini yığdı. Qulaqlıqda ağlayan bir uşaq səsi eşidildi:

– Alo, alo! – uşaq içini çəkə-çəkə soruşdu.

– Bala, evdə kim var?

– Heç kəs yoxdu, əmi. Qaranlıqdı. İşıqlarımız sönüb, qorxuram.

– Bəs atan-anan hardadır?

– Qonaqlığa gediblər.

– Bəs baban Səlim də evdə yoxdur?

– Əmi, mənim babam yoxdur. Qorxuram. Çox qorxuram. Əmi, sən gəl yanıma.

– Yaxşı, balam, ağlama, indicə gələrəm. Adresinizi mənə de görüm.

– Bilmirəm.

– Yaxşı, gəl onda sənə bir nağıl danışım.

– Qorxulusunu yox.

– Yox, yox. Mən sənə elə nağıl danışacağam ki, eviniz işıqlanacaq, sən daha qorxmayacaqsan. Diqqətlə qulaq as.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Biri vardı, biri yoxdu. Fatma adında qoçaq bir qız vardı. O hər gün meşəyə odun yığmağa gedərdi...

Dəstəkdə ağlamaq səsi birdən-birə kəsildi.

– Alo, alo eşidirsən? Cavab ver, – deyə Nuru təkidlə soruşmağa başladı. Oğlandan cavab çıxmırdı. Ancaq evdə hənirtilər eşidilirdi. Haçandan-haçana oğlan dilləndi:

– Əmi, atamgil gəldilər.

– Hə, di salamat qal.

– Bəs nağılın dalı?

– *Onu sabah zəng vurub danışaram.*

Nurunun dəftərçəsində daha iki dostunun telefon nömrəsi vardı. Ancaq nədənsə daha heç kəsə zəng vurmaq istəmirdi. Dəftərçədə Məmmədhəsənin adının və adının qabağında telefon nömrəsini görüb, özünü saxlaya bilmədi. Onlar on il bir sinifdə, bir skamyada oturmuşdular. Aralarından su da keçməzdi. Qeyri-ixtiyari barmağı diskin üstündə gəzdi. Dəstəyi qaldırsalar da cavab verən olmadı. Dəstəyi əlində tutmuş adam kiminləsə mübahisə edirdi. Nuru onun sözlərini aydın eşidirdi. Hiss edirdi ki, evdə qonaqlıqdır. Nuru bir xeyli gözlədi. Nəhayət dəstəyi götürən adam dilləndi:

– Hə, açınız ağzınızı, görək nə istəyirsiniz? – o bunları deyib, bərkdən boş-boşuna gülməyə başladı. Hiss olunurdu ki, sərxoşdur.

– Alo, məni bağışlayın, Məmmədhəsəni telefona olarmı?

Onu dinləyən adam yenə şit-şit güldü:

– Ay kişi, sən hansı əsrdən danışırsan? Məmmədhəsənin sümükləri az qalıb çürüyüb torpağa dönə. Bu vaxta Məmmədhəsən qalar?

– Allah rəhmət eləsin. Nə vaxt rəhmətə gedib?

– Çestno qovorya yadımdan çıxıb. Priblizitelno səkkiz ildən çox olar.

– Onun qəbrini sabah mənə göstərə bilərsiniz? Gedim ziyarət edim, borcumu verim.

– *Özüm heç tanıyıram ki, sizə də göstərim. Gör bir neçə illərin* əhvalatıdır.

– Nənən də göstərə bilməz?

– Nənəm ondan qabaq start götürmüşdü. Bir də deyirsiniz ki, onun borcunu qaytaracaqsınız. Borcu qəbirə qaytarmayacaqsınız ki, verin mənə.

– Siz onun nəyisiniz?



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Neca deyərlər po azerbaycanski? Hə... O, yoldaşlarına müraciətlə soruşdu – "Rebyata. Kak vnuk po azerbaycanski?" Hə, hə, nəvə. Mən ona nəvə. Ona sözünüz vardı?

– Daha nə sözüm ola bilər. Allah rəhmət eləsin. Pərvərdigara, daha kim qaldı bu dünyada? – deyib dəstəyi yerə qoymaq istərkən nəvəsi soruşdu:

– Nə dediniz?

– Heç.

– Yox dediniz axı. Dediniz ki, daha kim qaldı dünyada? Yaşlı olsanız da ancaq çox məzəli adama oxşayırsınız. Necə yəni kim qaldı bu dünyada? Bəs mən? Bəs biz adam deyilik? Yaxşısı budur gəl bizimlə əyləş. Yaxşı məclisimiz var. Dostlarım da yaxşı uşaqlardı. Gəlin babamın ruhuna sizinlə bir bakal döyüşdürək.

– Çox sağ ol, bala. Yaxşı olar ki, sən gedib, babanın qəbrini tapasan...

Nuru əsəbiliklə dəstəyi yerinə qoydu. Axırıncı dostunun evinə zəng vurmağa da daha əli qalxmadı.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

# POVESTLƏR

Created with
nitroPDF® professional
download the free trial online at nitropdf.com/professional

Created with
nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

# DƏNİZ HƏMİŞƏ GÖY OLMUR

Sahil çox aşağıda qalırdı. Yuxarıdan, mayak binasının böyründən oraya ensiz, daş-kəsəkli bir cığırla enirdilər. Cığır xeyli burulandan sonra aşağılarda düzənliyə çıxır və sahil boyu uzanan qamışlığa girirdi. Payızda və qışda bu qamışlıqdan sahilə çıxmaq çox çətin olurdu. Bu vaxtlar burada su dizə qədər qalxardı. Yalnız yayın əvvəllərindən başlayaraq su çəkilər və adamboyu qalxmış qamışların arasında yol ağarardı. Lakin bataqlığın suyu sahilin özünədək uzanmır, sahildən azca aralı salınan bostanların ətəyində qurtarırdı. Həmin bu yerdə bir neçə köhnə və çürük qayıq indi də burnu üstə yaş qumsallığa sancılıb qalmışdı. Novruzun nəfəsi duyulan kimi bostanlarda adamlar görünərdi. Kənd camaatı buralarda yemiş və qarpız əkərdilər. Bostanlardan o yana sahil başlayırdı. Üfunətli və yosunlu sahil. Baharın əvvəllərində küləyin və fırtınanın vurub sahilə çıxardığı balıq və suitiləri günün altında qoxuyar və bundan ətrafa dözülməz bir üfunət yayılardı. Xırda ağ ləpələrin yaladığı ləpədöyəndə isə qara çopur qayalıqlar uzanırdı. Bir cərgə. Sürüşkən və yosunlu. Qayalıqlardan o tayda isə dənizdi, aram və gömgöy dəniz! Baharın ortalarında dəniz aram və gömgöy olur.

Bu gün də səhərdən sular yorğun və sakitdi. İki gün qabaq dəniz kifayət qədər nehrə kimi çalxalanmışdı. Qənirə mayakdan çıxanda gün artıq yandırırdı. O, ulağı qabağına qatıb, cığırla üzüaşağı endi. Qamışlıqların o tayındakı bostanlarda adamlar görünəndə atasının xahişi yadına düşdü. Qayıdan baş gec olacağını düşünərək, bəri başdan yolunu o tərəfdən saldı. Qamışlığa girdi və suyu hələ ağıllı-başlı qurumamış bataqlığın içi ilə bostanlara tərəf getdi. Uzaqdan Mürsəl kişini səslədi:

– Mürsəl əmi, hey!

Belini əyərək xəndəklərə toxum sancan qoca Mürsəl dikəldi və əlini gözünün üstünə qoyub səs gələn tərəfə baxdı.

Qənirəni tanıdı.

– Nədir, ay qız?

– Mürsəl əmi, atam deyir ki, Bəbirdən nə xəbər var?



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Heç bir xəbər yoxdur, a bala. Biz də nigaranıq.

– Axırıncı dəfə kağızı nə vaxt gəlib?

Axırıncını atası ona tapşırmasa da, Qənirə özü bunu soruşmağı lazım bildi.

Mürsəl kişi bir anlığa fikrə getdi. Sonra bostanlıqdan onun səsi yenə eşidildi:

– İki aydan çoxdur.

– Xudahafiz.

O, ulağın başını geri döndərib, yenə də qamışlığa girdi. Hələ may ayı olsa da, mığmığalar adamın üz-gözünü dalayırdı. Ulağın quyruğu hey yellənirdi. Qənirənin uzun kerz çəkmələri bataqlığın qapqara palçığından topuğunadək bulaşmışdı. O, bu yolla qayıtmasına peşman oldu. Yaxşısı bu idi ki, bostanlardan keçib sahilə çıxaydı və oradan da rahat yolla kəndə girəydi. Gec idi, ona görə də geri dönmək istəmədi. Qamışlıqdan çıxaraq kəndin kənar evlərinə tərəf buruldu. Buradan ta kəndədək əncirlik başlayırdı. Yolunu qısaltmaq məqsədilə müharibə başlanandan sahibsiz qalmış bağların içilə kəndə girdi. Kənkan Əlicanın evinə çatmamış qulağına səslər gəldi. Ayaq saxlayıb, qulaq asdı. Ağlayırdılar. “Yoxsa Əlicanın oğlundan da qara xəbər gəlib?” – fikirləşdi. Qənirə yanılmamışdı. Dünən günortadan sonra Əlican kişi öz yeganə oğlunun ölüm xəbərini almışdı. Qənirə oğlanı yaxşı tanıyırdı. Doqquzuncu sinifdə onlar bir yerdə oxumuşdular. Öz yaşıdları içərisində çox qamətli bir oğlandı. “Müharibədə boy-buxunlu olmaq da bir şey deyil, – deyə Qənirə heyifsiləndi. – Belələrini güllə daha tez aparır”. Bir azdan hasarın o tərəfində çadralı arvadlar göründü. Əlicangilə gəlirdilər. Qənirənin yolunu bu tərəfdən saldığına görə, özünə yenə acığı tutdu. Sahil səmtindən hərlənsəydi, belə xəbəri də, eşitməzdi.

Ulaq başını bulaya-bulaya yolla gedirdi. Gün günorta yerinə qalxdıqca göydən sanki od ələnirdi. May ayında belə istilər Qənirənin heç yadına gəlmirdi. Kəndin küçələri boş və sakit idi. Müharibədən qabaq bu vaxtlar burada adam əlindən yerimək mümkün olmazdı. Qənirə məktəbdə oxuduğu illəri xatırladı: səhərlər məktəbə gedəndə hər tərəf arı pətəyi kimi qaynayırdı. İndi isə səssizlik və boşluqdan qulaq çəkilirdi. Müharibə ağıllı-başlı süpürgə çəkmişdi bu yerlərə. Silib-süpürmüşdü. Tərtəmiz. Adamları da, səsləri də, nəfəsləri də. Qızın ağzından elə bil yanıqlı bir nəfəs çıxdı.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Qənirə, palçıq basmısan nədir?

O, səsə diksindi. Kolxoz anbarının tinində kürən Mirişi gördü. O, iri dişlərini ağardaraq Qənirənin çəkmələrinə baxırdı. Qənirə günəşdən qamaşan gözlərini qıyaraq oğlanı istehza ilə süzdü.

– Sən ki, palçıq basmağı da bacarmırsan, ay yazıq!

– Nə üçün bacarmıram?

– Bacarsaydın, səni də əsgər aparardılar.

– Aparmayıblar da, mən neyləyim. Allah verən dərddir də.

– Üz bassaydın, çoxdan aparardılar. Deyinən ki, qorxuram... Adını hələ bir kişi də qoyubsan...

O, çubuğu ulağa ilişdirdi və ulaq yerindən götürüldü. Buna görə də Mirişin onun dalınca dediyi sözləri eşitmədi. Kəndin beş-altı dükandan ibarət mərkəzi meydanını keçib bütöv qayalıq olan naxır bulağına çıxdı. Bura da xəlvət idi. Ancaq qoca bir qadın quyunun uzun mancanağını basaraq vedrələrini su ilə doldururdu. Qarı vedrələri doldurub dikəldikdə Qənirə onu tanıdı. Rövşənə qarı idi. Onun üç subay oğlu vardı. Üçü də müharibədə idi. Evdə tək-tənha qalmışdı. Qənirə ulağı saxlayıb qarıya tərəf yüyürdü və vedrələri onun əlindən aldı.

– Ver aparım.

Qarı dinməzcə vedrələri verdi və özü də Qənirənin dalınca evinə tərəf getdi. Evlərinin qapısında Qənirə vedrələri yerə qoyduğu zaman qarı dilləndi:

– A bala, kimin qızısan?

– Dərgahın. Bəlkə tanıyasan, kəndireşən Dərgahın.

– Hə, niyə tanımıram. Lap yaxşı tanıyıram. Gərək ki, sənin də nişanlın gedib, hə?

– Bəli, gedib.

– Səs-xəbər var?

– Hərdən kağız yazır. Bəs sizinkilərdən?

Qarının gözləri yaşardı. Örpəyinin ucu ilə gözlərini siləndən sonra dərindən ah çəkdi:

– Bizimkilər necə olacaq, a bala. Böyüyündən gedən günündən xəbər yoxdur, yerli-dibli. O birilərindən də çox gec-gec kağız gəlir.

– Darıxma, Rövşənə xala, gələr. İndi elə hamının məktubu gecikir.

Meydanda kənd uşaqları ulağın ipini dartışdırırdılar. Qənirə çığırdı.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– İşiniz olmasın! Şıllaq atar!

Qənirənin səsinə uşaqlar ulağın kəndirini buraxıb qaçdılar.

Gün düz başı üstündə günorta yerinə sancılıb, təndir kimi şölələnirdi. O, ulağı çubuqladı və üstünə atılıb, onu kəndin dar küçələri ilə qovdu. Şose yoluna çıxdı. Burada yol haçalanırdı. Biri kəndə gedir, o biri isə aşağı enir, dərə ilə sahildəki istirahət evlərinə tərəf uzanırdı. Qənirə hərbi hissənin nümayəndəsini adətən burada gözləyirdi. O, mayak işçiləri üçün yeyinti payını maşınla gətirirdi. Kəndin qırağındakı yolda maşın bir neçə dəfə quma batıb qaldığı üçün çox əziyyət çəkmişdilər. Ondan sonra qərara gəlmişdi ki, maşını bir də qumsal yollara salmasın, ərzağı burayadək gətirsin və burada onu mayakın işçilərinə təhvil versin. Mayak işçiləri də bu təklifə razılıq vermişdilər. Və o vaxtdan ayda iki dəfə mayakın işçilərindən bir nəfər onu burada, yolayrıcında gözləyirdi.

Qənirə yol qırağındakı tənha ağacın kölgəsinə keçib, ulağı ağacın gövdəsinə bağladı. Yolda bir maşın göründü. Qənirə yolun kənarına çıxdı. Maşın yaxınlaşıb onun yanında durdu. Sürücünün yanında oturmuş bığlı starşina yerə atıldı.

– Çoxdan gözləyirsən? Yolda maşının təkəri buraxmışdı. Ona görə gecikdik. Ulağı yaxına çək.

Qənirə ulağı ağacdan açıb yol kənarına gətirdi. Starşina əlindəki siyahı üzrə beş nəfər mayak işçisinə çatası payı ayırıb xurcunlara doldurdu. Maşına oturarkən təəccüblə soruşdu:

– Tək gəlibsən?

– Tək gəlmişəm. Hamı şaxtanı təmir etməklə məşğuldur.

– Bax ha. Xeyli ərzaqdır.

– Narahat olmayın.

Starşina, əlini yelləyərək, xudahafizləşdi. Maşın yola düşdü. Qənirə gəldiyi yolla deyil, kəndin boynuna dolanmış yuxarı xəlvət yolla qayıtmağı qərara aldı. Bu yol ona görə xəlvət idi ki, hər adamı buradan buraxmırdılar. Çünki yaxında hərbi hissə yerləşirdi. Qənirə hərbi hissənin burada yerləşməsindən cəmi bir neçə ay bundan qabaq xəbər tutmuşdu. Mayakın rəisi Vasili söhbət zamanı demişdi ki, böyrümüzdə zenit batareyası yerləşir. Əgər göydə düşmən təyyarəsi görünərsə, dərhal atəş açacaqlar. Qənirə bir dəfə yolunu hissəyə lap yaxın bir yerdən saldı. Dərədə böyük bir çala qazılmış və üstü iri torla örtülmüşdü. Torun altında nə vardısa,



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

görünmürdü. Qənirə düşündü ki, hərbi hissə olan yer həmişə salamatlıq olar. Buna görə də yolunu bu gün bu tərəfdən saldı.

Hava bir az da qızmışdı. Qabsındıran sarı çiçəklərin arasında cırcıramaların cırıltısı zəhlə tökürdü. Ulaq yoxuşu xırda addımlarla qalxırdı.

Vaxtı ilə daş karxanası olmuş bu yerlərdə indi də qırıq daşlar orada-burada yığılıb qalmışdı. Kənddə danışırdılar ki, may ayı girən kimi bu daşlıqlarda gürzə ilanlar sürünür. Ona görə də Qənirə bu yerdən uzaqlaşmağa tələsdi. Ulağa bir neçə çubuq ilişdirdi. Başını aşağı dikmiş, burun pərələri yelpiklənən ulaq qabağa dartındı.

Nəhayət, təpənin başına yetişdilər. Qabaqda dəniz göründü və onun sərin nəfəsi Qənirənin üzünə vurdu. Ətrafda heç kəs görünmürdü. Qız sərbəstliklə koftasının düymələrini açdı. Sərin hava gecə köynəyinin altından qabarmış kiçik döşlərinin arasından keçərək bütün bədəninə sərinlik yaydı. “Belə sərin havada tək olmaq nə yaxşıdır, – deyə fikirləşdi, – sinəni, döşlərini aça bilirsən, sərinliyi bütün bədəninlə duyursan”. Ancaq həmişə tək qalmaq mümkün olmurdu. Sinəsini açıb sərinliyi udmağa imkan olmurdu. Müharibədən qabaqkı bir hadisə yadına düşdü. Bir dəfə Yavərlə sahildə qayalıqların üstündə oturduqları zaman Yavər onun koftasının düymələrini güclə açmışdı. Qənirə çırpınıb, mane olmuşdu. O, payız axşamında qayalıqlarda birgə keçirdikləri xoş dəqiqələri xatırladıqda, içərisində xoş bir təxərrüş duydu. Sonra Yavərlə keçirdiyi başqa günləri xatırlamağa çalışdı, ancaq yadına heç bir şey düşmədi.

Qənirə zenitçilərin yanına burulan cığırı ötüb keçdi. Rastına çıxan olmadı. Mayakın qülləsi qabaqda, dənizin mavi fonunda aydın sezilirdi. Yaxınlaşdıqca dənizin nəfəsi daha təravətlə onun açıq sinəsini, saçlarını yalayırdı. Şose yolundan çıxıb, qumsal yola düşdükdə o, ayaqqabılarını çıxardı. Qızmış qumun üstü ilə ayaqyalın getmək daha rahatdı. Qabaqda iri cığ kollarının arasında qaraltı göründü. Kimsə gəlirdi. Qənirə tez koftasının düymələrini bağladı. Gələn adam hələ yaxınlaşmamış əlini qaldıraraq Qənirəni səslədi:

– Qənirə!..

Gələnin ancaq papağı və əli görünürdü. Qənirə isə səsindən onu tanıdı. Bu, onunla həmyaşıd olan və neçə il qabaq, müharibə başlanmamışdan, mühasiblik kursunda birgə oxuduqları Sərdar idi. Sərdar kursda hamıdan yaxşı oxuyurdu. Qonşu kənddən olan bir qız da ona



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

elə vurulmuşdu ki, özünü öldürmək dərəcəsinə gəlmişdi. Qənirə hiss edirdi ki, Sərdarın meyli ancaq onadır. Dərsdən sonra kəndə qayıdanda Sərdar həmişə avtobusda onunla yanaşı oturmağa çalışırdı. Bir dəfə kəndə lap gec qayıdırdılar. Hava ertədən qaralmışdı, sonra isə bərk yağış tökmüşdü. O gün də Qənirə şəhərə nazik paltarda getmişdi. Kəndə çatıb avtobusdan düşəndə, Sərdar Qənirənin tamam islanacağını görərək, pencəyini çıxarıb qızın çiyninə salmışdı. Özü də yanınca gedərək onu evlərinə ötürəndə Yavər üstlərinə çıxmışdı. O gecə evlərində böyük söz-söhbət olmuşdu. Atası hirslənmişdi, Qənirəni kötəkləmək istəmişdi. Yavər araya girərək, mane olmuşdu. O gündən Qənirə daha kursa getməmişdi. Sonra da müharibə başlanmışdı. Yavər əsgər getmişdi.

Sonralar Qənirə Sərdarı ancaq bir dəfə görmüşdü. Bunda da oğlan xəlvətə salıb, ona pıçıldamışdı ki, "mənim gözüm səndədir". Vəssalam. Sərdarın bu sözləri o zaman Qənirəni çox düşündürmüşdü. Xəyalında hətta Yavərlə Sərdarı yanaşı qoymuş və onların fərqinə də varmışdı. Qız Sərdara ancaq bir üstünlük verirdi. O da Sərdarın Yavərə nisbətən gözəl və cazibədar olması idi. Başqa cəhətlərdən isə Yavər Qənirənin nəzərində yüksəkdə dururdu...

Sərdar yaxınlaşıb, salamlaşdı. Qənirə yanaqlarında bir istilik duydu. Baxışlarını da Sərdardan gizlətməyə çalışdı.

– Heç gözləməzdim ki, bu yolda sənə rast gəlim.

– Mən də gözləməzdim. – Qənirə başını qaldırmadı.

– Nə üçün gözləməzdin?

– Ona görə ki, bu yolla gedib-gəlməyi əsgərlər qadağan eləyiblər.

– Bəs sən niyə gedirsən?

– Mən də hərbi xidmətdəyəm. Sənin kimilərə olmaz.

– Mənə də olar. İndi elə onların yanına gedirəm.

– Onların yanına? – Qənirə nəhayət başını qaldıraraq Sərdarın təmiz qırxılmış gözəl sifətinə baxdı. Bundan yenə də yanaqlarının isindiyini hiss etdi. Ürəyi də çırpındı. Sərdarın sağ əli əvvəlki kimi sarıqlı idi.

– Kolxoz onlara çoxlu kartof, soğan və süd buraxıb. Gedirəm haqq-hesabı çürüdüm.

Sərdar əlini uzadaraq qızın dirsəyindən tutmaq istədi. Qənirə qoymadı.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Özün bilirsən ki, əliuzun adamlardan xoşum gəlmir. Bir də...

O, sözünün gerisini demək istəmədi. Ulağı çubuqlayıb yoluna davam etdi. Sərdar səmtini dəyişib onunla geri qayıtdı.

– Nə isə demək istəyirdin? Niyə uddun?

Qənirə qaşları altından ona tərs bir nəzər saldı.

– Hə, demək istəyirdim ki, demək istəyirdim ki, sən get öz adamının qolundan yapış. Səndən ötrü özünü öldürmək istəyənin...

– Nə olsun öldürmək istəyir, mən ki, onu sevmirəm. O dəfə də sənə dedim, mənim gözüm səndədir. Budur, inanmırsan bu da onun kağızı. – O, cibindən açılıb oxunmuş bir məktub çıxardı. – Yazır ki, mən səni hələ də gözləyirəm, ömrümün axırınadək gözləyəcəyəm... Ancaq, nə olsun...

– O olsun ki, get evlən. Əsgər getməyəcəksən ki, qorxasan evdə tək qalar.

– Yox, Qənirə, mənimki onunla tutmaz...

Onlar mayaka yaxınlaşırdılar. İkinci mərtəbənin bu tərəfə baxan bütün pəncərələri açıq idi. Qənirə bundan qorxuya düşdü. Ona elə gəldi ki, pəncərələrdən atası da, mayakın o biri işçiləri də onların birgə gəldiklərini görürlər.

– Yaxşı, qayıt get. Atam görsə, yenə acığı tutar.

O, Sərdarın cavabını gözləmədən ulağı çubuqladı və düzən yolla gedən ulaq bu dəfə elə götürüldü ki, Qənirə cığ kollarının arası ilə onun dalınca qaçmağa məcbur oldu. O, qanrılıb, geri baxmaq istəmədi. Ona elə gəlirdi ki, Sərdar hələ də durub onun arxasınca baxır.

## 2

Axşamüstü, mayak hələ yandırılmamış, rəis bütün işçiləri (burada özü ilə birlikdə cəmi beş nəfər idilər) toplayıb, bugünkü qəzetdən Sovet Məlumat Bürosunun son xəbərini oxudu. Cəbhələrdə əhəmiyyətli bir dəyişiklik baş verməmişdi. Sovet qoşunları bir neçə rayon mərkəzini ələ keçirmişdilər. Sonra atası aşağı enib tövlədə atı və ulağı yemlədi və yuxarıya, növbəyə qalxdı. Qənirə ertədən otağına çəkildi. Bütün qışı peçi yandırılmamış otaqdan rütubət hələ də çəkilməmişdi. Qənirə pəncərəni açdı. Aşağıda, həyətdə yenicə çiçəkləmiş



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

yasəmənin xoş ətri otağa doldu. Bundan elə bil qızın başı hərləndi. Çarpayısına uzanaraq qollarını boynunun ardında çarpazladı. Gözlərini yumdu. Əzgin və yorğun olsa da, yuxusu gəlmirdi. Gözlərinin qarşısında qırmızı, qara dairəciklər oynaşırdı. Onlar gah birləşir, gah ayrılır, rəngdən rəngə düşürdülər, sonra da lap xırdalaşaraq, birdənbirə yoxa çıxırdılar. Qənirə bunu ancaq yorğunluğu ilə izah edirdi. Dizləri də sızlayırdı. Ayaqlarının altı dəmrov düşmüş kimi qaşınırdı. Həmişə piyada gedib-gələndə belə olurdu. Kəndin içi ilə, ya da kənd yolu ilə gedərkən çox nadir hallarda ulağın belinə qalxardı. Çünki kənd cavanları onu ulağın üstündə görəndə həmişə gülüşər, məsxərəyə qoyardılar. Bu gün Sərdarla rastlaşması da ağır bir daşa dönüb ürəyindən asılmışdı. Onun cibindəki məktubu göstərməsi heç yadından çıxmırdı. Deməli, qız yenə də onun həsrəti ilə yanır, ona qovuşa biləcəyi ümidi ilə yaşayır. Halbuki Qənirə istəsəydi asanlıqla onun yerini tuta bilərdi. Sərdar onun bircə təbəssümünə, bir baxışına bənd idi. Hələ o zaman ona meyil saldığını bildirsəydi, bəlkə də indi ailə qurmuşdular. Heç olmasa əri müharibənin axırınadək, müharibədən sonra da, həmişəlik yanında olardı. Sərdarın sağ əlinin dörd barmağı maşın ağzında qaldığından ömürlük ordudan azad idi. Daha oturub Yavərin yolunu belə əzab və iztirabla gözləməzdi. "Nə üçün mən səfeh ona meyil saldığımı o zaman bildirmədim? Bircə kəlmə sözümlə həmişəlik xoşbəxt olacaqdım" – deyə düşündü. Gözlərini açdı. Otaq qaranlıqdı. Açıq pəncərədən içəri dolan axşam soyuğu bədənini üşütdü. Deyəsən dənizdə tufan qopmuşdu. Suların nəriltisi eşidilirdi. Qalxıb, pəncərəni örtdü. İşığı yandırıb, kitab oxumaq istədi. Ancaq ona elə gəldi ki, yuxu artıq onun göz qapaqlarını ağırlaşdırıb. Buna görə də soyunub təzədən yatağına uzandı. Gözlərini yumdu. Yenə də halqacıqlar gözlərinin qabağında yığılıb, açılmağa başladı. Düşüncələri də üst-üstə qalandı. Gah Yavər, gah Sərdar elə bil qapının dalından növbə ilə boylanaraq, ona baxırdılar. Sonra da hər ikisi vitrinaya qoyulmuş manekenlər kimi yerlərində quruyaraq, yavaşdan pıçıldadılar:

"Hə, niyə durubsan, seç! İkimizdən birini seç! Hansımız yaxşıyıq?"

Bu nədir? Qənirə elə bil doğrudan da onların səsini eşidirdi. Onlar burada, qaranlıq otağın harasındasa gizlənib onunla gizlənqaç oynayırdılar. Qənirə vahimələndi. Gözlərini açaraq, nəzərlərini qaranlıqda güclə seçilən əşyaların üzərində gəzdirdi. Qaranlıqda hər



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

şey sakit və dilsizdi. Otaqda da özündən başqa heç kim yox idi. Yalnız pəncərələrin arxasından coşmuş dənizin uğultusu eşidilirdi. Arasıra şüşələr silkələnirdi. Birdən dəhlizdə gurultu qopdu. Onun dalınca da Vasilinin arvadı Anastasiyanın gileyli səsi gəldi. Əlindən nə isə gumbultu ilə yerə düşmüşdü. Sonra yenə də sakitlik çökdü. Yenə də Sərdarla Yavər. Sərdar gülümsəyirdi. Yavər isə çox qüssəli idi. Sərdar, sanki, onun acığına üzünü Qənirəyə tutaraq, bərkdən deyirdi: "Mənim gözüm səndədir". Sərdarın bu öcoşkən sözlərindən Qənirə sarsıldı. "Yalan deyirsən! – deyə qeyri-ixtiyari elə çığırdı ki, öz səsinə diksindi. – Sən nə bilirsən ki, mən səninlə xoşbəxt olacağam?.. Yox, heç zaman. Xoşbəxtliyi axtaran çox olub, ancaq o, hər zaman gəlməyib. Bədbəxtliyi isə gözləyən olmayıb, heç zaman. O özü gəlir... Əgər sən xoşbəxtliyə belə arxayınsansa, get, onu səndən ötrü özünü öldürmək istəyən qıza ver, məktubunu cibində gəzdirdiyin qıza. O məktubu mənə göstərməkdə niyyətin nə idi? Güman edirdin ki, qısqanacağam? Ya sənin gözəlliyin qarşısında gözlərim qamaşıb, təslim olacağam? Yox! Get, öpüşlərinlə, isti qoynunla səadəti ona ver. Mənim səadətim isə hələ yaş səngərlərdə, qanlı çöllərdədir. Burada mən intizar olsam da, həsrət içində qalsam da, o vardır. Demək mənim tale quşum da bir gün gələr ki, pərvazlanar. Sən mənə gülürsən, bilirəm. Sən müharibənin o dəhşətlərindən azadsan, məhəbbət də sənin arxanca bir kölgə kimi sürünür, sən istədiyin gün, istədiyin saat xoşbəxt ola bilərsən, çünki bu xoşbəxtlik sənin öz əllərindədir. Mənim xoşbəxtliyim isə toplardan, güllələrdən asılıdır. Ona hər dəqiqə güllə dəyə bilər... "Belə qarışıq, dumanlı düşüncələr içərisində o, yuxuya getdi. Ancaq gecə yarısından xeyli ötmüş mayakdakı hənirti və vurnuxmaya yuxudan ayıldı. Əvvəlcə geyinib çıxmaq istədi. Atasının həyəcanla Vasiliyə nə isə dediyini eşidirdi, ancaq sözlərini ayırd edə bilmirdi. Çarpayıdan düşüb, soyuq döşəmənin üstü ilə qapıya yaxınlaşdı və dəhlizdəki söhbətə qulaq verdi. Onu başa düşdü ki, elektrik xətti qırılıb, mayak sönmüşdür. Belə hallar tez-tez baş verirdi. Bərk xəzridə harada isə kənd içində elektrik xətti qırılır və mayak işıqsız qalırdı. Özü də belə fırtınada. Dənizdə hər cür fəlakət baş verə bilərdi. Elektrik işığını tez asetilenlə əvəz etmək lazımdı. Ancaq asetilen balonları da tamam boşalmışdı. Əlac belə hallarda kerosinlə yanan otuzluq lampaya qalırdı. Bir azdan dəhlizdə hənirti kəsildi. Qənirə



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

şüşələri hələ də silkələnən pəncərəyə yaxınlaşdı. Sağ tərəfdə dənizin üzərinə yayılan zəif işıq şüalarından başa düşdü ki, mayak yandırılmışdır. Doğrudur, otuzluq lampa ilə işığın gücü zəif olurdu. Ancaq fərqi yox idi: təki gəmilər xətərli yerdə işıq şüası görsünlər.

Soyuq döşəmənin üstündə Qənirənin yalın ayaqları üşüdü. Tez yatağına atıldı. Yorğanı başına çəkdi, qıçlarını qatlayaraq, nəfəsi ilə yatağını isindirdi.

## 3

O gün Vasilinin kefi kök idi. Qoşunlarımız Sevastopolu düşməndən geri almışdılar. Şəhərin düşmən tərəfindən tutulması Vasiliyə böyük dərd olmuşdu. Özü də onun müdafiəsində iştirak etmişdi. Ancaq döyüşlərdən birində yaralanmış və sağ ayağının bütün barmaqlarını itirmişdi. Hospitaldan çıxandan sonra isə onu Amburan mayakına rəis göndərmişdilər. Buna görə də indi Sevastopolun geri alınması xəbəri onun üçün əziz bayram olmuşdu. Lap uşaq kimi atılıb-düşürdü. O gün mayakın "Yupiter" adlı *atını minərək, heç bir* söz demədən, şəhərə getdi. Axşama yaxın qayıtdı. Hava isti olduğu üçün, qayıdan baş təkcə zolaqlı dənizçi köynəyində idi. Bir azdan onların otağından Anastasiyanın giley-güzarı eşidildi:

– Demək, şəhərə bu zəhrimar üçün getmişdin? Başa düş ki, sən burada rəissən. Sən belə eləyəndə, gör başqaları nə elər.

Vasili yavaşca danışırdı:

– Axı mən nə pis iş tuturam? Kimə mane oluram?

Bir azdan o, dəhlizə çıxdı. Sonra azca səndirləyə-səndirləyə pillələrlə aşağı endi. Quyunun yanındakı əncir ağacının altında oturdu. Ancaq burada da qərar tutmadı. Tövləyə keçdi. Tövlənin qapısı açıq qalmışdı. Bir azdan Qənirə orada Vasilinin qırıq-qırıq dediyi sözləri eşitdi:

– Eh, "Yupiter", "Yupiter", kaş sənin dilin olaydı...

Onda məni başa düşərdin. Anastasiya məni başa düşmür və başa düşmək də istəmir. Sevastopolu bizimkilər geri alıblar. Heç bilirsən bu nə deməkdir? Yox, sən başa düşməzsən, "Yupiter". Çünki sən bizim dilimizi başa düşmürsən, insan dilini. Başa düşsəydin, bilərdin ki, bu nə deməkdir. Anastasiya başa düşmür. Sevastopolu aldıq,



Created with
nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

demək, qalib gəldik – bir şeydir... Bilirəm, indi Qleb, İvan, Nikita necə sevinirlər... Biz Sevastopoldan çıxanda Nikita uşaq kimi ağlayırdı. Sən elə bilirsən ki, mən ağlamırdım? Mən də ağlayırdım. Kaş ayağım belə olmayaydı. Mən də indi Sevastopola girənlərin sırasında əyilib torpağından öpərdim. İnanmırsan? Vallah öpərdim, "Yupiter", Anastasiya məni başa düşmür. Deyir sən rəissən, içməyə ixtiyarın yoxdur... Eh, kaş ayağım belə olmayaydı...

Vasili danışırdı, "Yupiter" isə başını aşağı dikib, hərəkətsiz durmuşdu. Elə bil ki, Vasilinin sözlərindəki hüznü, sevinci o da duyurdu... Bu zaman yuxarıdan Anastasiya onu səslədi:

– Ey, Vasil, orada nə eləyirsən?.. Qalx yuxarı!..

Vasili cavab vermədi. O, atın yalını qucaqlayıb, hərəkətsiz qalmışdı.

– Vasil, Vasil, səninləyəm axı? Niyə cavab vermirsən? – deyə Anastasiya təkrar onu çağırdı.

Vasili nəhayət yenə səndirləyə-səndirləyə tövlədən çıxdı. Pillələri ağır-ağır qalxdı. Qənirə Vasilini belə halda heç görməmişdi.

Aşağıda həyət darvazası döyüldü. Qənirə enib qapını açdı. Atası idi. Kənddəki evlərinə baş çəkməyə getmişdi. Onun bığaltı qımışmasından Qənirə dərhal başa düşdü ki, atasında təzə xəbər var.

– Ata, sözlü adama oxşayırsan? – dedi.

– Yavərdən kağız gəlib.

– Doğrudan? – deyə Qənirə sevinclə səsləndi.

Məktubu atasından alaraq, pillələri yuxarı qalxdı. Öz otağına çəkildi. Hava artıq qaralırdı. Gün bütövlüklə dənizin arxasına enmişdi. Ondan yalnız çəhrayı bir rəng qalmışdı. Dərgah kişi tövləyə keçdi. Atı və ulağı yemlədi. Sonra quyunun yanına gəldi. Bir neçə vedrə su çəkib, həyət-bacanı suladı.

Yuxarı qalxanda Qənirənin qapısını çəkili gördü. İçəridən hönkürtü eşidilirdi. Qapını döydü. Qənirədən cavab çıxmadı. Dərgah nigarançılıqla içəri keçdi. Qənirə üzüüstə çarpayısına uzanıb ağlayırdı. Məktub da otağın ortasında yerə atılmışdı. Atasının içəri girdiyini hiss edən qız qalxdı, yatağında başını əlləri içərisinə alıb, təzədən hönkürtü ilə ağlamağa başladı. Qocanın ürəyi düşdü:

– Nə olub, a bala? – özünü ələ alıb, soruşdu.

Qənirə ağlamağına ara vermirdi. Dərgah kişi əyilib, əlləri əsə-əsə məktubu yerdən qaldırdı. Qatı açılmış bu əl boyda kağız pəncərədən



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

düşən çəhrayı rəngə bulaşaraq qanda islanmış kiçik bir yaylığı xatırladırdı. "Demək, bədxəbər qohum-qardaşdan qurtarıb, indi mənim qapımı döyür, – deyə qoca fikirləşdi. – Mən isə onu sevinə-sevinə gətirmişdim. Deyirdim ki, Allaha şükür, hələlik sağ-salamatdır, səsi gəlir... Demə sən saydığını say, gör fələk nə sayır".

O, məktubu barmaqları arasında möhkəm sıxaraq, qızının çarpayısına yaxınlaşdı. Cod əlləri ilə Qənirənin saçlarını tumarlamaq və ona təsəlli vermək istədi, ancaq səsi çıxmadı. Otaqda yalnız xırıltılı bir nəfəs eşidildi. Boğazında yumaq kimi bir şey ilişib qalmışdı. Qənirə başını qaldırdı. Atasının, əlində məktub, başı üstündə durduğunu gördükdə məktubu hirslə onun əlindən aldı.

– Qorxaq! – deyib, kağızı balışının altına dürtdü. Sonra yaşı hələ qurumamış gözlərini atasına zillədi. – Görərsən, ata, o sağ-salamat qayıtmayacaq.

Qoca rahat nəfəs aldı:

– Demək sağ-salamatdır. Mən elə bilirdim ki...

Qənirənin qaysaqlanmış dodaqları titrəyirdi. O, atasının sözünü ağzında qoydu:

– Nə olsun ki, sağdır. Sabah bir də görəcəksən xəbər gəldi ki, ölüb.

Atası qızına kəkələndi:

– Ağzını xeyirliyə aç, a qız!

– Mən xeyirliyə açsam da, o, qayıtmayacaq. Bilirəm ki, qayıtmayacaq! – Qənirənin əsəbləri sim kimi gərilmişdi, bədəni əsirdi. – Qorxaqların axırı ölümdür, heç görübsən ki, bir qorxaq oradan sağ-salamat qayıtsın? Utanmır bir mənə də yazır.

– Nə yazır ki, bir ağıllı-başlı desənə.

– Nə yazacaq? Yazır ki, bu kağızı yazanda əllərim əsir. Sabah döyüşə gedəcəyik. Görsən buralarda nələr olur, dilin tutular... Dilim tutular? – deyə istehza ilə təkrar etdi. – Öz dilin tutular, sənin kimilərin dili tutular. Kağızın üstündə ləkələr də var. Yəqin kağızı yazanda ağlayıb da. Adını kişi qoyub!

Atası yenə ona kəkələndi:

–Ağzını yum, a qız! Gədə odun-alovun içindədir, dalınca gileylənmə. Nə olur-olsun, təki sağ-salamat evinə qayıtsın.

– Yox, beləsi sağ qayıtmayacaq. Birinci güllə elə ona dəyəcək. O əvvəlcə qorxaqları axtarıb tapır. Əlinə fürsət düşsə, faşistin lap



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

ayağına da yıxılar. Canını qurtarmaq üçün. Bizi də biabır eləyər. Bundansa düşmən gülləsindən ölməyi yaxşıdır.

– Sən də çox qəddar olma. Yavər o qədər də qorxaq deyil.

– Görərsən, ata. Mən onun kağızından hər şeyi başa düşürəm. O, kişilər görməyib! Gəlib bir Vasilinin sözlərini eşidəydi. Görərdi ki, kişi kimi vuruşmaq istəyən necə olar...

Dərgah pəncərədən bayıra baxdı, sonra qızını tələsdirdi:

– Dur daha. Mayakı yandırmaq vaxtıdır.

O, qızının otağından çıxdı. Anastasiya dəhlizdə bişir-düşürlə məşğuldu. Vasili görünmürdü. Dərgah öz otağına keçdi. İşığı yandırmaq istəmədi. Dizlərini qucaqlayıb, oturdu. Qənirədən eşitdikləri onu götürmüşdü. Nə qədər belə oturduğunu özü də bilmədi. Qənirə onun yanına gələrək çayniki kerosinkanın üstünə qoyduğunu xəbər verdikdə qoca özünə gəldi. Qənirə heyrətlə soruşdu:

– Bəs qaranlıqda niyə oturubsan? İşığı yandırsana...

– Belə yaxşıdır.

O, qollarını yerə dayaq verərək, ayağa qalxdı.

## 4

Sakit bir gecə idi. Dəniz də aram-aram uğuldayırdı. Qənirə qüllədə növbədə idi. Mayakın işığı gecənin zil qaranlığını yayaraq, bu zülmət içərisinə işıq ziyası yaydığı zaman Qənirə özünü dilsiz gecənin sinəsində yaranmış işıq səltənətində hiss edirdi. Bu zülmətli səssizlik içərisində bir işıq ziyası idi, bir də o. Aşağıda isə dəniz yuxuya getmişdi. Zülmətli göylə qovuşmuş dəniz. Belə gecələrdə göyün harada başladığını, dənizin isə harada bitdiyini müəyyən etmək çətindi. Sağda qaranlığa qərq olmuş doğma kəndləri də mürgü vururdu. Mayakdakılar da yatmışdılar. Təkcə o, bir də işıq oyaqdı. Yol göstərən, yol arayan bu xeyirxah işıq.

Qənirənin nəzərləri dənizin üzərinə qara məxmər kimi döşənmiş gecəyə zillənmişdi. Bu dəqiqələrdə onun gözlərinin qarası ilə gecənin qaranlığı qovuşmuşdu bir-birinə. Bir azdan cənub tərəfdən xırdaca titrək işıqlar göründü. Getdikcə böyüdülər, saflaşdılar. Gəmi idi. Sonra yenə beləcə titrək işıqlar yenə də böyüdülər, muncuq kimi sapa düzüldülər. Gəmilər bir-birinin dalınca gəlirdilər. Müharibə



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

başlanandan gəmilər belə aram tapmadan, gecəni gündüzə qataraq, Mahaçqalaya hərbi sursat daşıyırdılar. Burada da qatarlara yüklənib, birbaş cəbhələrə yola salınırdı. Qənirəyə elə gəldi ki, bugünkü gəmilərlə daşınan sursat məhz Yavərin vuruşduğu hərbi hissə üçün gedir. Ona görə də gəmilərin belə ləng üzmələrinə qəzəbi tutdu. Əgər o kapitan olsaydı, gəmiləri quş kimi uçurardı, küləkdən, qasırğadan qanad borc alıb, taxardı onlara... Qənirə sağ tərəfdə qaranlığa qərq olmuş doğma kəndlərinə baxdı. Bircə işıq da gəlmirdi. Ancaq bu aldadıcı sükut idi. Müharibə yaralamadığı ev qoymamışdı. Yuxular da səksəkəli idi. Xəyalları onu uşaqlığın qayğısız, şıltaq illərinə çəkib apardı... İndi qapısı bağlı qalmış eyvanlı evlərinin, çətirli əncir ağaclarının sərin kölgəliklərini nə əvəz edə bilərdi? Hər baharda qaranquşların yuva qurub, yumurta qoyduğu, sonra da bu yuvalardan zəif civiltilər eşidilən eyvanlarında, ya da əncirliklərin sərin kölgəliklərində onun xəyalları qalmışdı, xatirələri qalmışdı.

Yavərlə ilk görüşdüyü illəri daha aydın xatırlayırdı. Birdən dənizin üzərinə sərilmiş qaranlığın içərisində yenə də Yavərlə Sərdarı gördü. Hərəsi bir tərəfdə durmuşdu: üzbəüz. Sərdarın sifəti günəşdən qarsalansa da, əvvəlki kimi gözəldi. Yavər isə yenə də kədərli idi. Özü də deyəsən kövrəlmişdi, gözləri elə bil yaşarmışdı. Birinci Sərdar dilləndi: "Hə, Qənirə, seç. İkimizdən birini seç. Sonra gec olar. Çünki yenə məktub almışam, cibimdədir. Bir də axı özün şahid oldun ki... "O nə isə demək istəyirdi, ancaq hiss olunurdu ki, Yavərdən çəkinir. Yavər onun nə demək istədiyini dərhal başa düşdü: "Qənirə, bilirsən, o demək istəyir ki, mən qorxağam... Nəyi gözləyirsən? Seç. İndi hər şey sənin üçün aydındır. Əlbəttə, o sənə daha yaxındır. Həmişə də yanında olacaq, müharibənin buradakı dəhşətlərini görməyəcək. Niyə ləngiyirsən, atıl boynuna!.."

Birdən elə bil dəhşətli tufan qopub, hər şeyi sovurdu. Yavərlə Sərdarın surətləri namütənahi bir boşluğun içərisində yox oldu. Bir zil gecə qaldı və bir də uzaqlaşan gəmilərin gözqırpan işıqları. Daha o heç bir şey xatırlaya bilmədi. Elə bil onu mühakimə qabiliyyətindən məhrum etdilər.

Bir azdan isə səhər açılmağa başladı. Göyün üzü kül rəngi almışdı. Dənizin arxasından yayılan çəhrayı rəng suların tünd maviliyini tədricən qırmızı rəngə boyayırdı. Kənddən xoruzların ilk banı eşidildi.



Created with nitro PDF professional
download the free trial online at nitropdf.com/professional

## 5

Bir həftədən çox idi ki, o, Ərkinazdan xəbər tutmamışdı. Axırıncı dəfə onlara baş çəkəndə uşaqlarından biri xəstə idi. Bu gün sahilə dənizotu üçün getməmişdən əvvəl Ərkinaza dəymək istədi. Atası onun kağız parçasına nə isə bükdüyünü gördükdə gileyləndi:

– Yenə boğazından kəsib aparırsan? Belə getsə lap üzülərsən ki.

– Mənə heç nə olmaz. Onun isə iki körpəsi var. Çörəklərini çatdıra bilmir. Oradan da sahilə gedəcəyəm. Srağagünkü fırtına, yəqin ki, çoxlu dənizotu vurub çıxarıb. Gedim bir az da gətirim. Sənin döşəyin lap süzülüb.

Atası daha bir söz demədi, ancaq başını buladı. Qənirə ulağı qabağına qatıb, kəndə endi. Aşağı endikcə sübh dumanı çəkilirdi. Yuxarıda mayakın binası isə hələ də dumana bürülü idi. Qənirə kəndin kənar evlərinin böyründə ayaq saxlayıb, yuxarıya, mayaka baxdı. Bina ona çox qəribə göründü. Sanki birinci dəfə idi ki, o, qayalığın başında quş yuvası kimi qonmuş mayak binasını görürdü. O, Qənirəyə romanlarda oxuduğu qədim qəsrləri xatırlatdı. Dörd tərəfdən hasar içərisinə alınmış bina, böyründən yüksələn fənər qülləsi, oraya qalxan ensiz cığır ona hətta yad kimi göründü. Sol tərəf sıldırım dərə idi. Qayadan qopmuş iri parçalar sahildən bir az aralı qumsallığa batıb qalmışdı. Kəndin arvadları yayın isti aylarında xalça-palazlarını dənizdə yuyub bu qaya parçalarının üstündə qurudardılar. Arxadan kimsə onu səslədi:

– Ay qız, niyə baxırsan? Yoxsa mayakın yolunu azmısan?

Bu, Mürsəl kişi idi. Qənirə bilmədi ki, nə cavab versin. Nə deyəydi axı? Deyəydi ki, mayak ona qəribə gəlir, ya da o orta əsr qəsrlərinə oxşayır? Mürsəl kişi üçün bu sözlərin heç bir mənası yox idi. O, ağzını açıb Bəbirdən xəbər tutmaq istəyirdi ki, qoca özü onu qabaqladı:

– Xəbərin var ki, Bəbirdən məktub gəlib?

– Doğrudan? Nə yazır?

– Demə yaralanıbmış. İndi yaxşıdır. Yazır ki, iyirmi gündən sonra onu bir aylığa evə buraxacaqlar. Deyirlər qəzetlərdə də onun barəsində yazılıb. Uşaqlar getdilər qəzet dalınca.

– Bəs yanına heç kəs getmir?

– Kim gedəcək, a bala? Hamının işi-gücü. Özünün yazdığına görə dizindən yaralanıb, indi yarası yaxşıdır.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Qənirə köksünü ötürdü. Bir istədi desin ki, qoy nişanlısı getsin də. Ancaq demədi. Öz-özlüyündə fikirləşdi ki, əgər Yavərdən belə bir xəbər gəlsəydi, çoxdan quş kimi onun yanını kəsdirmişdi.

Mürsəl kişi ayrılıb bostanlara tərəf getdi. Qənirə Bəbiri xoş bir hisslə xatırladı. Onlar uşaqlıqdan bir yerdə böyümüşdülər. Kənddə evləri yanaşı idi. İki evin bir həyəti vardı. Hər iki evin uşaqları bütün günlərini evlərinin arxasındakı hündür qum təpəsinin üstündə keçirərdilər. Hava qaralanadək, hətta ay işığında da o, Bəbir və Bəbirin kiçik qardaşları narın qumun üstündə uzanıb, göydəki ulduzları sayardılar. Evlərdən, həyət-bacalardan hənirtilər kəsilərdi, onlar isə yorulmazdılar. Hey sayardılar. Bəbir onlardan üç-dörd yaş böyük idi. Ona görə də hamıdan çox və hamıdan yeyin o sayardı. Uşaqların evə qayıtmadıqlarını gördükdə anaları Bəbirgili səslərdi. Bu zaman Qənirə də evlərinə qayıtmağa məcbur olardı. Atasını bu vaxtlar adətən, yatmış görərdi... Ah, uşaqlıq illəri, siz nə tez ötüb keçdiniz!.. İndi Bəbir igid olub. Adı qəzetlərə düşüb.

Qənirə bu fikirlər içərisində gözünü yumub-açınca özünü Ərkinazgilin qapısında gördü. Həyət qapısı açıq idi. İki oğlan uşağı hovuzun yanında oynayırdı. Qənirə: "Şükür ki, uşaq yaxşıdır" – deyə onlara yaxınlaşdı. Kiçiyinin pırtlaşıq saçlarını ovxaladı:

– Ananız evdədir?

– Evdədi, Qənirə xala.

Səsə Ərkinaz özü evdən bayıra çıxdı. Qənirəni görəndə sevindi:

– Harada itib-batmısan, ay qız? – dedi. – Bilirsən necə nigaran qalmışdım? Dedim, qızın başında yəqin bir iş var ki, bizi belə yaddan çıxarıb. Vallah, işdən də göz aça bilmirdim ki, mayaka gəlib, xəbər tutaydım.

– Buradakılardan nə nigarançılıq? Oradakılardan nigaran qalmalıyıq ki, odun-alovun içindədirlər.

– Yenə olsun da.

Qənirə kağıza bükülü çörəyi stolun üstünə qoydu. Ərkinaz dil-ağız elədi:

– Ay qız, yenə gətirmisən?! Vallah, onu yemək heç insafdan deyil. İndi hərənin çörək payı güclə çatır. Boğazından kəsib gətirirsən...

Qənirə Ərkinaza macal vermədi:

– Yaxşı, yaxşı bəsdir. Götür. Körpələrə ver. Bizim payımız artıqlaması ilə çatır. Bu gün nə əcəb evdəsən?



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Bir az göyərti əkmişəm. Arada gəlmişəm ki, onları sulayım. Bəlkə bir neçə gündən sonra apardım şəhərə satmağa. Əgər taygöz Cəbi icazə versə.

– Bəs sənin vəziyyətini görmür? İnsafı olsun da. Arada bir gün icazə versin.

– Allah onun insafını kəssin. Onun umacağı böyükdür, başa düşürəm.

– Yoxsa?.. – Qənirə mənalı nəzərlərlə Ərkinaza baxdı.

Ərkinaz başı ilə onun sözünü təsdiq etdi:

– Hm. Ancaq qulağının dibini görəndə istəyinə çatar. Taygöz əclaf! O gün mənə deyir ki, səhər tezdən şitilliklərə get. Oradakı badımcan şitillərini çıxarıb yeşiklərə yığ. Mən də getdim. Orada məndən başqa heç kim yox idi. Bir də gördüm ki, özü gəldi. Şitilliyə keçib, məni də çağırdı. Onun tay gözünün baxışından niyyətini başa düşdüm. Kərkini əlimə alıb qulayladım, dedim ki, qədəmini qabağa bassan kəlləni yararam!.. İndi bu əhvalatdan sonra deyirsən icazə verər? Vallah, sədr Kərimə desəm, dədəsini yandırar.

– De də. Niyə demirsən?

– Elə bilirsən demək asandır? Ona nə var ki? Mən biabır olacağam. Söz-söhbət kəndə yayılacaq.

– Biz arvadların bədbəxtliyi də elə bundadı. Nə olursa örtbasdır eləyirik ki, dilə-dişə düşməyək.

– Adlarını kişi qoyublar.

– *Sən onlara kişi deyirsən? Onlar kişi olmayan yerdə kişidirlər.* Əsl kişilər orada vuruşurlar.

Onun bu sözlərindən Ərkinaz kövrəldi. Qolu ilə gözlərini sildi.

– Murad burada olsaydı, o taygözün ağzı nə idi, mənə yaxın düşəydi! Onu yeddi parça elərdi.

Ərkinaz hovuzun dövrəsindəki göyərtini sulamağa başladı. Əyilib, suyun başını döndərə-döndərə, altdan-yuxarı Qənirəyə baxdı:

– Ay qız, təzə xəbər eşitmişəm, doğrudur?

– Nə xəbər?

– Deyirlər sən Yavərin gəlməsini gözləmirsən, Sərdara gedirsən.

– Onu kim deyir?

– O gün arvadlar iş üstündə danışırdılar. Mən ağızlarından vurdum.

– Boş sözdür. Sərdara gedən olsaydım, çoxdan getmişdim.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Ancaq öz aramızdır, deyəsən, axı onu istəyirsən?

Qənirə çiyinlərini çəkərək qımışdı:

– Nə olsun ki, istəyirəm. Adam hər istədiyinə ərə gedər? Quş çox ağaca qonar, ancaq hər ağacda yuva qurmaz.

– Orası elədir.

Bayırdan, qapı ağzından ulağın səsi eşidildi.

– Hə, mən getdim, – deyə Qənirə tələsdi.

– Haraya gedirsən?

– Gedirəm bir az dənizotu gətirim. Atamın döşəyi lap tünükləşib.

– Tünük olar da! – deyə Ərkinaz tənə ilə ona baxdı. – Evdə yorğan-döşək qoydun ki. Hamısının yununu çıxarıb əlcək-corab toxudun.

– Bəs nə eləyəydim, Ərkinaz? Yun həmişə tapılır, insan ömrünü isə tapmaq çətindir. Keçənilki qışı gördün də! Evdə bizim əlayağımız donurdu, o ki, səngərdə ola. Xudahafiz. Mən getdim.

– Ay qız, bir dəqiqə ayaq saxla.

Bunu deyib, Ərkinaz evə keçdi. Bir azdan əlində kiçik bağlama gəldi:

– Al bunu.

– Nədir?

– Heç nə. Bir az əncir qurusudur. Atan üçün apar. İndi hamı qənd sarıdan korluq çəkir. Səhərlər çayla içər.

Qənirə bağlamanı almaq istəmədi.

– Uşaqların üçün qalsın. Lazım deyil. Bizə hər şey verirlər. Qənd də çatır.

Ərkinaz əl çəkmədi:

– Qənirə, vallah, aparmasan, inciyərəm. Atan üçün yaxşıdır. Bilirəm, siz keçən il əncir qurutmayıbsınız. Mənə çatar. Uşaqlar hər gün əncir yeyirlər. Sabah-biri gün təzəsi dəyəcək.

Qənirə Ərkinazgildən çıxanda hava bərk qızmışdı. Kənddən çıxıb, sahilə gedən qumsal yola düşdü. Bu tərəflərdə yol bağların arası ilə ilan kimi burulurdu. Hər dəfə bağların miskin görkəmini görəndə ürəyi sıxılırdı. Evlərin bütün qapı və pəncərələri çıxarılmışdı, damları uçmuşdu. Hamısını müharibənin iki sərt və soyuq qışında odun əvəzinə yandırmışdılar. O zaman mayakda da odun qurtardıqda şəhərdən icazə vermişdilər ki, mayakdakı bütün artıq mebeli yandırmaq olar. Alçaq daş hasarların üstündən bağların təpil-



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

məmiş, alaq basmış həyətləri də görünürdü. Yarpaqlanmış tənəklər hündür alaq otlarının içərisində itib batmışdı. Bağlar yiyəsiz, sahibsiz qalmışdı. Onları təpdirmək üçün işçi qüvvəsi çatışmırdı. Hasarların diblərinə yığılmış qum təpələrinə bir qəriblik qonmuşdu. İnsan səsləri, uşaq çığırtıları, qız gülüşləri, sanki, havada donub qalmışdı. *Təkcə mavi göy, həmişə bu aylarda olduğu kimi, şəffaf və aydın idi.* Yenə də onun dərinliyində bir-iki ağ bulud süzürdü. Bu mavi qübbə də başları üstündə olmasaydı, onlar nə edərdilər? Durnalar da bu il səssiz-səmirsiz qayıtmışdılar. Dərdmənd idilər. Uçuşlarında sanki hüzn vardı. Uçmuş damlardan, sönmüş ocaqlardan Qənirənin ürəyi sızıldadı. Ona qalsaydı, indicə bu bağlardan birinə girər, doyunca ağlardı, ürəyini boşaldardı. Körpəliyindən sazlı-kamanlı gördüyü bu bağlar da indi onun ürəyi kimi boş və kimsəsiz qalmışdı.

## 6

Sahilin özünəməxsus iyi artıq yaxında duyulurdu. Ulaq başını aşağı dikib, nəm, yumşaq qumluqla irəliləyirdi. Ləpədöyəndə çopur qayalıqlara çatanda o, ulağın başını çəkdi. Burada yarıyadək suyun içində olan qayalıqlara çoxlu dənizotu ilişib qalmışdı. Qənirə ayaqqabılarını çıxardı və suya girdi. Dənizotularını çəngə-çəngə yığmağa başladı. Sonra onları sahildə qayalıqların quru hissəsinə sərdi. Tünd yaşıl, bəzən də açıq qəhvəyi rəngə çalan dənizotundan onun əl-ayağı bulaşmış, paltarı tamam islanmışdı. Ətəklərindən damcı-damcı su süzülürdü. Yaxınlıqda heç kəs nəzərə çarpmırdı. Buna görə Qənirə paltarını çıxardı. İndi dənizotunu yığmaq onun üçün daha asan oldu. Otları qucaq-qucaq yığıb günə sərirdi. İşini qurtarandan sonra sərinləmək üçün suya atıldı. İkinci xəndəyədək üzdü. Günəşin yandırmasına baxmayaraq su soyuq idi. Qənirənin tükləri ürpərmişdi. Uzaqdan kiminsə gəldiyini gördü və yaş paltarını tələsik əyninə çəkdi. Gələn Sərdar idi. Hələ yaxınlaşmamışdan Qənirə onun dişlərini ağardaraq güldüyünü gördü. Qız qayalığın üstünə qalxıb günə sərdiyi dənizotunun yanında oturdu. Çubuqla, yaxşı qurumaq üçün otu o yan-bu yana çevirdi. Sərdar yaxınlaşdı və salamlaşmadan qayanın üstünə qalxaraq Qənirənin yanında oturdu. Onun əynində limon rəngdə ipək köynək vardı. Sarı rəng onun sifətini elə bil daha da gözəlləşdirmişdi. Sarışın qıvrım saçları səliqə ilə yana



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

daranmış və kəsilmiş barmaqlarına təmiz qar kimi ağappaq tənzif sarımışdı.

– Bəs dənizdən niyə tez çıxdın? – Sərdar gözlərini qıyaraq gülümsədi.

– Bütün günü dənizdə qalmayacaqdım ki! Su da soyuqdur.

– Sən Ərkinazgildən çıxanı dalınca gəlirəm.

– Bəs niyə yaxınlaşmırdın?

Sərdar altdan-yuxarı məkrli baxışlarla Qənirəni süzdü:

– Onu deməzlər.

– Yəni bunda bir sirr var?

– İstəyirdim sən soyunub suya girəsən, mən də gizlindən sənə tamaşa edim. Kolun dibindən.

– Kolda qorxaqlar gizlənər.

– Cürətli olanları da yaxına buraxmırsan.

Onun bu sözlərinə Qənirə bərkdən, gözlənilmədən qəhqəhə çəkib güldü. Səsi naqafil açılmış güllə kimi qabaqdakı qayalıqlarda əks-səda verərək dənizin üzərinə yayıldı. Başlarının üstündə uçuşan qağayılar da səsə bərkdən çığırışdılar. Qız arxası üstə qayanın üstündə uzandı və qollarını başının altında çarpazladı.

– Mən inanmıram ki, bizim kənddə cürətli adam qalıb. Cürətlilər cəbhədə vuruşurlar.

Yaş paltar, qamaşan gözlərini yumub uzanmış Qənirənin əyninə elə yapışıb tarıma çəkilmişdi ki, qızın bütün bədəni – öcəşkənliklə qabarmış kiçik döşləri, dolu budları aşkar sezilirdi. Sərdar ehtirasla yanan gözlərini qarşısındakı gənclik cazibədarlığı ilə cilvələnən bu təravətli varlıqdan ayıra bilmirdi. Qənirə gözlərini açmadan soruşdu:

– Niyə səsin çıxmır? Yalan deyirəm?

Sərdar yenə dinmədi. O, oturduğu yerdə sehrlənmişdi. Qənirə gözlərini açıb, təəccüblə baxdı:

– Sənə nə olub, qaradinməz oynamağa gəlmisən?

Sərdar bu dəfə cavab vermək əvəzinə qollarını uzadıb onun belindən yapışdı. Qənirə onu özündən uzaqlaşdırdısa da, gözlərini onun günəşdən qarsalanmış sifətindən çəkmədi. Bir dəqiqəyədək o beləcə dinmədən susub baxdı. Sonra birdən və heç gözlənilmədən Sərdara sığınıb onun dodaqlarından öpdü. Sərdar karıxıb qalmışdı. Qız dodaqlarını onun dodaqlarından ayırandan sonra başını dizləri arasında gizlətdi. Bir azdan sonra onun yavaşdan ağladığını eşitdi.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Qənirə, sənə nə oldu? – deyə soruşanda Sərdar səsinin titrədiyini duydu. Bədənini elə bil titrətmə bürümüşdü. O, Qənirənin başını dizlərindən aralamağa çalışdı.

– Səninləyəm, Qənirə, niyə ağlayırsan?

Qənirə dinmədi.

Dəniz aramla uğuldayırdı. Ayaqlarının altında, qayaların yosunlu dibində kiçik ləpələr pıçıldaşırdı. Ətraf elə sakit idi ki, Sərdar şiddətlə vuran ürəyinin döyüntüsünü də eşidirdi. Qənirə başını hələ də dizləri arasında saxlamışdı.

– Qənirə, sənə...

O, sözünü tamamlaya bilmədi. Qənirə başını qaldırıb, yaşlı və qızarmış gözləri ilə qəzəblə ona baxdı:

– Nə var? Qənirə... Qənirə... Yoxsa elə güman eləyirsən ki, səni sevirəm, səndən ötrü dəli-divanəyəm? Yox, yox. Yooox! Mən səni sevmirəm. Eşidirsənmi, sevmirəm!..

Qənirə getdikcə səsini ucaldırdı. Sərdar heç bir şey başa düşmürdü. Qağayılar yenə də bərkdən çığırışırdılar.

– Səndən ötrü dəli-divanə olan var, get onun yanına. Niyə oturmusan, get. Yəqin ki, gözləri yoldadır... heç güman eləmə ki, mən səni sevirəm, öpdüm, demək sevirəm. Yox, qızlar öpdükləri hər adamı sevmirlər...

– Qənirə...

– Yox, heç nə eşitmək istəmirəm. Get, get onun yanına. Yəqin ki, məktubları yenə də cibindədir... Get, gecikərsən, özünü öldürər...

Sərdar yerindən tərpənmirdi. Qənirə qalxıb, ayaqlarını hirslə qayaya döyəclədi.

– Səninləyəm, get! Bu saat get!

Sərdar qayadan enməyə məcbur oldu. O, cığ kolları arasından çıxıb, kənd yoluna düşdüyü zaman dönüb arxaya baxdı. Qənirənin başı hələ də dizləri arasında idi.

## 7

Qızıl Ordu cəbhələrdə qələbə çaldıqca Vasilinin kefi durulurdu. Axşamlar qarmonunu əlinə alıb həyətə düşər və burada, əncir ağacının altında onu dilləndirərdi. Çaldığı mahnılarının hamısı qəmli idi. Gözəl də səsi vardı. Özü çalar, özü də oxuyardı. Çox kədərli idi



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

mahnıları. Onları dinlərkən Qənirə neçə dəfə kövrəlmişdi də. Qarmonun səsi hasarı aşaraq kəndin üstünə, daha aşağılarda axşamlar qərib və məhzun görünən sahillərə yayılardı. Mahnısız, nəğməsiz bu bahar axşamlarının heç ləzzəti yoxmuş! Mahnıda nə qədər güc olarmış! Elə bil insanın sinəsindən ürəyini çəkib çıxarır, onu qaldırır, quş qanadı kimi havalandırırdı. Vasilinin mahnıları həmişə döyüşlərdən, səngərlərdən danışardı. Həsrət, intizar bu mahnılarda dil açardı. "Eh, Vasili, Vasili, nə yaxşı mayakda sən varmışsan, – deyə Qənirə fikirləşirdi. – Yoxsa bu həyat dadsız, rəngsiz olardı". O, çalanda və astadan zümzümə edəndə həyətdəki əncir ağacı da sanki enli beşbarmaq yarpaqlarını sallayıb, dilsiz kəsilərdi, dinlərdi bu kədərli mahnıları. Qənirə bir neçə dəfə şahidi olmuşdu ki, Vasili oxuduğu mahnısına özü də kövrəlir, arabir yanaqlarında yaş damcıları da işıldardı. Bu axşam da o oxuyarkən Qənirə birdən onun susduğunu gördü. Yenə kövrəlmişdi. Bu zaman Anastasiya yuxarıdan onu səslədi:

– Vasil, bəsdir sızladın. Lap dəng olduq.

Qənirə indi inandı ki, Anastasiya doğrudan da ərini başa düşmür. Vasili öz gileyində haqlı imiş. "Eh, Anastasiya, sən doğrudan da onu başa düşmürsən. Get, kerosinkanın qabağında borşunu bula, onda işin olmasın, – deyə Qənirə təəssüflə Anastasiyanı özlüyündə məzəmmətlədi. – Onun dinən, yanan ürəyini söndürmə!"

Qənirə belə günlərdə çox zaman aşağı düşüb, Vasilinin yanında oturardı, onun nəfəsini yaxından dinlərdi. Qarmonun açılıb-bükülən qırçınlı boğazı, Vasilinin barmaqları altından çıxan ecazkar nəfəsi qızı ovsunlardı, xəyallarına bir təskinlik axıdardı. Vasili də qızın onun mahnılarından xoşlandığını hiss etmişdi. Buna görə o, yanında olanda daha həvəslə çalırdı. Bir dəfə qarmonunu çalıb qurtarandan sonra Qənirəyə dedi:

– Qoy müharibə bitsin, gör sənin üçün nə qədər çalacağam.

Həyət qapısı döyüldü. Qənirə qalxıb qapıya yüyürdü.

– Kimdir? – soruşdu.

– Mənəm, Qənirə.

Ərkinazın səsi idi. Qənirə qapını açdı.

– Ərkinaz, xeyir ola belə qaranlıqda?!

Ərkinaz içəri boylandı. Sanki, içəridə kənar adam olub-olmadığını yoxlayırdı.

– Bu gün növbədəsən? – soruşdu.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Yox. Nə üçün soruşursan?

Hiss olunurdu ki, o, nə isə demək istəyir, ancaq çəkinir.

– Bilmirəm, nə deyəcəksən, ancaq çarəm yoxdur.

– De, de. Bu nə sözdür.

– Əyər vaxtın varsa, istəyirəm bu gecə mənimlə qalasan. Tək qalanda xoflanıram... Səndən başqa da heç kəsə gümanım gəlmir.

– Bir şey olub ki?

– Elə bir şey yoxdur. Yolda danışarıq.

– Keç içəri. Bu saat.

Ərkinaz içəri keçib, quyunun yanında dayandı. Əncir ağacının altından Vasilinin səsi eşidildi:

– Qənirə, kimdir?

– Heç. Bacılığımdır. Dalımca gəlib.

Qənirə bunu deyib, yuxarı qalxdı. Atası qüllədə növbədə idi. Qız dolama pillələrlə yuxarıya, fənər binasına qalxdı. Atası sürahiyə söykənib fikrə getmişdi.

– Ata, mən gedirəm.

– Haraya? – Dərgah təəccüblə ona tərəf qanrıldı.

– Ərkinazdır, dalımca gəlib. İstəyir gecə onunla qalım. Tək yatmağa qorxur.

– Bu vaxtadək niyə qorxmurdu? İndi nə oldu ki, tək yata bilmir?

– Bilmirəm. Mənə pənah gətirib. Gedirəm.

– Ancaq tezdən qayıt. Ləngimə.

Qənirə aşağı endi. Haraya getdiyini Vasiliyə də dedi və bir rəis kimi ondan icazə aldı.

## 8

Onlar qaranlıqda cığırla büdrəyə-büdrəyə kəndə endilər. Qənirə səbirsizliklə gözləyirdi ki, Ərkinaz nədən qorxduğunu açıb söyləsin. O isə susurdu.

– Hə, danış görüm, nə olub? – nəhayət Qənirə özü onu dilləndirməyə məcbur oldu. – Sən başqa vaxt belə qaranlıqda evdən bayıra çıxmazsan.

– Vallah, Qənirə, deyilməli dərd deyil. Bu qənimə gəlmiş taygöz yenə başlayıb... Dünən axşamdan xeyli keçmiş gəldi. Uşaqlar



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

yatmışdılar. Onu görən kimi bədənim əsməyə başladı. Bildim ki, xeyirliyə gəlməyib. Nə qədər yalvardım ki, çıxıb getsin, qır-saqqız olub, ayağını kandardan çəkmədi. Qorxurdum qonşulardan onu görən olar. Sonra kənd içində adım vayqanlı çıxa. Axırda çarəsiz qalıb, dedim ki, sabah gələrsən, danışarıq. Bunu deyəndə də gümanım sənə idi. Bir azdan gələcək.

Qənirə alaqaranlıqda Ərkinazın burnunu çəkdiyini eşitdi. O, ağlayırdı.

– Yaxşı. Sakit ol.

Evə çatdılar. Ərkinaz həyət qapısını içəri tərəfdən bağlayıb gəldiyi üçün hasardan aşmalı oldu. Həyətə düşüb, qapını açdı. Ərkinaz uşaqları evdə tək qoyub bir yana getdikdə həmişə belə edərdi. İçəri tərəfdən qapının qullabısını vurar, özü isə hasardan küçəyə aşardı.

Uşaqlar evin bir küncündə bir-birinə sığınıb şirin yatırdılar. Ərkinaz onluq lampanın piltəsini bir az qaldırdı. Elektrik lampası tapılmadığı üçün iki aya yaxın idi ki, kerosinlə yanan lampadan istifadə edirdi.

– Bəs qapını açıq qoyaydın da.

– Dünən axşam da qapı bağlı idi. Hasardan aşmışdı.

Qənirə bərkdən danışmağa ehtiyat edirdi. Qorxurdu ki, uşaqları şirin yuxudan eləyə.

– Danış. Onlar səsə oyanan deyillər. Bərk yatırlar.

Ərkinaz otağın içərisində vurnuxur, çay tədarükü görürdü. Bir azdan iki stəkan çay süzüb stolun üstünə qoydu. Sonra bir ovuc əncir qurusu gətirdi.

– Qənirə, gərək bağışlayasan, – dedi. – Beş-altı gündür ki, qəndimiz qurtarıb. Kəblə Cəfər uşaqları da qəndi lap dəvə qiymətinə satırlar. Bir dişləməni bir manata. Bişirəndə də içinə o qədər kakao qatırlar ki, heç yemək olmur.

Qənirə dinmədi. Gələndə özü ilə qənd gətirməməsinə peşman oldu. Evdə bir neçə parça qənaət eləyib saxlamışdı.

Bir azdan evin qapısı silkələndi. Ərkinaz yavaşdan pıçıldadı:

– Odur.

– Dur, aç!

Ərkinaz qapını açdı. Cəbi başını əyərək içəri girdi. Əynində hərbi frenç vardı. Böyük olduğundan bədənindən torba kimi sallanmışdı. Ayağına uzunboğaz xrom çəkmə geymişdi. Başındakı şap-



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

kanın həddindən uzun günlüyü sifətinin burnundan yuxarı hissəsini tamam örtürdü. Görünürdü ki, küçədə tanınmamaq üçün belə etmişdi. O, Ərkinaza baxıb, qımışdı. Lakin lampanın zəif işığında Qənirəni görən kimi, karıxdı və tez geri qayıtmaq istədi. Qənirə ona geri dönməyə imkan vermədi:

– Cəbi dayı, gəl, gəl. Bu gecə vaxtı hara qayıdırsan? Əgər evdəkilərə görə deyirsənsə, mən gedib xəbər verərəm ki, sən buradasan, nigaran qalmasınlar.

Ərkinaz Cəbini tanıyan gündən onun belə vəziyyətə düşdüyünü heç görməmişdi. Həmişə çığırıb-bağıran, əmr verən, arvadların üstünə yerli-yersiz çımxıran Cəbi indi astanada aciz, məzlum bir vəziyyət almışdı. Yumruq boyda olan hülqumu çənəsinin altında qalxıb düşürdü.

– Bax, buna deyərəm əsl briqadir, – deyə Qənirə Ərkinaza tərəf döndü, – gecə də olsa, gəlib əsgər ailəsinə baş çəkir, yoxlayır. Bunu gərək sədrə xəbər verim. Kərim dayı bilsə ki, briqadiri belə iş görüb, çox sevinər. Hə, Cəbi dayı, sevinməz?

Cəbidən cavab çıxmırdı. Duruxub qalmışdı. Hərəkət edən iri hülqumu görünməsəydi, adama elə gələrdi ki, o stolbnyak xəstəliyinə tutulmuşdur. Qənirə öz həmləsinə ara vermirdi.

– Cəbi dayı, danışsana! Bir hal-əhval tut, uşaqlarını soruş. Gör nəyə ehtiyacı var. Nəyi çatır, nəyi çatmır.

Ərkinaz briqadirin belə halından narahat oldu. Qorxdu ki, onun evində Cəbinin başına bir iş gəlsə, kənd camaatının üzünə baxa bilməz. Əyilib Qənirənin qulağına pıçıldadı:

– Ay qız, bəlkə doğrudan ona nə isə olub? Axı, niyə belə quruyub qalsın?

Qənirə cavabında bərkdən səsləndi:

– Doğru deyirsən. Bəlkə xəstələnib? Mən gedim Məsmə həkimi çağırım.

O, guya yerindən qalxaraq, getmək istədikdə, Cəbinin dili açıldı:

– Lazım deyil. Gedirəm.

Cəbi yenə başını əyərək, bayıra çıxdı. Qənirə əlini ağzına qoyaraq yavaşdan pıqqıldadı. Ərkinaz qapının cəftəsini vurdu.

– Yazıq, lap ödünü udmuşdu, – dedi.

– Elələri yazıq deyil. Dərəni xəlvət görəndə quyruqlarını qaldırıb qoyurlar bellərinə. Əslində dovşan kimi qorxaqdırlar. Sərdargili



Created with
nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

bilsən onun başına nə oyun açıblar. Yalandan ona deyiblər ki, təzə əmr çıxıb, bir gözlüləri də müharibəyə aparacaqlar. Fikirdən düz on gün yatmır.

– Kim desə də, Sərdar gərək deməsin.

– Nə üçün?

– Ona görə ki, qorxağın ən böyüyü özüdür. Dörd barmağını balta ilə kəsdi ki, davaya getməsin.

Qənirənin gözləri bərələ qaldı. Alaqaranlıq otaq elə bil başına hərləndi. Lakin həyəcanını Ərkinazdan gizlətməyə çalışdı.

– Sən nə danışırsan?..

– Bəs necə! Xəbərin yoxdur? Əvvəlcə atası bir ay onu şəhərdə bibisigildə gizlətdi. Kəndə xəbər yaydılar ki, guya haraya isə gedib, orada xəstələnib. Bir aydan sonra kəndə qayıdanda barmaqları kəsilmişdi. Guya maşın ağzında qalıb. – Ərkinaz istehza ilə gülümsədi. – Nə maşın, hansı maşın? Heç kəs baş açmadı. Oturmusan mayakda, kənddəki əhvalatlardan xəbərin yoxdur.

– Belə de...

Artıq gec idi. İşığı söndürüb, yatağa girdilər. Ərkinaz yenə də oradan-buradan danışırdı. Qənirə isə dinmirdi. Əslinə baxsan, Ərki nazın danışdıqlarını da eşitmirdi. Sərdar barədə eşitdiyi onu elə sarsıtmışdı ki, hələ də özünə gəlməmişdi. Gözlərini yumaraq öz düşüncələri içərisində, sanki, dəhşətli bir burulğana düşmüşdü. Qaranlıq bir boşluqda elə bil təkər kimi hərlənirdi: xəyalları da, düşüncələri də qaynayıb qarışmışdı.

– Ay qız, yuxuladın? – Elə bil dərin bir quyudan Ərkinazın səsi eşidildi.

– Yox, yox.

– Bəs niyə dinmirsən? Bilirsən, nə fikirləşirəm?

– Nə?

– Fikirləşirəm ki, taygöz bunun heyifini məndə qoymayacaq. Əlinə fürsət düşən kimi əvəzini çıxacaq.

– Heç bir şey eyləyə bilməz.

Hər ikisi susdu. Otaqda uşaqların mışıltısı eşidilirdi.

Ərkinaz Qənirədən qabaq yuxuya getdi.



Created with
nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

## 9

Vasili Sovet Məlumat Bürosunun xəbərlərini oxuduqdan sonra kabinetində pəncərənin qabağında asılmış xəritənin qabağına keçdi. Orada qoşunlarımızın azad etdikləri yerləri göstərdi:

– Bütün Krım, bütün Ukrayna indi tamamilə azad edilmişdir. Tezliklə Avropa torpaqlarına daxil olacağıq. Sonra xəritədə Azov dənizini və Kerç boğazını göstərib, sözünə davam etdi: – Sizin yerli Bəbir də baxın, burada vuruşub. Burada, Kerçin azad edilməsində, bərk döyüşlər olmuşdu. Yəqin ki, bu döyüşlərdə qəhrəmanlıq göstərib.

Bayırda dənizin üzərinə sıx duman çökmüşdü. Günortadan sonra o daha sıxlaşıb, qatılaşdı. Axşam yeddidə artıq göz-gözü görmürdü. Vasili mayakı vaxtından qabaq yandırmağı əmr etdi. Qənirənin növbəsi idi. O, qülləyə qalxdı. Dənizlə göy bir-birindən fərqlənmirdi. Hər tərəf boz bir örtük içində idi. Qənirə rubilniki basdı. Gur işıq boz pərdənin içərisində əridi. Bu duman örtüyünü heç bir işıq yarmaq iqtidarında deyildi. Hətta yaxındakı Amburanın işığı da görünmürdü. Gəmilər üçün təhlükəli vəziyyət idi. Aşağıdan, şaxtadan səs gəldi. Kimsə dolama pilləkənlə qalxırdı. Vasili idi. Duman onu narahat etmişdi. Yaxınlaşıb, pəncərədən baxdı.

– Hə, necədir?

– Çox pis, yoldaş Vasili.

Mayakın yaydığı işıq zolaqlarında dumanın necə qaynayıb qarışdığı daha aydın sezilirdi. Vasili gözlərini dumandan çəkmirdi. O, qaranlıqda, boz dumanın içərisində nə isə axtarırdı. Nəhayət köksünü dərindən ötürüb, Qənirəyə tərəf döndü.

– Tezliklə çəkiləcək.

Bunu deyib, o, arxayınlıqla aşağı baxdı. Ondan sonra Qənirə qatı dumana nə qədər nəzər salsa da, ümidverici heç bir şey sezmədi. "Bəs Vasili nəyə görə deyir ki, tezliklə çəkiləcək? – fikirləşdi. – Bu heç sabahadək çəkiləsi dumana oxşamır". Ancaq gözlərini boz dumandan çəkmirdi. Bir şey onun nəzərini cəlb etdi. Duman qatılaşsa da, bir tərəfə meyl edirdi. Soldan sağa sovrulurdu. "Bu nədir, küləkdir? – Qənirənin qaşları çatıldı. – Bəlkə Vasili buna görə deyir ki, duman tezliklə çəkiləcək?"

Qənirənin bədənini xəfif bir üşütmə bürüdü. Duman havanı sərinlətmişdi. Aşağı enib, çiyninə salmaq üçün şal gətirdi.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Aşağılarda duman artıq seyrəkləşirdi. Amburanın işığı yavaş-yavaş göz qırpırdı. Pəncərənin arxasından küləyin vıyıltısı da eşidildi. Vasili Qənirənin nəzərində daha da yüksəldi. Ömrünü dənizdə keçirmiş bu adam buludların hərəkəti, dumanın çökməsi və günəşin necə batması ilə bir neçə saatdan sonra havanın necə dəyişəcəyini əvvəlcədən bilirdi. Yaralı ayağının sızıltısı da onun üçün əsl barometr idi. "Onun bacarmadığı iş yoxdur, – Qənirə fikirləşdi. – Anastasiya belə kişidən bezarlıq da eləyir".

Lakin külək Qənirənin gözlədiyi kimi şiddətlənmədi. Əksinə, gecədən keçmiş tamamilə sakitləşdi. Dənizin üzərində yenə duman göründü. Ancaq bu dəfə o qatılaşmadı. Bir azdan Vasili dumanın nəfəsini duyaraq, yenə yuxarı qalxdı:

– Bu zəhrimar, deyəsən təzədən başlayır.

Qənirə lap məəttəl qalmışdı. Vasili yuxuda da dumanın çökdüyünü hiss edirdi. Onun belə narahat təbiəti, həssaslığı nədənsə Qənirədə ona bir mərhəmət hissi oyatdı, ürəyini kövrəltdi.

– Yoldaş Vasili, niyə gedib yatmırsınız? – soruşdu.

Vasili əlini hirslə çırpdı.

– Eh, zəhrimara qalsın bu duman! – dedi. – Şirin yuxudan da məni oyadır. Axı dənizçi hara, rahat yorğan-döşək hara! Matrosun yeri göyərtədir, ya da ki, səngər. Orada olanda mən belə şeylər bilməzdim. Bu zəhrimar ayağımın ucbatından indi gəlib düşmüşəm buraya. Ağa kimi yatıram... Nikitagil isə orada ölümlə əlbəyaxadadırlar.

Qənirə sual verməyinə peşman oldu. Cəbhədən, yoldaşlarından söhbət düşəndə Vasili həmişə ya kövrələr, ya da səbəbsiz yerə əsəbiləşərdi. O, fənər binasında bir qədər vurnuxduqdan sonra aşağı endi. Gecə saat ikini ötmüşdü. Qənirə fənər binasının qapısı ağzında növbətçi üçün qoyulmuş stola yaxınlaşdı. Dünən kənd kitabxanasından aldığı romanı götürüb səhifələdi. İlk səhifələr ona elə maraqlı göründü ki, oturmağa məcbur oldu. Əlini çənəsinə dayadı və həvəslə oxumağa başladı. Ancaq bir azdan göz qapaqları ağırlaşdı. Oturduğu yerdə mürgü vurdu. Dənizdən eşidilən fasiləsiz fit səslərinə diksindi. Tez fənər binasının pəncərəsinə yaxınlaşdı. Zəif duman hələ çəkilməmişdi. Buna görə də uzaqda gedən gəmidən ehtiyat üçün fit verirdilər. Dənizdəki "İki qardaş" qayasının işığı görünmürdü. Yaxındakı Amburan isə mehribanlıqla göz qırpırdı. Gəminin fit səsi hələ də kəsilməmişdi. Qənirə həyəcana düşdü. Gəminin belə aram-



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

sız fit verməsi səbəbsiz deyildi. Tez aşağı enərək Vasilini oyatmaq istədi. Heç iki pillə enməmişdi ki, Vasilini yuxarı qalxan gördü.

– Bu nə səsdir? – deyə Vasili həyəcanla soruşdu.

– Gəlirdim sizə xəbər verim. Yarım saatdan çoxdur ki, fit eşidilir.

O, pillələri ikişər qalxaraq, fənər binasına daxil oldu. Pəncərənin qabağına keçdi. Qaranlıq səmada gözünə bir işıq dəymədi.

– Ola bilməz ki, mayakın işığını görməmiş olsunlar, – dedi. – Duman o qədər də qatı deyil. Əgər Amburanın işığı görünürsə, onlar da gərək bizi görmüş olsunlar. Bəs bu fit nədir?

Bir azdan fit kəsildi. Qənirənin də növbəsi bitmişdi. O, növbə dəftərinə bu sözləri yazdı: "Hava axşamdan dumandı. Gecə yarısına yaxın seyrəldi. Ancaq "İki qardaş"ın işıqları yenə də görünmürdü. Amburan isə yanırdı. Gecə ikidən ötmüş dənizdən fit səsi eşidildi. Yarım saatdan çox davam etdi..."

Səfiqulu yuxarı qalxıb, növbəni təhvil aldı. Qənirə otağına çəkiləndən sonra yerində çox qurcalandı, yuxuya gedə bilmirdi.

Sübh tezdən mayakdakı çaxnaşmaya oyandı. Məlum oldu ki, sahildən on-on beş kilometr aralı bir gəmi saya oturmuşdur. Gecə fit verən də o imiş. Gəminin sahilə belə yaxın üzməsi, əlbəttə, təəccüblü idi. O, sualtı qayalara toxunub parçalana da bilərdi. Vasili hamıdan artıq narahatdı. Binoklla hey baxırdı. Ancaq onu təyin edə bildi ki, gəmi dayaz yerdə saya oturmuşdur. Sualtı qayalardan sağda idi. Vasili sakitləşə bilmədi. Tək qayığa minib, gəmiyə tərəf getdi. Mayakdakılar onun gəmiyə necə yaxınlaşdığını və onun üçün gəmidən necə qayıq salladıqlarını görürdülər. İki saatdan sonra Vasili qayıtdı. Çox hirsli idi. Birinci arvadı Anastasiya dilləndi:

– Hə, nə olub? Niyə belə hirsli qayıtmısan?

Vasili adəti üzrə əlini yellədi:

– Eh, onları... – deyib, yerə tüpürdü. – Günahkar özləri ola-ola bizi təqsirləndirirlər.

– Nə deyirlər ki?

– Nə deyəcəklər! Guya mayak yanmırmış. Bu çoxdanın çağırılmış bayatısıdır. Həmişə belə hallarda mayakı günahkar tuturlar. Deyirəm: mayak səhərədək yanıb, deyir ki, isbat elə ki, yanırdı. Mən də onlara dedim ki, siz isbat eləyin ki, yanmırmış. Kapitan nə desə yaxşıdır: yansaydı, biz burada saya oturmazdıq. Bundan artıq sənə nə sübut?.. Bir gör də, adamda həyasızlığa bax! Qoy gəlsinlər, yoxlasınlar... Mən heç nədən çəkinmirəm.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Günortadan sonra iki nəfər yüksək vəzifəli hərbiçi gəldi. Əvvəlcə növbə dəftərindəki qeydi oxudular. Sonra növbətçinin kim olduğunu xəbər aldılar. Vasili Qənirəni göstərib dedi:

– Bu qızdır. Bizim ən yaxşı texnikdir. Mən onun üçün başımla cavabdehəm. Mənə deyirlər isbat elə ki, mayak yanırmış. Gör bir haradan yapışıblar. Xahiş eləyirəm diqqətlə yoxlayasınız...

Bayaqdan bəri Vasilinin coşub-qızışmasına sakitliklə baxan mayor gülümsədi:

– Narahat olmayın. Yoxlamışıq.

Vasili yenə də bayaqkı qızğınlıqla:

– Bizdədir günah, hə? Siz də onların sözünə inanırsınız ki, mayak yanmırmış? – deyə əlini çırpdı. – Demək, günah bizdədir.

– Sizdə niyə olur? – Mayor soyuqqanlılıqla cavab verdi.

– Bəs kimdədir? – Heyrətdən Vasilinin gözləri bərəlmişdi.

– Onlarda. Qonşu mayak təsdiq edir ki, Amburan sübhədək yanırmış.

Vasili daha dinmədi. Qənirə bayaqdan bəri gözlərini ondan çəkmirdi. Onun bütün hərəkətlərində, davranış və sözlərindəki səmimiyyət fərəhli dəqiqələrində olduğu kimi, qəzəbli, coşqun anlarında da öz sabitliyini hifz edib, saxlayırdı. Qənirə birinci dəfə idi ki, gənc ömründə belə bir adamla rastlaşmışdı.

## 10

Vasili iki texniklə birlikdə "İki qardaş" qayasındakı işığın balonunu dəyişməyə gedirdi. Texniklərdən biri atın belinə qalxdı. Sonra Vasiligil köməkləşib, balonu qaldırdılar və onun qucağına verdilər. Yola düşdülər. Vasili ilə Səfiqulu atın yanı ilə gedirdilər. Cığırı aşağı enəndə onlar da balonu saxlamaqda atın belindəki texnikə kömək edirdilər. Qənirə də onlarla gedirdi. Vasiligil qayığa oturandan sonra, o, atı minib yol ayırıcına, ərzaq dalınca getməli idi. Bu gün starşinanın gələn günü idi.

Sahil qayalığında asetilen balonunu ehtiyatla yerə düşürdükdən sonra Qənirə atı dördnala kəndə tərəf çapdı. Yenə yuxarı yolla getdi ki, kənd cavanlarına rast gəlməsin. Bir də yol nisbətən qısa idi. Özünü vaxtında yol ayırıcına çatdırdı. Maşın yenicə gəlmişdi. Ərza-



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

ğı xurcuna doldurdular. Sonra starşina maşına sıçradı. Maşın yola düşməmişdən çığırdı:

– Vasiliyə de ki, komandanlıq ərizəsini rədd eləyib. Deyiblər ki, qoy hələlik mayakda işləsin.

Maşın asfalt yolla şütüyərək, bir göz qırpımında evlərin dalında gözdən itdi. Qənirə də gəldiyi yolla qayıtdı. Qəbiristanın yanından keçərkən, orada gözünə adamlar dəydi. Onlardan təkcə Şərbətəlini tanıdı. Kənddə qəbirləri həmişə o qazardı. Bu işdə böyük səriştə sahibi idi. Hətta deyirdilər ki, özü üçün də hələ on il bundan qabaq qəbir qazıb hazırlamışdır. Qənirə öz-özünə gülümsədi: "Səfeh qoca, – dedi, – məgər insan bu dünyaya ölməyə tələsmək üçün gəlmişdir? Ölüm onsuz da istədiyi zaman səni aparacaqdır. Belə tələsməyin mənası nədir?" Şərbətəlinin yanındakı o biri adamları isə tanımadı. Görünür başqa yerdən gəlmişdilər.

Yoluna davam elədi. Zenitçilərin yanına aparan cığırla ona tərəf iki nəfər əsgər gəlirdi. Yaxınlaşanda onlardan birini tanıdı. Tez-tez Vasilinin yanına gəlirdi. Hündürboy, arıq bir oğlandı. O, gülümsəyərək, əlini qaldırdı. Qənirə atın başını çəkdi.

– Ey qəşəng qız, düş gedək, qonağımız ol. Bu gün bayram eləyəcəyik. – O, əlini uzadıb, atın cilovundan yapışmaq istədi. Qənirə cilovu çəkdi, əsgərin əli havada qaldı. Gülümsədi: – Hə, qızlar cilovu heç zaman əldən buraxmazlar, – dedi. – Bu onların adətidir.

Əsgərin sözlərinə yoldaşı da güldü. Qənirə atı səyirtdi. Arxadan hər iki əsgərin bərkdən güldüklərini eşitdi. Tanış əsgər onun arxasınca çığırdı:

– Gözəl qız, Vasiliyə deyinən ki, onu təbrik eləyirik.

Onlardan xeyli uzaqlaşandan sonra Qənirə tutduğu işə təəssüfləndi və öz-özünü məzəmmətlədi: "Nə üçün onlarla belə rəftar etdim? Allah bilir neçə ildir ev-eşiklərindən ayrı düşüblər. İndi xoş bir söz belə onların ürəyini sevindirə bilər. Onların bayramıdır, mən isə kobudluq elədim. Səfeh, onların üzünə gülsəydin, ürəklərini açsaydın, nə olardı ki? Axı, əsgər üçün qız təbəssümü hər şeyə dəyər. Onlar xoşlanırlar ki, qızlar onlarla şirin danışsın, zarafatları müqabilində onlardan ancaq sevinc duysunlar, fərəh hiss etsinlər. Qız təbəssümü əsgər üçün qızmar havada sərin su kimidir. Sən isə gör nə elədin! Qəlblərinə toxundun belə bayram günlərində... Zərin tökülərdi onlarla bir kəlmə kəssəydin, üzlərinə gülsəydin bu bayram



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

günündə?.. Ancaq hansı bayramdır? Nə bayramdır?.. "Qənirə nə qədər fikirləşdisə də, bu ayda bayram olduğunu xatırlaya bilmədi.

"Yupiter"in nalları qayalıqda taqqıldamağa başladı. Mayaka qalxan yolda at az qaldı büdrəyib, yıxılsın. Özünü güclə saxladı. Qənirə də özünü itirməyib, tez atın boynuna yatdı və yalından yapışdı. "Yupiter" fınxırıb, yenə qabağa dartıldı.

Mayakda Anastasiyadan başqa heç kəs yox idi. Atası, Anastasiyanın dediyinə görə bostana getmişdi. Vasiligil isə hələ qayıtmamışdılar. Və belə tezliklə də qayıda bilməzdilər. Qənirə Anastasiya ilə köməkləşib, atın yükünü boşaltdı. Arada söhbət salıb, Anastasiyadan söz almaq istədi:

– Anastasiya xala, bu gün nə bayramdır?

Anastasiya xırda mavi gözlərini qıydı və fikrə getdi:

– Bu gün heç bir bayram yoxdur. Nə üçün soruşursan?

Qənirə yolda əsgərlərə rast gəldiyini söyləmək istəmədi.

– Kənd içində deyirdilər ki, bu gün bayramdır.

Anastasiya başını əsdirdi və qətiyyətlə dedi:

– Yox, bu gün heç bir bayram yoxdur.

Qənirə gətirdiyi ərzağı Anastasiya ilə birlikdə yerbəyer eləyəndən sonra bostana, atasının yanına getdi. Atası bostanda, tağların arasında alaq eləməklə məşğuldu. Kənddə kiminsə öldüyünü atasına xəbər verdi.

– Kim idi? – atası soruşdu.

– Şərbətəlidən başqa heç birini tanımadım.

– Ulağı gətirsəydin, gedib xəbər tutardım.

– İstəyirsən mən gedib öyrənim?

– Yorulmayıbsansa get. Yaxşı deyil, sonra kənd camaatından xəcalətli qalarıq.

Qənirə sahilə çıxdı. Oradan da kəndə yollandı. Baharın əvvəllərində su basmış qumsal sahillər may ayındakı görünməmiş istilərdən qupquru qurumuşdu. Başının üstündə qağayılar, güləyənlər uçuşurdu. Ləpədöyəndə xırdaca köpüklü ləpələr ağ-sarımtıl balıqqulaqlarının arasında qəribə bir şırıltı ilə oynaşırdı. Qənirə ayaqqabılarını çıxarıb, lığ ləpədöyəndə yalın ayaqlarını şappıldada-şappıldada gedirdi. Hər dəfə bu sahillərdə dənizin sərin nəfəsini udduqca ürəyi bir uşaq sevinci ilə çırpınırdı. Əzizdi bu yerlər ona, lap körpə yaşlarından. Hələ anasının sağlığında qonşu arvadlarla birlikdə buraya



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

xalça-palaz yumaq üçün gələndə, ayrıla bilməzdi bu sahillərdən, bu qayalardan. Gecələr dənizin uğultusu ilə şirin yuxuya gedərdi, səhərlər onun sərin nəfəsi ilə xumarlanardı yatağında, qalxmaq istəməzdi. Sonralar atası qoyun-quzunu çimdirmək üçün dənizə aparanda ağlayardı, yalvarardı ki, onu da özü ilə aparsın. O günlər yaxşı yadındadır: quzuların qulaqlarından yapışaraq suya tərəf çəkərdi. Quzular isə qabaq ayaqlarını qumsallığa dirəyərək, suya girmək istəməzdilər. Onları çimizdirəndən sonra özü çimərdi. Qayanın üstünə qalxıb, özünü atardı suya. Qayanın dibində su həmişə sərin olardı. Sonra da hey üzərdi, üzərdi, yorulmazdı, lap ikinci xəndəyədək gedərdi. Atasının hədələyici səsini eşidərkən geri dönərdi. Doymazdı dənizdən. Anasının ölümündən sonra dəniz onun yeganə təsəllisi olmuşdu: fırtınalı, coşqun, ləpəli-köpüklü, bəzən də ayna üzü kimi hamar mavi dəniz! Elə indi də elə idi. Günün altında ayparalar tək parıldaşıb, göz qamaşdıran bu sular, bu çopur qayalar, bu yumşaq, sulu qumsallıqlar, kəndə tərəf uzanan bu yovşanlı düzənlik üçün o nəyə hazır deyildi! Yox, heç bir qüvvə bu doğma yerləri onun əlindən ala bilməzdi, gözü baxa-baxa, ürəyi vura-vura!

## 11

Qayıdan baş kolxoz idarəsinin yanından keçərkən Sərdar pəncərədən onu gördü. Səslədi. Qənirə cavab vermədi, sürətlə ötüb keçdi. Lakin bir azdan Sərdarın onun dalınca gəldiyini gördü. Ancaq onu da hiss edirdi ki, Sərdar ona çatmağa tələsmir. Gözləyirdi ki, Qənirə kəndin küçələrindən uzaqlaşıb, bağlar arası yola çıxsın. Belə də oldu. Qənirə bağlar arası yolda, əncir ağaclarının kölgəsinə keçdiyi zaman Sərdar özünü ona çatdırdı. Təngnəfəs onun qolundan tutmaq istədi. Qənirə dirsəyi ilə onu özündən uzaqlaşdırdı.

– Yenə də tərsliyin tutdu? – deyə Sərdar qımışdı.

Qənirədən cavab çıxmadı. Sərdar qızın gah soluna, gah sağına keçirdi. Onu dilləndirmək üçün atdığı atmacaların heç bir nəticəsi olmadı. Qənirə başını aşağı dikərək, yoluna davam edirdi. Lakin tez-tez qaşları altından Sərdarın sarıqlı əlini süzürdü. Heç inanmaq istəmirdi ki, Sərdar belə iş tuta bilər. Kənddə o qədər sözbaz, sözgəzdirən arvadlar vardı ki, hamıya ləkə yaxmağa hazırdılar.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Onlar sahilə çatmışdılar. Sərdar axırıncı dəfə Qənirəni dilləndirməyə cəhd etdi. Onu yaxşı bilirdi ki, qızlar tərifdən xoşlanırlar. Hətta ən ciddi qız belə tərif qarşısında təslim olur. Çünki tərif qız qəlbinə gedən ən gizli yollara bələddir.

– Qənirə, bilirsən nə fikirləşirəm? – dedi. – Fikirləşirəm ki, sən badam ağacına oxşayırsan... Qızların içərisində badam ağacısan.

Qənirə yenə əvvəlcə dinmədi, ancaq sonra nə fikirləşdisə, qaşqabağını tökərək Sərdara tərəf döndü:

– Deyirsən yəni meyvəsini yeyəndə içərisindən acısı da çıxır?

Sərdar başını buladı:

– Yox. Onu demək istəmirəm. Demək istəyirəm ki, sən hamıdan qabaq çiçəkləmisən, bütün qızların içərisində...

Qənirə etinasızcasına əlini yellədi. Sərdar tez əlavə etdi:

– Çimmək istəyirsən?

– Yox.

– Heç olmasa qayanın üstündə bir az oturaq. Bugünkü kimi isti heç görünməyib.

Qənirə bayaqdan bəri fürsət axtarırdı ki, söhbət salıb Sərdar haqqında eşitdiyini onun özündən, öz dilindən eşitsin. Ancaq nə desin, necə soruşsun? Çətinlik çəkirdi. İndi Sərdar qayanın üstündə oturmağı təklif etdikdə, Qənirə ancaq ona görə razı oldu ki, bəlkə imkan tapıb, bu barədə söhbət aça.

Qənirənin gözləri dənizin hamar səthinə dikilmişdi. Sərdar isə gözlərini Qənirənin üzündən ayırmırdı. Qız onun belə baxışından narahat oldu:

– Niyə mənə elə baxırsan? – soruşdu.

– Qənirə, mən heç bilmirdim ki, gözlərinin rəngini dənizdən almısan. Dənizin iki damcısı elə bil sıçrayıb, qonub gözlərinə.

– Nə olsun ki?

Sərdar köksünü ötürdü:

– Adam dənizin göy sularına baxanda dincəlir, rahatlanır. Sənin gözlərinə baxanda isə... – O, bir anlığa susdu. Hiss olundu ki, fikirləşdiyini demək istəmir. Tez sözlərinin axınını başqa səmtə çevirdi: – Sənin gözlərinin rəngi isə tez-tez dəyişir.

Qənirə ehmalca çiyinlərini çəkdi. Dodaqlarında kinayəli bir təbəssüm gəzdi.

– Dəniz də həmişə göy olmur, – dedi.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Sərdar mətləb üstünə gəldi:

– Səni heç başa düşmək olmur, gah eləsən, gah belə.

Bunu deyib, yaralı əlinin boşalmış tənzifini dartışdırıb, möhkəmlətdi. Qənirə bayaqdan bəri belə bir fürsət gözləyirdi, indi onu əldən vermək olmazdı, elə bu dəqiqə, bu an həmləyə keçməli idi, sonra gec olardı.

– Barmaqlarını kəsəndə bərk ağrıtdı? – deyə soyuqqanlılıqla soruşdu.

Sərdarın gözləri bərəldi. Ağzı açıq qaldı. Gözləmədiyi bu sual onu ildırım vurmuş ağac kimi sarsıtdı.

– Mənə elə baxma! – deyə Qənirə bu dəfə istehza ilə səsləndi. – Hamısını bilirəm. Heç ağlıma gəlməzdi ki, sən belə iş tutarsan.

Qənirə düz hədəfə vurmuşdu. Sərdara yayınmaq üçün heç bir imkan qalmamışdı. Ona görə şərtsiz təslim oldu:

– Bəs nə eləyəydim, – dedi və səsi titrədi, – orada, qərib yerlərdə ölməkdənsə, bu yaxşı idi. Ağrıya birtəhər dözmək olardı... Özün görürsən də, gündə birindən ölüm xəbəri gəlir. Mənim də sümüklərim, yəqin ki, çoxdan çürümüşdü.

Qəzəbindən Qənirənin dişləri qıcırdadı. Yaralanmış bəbir kimi elə bil indicə Sərdarın üzərinə atılacaqdı:

– Onların ölüm xəbəri gələndə, nədən ötrü öldüklərini bilirik. Sən barmaqlarını kəsəndə ölsəydin, camaat nə deyərdi?.. Hə? Səndən soruşuram: nə deyəcəkdilər? Qorxaq!..

O, yerindən sıçrayıb, qayadan atıldı və iri addımlarla mayaka tərəf yönəldi. Özünü itirmiş Sərdar dalınca çağırdı:

– Qənirə!.. Qənirə!..

Onun səsi qayalıqlarda əks-səda verdi. Qənirə isə nə ayaq saxladı, nə də qanrılıb arxasına baxdı. Sərdar vahimə içərisində qayadan düşərək qızın dalınca qaçdı. Ona çatanda Qənirə kəskin bir hərəkətlə Sərdara tərəf qanrıldı. Gözləri yaşarmışdı:

– Niyə dalımca gəlirsən? Əl çək!..

Qız yenə yoluna davam etdi. Sərdarın qolları ümidsizliklə yanına düşdü. Qənirənin dalınca baxa-baxa qaldı. Qız uzaqlaşır, ondan yalnız qumun üstünə dərin izlər düşürdü. Sərdara elə gəlirdi ki, ondan uzaqlaşan təkcə Qənirə deyil, məğlub edilmiş heysiyyəti də, alçalmış mənliyi də onu tərk edirdi.

Bir azdan sahildəki güclü ilğımlar arxasında Qənirə tamamilə gözdən itdi.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Atası bostanda qarpız tağlarını sulayırdı. Çəpərin dibində qazılmış bir metrlik quyunun qənd kimi şirin suyu vardı. Qənirə yaxınlaşıb bir vedrə sərin su çəkdi və dodaqlarına apardı. Bərk susamışdı. Atası zənn ilə ona baxdı:

– Ay qız, nə olub, qanın qaradır?

Qənirə:

– Heç bir şey olmayıb, – dedi və vedrənin suyunu yerə boşaltdı.

– Bir xəbər öyrənə bildin?

– Öyrəndim. Sarı Məcidin şəhərdə yaşayan gəlinidir. İki körpə uşağı qalıb.

– Nədən ölüb?

– Doğum üstdə.

Sonra boylanıb, dənizə tərəf baxdı:

– Vasiligil hələ qayıtmayıblar?

– İndilərdə gərək qayıtsınlar. Bəlkə gedib, atı gətirəsən? Balonu çiyinlərində yuxarıya qaldırmaq çətin olar.

Qənirə mayaka getdi və bir azdan "Yupiter"in belində qayıtdı. Dənizdə qaraltı göründü. Vasiligil idi. Qənirə atı qayalıqlara tərəf çapdı.

Mayaka qayıdanda Vasili Qənirədən soruşdu:

– Ərzağı gətirdin?

– Gətirdim.

Vasili tamam tər içində idi. Arxadan yaş köynək bədəninə yapışmışdı. Sarışın saçları üzünə tökülüb, qaşının üstdəki çapıq yerini bütünlüklə örtmüşdü. O, yumşaq saçlarının üzünə beləcə pərakəndə tökülməsindən heç darıxmazdı. İndi də saçını üzündən qaldırmadan soruşdu:

– Starşina sənə bir söz demədi?

– Dedi. Dedi ki, komandanlıq sizin ərizənizi rədd eləyib.

Vasili əlini hirslə dizlərinə çırpdı:

– Görürsən? Bilmirəm mən onları necə başa salım ki, bax bu ayağımla lap on kilometr yolu qaça bilərəm. Əllərim də sağ-salamat. Daha cəbhədə bundan artıq nə lazımdır?

Mayakadək yolu Vasili ancaq bundan danışdı. Həyət darvazasından içəri girəndə Qənirə zenitçi əsgərin sözlərini xatırladı:



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Yoldaş Vasili, ərzağı alıb qayıdanda zenitçi əsgərə rast gəldim, sizin yanınıza gəlib-gedən əsgərə.

– Hə, Kolyaya? Nə deyirdi, yenə küyləyirdi?

– Xeyr. Dedi ki, Vasili yoldaşın bayramını təbrik elə.

Vasili dodaqlarını büzdü:

– Nə münasibətlə? Hansı bayram? Bəlkə yuxulu imiş.

– Xeyr, yoldaş Vasili, yuxulu adama heç oxşamırdı.

Vasili gülümsədi:

– Haramzadənin biridir. Yəqin səninlə zarafat eləyib.

Vasili tərli köynəyini çıxardı. Hovuzun suyunda yaxşıca yuyunandan sonra yuxarıya, arvadına çığırdı ki, məhrəba gətirsin. Sonra da bütün həyəti suladı. Yuxarı mərtəbəyə də sərinlik yayıldı.

Dərgah kişi də bostandan qayıtmışdı. Kerosinkanın yanında çömbəlib oturaraq, çay dəsgahı ilə məşğuldu. O, kostyumunu geymişdi. Qənirə başa düşdü ki, kəndə gedəcəkdir. Adətən həmişə kəndə gedəndə belə təmiz və səliqə ilə geyinərdi.

Çayını içəndən sonra o getdi. Seyfəli qülləyə qalxdı. Bu gün növbətçi idi. Vasili də yuxarı qalxandan sonra nahar elədi və adəti üzrə keçib, radionun qabağında oturdu. Qənirə özünü çox yorğun hiss edirdi. Sərdardan ayrılandan sonra başının arxa tərəfindən bərk ağrı hiss edirdi. Buna görə də ertədən otağına çəkilib yatağına uzandı.

Yarım saat keçməmişdi ki, dəhlizdən Vasilinin fərəhli səsi eşidildi. Qənirə dəhlizə çıxdı. Vasili uşaq kimi atılıb-düşürdü:

– İkinci cəbhə açılıb, ikinci cəbhə açılıb! – deyə çığırırdı. – Axır ki, hərəkətə gəldilər! İndi görüm, Hitler necə duruş gətirəcək. – Qənirəni görən kimi irəlilədi. – Qənirə, indi başa düşürəm ki, Kolya məni nə üçün təbrik eləyirmiş. Radio ilə xəbəri biz "İki qardaş"da olan zaman veriblər. Bir gör ha, bütün aləm bilir, bizsə xəbər tutmamışıq.

Bunu deyib o, divarda bir-birinin yanına vurulmuş xəritələrin qabağına gəldi. Anastasiya da əlindəki işi qoyub ərinin xəritədə nə göstərəcəyini səbirsizliklə gözləyirdi. Vasili Avropa xəritəsində barmağını bir nöqtənin üstünə qoydu və həvəslə danışmağa başladı:

– Baxın, bura Fransadır. Müttəfiqlər La-Manşı keçərək burada, Normandiyada, Fransanın şimalında desant çıxarmışlar. Bizim Ali baş komandanlıq onların müvəffəqiyyətini bəyənib. – O, sinədolusu



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

nəfəs alaraq, sözünə davam etdi. – Hə, indi demək olar ki, müharibənin axırı çatıb.

Gecə yarıdan ötmüşdü. Vasili isə yatmaq bilmirdi. Müttəfiq qoşunları ilə bizim qoşunların harada görüşə biləcəkləri barədə öz şəxsi mülahizələrini danışırdı. Dərgah kişi də gəlib bir kənarda oturmuşdu. Anastasiya axıradək qalmadı. Yatmağa getdi. Vasili də elə bil bunu gözləyirdi. Anastasiyadan yarım saat sonra mayakın anbarına endi. On dəqiqə keçmədi ki, yenə yuxarı qalxdı. Ancaq o tamam dəyişmişdi. Qənirə də, atası da Vasilinin aşağıya nə üçün düşdüyünü bilirdilər. Bir azdan Qənirəni də yuxu basdı. Dəhlizdə Vasili ilə Dərgah kişi qaldı. Qənirə yatağına uzanandan sonra da Vasilinin əvvəlki həvəslə danışdığını eşidirdi. O deyirdi:

– Dərgah kişi, faşistlərin işi daha bitib. İkinci cəbhə açılmasaydı da, biz onların axırına çıxacaqdıq. Amerikanlar və ingilislər hazırına gəlib çıxıblar... Bütün ağırlıq bizim çiynimizə düşmüşdü...

Qənirə yuxuya getdi. Bu sözlərin təsiri altında bütün gecəni yuxusunda müharibəni gördü. Yavərlə oldu.

## 13

Səhər tezdən hava bürkü idi. Qənirə dəhlizə çıxdı. Atasını otağında görmədi. Həyətə boylandı. Tövlənin qapısı açıq idi. Aşağı endi. Atası tövlədə atın altını təmizləyirdi.

– Sabahın xeyir, ata. Niyə yatıb, dincəlmirsən?

– Yuxum gəlmir. – Dərgah burnunun altında mızıldadı.

Qənirə tövlənin açıq qapısına söykənərək, atasının səliqə ilə tövləni, heyvanların axurunu təmizləməsinə baxırdı. Tövlənin dənizə tərəf açılan nəfəsliyindən içəriyə sərin hava yayılırdı. Haradansa içəri dolmuş iri qara milçəklər havada vızıldaşaraq, heyvanların rahat yemələrinə mane olurdu. "Yupiter" quyruğunu hey süpürgə kimi şappıldadırdı. Ulaq isə özünü ancaq qulaqları ilə qorumağa çalışırdı. Atası hələ də tövlənin qapısına söykənib dayanmış qızına ani bir nəzər saldı.

– Xəbərin var ki, Cəbini briqadirlikdən çıxarıblar? – dedi.

– Çıxarıblar? – Qənirə təəccübləndi. – Nəyin üstündə?



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Nə bilim, deyirlər Muradın əyalına pis nəzərlə baxıb. Gecələr Ərkinazın yanına gedirmiş. O da söz veribmiş ki, Muradı gözləməyib, ona ərə getsin.

– Böhtandır! – Qənirə bərkdən çığırdı. – Ərkinaz ömründə belə şey eləməz. Yadındadır, o gecə mənim dalımca gəlmişdi? Hamısını mənə danışıb. Yazığı dilə-dişə salıblar. Onun qorxduğu da elə bu idi.

Qənirə elə oradan birbaşa kəndə yüyürdü. Atası dalısınca nə qədər çağırdısa, qız cavab vermədi. Cığırı birnəfəsə aşağı endi:

Ərkinaz evdə idi. Bu söz-söhbətdən sonra işə çıxmırdı. Qənirəni görən kimi hönkürtü ilə ağladı.

– Biabır oldum, Qənirə. Muradın üzünə necə baxacağam? Kəndin içinə də çıxmağa üzüm yoxdur.

– Sakit ol. Bir de görüm, bunu Kərimə kim xəbər verib?

Ərkinaz gözünün yaşını sildi. İçini çəkə-çəkə:

– Qonşular, – dedi. – Birinci gecə buraya gələndə qonşulardan kimsə görüb. Gedib arvadına xəbər veriblər. O da gedib Kərimə şikayətlənib... Ay Allah, biabır oldum, mən Muradın üzünə necə baxacağam?

Yenə hönkürdü.

– Bunlar boş şeylərdir, əhəmiyyət vermə. Sən nə eləmisən ki, üzünə də baxa bilməyəsən?

– Məni də yandıran elə odur. Heç bir şey eləməyəsən, adın vayqanlı ola. El ağzı, sel ağzı. Biri varsa, onunu da üstünə qoyub Murada deyəcəklər. Yox, ölmək mənim üçün bundan yaxşıdır.

– Səfehləmə, ay qız. Muradı inandırmaq mənim boynuma. Əgər bundan ötrü darılırsansa, lap nahaq yerə. Qoy mini desin, səni tanıyan, tanıyır.

Qənirə onu sakitləşdirdi və tapşırdı ki, sabahdan işə çıxsın.

– İşə çıxmasan, camaatı daha da şübhəyə salarsan. – Özünü elə apar ki, guya bu söz-söhbətin sənə heç dəxli yoxdur.

Qənirə oradan çıxıb, öz həyət-bacalarına gəldi. İri qara qıfıl əvvəlki kimi evlərinin qapısından asılmışdı. Bəbirgil tərəfdə gözünə heç kəs dəymədi. Qapını çəkib küçəyə çıxanda onu arxadan Bəbirin kiçik qardaşı Əkbər səslədi:

– Qənirə, xəlvəti gəlib, xəlvəti qayıdırsan?!

– Elə bir işim yox idi, gəldim ki, qapı-bacaya baxım.

– İndi hara gedirsən?



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Mayaka.

Əkbər onun qolundan yapışdı:

– Gedək bu tərəfdən. Mən də çimməyə gedirəm.

Qənirə onun sözünü yerə salmadı. Evin sonbeşiyi idi. Bu il onuncu sinifdə oxuyacaqdı. Qənirə ondan öyrəndi ki, Bəbir iki gündən sonra gəlir. Dünən ondan teleqram alıblar.

Çimərliyədək birgə gəldilər. İstirahət günü olduğu üçün çimərlik bu başdan o başadək adamla dolu idi. Yük maşınlarının çoxunu lap ləpədöyənə çəkib saxlamışdılar. Uşaqlar çığırışaraq o tərəf-bu tərəfə qaçışırdılar. Qənirə də çimmək həvəsinə düşdü. Əkbər bundan sevindi:

– Nə yaxşı oldu. Adam tək çiməndə darıxır. Su da, deyəsən yaxşıdır. Bir dənə də ləpə yoxdur.

Onlar suya girdilər. Əkbər üzə-üzə ondan uzaqlaşdı. İkinci xəndəyədək getdi. Və oradan Qənirəni səslədi:

– Bəs niyə gəlmirsən?

– Orada su soyuqdur. Üşüyürəm. Sən də uzağa getmə.

Əkbər geri qayıtdı. Qənirə, boğazınadək suyun içində hərəkətsiz dayanmışdı. Üzməyə həvəsi yoxdu. Ərkinazın əhvalatı kefini tamam pozmuşdu. Əkbər də bunu hiss etdi:

– Qənirə, nə üçün belə pərtsən? – soruşdu.

Qənirə cavab vermək əvəzinə gözlərini qıydı:

– Əkbər, yadına gəlir, birlikdə çimməyə gələrdik. Sən onda hamımızdan kiçik idin. Hətta Bəbir səni heç gətirmək istəmirdi. Sən də həyət qapısını küçə tərəfdən bağlayıb, bizi buraxmazdın.

Əkbər gülümsünərək, onun sözlərini başı ilə təsdiq etdi:

– Yadımdadır.

– Mən istərdim ki, o günlərimiz bir də geri qayıdaydı. Yaxşı günlər idi. Göydəki ulduzları sayanda nə qədər xoşbəxt idik.

– Özümüz də kiçik olaydıq, hə?

– Yox, özümüz kiçik olmayaydıq, Axı, o vaxt heç nə başa düşmürdük. Ancaq günlərimiz geri qayıdaydı.

Sudan çıxıb, qızmar qumun üstündə uzandılar. Top-top oynayan uşaqların ayaqlarından qalxan qum onların üz-gözünə sıçrayırdı. Əkbər gözlərini Qənirənin ayaqlarına zilləmişdi. Qənirə əlini uzadıb, onun sifətini yana çevirdi:

– Şuluqluq eləmə, adam baxmaz! – dedi.



Created with
nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Niyə baxmır?

– Çünki sənin kimilərə baxmaq hələ tezdir.

– Nə üçün?

– Nə üçün, nə üçün, – deyə Qənirə onu yamsıladı. – Ona görə ki, hələ tezdir. Tələsən təndirə düşər. Eşitməmisən ki, kal meyvəni yeyəndə adamın qarnına sancı düşər?

O, qollarını adəti üzrə başının altında çarpazlayıb, arxası üstə uzanmaq istədi. Lakin Əkbərin yenə diqqətlə ona baxdığını gördükdə, ovcunu qumla doldurub, ona tərəf atdı.

– Ay şuluq! – dedi. – Bəbir gələndə ona deyəcəyəm.

– De də. Mən nə eləyirəm ki, deyəsən? – Əkbər uzandığı yerdən qalxıb, Qənirənin qarşısında dizi üstə çökdü. – Hə de görüm nə deyəcəksən?.. De də!...

Qənirə cəld ayağa qalxdı. Əkbəri itələyib arxası üstə yerə yıxdı və saçlarını çiynində yelpik kimi qanadlandıraraq, dənizə qaçdı:

– Özüm bilirəm, nə deyəcəyəm! – Onun səsi sakit dənizin üzərinə yayıldı.

Əkbər də onun arxasınca suya cumdu.

## 14

Axşamüstü əsgər Kolya Vasilinin yanına qonaq gəlmişdi. İki saatdan çox idi ki, oturmuşdular. Anastasiya isə mətbəxdə idi. Arabir Qənirə onun bərkdən deyindiyini də eşidirdi.

Anastasiya Vasilinin yoldaşlarını xoşlamazdı. Çünki onlardan biri gələn kimi Vasili haradansa bir butulka araq tapıb, stolun üstünə qoyardı. Vasili çox nadir hallarda təkbaşına içərdi. İçəndə də normasını bilən adamdı. Azca həddini aşan zamanlarda isə xəlvəti bir yerə çəkilib ağlardı. Ya da saatlarla oturub, qarmonunu dillən-dirərdi. Qənirə xoşlardı onun mahnılarını. Bu mahnılarda ürək parçalayan bir kədər var idi. Qənirə bu mahnıları dinlərkən ona elə gələrdi ki, haradasa tək-tənha qərib bir ağac həzin-həzin xışılda-yır. Ya da dərdli bir ürəyin mahnısı pərdə-pərdə ətrafa yayılır. Bir qız intizarı, bir əsgər həsrəti vardı bu mahnılarda. Mahnılar zərif qanadları ilə onun üzünü, saçlarını oxşardı, axardı qəlbinə, könlünə. Kim deyir ki, mahnılara ölüm yoxdur? Boş sözdür. Qənirə neçə



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

dəfə onların şam kimi əridiyini, can çəkdiyini öz qulaqları ilə eşitmişdi. Belə mahnılar getdikcə əriyirdi buz kimi, damcı-damcı hansı bir ənginliyə isə süzülürdü...

Qənirə mayakı yandırmaq üçün qülləyə qalxmaq istədikdə bir anlığa Vasiligilin qapısında ayaq saxladı. Vasili astadan oxuyurdu. Mahnı, sanki, Qənirəni ovsunlayıb, öz füsunkar toruna saldı. Oradan çıxa bilmədi. Bu zaman qapı birdən açıldı. Qənirə qapı ağzından çəkilməyə macal tapmadı. Vasili onu gördü.

– Qapı dalında niyə durmusan? İçəri gəl.

Qənirə özünü itirdi.

– Mən elə-belə, – dedi. – Qülləyə qalxırdım, mayakı yandırmağa. Bir dəqiqəliyə burada...

Vasili onu eşitmək istəmədi. Qol saatına baxdı:

– Hələ on dəqiqə var. Gəl bizimlə nahar elə.

O, qızı güclə dartıb içəri apardı. Anastasiya da Qənirənin oturmasına sevindi.

– Qapı dalında niyə? – deyə Vasili yenə təkrar edəndə Anastasiya ərinin ağzından vurdu:

– Yaxşı da, sən də bəsdir, qızı utandırma!

Anastasiya yenicə qızartdığı kartofdan bir qaba çəkib Qənirə üçün qoydu:

– Qənirə, ye, nə qədər ki, istidir.

Qənirə, inciməsinlər deyə, kartofdan bir dilim götürüb ağzına apardı və ayağa qalxdı:

– Məni bağışlayın, vaxtdır.

Qənirə fənər binasına getdi. Ondan bir az sonra isə Vasiligil də qalxdılar. Vasili Kolyanı daş karxanalarınadək ötürüb gec qayıtdı. Yarım saatadək aşağıda əncir ağacının altında oturdu. Burada da darıxdı. Yuxarıya, qülləyə qalxdı. Pəncərəyə yaxınlaşıb, bir müddət dənizin tamaşasına daldı. Aydınlıq idi. Ay dənizin üzərində göyün yaxasına sancılmışdı. Sular onun gümüşü nurunda rahat-rahat yırğalanırdı. O, üzünü Qənirəyə tərəf çevirmədən dedi:

– Qənirə, sən Kolyadan incimə. O, yaxşı oğlandır, dəm olduğu üçün o yan-bu yan vururdu. Ürəyinə toxunubsa, günahından keç.

– Vasili dayı, mən ondan niyə inciyirəm? O, axı xətrimə dəyən heç bir söz demədi.

– Deyirəm, bəlkə də... Onda da günah yoxdur. Gör neçə ildir ki, evdən çıxıb. Əsgərlikdir də.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

O, susdu. Ancaq sonra birdən-birə qəribə bir sualla Qənirəyə müraciət etdi:

– Qənirə, sən necə bilirsən, sencə səadət nədir?

Bu, Qənirə üçün göydəndüşmə bir sual idi. İlk nəzərdə çox sadə görünən bu sualın cavabı Qənirəyə elə çətin gəldi ki, özünü eşitməməzliyə vuraraq, sualı cavabsız buraxmaq istədi. Lakin Vasili gözləyirdi. Görəsən Vasili ondan necə cavab gözləyir? Onu birdən-birə nə üçün belə bir məsələ maraqlandırsın?! Əgər bu yaşınadək belə bir suala cavab tapmayıbsa, indi Qənirə kimi adi bir kəndli qızının cavabı onu necə təmin edəcək?!

– Hə, nədir, necə bilirsən? – Vasili sualı təzədən təkrar etdi.

Qənirə düşündü ki, bəlkə bu sualın arxasında Vasilinin gözlənməz bir arzusu gizlənmişdir? Bəlkə, o, bu sualla öz gizli ehtirasları üçün cığır açır, onların açıq etirafından çəkinərək, dolayı yollardan keçir?

– Düzü, Vasili dayı, səadətin nə olduğunu dürüst bilmirəm, – deyə Qənirə etiraf etdi. – Ancaq onu bilirəm ki, adamlar səadəti tapandan sonra daha heç bir şey istəmirlər.

– Sən belə düşünürsən? – Vasili üzünü pəncərədən çəkib Qənirəyə tərəf döndü. – Yoox, elə deyil. Mən də əvvəllər belə düşünürdüm. Sonralar gördüm ki, yox, elə deyil. Deyirdim ki, evlənəndən sonra bir işıq yandıracağam, ailə quracağam, səadət tapacağam. Ancaq belə olmadı. Sən demə səadət bir qurtum su deyil ki, birdəfəlik içəsən.

Qənirə çiyinlərini çəkdi:

– Orasını daha bilmirəm.

– Yox, elədir, elədir. Səadət uzun bir pilləkənə oxşayır. Birinci pilləyə qədəm qoydun, gərək qalxasan yuxarı... Qalxmasan, o səadətin bir qəpiklik qiyməti yoxdur. Qalxmağı bacarmayan adam həmişə həsrətlə yuxarı baxacaq, yuxarı pillələrin həsrətini çəkəcək...

Qənirə hiss edirdi ki, Vasilinin səadət barədə açdığı söhbət hansı bir fikrinsə ifadəsi üçün, hansı bir məqsəd üçünsə bir müqəddimədir. Ancaq o məqsəd nədir, Vasili bu müqəddimədən sonra hansı mətləbin üstünə gəlib çıxacaq? Qənirəni düşündürən bu idi. Bəs nə üçün o susur? Nə üçün söhbətini davam etdirmir?

– İndi mən də birinci pillədə durmuşam. – Vasili uzun sükutdan sonra sözünə davam etdi. – Nəzərlərim isə həsrətlə yuxarıya dirənib. Düşünürdüm ki, Sevastopolu düşmənə verdiyimiz zaman çəkdiyimiz



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

iztirab və əziyyətlərin ağrısını şəhəri azad edəndən sonra unudacağam. Ancaq unuda bilmədim o ağrıları. Sonra dedim – ən böyük səadət düşməni qova-qova onu öz torpağında boğmaqdır. Bu da mənə qismət olmayacaq. Səadət belə şeydir. Onu gərək pillə-pillə qalxasan... Məni isə qovublar buraya. Böyük bir qatardan açılmış vaqon kimi itələyiblər bağlı bir yola. Hamının da yadından çıxmışam.

O, dərindən köksünü ötürdü. Qənirə onun halına ürəkdən acıdı. Vasili doğrudan da ləpələrin vurub sahilə atdığı balığa oxşayırdı: dəniz həsrəti ilə çırpınmaq olmuşdu nəsibi.

## 15

Bəbirin qayıtmasını eşitdikdə, Qənirə onunla görüşməyə tələsmədi. Atası getdi, o isə bir bəhanə tapıb, evdə qaldı. Bilirdi ki, birinci günlər onun görüşünə gələn çox olacaq. Bütün kənd axışıb gələcək. Bəbirlə danışıb söhbət eləməyə macal verməyəcəklər. İki-üç gün keçəndən sonra atası onu danladı da.

– Yaxşı deyil, – dedi, – niyə gedib xoşgəldin eləmirsən? Bir həyət-bacada böyümüş uşaqlarsınız.

– Gedərəm, ata. Tələsik iş yoxdur, hələ bir ay buradadır.

Nəhayət onuncu gün Qənirə Bəbirgilə getməyə hazırlaşdı. Atası da getmək istəyirdi. Yaxşı ki, Vasili ona mühüm bir iş tapşırdığı üçün getməli olmadı.

Qənirəni qəribə bir hiss bürümüşdü. O, Bəbirlə görüşməkdən çəkinirdi. Yolboyu ürəyi şiddətlə vururdu, sanki qəfəsə salınmış quş idi: "Mənə nə olub? – deyə özünü ələ almağa çalışdı. – Nə üçün belə həyəcanlanıram? Yad adamla görüşməyəcəyəm ki? Aradan cəmi üç il keçmişdir, hətta ondan da az. Bu üç ildə doğrudanmı adam adama qarşı belə dəyişər? Davaya getməmişdən əvvəl onunla gündə azı yüz yol rastlaşırdım, ancaq məndə bugünkü kimi hallar heç olmazdı. İndi onun adı çəkiləndə belə, içərimdə heç özümə də aydın olmayan təşviş keçirirəm. Nə üçün?.."

Yolboyu özünü ələ almağa çalışdı. Lakin Bəbirgilin həyət qapılarından içəri girəndə ürəyi yenə çırpınmağa başladı. Xoşbəxtlikdən Bəbir evdə tək idi. O, ərik ağacının altında elektrik ütüsünü təmir etməklə məşğuldu. Qənirəni görən kimi ayağa qalxdı və ona tərəf gəldi. Qənirə onun axsadığını gördü.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Qənirə! – deyə Bəbir çığırdı və əllərini qabağa uzatdı. Ona əl verib görüşəndən sonra xeyli susaraq, gözlərini bir-birindən çəkə bilmirdilər.

– Qənirə! Mən səni heç belə vəfasız bilməzdim. On gündür gəlmişəm, gözüm hey qapıda qalıb. Bu gün də gəlməsəydin, sabah özüm mayaka qalxacaqdım.

Qənirə günahkardı, cavab verməyə söz tapmadı. Bəbir qızın əlini hələ də ovcu içərisində saxlamışdı. Zərif qız əlinin iri ovcunda quş kimi çırpındığını hiss edirdi.

– Qənirə, maşallah yekə qız olubsan. Onu da deyim ki, çox gözəlləşibsən.

Qənirə gülümsədi:

– Elə həmişə belə deyərdin.

– Yox, yox, düz sözümdür. Heç güman eləməzdim ki, bu üç ildə belə gözəl qız ola bilərsən.

– Özün də dəyişmisən. – Qənirə odlu baxışları ilə Bəbiri aşağıdan-yuxarı süzdü. – Tamam başqa adam olubsan. Elə bil o təpədə oynadığımız Bəbir deyilsən.

– Deyirsən yəni xarab olmuşam?

– Yox, yox. Əksinə, sən... – O, nə isə demək istəyirdi, utandığındanmı, ya da yersiz düşəcəyindən ehtiyat etdiyi üçünmü sözünü tamamlamaq istəmədi. Sonra haçandan-haçana sözünə davam etdi. – Bığ sənə yaraşır.

Bəbir qızın əlini buraxmadan onu ərik ağacının kölgəsinə apardı. Stulda əyləşdirdi.

– Sizin qapıda qıfılı görəndə həmişə ürəyim sancır. İşin necədir?

– Pis deyil.

Bəbir həsrətli nəzərlərini qızdan çəkə bilmirdi.

– Eşitdim nişanlanıbsan? Təbrik edirəm. Çoxdan nişanlanıbsan?

Qənirə başını aşağı dikib susdu. O, Bəbirin belə bir sual verəcəyini gözləmirdi.

– Sən gedəndən iki ay sonra.

– Ancaq mənə deyəndə ki, sən Yavərə nişanlanıbsan, düzü, təəccüb elədim.

Qənirə gözlərini qaldırıb Bəbirə danlayıcı bir nəzər saldı. Sanki, deyirdi: "Mən də heç inanmırdım ki, sən bu qızların içərisində Mənzəri seçəcəksən".



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Bəbir onun baxışından incidiyini hiss etdi. Ürəyini almağa tələsdi:

– Qənirə, incimə. Əlbəttə, hamımızın səhvi olub. Sonra da ona alışırıq. Ancaq səhv səhvliyində qalır. Mən çox şeyi cəbhədə başa düşdüm. Dostluğu da, yoldaşlığı da, lap məhəbbətin özünü də. Orada ölümlə üzbəüz gələndə hiss eləyirsən ki, yaşamayıbsan, ya da necə ki, lazımdır, elə yaşamamısan. Həyat da, adamlar da sənin nəzərində başqalaşırlar. Səni sanki suya çəkirlər, təmizlənirsən, lüzumsuz xırda hisslər səni tərk edir. Həyat gözlərində daha da gözəlləşir və sən bu gözəllik xatirinə canından keçməyə hazır olursan...

Bəbir danışdıqca Qənirə heyrətlə onu dinləyirdi, sinəsindəki ordenlər, medallar adama onun göstərdiyi qəhrəmanlıqlardan söhbət açırdı. Kaş günlər iki bu qədər uzun olaydı, Bəbir danışaydı, o da dinləyəydi, xəyalında Bəbirin aləmini təzədən canlandıraydı.

Bəbir susmuşdu. Onun nəzərini püstə ağacının gövdəsinə həkk edilmiş ad cəlb etdi. Yeddi-səkkiz il əvvəl bıçağın ucu ilə qazdığı "Qənirə" sözü hələ də aydın oxunurdu. Hərflərin qıraqları şişib qaralsa da, öz formalarını itirməmişdi.

– Qənirə, görürsən də, – o, püstə ağacının gövdəsini göstərdi. – Gör üstündən neçə il keçib, ancaq hələ də qalır.

Qənirə gözucu püstə ağacına tərəf baxdı. Orada adının həkk edildiyini çoxdan unutmuşdu. Vaxtı ilə qazılmasına bir uşaq sevinci ilə baxdığı bu hərflər indi ona yabançı göründü.

– Onu silmək gərəkdir, – dedi.

– Nə üçün?

– Bu həyətdə indi o heç kəsə lazım deyil.

– Yox, yox. O, ömürlük qalmalıdır. Bu bizim uşaqlığımızdan yadigardır. Əgər illər özü üstündən addayıb onu pozmayıbsa, biz niyə pozaq? O hərfləri biz ömürlük püstə ağacına hədiyyə vermişik.

– Ancaq adamlar tapılar ki, onu bıçaqla ovub tökərlər. Həmişə tikan olub, gözə girməyəcək ki...

Bəbir Qənirənin kimə işarə elədiyini başa düşdü. Gülümsədi:

– Nahaq elə düşünürsən, Qənirə. Əgər dediyin adam onu silmək istəsəydi, çoxdan silmişdi. Hələ müharibədən qabaq mənim yanımda Mənzər onu bir neçə dəfə oxumuşdu.

Qənirə özlüyündə Bəbirin sadəliyinə, qızlar barədə onun belə sadəlövh təsəvvür və düşüncələrinə güldü: "Sən qızları hələ tanımır-



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

san. Qızlar qısqandıqlarını, adətən, büruzə verməzlər. Ancaq onlar özləri ilə elə gözəgörünməz bir neştər gəzdirirlər ki, macal tapan kimi onu sancanda ağrısını ömrün boyu unutmursan".

Həyət qapısı döyüldü. Bəbir qapını açmağa getdi. Bir azdan iki kişi və dörd nəfər içəri girdilər. Bunlar Bəbirgilin qohumları idilər. Fatmayı kəndindən onun görüşünə gəlmişdilər.

Qənirə xudahafizləşib, mayaka qayıtdı.

## 16

Axşam kənd klubunda yaxşı kino olacaqdı. Hava qaralanda Vasili, Anastasiya və Qənirə kluba gəldilər. Mayakda Dərgah kişi ilə Seyfəli qaldı. Klubun qabağında çoxlu adam toplaşmışdı. Üçüncü zəng çalınandan sonra, hamı içəri keçdi və hərə öz yerini tutdu. Ancaq nədənsə işıqlar söndürülmürdü. Bir azdan klubun müdiri, əlində iri bir gül dəstəsi, səhnəyə qalxdı və oturanlara müraciətlə xəbər verdi ki, bu gün klubda onların yerlisi, Vətən müharibəsi qəhrəmanı Bəbir də iştirak edir. Müdir klub işçiləri adından onu təbrik etdi və sonra əlindəki gül dəstəsini aparıb lap arxa cərgədə oturmuş Bəbirə təqdim etdi. Qənirə Bəbirin kinoda olmasından xəbərsizdi. Geri qanrılıb, onu arxa cərgədə axtaranda bədənini, sanki, güclü elektrik cərəyanı sarsıtdı: Mənzər də Bəbirin yanında oturmuşdu. Onun təkəbbürlə oturması Qənirəyə daha çox yer elədi. "Əlbəttə, indi belə oturarsan. Çünki özü sənin yanındadır. Bəs onun hospitalda yatmasından xəbər gələndə harada idin? Niyə onu yoluxmağa getmədin, çarpayısının yanında oturub suyunu, çörəyini vermədin? Sənin yerinə başqası olsaydı, gedərdi, hospital dünyanın lap o başında olsaydı da, gedərdi. Sənsə rahat oturdun gözlədin ki, sağalıb, özü gəlsin. İndi onun yanında belə təkəbbürlə oturmağa nə var ki. Onu hamı bacarar. Yox, əzizim, sən ona layiq deyilsən, layiq deyilsən, yanında təkəbbürlə otursan da layiq deyilsən...". Qənirə özünə söz verdi ki, bir də qanrılıb onlara baxmasın. Eyib saymasaydı, elə indicə işıqlar keçən kimi qalxıb zaldan çıxardı. Kino qurtarandan sonra onlarla rastlaşmamaq üçün. Bu zaman Anastasiya əyilib, ona nə isə dedi. Qənirə eşitmədi. Qulaqlarında elə bil gurultu vardı. Gicgahlarında qan şiddətlə vururdu. Barı işıqlar tez söndürüləydi. İstəmirdi



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Bəbirlə Mənzər onu burada görsünlər. Bu, ona böyük dərd olardı. Nə üçün? Özü də bilmirdi. "Eh, səfeh qız, – deyə özlüyündə gülümsədi. – Sənə nə düşüb, niyə özünü belə üzürsən? Mənzər onun halal nişanlısıdır, sən niyə danlırsan? Yoxsa qəlbində Bəbirə qarşı... Yox, yox, bu ola bilməz, heç cür ola bilməz". Onun kövrək qız qəlbini yaxıb-yandıran odur ki, Bəbiri Mənzərlər başa düşmür və başa düşməzlər də... Sevgi yanğınlarının güclü olduğu ürəklərdə böyük xərabələr qalır. Mənzərlər isə bu xərabələrdən qorxurlar".

Anastasiya yenə də ona tərəf əyilərək, yavaşcadan qulağına pıçıldadı:

– Bərk susamışam.

Bu pıçıltı Qənirəni xəyallarından ayırdı. İşıq çoxdan söndürülmüş, ekranda kino başlanmışdı. Xronika idi. Müharibənin dəhşətli səhnələri göstərilirdi. İlk dəqiqədən salonda gərgin bir sakitlik yaranmışdı. Təyyarələr yerə yağış kimi bombalar yağdırırdı. Torpaq sovrulur, göz-gözü görmürdü. Vaqonlar, maşınlar alov içində idi. Bu tüstü və tozanaq içərisində sovet əsgərləri hücuma keçirdilər. Tanklar gövdəli ağacları böyrü üstə yıxaraq, sürətlə irəliləyir və düşmənə od yağdırırdılar. Əsgərlərin üz-gözləri toza-torpağa bulaşmış, alovlardan qarsalanmışdı. Heç bir şey onların qarşısını ala bilmirdi. Birdən arxadan gələn bir əsgər, irəli yüyürdüyü yerdə sarsıldı, bir anlığa səndirləyən kimi oldu, sonra dibindən kəsilmiş ağac təki yerə sərildi. Yoldaşları onun böyründən adlayıb keçdilər. Qənirəyə elə gəldi ki, vurulan əsgər Yavərdir, gözləri də, saçları da Yavərinki idi. Qənirə ağzını açıb, çığırmaq istədi, ancaq tez özünü ələ aldı. Yerində elə qurcalandı ki, Anastasiya da bunu hiss etdi. Dönüb ona baxdı:

– Sənə nə oldu, Qənirə? – soruşdu.

Qənirəni tər basmışdı.

– Heç.

Anastasiya gözlərini yenə ekrana zillədi. Qənirə hələ də özünə gəlməmişdi. Bədəni əsirdi. Sağ tərəfində əyləşmiş Vasilidən isə səs çıxmırdı. Heç qımıldanmırdı da. Bütün diqqətini ekrana toplamışdı. Çoxlu papiros çəkirdilər. Bundan Qənirənin başı hərləndi. Koftasının yuxarı düyməsini açdı. Saat yarım içəridə, boğanaq havada oturmaq ona birillik əzab və əziyyət kimi göründü.

Kino qurtardı. İşıqlar yandırıldı. Qənirə Anastasiyaya dedi ki, çıxmağa tələsməsinlər.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Axırda rahat çıxarıq.

Kənd yatırdı. Klubdan çıxanların hənirtiləri də bir azdan tamam kəsildi. Harada isə bir həyət qapısı bərkdən çırpıldı. Lap yaxındakı evdən körpə qığıltısı gəlirdi. O da tezliklə kiridi. Boş küçələrdə onlardan başqa heç kəs qalmadı. Göz-gözü görmürdü. Vasili qabağa düşüb, cib fənəri ilə ayaqlarının altını işıqlandırsa da, faydası yoxdu. Fənərdən yerə insan ayağının ləpiri boyda bir işıq düşürdü. Evlərin arxasından dənizin sərin nəfəsi duyulurdu. Yuxarıya qalxdıqca, o daha da gücləndi. Heç kəs dinmirdi. Hərə öz xəyalına qərq olmuşdu. Qənirə hələ də özünə gəlməmişdi. Yalnız Anastasiya bütün yolboyu bir dəfə dindi: "Çox ağır film idi". Vəssalam. Bundan sonra ta mayakın özünədək daha heç kəsdən səs çıxmadı.

Qapını onlar üçün Dərgah kişi açdı. Seyfəli yuxarıda növbədə idi.

## 17

İki gün idi ki, mayaka qəzet gətirmirdilər. Vasili də qəzetsiz yaşaya bilmirdi. Çörəksiz, susuz keçinə bilərdi, qəzetsiz yox. Bu gün də günortayadək gözlədi. Yenə də bir xəbər çıxmayanda Qənirəni kəndə, poçt idarəsinə, qəzetlərin dalınca göndərdi. Məlum oldu ki, poçtalyon xəstələnmişdir və üç günün qəzeti yığılıb poçtda qalmışdır. Qənirə qəzetləri götürüb poçtdan çıxmaq istədikdə, müdir vəzifəsində işləyən çil-çil qız Güldanə onu səslədi:

– Qənirə, gözlə, mən də çimərliyə gedirəm. Tənəffüsümüzdür. İstəyirəm bir az sərinləyim.

Birgə sahilə gəldilər. İstirahət günü olmasa da, çimərlikdə adam çox idi. Əksəriyyəti uşaqlardı. Yaxınlıqdakı pioner düşərgələri açılan kimi, çimərlikdə axşamadək uşaqlar qaynaşırdı. Çox vaxt sahildə çadırlar qurular və gecəni burada keçirərdilər. İndi isə sahil boş idi. Qənirə çimmək həvəsinə düşdü. Soyunub, suya atıldılar.

Yarım saatdan artıq suda qaldılar. Dəniz sakit və xoş idi. Heç biri sudan çıxmaq istəmirdi. *Axırda Güldanə dilləndi:*

– Daha bəsdir. Bir az da qumun üstündə uzanaq.

Təmiz, narın qum günün altında bərk qızmışdı. Onlar əlləri ilə qumun üst təbəqəsini hamarlayaraq uzandılar. Bu zaman uzaqdan kimsə Qənirəni səslədi:



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Qənirə!

Səs sahildən azca aralı, yarıyadək qumun içərisinə batmış köhnə balıqçı qayığının yanından gəlirdi. Orada, çürük qayığın üstündə kimsə oturmuşdu. Bəbir idi. Qənirə əvvəlcə onu tanımadı. Bir azdan o, əlində əsa, ayağını azca çəkərək, onlara yaxınlaşdı.

– Salam, qızlar!

O, qızların yanında yerə oturdu.

– Sən də çimməyə gəlmisən? – Qənirə qalxıb oturdu.

Bəbir başını yırğaladı.

– Yox, mənə çimmək olmaz, – dedi. – Gəlmişəm hava alım. Sizin nə vaxt gəldiyinizdən heç xəbərim olmayıb. Mən bir saatdan artıqdır ki, orada qayığın üstündə oturmuşam. İndicə sizi tanıdım... Deyirəm heç insafdır, sahilə gələsən, çimməyəsən?

Qənirə onun sözlərindəki acı, kədərli təəssüfü duydu.

Güldanə Bəbirə xəbər verdi ki, onun adına çoxlu məktub gəlmişdir, lakin poçtalyon xəstə olduğundan göndərə bilməyib.

– Bu gün axşam onları özüm gətirmək istəyirdim, – deyə əlavə etdi. Bəbir minnətdarlıq elədi:

– Çox sağ olun, – dedi. – Siz zəhmət çəkməyin, mən uşaq göndərərəm.

Güldanə günorta yerinə baxıb, Qənirəyə işarə elədi ki, suya girmək vaxtıdır. O, gecikirdi.

Yenə birgə suya girdilər. Bəbir isə sahildə uzanıb, dənizin içərilərinə uzaqlaşan qızların arxasınca baxırdı. Vaxt var idi ki, Qənirə ilə birlikdə, o da beləcə delfin kimi göy dənizin içərisinə şütüyərdi, üçüncü xəndəyədək gedərdilər. O zaman üzməkdə kənd cavanlarından heç kəs Qənirə ilə Bəbirə çata bilməzdi. Bir azdan Qənirə tamam gözdən itdi. Arabir başı görünürdü. Güldanə isə onunla ayaqlaşa bilmədiyindən ikinci xəndəkdə çimirdi. Sonra sudan çıxdı. Qənirə dənizdə tək qaldı.

– Mən işə gecikirəm, – deyə tez paltarını dəyişmək üçün yaxındakı taxta budkaya tərəf getdi. Qənirə dənizin ortasından Bəbirə əl edirdi. O da əsasını qaldıraraq, ona cavab verdi. Güldanə geyinib kəndə qayıtdı. Bəbir darıxdığından Qənirənin qəzetlərini səhifələməyə başladı. Gün günorta yerindən xeyli əyilmişdi. Dənizin üstündə səma gömgöy idi. O, üfüqdə dənizin göylüyünə qovuşaraq, Bəbirin gözləri qarşısında bütöv mavi bir aləm yaratmışdı, göy



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

mavi, sular mavi! Bundan Bəbirin ürəyinə elə bir sərinlik yayıldı ki, qeyri-ixtiyari gözləri xumarlandı. Qənirə sudan çıxıb sahillə irəliləyirdi. Bu zaman Bəbirə elə gəldi ki, Qənirədə nə isə çatışmır, onda vaxtı ilə gözlərinin alışdığı bir şey, nə idisə, öz yoxluğunu dərhal büruzə verirdi. Nə idi bu? Bəbiri çox düşündürdü. Qənirə sudan çıxıb, budkaya getdi və paltarını geydikdən sonra gəlib Bəbirin yanında oturdu.

Bəbir gözlərini qəzetdən çəkib, Qənirəyə baxanda onu narahat edən suala cavab tapdı.

– Qənirə, bayaqdan bəri düşünürəm ki, səndə nə isə bir şey çatmır, – dedi, – indi bildim ki, nədir. Müharibəyə getməmişdən əvvəl gözlərim ona alışmışdı.

– Nədir o? – deyə qız təəccübləndi.

– Yadıma gəlir ki, sən boynunda həmişə muncuq gəzdirərdin. Deyirdin ki, qızıldandır, anamdan yadigar qalıb. Onu deyirəm.

Qənirə qımışdı:

– Aaaa! Onu keçən il müdafiə fonduna verdim... Ancaq verəndə hiss eləyirdim ki, atam razı deyil. Dedi ki, axı o sənə anandan yadigardır. Mən də dedim ki, anam sağ olsaydı, o da belə edərdi. Ondan sonra atam dinmədi.

Bəbirin gözləri qıyıldı. O, əsasının ucu ilə yaş qumun üstündə nə isə cızırdı. Qənirə bu anlardan istifadə edərək, xəlvəti nəzərlərlə Bəbirə göz qoydu. Bəbir çox dəyişmişdi, onu dəyişdirən təkcə bığları deyildi. Sifətində əvvəlki gənclik təravətinə nə isə, Qənirənin sözlə ifadə edə bilməyəcəyi yeni cizgilər əlavə olunmuşdu ki, bunlar onu, sanki başqalaşdırmışdı, üzünə mərdlik, kişilik nəqşləri vurmuşdu. Yalnız ətli dodaqları, on il qabaq olduğu kimi, yenə də fikrə gedəndə aralı qalırdı. Məsum körpə dodaqları kimi.

– O gün hamı səndən danışırdı. – Bəbir xeyli sükutdan sonra Qənirəyə tərəf döndü. Qız onun gözlərindəki mehriban parıltını hiss etdi. – Deyirdilər sən bir ildə yüz cüt yun corab toxuyub, cəbhəyə göndərmisən. – O, yenə qımışdı. – Yorğan-döşəyinizdə, deyirlər, daha yun qoymayıbsan. Əhsən sənə, Qənirə!

Heç kəsin tərifi Bəbirin bu sözləri kimi onu kövrəltməmişdi. Qənirəyə elə gəldi ki, bu sözləri deyən, təkcə onun böyründəcə yaralı ayağını uzadıb dincələn Bəbir deyil, bəlkə də, qılınc kimi



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

kəsən sərt şaxtalarda ayaqlarını isitdiyi yüz döyüşçü, yüz əsgər dillənir, onlar səslənir. Qızı kövrəldən də elə bu olmuşdu. Bəlkə də Bəbirin sözləri ilə onun qəlbinə başqa hisslər də yol tapmışdı, ancaq bu, qızın özünə də aydın deyildi. Çünki bu yaşda qızlarda hisslər bahar suları kimi gec durulur.

– Bəbir, mən istəyirəm ki, sən mənə müharibədən danışasan. Bizim gördüyümüz işlər onun yanında nədir ki.

– Yox elə deyil, Qənirə. Əsgərin əl-ayağını, bir də ürəyini isitsən, o, dağı dağ üstünə qoyar. Bu da siz qızların və qadınların işidir. O ki qaldı müharibəyə, əlbəttə, çox ağırdır. Heç insafdır ki, belə sakit və dinc bir gündə müharibənin dəhşətlərini xatırlayasan? Yox, lazım deyil. Nə qədər vaxtımız varsa, qoy bu dinc saatlardan həzz alaq, sakitliyi duyaq.

– Mən sakitliyi sevmirəm. Mən də istərdim ki, orada olam. Onlara kömək edəm.

Bəbir mehribanlıqla Qənirəyə baxıb köksünü ötürdü.

– Səni başa düşürəm, Qənirə, – dedi. – Ancaq buradan onları ruhlandırsanız, bu hər şeyə dəyər. Əsgər üçün bu hava kimi lazımdır... Elə uzağa getməyək. Danışırlar ki, Muradın arvadı onun qayıtmasını gözləməyib Cəbiyə ərə getmək fikrinə düşüb... Bu indi cəbhədə Muradın qulağına çatsa...

– Yalandır! – deyə Qənirə çığırdı və Bəbirin sözünü ağzında qoydu. – Sən də bu sözlərə inanırsan! Ona böhtan atırlar, şər atırlar...

Qənirə elə əsəbiləşmişdi ki, Bəbir dediyinə peşman oldu. Qızın bütün bədəni yarpaq kimi əsirdi.

– Qənirə, sənə nə oldu? Niyə belə titrəyirsən? Mən eşitdiyimi deyirəm. Bəlkə doğrudan da arvada böhtan atırlar? Mən onu həmişə namuslu arvad kimi tanımışam.

– O yazıq başını aşağı salıb, iki uşağını güc-bəla ilə böyüdür, bəzi əclaflar isə onun barəsində gör nələr uydururlar...

Qənirənin qanı qaralmışdı. Bəbir onu uzun müddət sakitləşdirə bilmədi.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

## 18

Kənd içində birdən şivən qopdu. Ərkinazgilin qapısında arvadlar çığırışdılar. Evlərin arasında tüstü də göründü. Bu çığırtı mayakdakılara da çatdı. Dərgah kişi sübh tezdən bostana gedirdi. Bu gün bostanın ilk nübarını gətirəcəkdi. Ulaqla cığırı enəndə kənddə qopan çığırışmaya ayaq saxladı. Sonra geri qayıdıb Qənirəyə xəbər verdi. Qənirə əlindəki işi yarımçıq qoyub kəndə yüyürdü. Qabağına çıxan oğlandan orada nə baş verdiyini soruşdu.

– Ərkinaz xala özünü yandırıb.

Elə bil bütün dünya başına hərləndi. Divara söykənməsəydi, yıxılacaqdı. Haçandan haçana özünə gəldi və yüyürməyə başladı. Yaxınlaşdıqca arvadların çığırtısı daha da güclənirdi. Qənirə indi ayağının altını da görmürdü. Budur, Ərkinazgilin küçəsinə buruldu. Bütün kənd camaatı elə bil buraya toplaşmışdı. Arvadların ağlaşması kəsilmirdi. Qənirə özünü qapı ağzına çatdırıb, adamları aralaya-aralaya qabağa çıxdı. Ərkinazı yerə uzatmışdılar. Yanıb bədəninə yapışmış paltarları hələ də buxarlanırdı. Görünürdü ki, adamlar onu su ilə söndürüblər. Qənirə dizi üstə yerə çökdü və hönkürtü ilə ağlamağa başladı:

– Sözbazlar səni öldürdülər! Balalarına rəhmləri gəlmədi! Sənin başın hamının yanında uca idi, yazıq Ərkinaz!

Onun sözlərinə arvadlar təzədən qıy çəkib ağlaşdılar. Bir arvad saçlarını yolaraq, bərkdən ağı deyirdi. Kişilər meyiti küçənin ortasından qaldırmaq istəyirdilər. Nərdivan da tapıb gətirmişdilər ki, üstünə qoyub, həyətə aparsınlar. Ancaq arvadların əlindən meyitə yaxın düşə bilmirdilər. Kişilərdən kimsə bərkdən çığırdı:

– Ay arvadlar, bəsdir də! Yol verin, qaldıraq. Meyit küçənin ortasında qalmayacaq ki!..

Bu sözlərə əhəmiyyət verən olmadı. Uzaq küçələrdən arvadlar axışıb gəldikcə şivən təzədən qopurdu. Axırda kişilər zorla keçdilər. Arvadları kənara çəkdilər və Ərkinazın meyitini nərdivanın üstünə qoydular. Kimsə çığırdı:

– Evinə aparmayın!

– Bəs hara aparaq?

– Qapını uşaqların üzünə qıfıllamışdır. Əvvəlcə uşaqları evdən çıxarın.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

İki nəfər arvad həyətə cumdu. Qənirə də onların dalınca yüyürdü. Qıfılı açıb, uşaqları evdən çıxardılar və onları hasardan aşırıb Ərkinazın bacısı ərinə verdilər. O, uşaqları evlərinə aparandan sonra meyiti həyətə gətirdilər. Ərkinazın sahmana saldığı həyət-baca, *sərin eyvan, uşaqlarını dolandırmaq üçün həyətdə əkib-becərdiyi* göyərtilər, həyətin o başındakı iki əncir ağacı Ərkinazsız elə yetim görünürdülər ki, Qənirəni təzədən hönkürtü tutdu. Qənirə çığırmaq istəyirdi. İstəyirdi hamı bilsin ki, Ərkinaz namusunun qurbanı olmuşdur, o, vurulan ləkəyə dözə bilməmişdir.

– Onu Cəbi ilə arvadı öldürüb! – deyə Qənirə heç kəsdən çəkinmədən bərkdən qışqırdı. – Qoy cavab versinlər, cinayətkar onlardır!.. Yaxalarını qurtara bilməyəcəklər!

Heç kəs dinmədi. Bəziləri cavan qızın cürətinə heyrət etdilər.

Qənirə qəzəbindən üzünü əlləri içərisinə alıb həyətə çıxdı, əncir ağacının altında tək-tənha oturub yavaşdan, səssiz-səmirsiz ağladı. Onun indi özünə də acığı tutmuşdu. Ərkinaz barədə Bəbirlə söhbətindən sonra nə üçün gəlib onun ürəyini almamışdı, təsəlli verməmişdi. Gəlsəydi, Ərkinaz bəlkə də bu işi tutmazdı.

O, başını qaldırmadan, xeyli müddət beləcə tək-tənha oturub öz fikirlərinə qərq oldu. Birdən ayaq səsinə başını qaldırdı. Mənzər idi. Qənirə saymazyanalıqla yenə başını aşağı dikdi.

– Özünü üzmə. Çalış ki, sən də onun yolu ilə getməyəsən.

Qənirə yaşlı, qızarmış gözlərini qaldırıb qəzəblə baxdı:

– Başa düşmədim, nə dedin?

Mənzərin dodaqları istehzalı bir təbəssümlə titrəyirdi.

– Niyə başa düşmürsən, bir az fikirləşsən, başa düşərsən, – dedi. – Çimərlikdə başqa kişilərlə çimmək nə tez yadından çıxdı?

Qənirə onun nəyə işarə etdiyini başa düşdü. Yəqin ki, dünən çimərlikdə onun Bəbirlə oturduğunu Mənzərə çatdırmışdılar.

– Bəbir mənim uşaqlıq yoldaşımdır. – Qənirə təkəbbürlə səsləndi. – Onunla bir həyətdə böyümüşəm.

– On il bundan əvvəlin söhbətidir bu. Özün bilirsən ki, indi onun nişanlısı var.

– Nişanlısı var! – Qənirə istehza ilə onun sözlərini təkrar etdi. – Nə olsun ki, var, onu başa düşən ki, yoxdur.

– O daha öz işimizdir. Özümüz bilərik. Xahiş edirəm ondan əl çəkəsən. Belə olmasın ki...



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Məni hədələmə, heç kəsdən çəkinmirəm. Bəbir mənim qəlbimdədir. Hədə ilə onu oradan çıxara bilməyəcəksən, istəyir, nişanlısı olma, arvadı ol. Sən yaxşı nişanlı olsaydın, hospitalda yatanda yanına gedərdin, nigaran qalardın... Ancaq...

Mənzər onun sözlərinin gerisini dinləmədən uzaqlaşdı. Qənirə yenə tək qaldı: özü və düşüncələri... Bu əncir ağacının altında Mənzərlə olan söhbəti onun ömür kitabına həmişəlik həkk olundu. Onun mərd, qəhrəman bir adamın nəfəsinə ehtiyacı vardı; mehribanlığın ılıq nəfəsini belə bir adamdan duymaq istəyirdi. Lakin bunu onun əlindən alırdılar. Onu yad bir adam kimi yaxına buraxmırdılar. Yaxınlaşmaq istədiyi işıqlı bir arzu xəyal kimi pərvazlanır, ilğım kimi gözlərinin qabağında əriyib yoxa çıxırdı. Nə böyük dərddir ki, yaxın bildiyin bir şeyə yaxınlaşdığın zaman, o səndən uzaq görünür.

## 19

Ərkinazı dəfn eləyəndən sonra Qənirə uzun müddət özünə gələ bilmirdi. Gününün çox vaxtını otağında keçirirdi. Az dinir, həmişə öz xəyalları ilə yaşayırdı. Yalnız arada bir dəfə icazə alıb şəhərə getdi. Bu hamının ürəyindən oldu. Dedilər ki, qoy getsin, gəzsin-dolansın, ürəyi açılsın, fikri dağılsın.

Bundan iki gün sonra isə Qənirə yoxa çıxdı. O gün gecə yarısınadək gözlədilər. Qənirədən xəbər çıxmadı. Ertəsi gün sübh tezdən Vasili ilə Seyfəli sahilə enib, bütün qayalıqları axtardılar. Sahili bu başdan o başa gəzdilər. Nə bir iz tapdılar, nə də ondan bir xəbər verən oldu. Çoxusu elə güman eləyirdi ki, qız dənizdə boğulub. Fikirdən büzüşüb yumağa dönmüş Dərgah isə buna inanmırdı. Dənizdə böyümüş bir adam sularda boğula bilməzdi. Kənddə də hamı təşvişdə idi. Ərkinazdan sonra bu ikinci bəla idi ki, onlara üz verirdi. Bəziləri gizlicə Cəbidən şübhələnirdilər. Fikirləşirdilər ki, qızın yas yerində açıq-açığına dediyi sözlərə görə bəlkə ondan intiqam alıbdır. Ancaq bunu necə isbat edə bilərdilər?! Ona görə də heç kəs dinmirdi, susurdular.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Fikir Dərgahın belini ikiqat bükmüşdü. Beşinci gün, nəhayət o, mayakın binasından çıxıb, bostanlara endi. Burada, adamlardan uzaqda, tək-tənha doyunca ağladı, ürəyini boşaltdı. Göz yaşı durmaq bilmirdi. "Naxələf övlad, məni bu yaşımda tək qoyub haraya getdin?" Onun ucadan dediyi bu sözlər havada donub qaldı.

Dənizin uğultusu da bu gün qocaya qəribə gəldi. Sular elə bil boğulurdu. Bir xırıltı vardı onların nəfəsində. İndi qızından ona yadigar təkcə bu dəniz qalmışdı, onun nəfəsi, onun mahnıları! Dəniz, göy sular! Yetimliyi də Qənirə atasına hədiyyə qoyub getmişdi. İndi yetim o idi, bu yaşında, arvadsız, övladsız.

Dəniz uğuldayır, qocanın dərdinə züy tuturdu elə bil.

Neçə gün idi ki, yoldaşları onu növbəyə buraxmırdılar. Bu gün isə bostanlardan tez qayıtdı ki, birinci növbədə yuxarı qalxsın. Yenə Seyfəli onu buraxmadı:

– Biz səni əvəz edərik. Sən get dincəl!

Qoca razı olmadı. Özü qülləyə qalxdı. Bir azdan mayakın ağqırmızı işıqları suların üzərində göz qırpmağa başladı. Bu işıqlar dənizin üzərində həyat başladığını xəbər verirdi. Mayakda isə hamı matəm içində idi. Qənirənin yeri görünürdü.

Bir həftədən sonra mayaka bir məktub gəldi. Qənirədən idi. Yazırdı ki, könüllü olaraq cəbhəyə gəlmişdir. Ondan nigaran qalmasınlar. Tibb bacısıdır. Ancaq atasından təkcə bir xahişi vardı: arabir Ərkinazın uşaqlarına baş çəksin.

Vasili məktubu oxuyub Dərgah kişiyə qaytardı. Qoca hərəkətsiz durub, susmuşdu. Göz yaşları qeyri-ixtiyari olaraq qarsalanmış sifəti ilə süzülürdü. Vasili köksünü ötürdü:

– Mən bilirdim ki, belə olacaq, – dedi. – Onun böyük ürəyi vardı. O, buralarda darıxırdı.

Bir həftə sonra ikinci məktub gəldi: Yavərin qara xəbəri idi...



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

# DAĞLI MƏHƏLLƏSİ

Boz təpələr bizim şəhəri cənub və qərb tərəfdən amfiteatr kimi dövrələmişdir. Yuxarıda, bu təpələrin ətəyində böyük bir məhəllə yerləşir: Dağlı məhəlləsi. Şəhər isə çox aşağıda, çökəkdədir. Baharın, payızın leysan yağışlarında məhəllənin torpaq sinəsi lək-lək olur. Sel buraları elə yalayıb keçir ki, sanki küçələrdə üzüaşağı dərin arxlar qazılır. Sarı torpaq rəngi almış su, sonra, döngələri burula-burula şığıyıb qabağına çıxan bütün şeyləri özü ilə sürütləyərək, aşağılarda böyük şəhərin asfalt küçələrinə səpələyir.

Bu məhəllədə evlər var ki, həyətlərinə beş nəfərdən artıq adam sığmır. Dalanlar, döngələr var ki, iki adam yanaşı keçə bilməz. Burada yaşayanların çoxu sadə adamlardır, lakin geniş ürəkləri var. Elə genişdir ki, nəinki sinələrinə, heç həyət-bacaya, dalanlara, döngələrə də sığmır. Xəyalları qanad açan qartalı xatırladır. Yastı-yapalaq evlərdə pərvazlanır, aşağılarda, böyük şəhərin üzərində ənginlik axtarır. Özlərinə məxsus dünyagörüşü, təfəkkür tərzi var bu adamların. Xırda hisslər düşkünü də burada az deyil. Etika-əxlaq normalarını pozanlar da var. Lakin nəcib hisslərə həmdəm olanlar daha çoxdur. İndi bu məhəllə sökülür. Çünki şəhər yuxarıya, təpələrə tərəf böyüyür. Çox çəkməz ki, bu məhəllədən, bu döngələrdən əsər qalmaz. Dedim xatirə qalsın yazdıqlarım bu adamlardan, bu məhəllədən...

## 1

147 nömrəli evin həyətində açılan səhər heç nə ilə fərqlənmirdi. Yenə hamıdan qabaq şofer Vəfadar oyanmışdı. O, gözlərini ovxalaya-ovxalaya həyətə çıxdı. Həmxanalar şirin yuxuda idilər. Qurşağadək soyunub, həyət qapısının sağ tərəfinə, küncdəki su krantının yanına gəldi. Krantın ağzından tökülən suyun şırıltısı bütün həyətə yayıldı. Vəfadar qollarını açıb gərnəşdi. Boğazınadək tüklə örtülmüş geniş sinəsi körük kimi qalxıb-endi. Onun enli kürəyi kəmər yerinədək döydürülmüşdü: bir qadınla bir kişi üzbəüz durub, fəqərə sütununun tən ortasında dodaqlarını bir-birinə uzatmışdılar. Elə bil düşüncəli surətdə belə edilmişdi ki, iki nakam



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

"sevgilinin" öpüşməsinə fəqərə sütunu mane olsun. Vəfadar başını suyun altına tutdu, at kimi fınxıra-fınxıra sinəsini, qollarını, boynunu su ilə yaxalayıb evə keçdi.

İkinci oyanan Mirzə oldu. Onun əsl adı Məşədi Rza idi. Qonşular isə hörmətlə onu Mirzə çağırırdılar. Məşədi də ona görə idi ki, guya uşaqlıqda atası ilə birlikdə Məşhədi ziyarət eləyib. O, uzun, çəlimsiz bir kişi idi. Özü də bərk sinəgirdi. Öskürüb-öskürüb elə göyərərdi ki, baxan deyərdi indicə nəfəsi kəsiləcək. İndi də öskürə-öskürə, əlində naxışlı mis aftafa, su krantının yanına gəldi. O, fəhlə rayonlarından birində, əmanət kassasında işləyirdi: xəzinədardı. İşə elektrik qatarı ilə getdiyi üçün səhərlər tez durmağa məcburdu.

Həyətin kişi tayfasından olan üçüncü sakini Fərzəli idi. Məhəllədə və dükan-bazarda hərdənbir onu çolaq Fərzəli də çağırardılar. Çünki sağ ayağı anadangəlmə şikəst idi. Dabanı yerə beş santimetr çatmırdı. Amma üzdən yaraşıqlı idi. Çatma qaşları və iri qonur gözləri ilə məhəllə cavanları içərisində dərhal fərqlənirdi. O, havada baharın nəfəsi duyulan gündən payızın leysan yağışlarınadək evlərinin damında yatardı. Buna görə də beş pilləli taxta nərdivanı həmişə həyətin bir küncünə söykənmiş görərdin. Fərzəli hansı idarədə isə günaşırı keşikçi işləyirdi. Ailədə iki nəfər idilər. Özü və arvadı. Yeddi ildən artıq idi ki, evlənmişdilər, ancaq övlad sarıdan hər ikisi pərt idi. Vəfadarın anası Xatınbacı Fərzəlinin arvadı Rübabəyə həmişə deyərdi ki, ay cavanəzən, niyə oturub gözləyirsən, dava-dərman eləsənə. Arvad da, kişi də belə sözləri ürəklərinə çox salmazdılar, vurardılar qulaqardına. Rübabə əvvəllər işləmirdi. Yalnız ildən bir az çox olardı ki, Volodarski fabrikində işə girmişdi.

147 nömrəli həyətdə işləyənlər bunlardı. Hə, bir nəfər az qala yaddan çıxmışdı. Doğrudur, o işləmirdi, ancaq o da hər səhər başqaları kimi evdən çıxıb axşamüstü qayıdardı. Bu, Mirzənin yeganə qızı Rəziyyə idi. Ağbəniz, dolu bir qızdı. Onu görənlər heç deməzdilər ki, Mirzənin qızıdır. Ata da bunu görürdü. Ona görə söz-söhbət düşəndə yerli-yersiz dərindən ah çəkər və Rəziyyənin hər şeydə anasına çəkdiyindən yanıqlı-yanıqlı danışardı. Qız maliyyə-kredit texnikumunda mühasibatçılıq oxuyurdu.

Vəfadarın arvadı Sənəm isə altı uşaq anası idi. Buna görə də əri onun işləməsinə icazə vermirdi. Uşaqlardan ikisi – böyüyü ilə kiçiyi oğlan idilər, qalanları isə qız. Böyük oğul Murad altıncı sinifdə



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

oxuyurdu. Kiçiyi isə çağa idi. Qızlardan da ancaq ikisi oxuyurdu. Əlbəttə, belə böyük bir külfətin öhdəsindən gəlmək çətindi.

Həmxanalar mehriban yaşayırdılar. Arada hərdənbir giley-güzar, söz-söhbət olurdu. Buna da çox zaman Mirzə səbəb olardı. O, Vəfadarın böyük oğlundan ara-sıra atasına çuğulluq edərdi. Oğlan tabaşirlə həyətin qırı üstünə və ya da qapı-pəncərəyə müxtəlif şəkillər çəkərdi ki, bu da Mirzənin xoşlamadığı şey idi. Murad bir dəfə də ayaqyolunun qapısına qız şəkli çəkmişdi. Mirzə bunu görən kimi elə kükrəyib qızdı ki, öskürəkdən az qala boğulacaqdı. Axşam Vəfadara gileyləndi. Vəfadar da əl atdı qayışına. Xatınbacının ağzı açıldı, nə açıldı! Ancaq, yenə həyasına sığınıb səsini ucaltmadı, saldı içəri.

Saat səkkiz üçün həyət-baca boşalardı. Araya elə sakitlik çökərdi ki, möhkəm bağlanmamış krantdan süzülən damcıların səsi otaqlarda da eşidilərdi. Vəfadarın körpələri doqquzdan tez oyanmazdılar. Hərdənbir təkcə çağa qığıldardı. Bu səhər də belə oldu. Xatınbacı həyətə çıxdı. Dünən axşamdan yuyub qoyduğu paltarları həyətdə bu başdan o başa çəkilmiş zivəyə sərməyə başladı. Birdən gözü aynabənddə Rəziyyəyə sataşdı. Qız bu vaxtlar, adətən, evdə olmazdı. İndi nə olub belə? "Bəlkə, xəstələnib?" – deyə qarı fikirləşdi. Paltarları sərib qurtarandan sonra Rəziyyənin yanına keçdi. Qızın yaraşıqlı çöhrəsi kəhrəba kimi saralmışdı. Qızarmış iri gözlərinin altına narın kölgələr qonmuşdu.

– Sənə nə olub, a bala? – soruşdu. – Dünən ağıllı-başlı adamdın.

Rəziyyə anasız olduğu üçün Xatınbacının ona həmişə ürəyi yanardı.

– Bəlkə bir yerin ağrıyır?

– Yox, heç yerim ağrımır, – deyə Rəziyyə üzünü Xatınbacıdan gizlətməyə çalışdı.

– Bəs uşkolaya niyə getməmisən?

Qız çiyinlərini çəkdi. Xatınbacı hiss etdi ki, o qəhərləndiyindən danışa bilmir. Həyətdən səs gəldi, buna görə də Xatınbacı söhbətini yarımçıq qoyub, bayıra çıxdı. Fərzəli idi. Nərdivanla damdan enirdi. Xatınbacı ilə ağızucu salamlaşıb, mənzilinə girdi. Və heç bir dəqiqə keçmədi ki, qapının arasından boz bir pişik miyoltu ilə bayıra sıçradı, nərdivanla dama dırmaşdı və oradan da qonşu həyətə atıldı. İçəridən pişiyin dalınca bir tay ayaqqabı da tullandı və Fərzəlinin səsi gəldi:

– Sənin yeyənin belə... Bu moltanı qızına da yüz dəfə demişəm ki, xörəyin ağzını açıq qoyma! Kimə deyirsən, elə bil daş-divardır!



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Sonra Fərzəli özü də əsəbi halda bayıra çıxdı.

Səsə Vəfadarın arvadı Sənəm həyətdə göründü. Rəziyyə də aynabəndin pərdəsini aralayıb boylandı.

– Nə olub, a Fərzəli? – Xatınbacı soruşdu.

Çəhrayı rəngli zolaqlı pijamada, həyətin tən ortasında durub, hirslə pişiyin dalınca dama baxan Fərzəli qaytanı boşalmış tumanını bir əli ilə qarnına sıxaraq, arvadlardan çəkinə-çəkinə mızıldandı:

– Nə olacaq, südlüsıyığı tərtəmiz yalayıb! – İçəri keçdi və oradan səsi yenə eşidildi. – Tanıyıram kimin pişiyidir. Əgər bu dəfə onun başını əzməsəm, atamın oğlu deyiləm! Nağıgilin pişiyidir.

Bir azdan Fərzəlinin səsi kəsildi. Küçədən zəng çala-çala tramvay keçirdi. Birdən qonşu həyətdə nağara vuruldu. Elə bil toy idi. Əslində, toy deyildi. Toy bir gün olar, iki gün olar. Orada isə hər gün nağara döyəclənirdi. Vəfadar evdə olanda bir-iki dəfə damdan boylanıb, qonşu uşaqlarını bərk hədələmişdi. Arada bir neçə gün səsləri çıxmadı. Sonra yenə başladılar. Fərzəli isə onlara baş qoşmurdu: "*Uşaqdırlar da, nə deyim, – deyə əhəmiyyət verməzdi. – Böyük* olsaydılar, bilərdim nə edərdim".

Rəziyyə aynabənddən içəri otağa keçdi. Divarları həmişə yarıyadək nəm çəkən yemək otağından qalxan kəsif rütubət iyi qızın ürəyini bulandırdı, dünən gecədən onu üzən başağrısı daha da gücləndi, üzüüstə yatağına yıxıldı.

Axır aylarda Rəziyyənin çəkdiklərindən qonşulardan heç kəsin xəbəri yoxdu. Qız bir özü idi, bir də dərdi. Beləcə tək-tənha qaldığı *dəqiqələrdə o, yalnız anasını köməyə çağırırdı:* "Ana, bəs sən hardasan?" – deyər və boğula-boğula hönkürtü ilə ağlardı. Nə yaxın bir rəfiqəsi vardı, nə məhrəm ürək sirdaşı. Atası hər şeyi ona qadağan eləmişdi. Bir kursda oxuduğu rəfiqələri ilə də ünsiyyət bağlamağa ixtiyarı yoxdu. "Evdən dərsə, dərsdən evə!" – Atasının ondan ötrü qoyduğu qanun belə idi. Dünən axşam isə Rəziyyənin səbri birdənbirə tükənmişdi. O, gözlənilməz bir sərtliklə atasına demişdi: "Hanı mənim anam?! Onu sən öldürmüsən!" Qəribə burası idi ki, atası qızından birinci dəfə eşitdiyi bu sözdən nə təntimiş, nə də sarsılmışdı. Əksinə, çox soyuqqanlılıqla demişdi: "Sən anadan olandan altı ay sonra o, öz əcəli ilə ölmüşdür!" Son vaxtlar Rəziyyəyə elə gəlirdi ki, atası bu ailəyə kənardan gəlmiş yad bir adamdır. Çünki onun rəftar və danışığından bir dəfə də olsun nə mehriban bir nəfəs və nə də atalıq



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

nəvazişi duymuşdu. Əksinə, atalıqla bir araya sığmayan hərəkətlərindən elə karıxmışdı ki, evdən baş götürüb qaçmaq istəyirdi. Hətta bir dəfə özünə əl qaldırmaq fikrinə də düşmüşdü. Fikirləşdikcə tükləri ürpəşirdi. Özünü elə eybəcər bir dünyada hiss edirdi ki, qulağına hər tərəfdən dəhşətli səslər gəlirdi... Ən yırtıcı heyvan səsindən də heybətli səslər... Rəziyyə bütün gecəni belə qorxunc fikirlər içərisində keçirdi. Yaz buludu kimi neçə dəfə dolub-boşaldı. Səhər şişmiş gözləri ilə qonşulara görünməyə xəcalət çəkdi. Dərsə getmədi.

İndi də, günortadan xeyli keçəndən sonra çarpayısından qalxıb, üzünü soyuq su ilə yudu. Sonra da dəftərlərini açıb qabağına tökdü. İki gün qabaq aldığı kitabları vərəqlədi. Ancaq başına heç bir şey girmədi.

Atası işdən qayıdanadək evdə boş-boşuna vurnuxan Rəziyyənin halı Xatınbacının da gözündən yayınmadı. Axşam nəvələri yatandan sonra Xatınbacı imkan tapıb Mirzənin yanına gəldi və qızın vəziyyətini danışdı.

– Qızın başında deyəsən bir qəziyyə var axı, ay Mirzə qardaş, – dedi. – Belə qoymaq olmaz. Nə qədər gec deyil, bir çarə qıl. Axı nə olub ona belə?

Mirzə əvvəlcə bu sözlərdən duruxdu. Sonra göy dodaqları qaçdı. Öz otağına çəkilmiş Rəziyyə eşitməsin deyə, süni bir təbəssümlə Xatınbacının qulağına tərəf əyilərək, nə dedisə, qarı barmağını açıq qalmış ağzına apardı.

– Aaa... Belə de! Başa düşürəm, başa düşürəm. Yaman dərddir. Vay sənin halına, Mirzə qardaş.

Xatınbacı Mirzənin yanından çıxandan sonra eşitdiyini gəlininə də dedi. O da başını buladı.

Ertəsi gün hamı həyətdə pıçıltı ilə danışırdı ki, Rəziyyə kimə isə aşiq olub, onun dəli-divanəsidir...

## 2

Hava boğanaqdı. Aşağıda, dənizin üstünə də bürkü öz qanadlarını açmışdı. Günün yaxıb-yandırıcı istisindən sonra şəhər hələ də özünə gəlməmişdi, bu boz-sarımtıl boğanaq içərisində ağır mürgü vururdu. Xatınbacıgil həyətə kilim salıb oturmuşdular. Şər qarışanda



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Vəfadar işdən gəldi. Qayıdan baş Salyan yolunda maşının motoru yağ buraxmışdı, sonra da şəhərə çathaçatda təkəri partlamışdı, ona görə belə gec gəlmişdi. Üst-başı tamam mazut içində idi, dəyişib krantın altında yuyunanacan anası kilimin üstündə süfrə açdı və sonra da özü gəlib bir qırağında oturdu. Sənəm, günorta tindəki budkadan alıb bütün günü krantın altında saxladığı pivə qrafinini süfrəyə qoyanda, Vəfadara elə bil qurd iştahası gəldi. Acqarına pivədən iki stəkan içib, ağzını marçıldatdı:

– Pəh, pəh! Sənəm, səndən nə əcəb belə ağıllı iş tutmusan, hə? Əhsən sənə!

Sənəm gülümsədi. Ərinin sözləri ürəyinə yayılmışdı.

– Murad gəldi ki, mama, budkaya təzə pivə gətirdilər. Mən də tez aldırdım.

– Əhsən! Əhsən!.. – Vəfadar yeməyə girişdi. İkinci loğmadan sonra üzünü Fərzəligilin qapısına tərəf tutub çağırdı:

– Fərzəli, ay Fərzəli, gəl pivəyə qonaq ol.

Fərzəlinin əvəzinə arvadı Rübabə cavab verdi:

– Fərzəli evdə yoxdur, Vəfadar qardaş. Bu gecə işdədir.

– Eh, olmadı ki. Bu zəhrimarı tək içmək ləzzət eləmir.

Sonra Mirzəgilin qapısına tərəf baxdı. Onların işıqları gəlsə də, pəncərələrinə boyaboy pərdə çəkildiyindən içəridəkilər görünmürdü.

– Mirzə də içən deyil ki, onunla vuraq.

Qapı ağzından sürətlə şütüyüb keçən tramvaydan həyət-baca lərzəyə gəldi. Bütün günü belə idi. Ancaq bununla belə tramvayın lap qapı ağzından keçməsi heç kəsi narahat etmirdi. Əksinə, demək olar ki, çoxunun ürəyindəndi. Qonşuları Səməd tramvay sürəndi. Dayanacaq yaxında olmasa da, o, həyət adamları üçün düşəndə də, minəndə də tramvayı lap qapının qabağında saxlardı. Müharibə qurtarandan sonra tramvay yolunu söküb yuxarı məhəllədən salmaq istədilər. Belə olsaydı, sübh tezdən işə gedən bu məhəllənin adamları üçün ağır olardı. Tramvaya minmək üçün gərək iki tin başıyuxarı qalxaydılar. Buna görə qonşular dilbir olub, Bakı Sovetinə ərizə yazdılar. Ərizəyə imza qoyanların çoxu neft mədənlərində işləyən fəhlələrdi. Ərizə yazmaq təşəbbüsü, əslinə baxsan, Mirzədən gəlmişdi və ərizəni də öz dəst-xətti ilə o yazmışdı. Bunun xeyri o oldu ki, tramvay xəttini dəyişmək məsələsi yerli-dibli aradan qaldırıldı.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Ailə şam eləyib qurtarandan sonra kilimi də qatlayıb götürdülər. Vəfadar evdən uzun rezin boru götürüb krantın başına keçirdi və həyəti yaxşıca suladı. Hava əməllicə sərinləşdi. Bürkü bir tərəfə qalsın, gecələr ağcaqanad əlindən də yatmaq olmurdu. Məhəllədə görünməyən işdi. Hamı deyirdi ki, ağcaqanadlar müharibə dövründən qalmadır. Guya qapılarda qoyulmuş su çəlləklərindən əmələ gəlib. Ancaq boş sözdü. Çünki su çəlləkləri çoxdan "ləğv" olunmuşdu, ağcaqanadlar isə indiyədək hər gecə "orkestr çalırdılar". Vəfadarın uşaqları səhərlər yuxudan ayılanda bədənləri qıpqırmızı olardı. Çağanın üz-gözü şişərdi.

Fərzəligilin də kiçik otağı yayda, xüsusilə gecələr elə bürkü olurdu ki, heç nəfəs ala bilmirdilər. Rübabə isə bütün yayı bu otaqda yatırdı. Ərinə çox yalvarırdı ki, o da heç olmasa bir neçə gecə dama qalxsın. Fərzəli hər dəfə onun ağzından vururdu:

– Bircə o qalmışdı ki, kişilər baldırlarına tamaşa eləsinlər, – deyirdi. – Yatanda da ölü kimi elə düşürsən ki, heç özündən xəbərin olmur. Gecələr durub üstünü mən örtürəm. İndi istəyirsən damda cəmi məxluq sənə tamaşa eləsin?

Rubabə ərinin belə tikanlı sözlərindən sonra daha üz vurmazdı. Axır vaxtlar Fərzəli damda iri bir qəfəs də düzəltmişdi. Göyərçin saxlayırdı. Bir sübh tezdən, bir də axşam sərini quşları uçurardı. Göy səmada göyərçinlər xəfif-xəfif qanad çalardılar. Damda uşaq kimi o yan-bu yana qaçan Fərzəlinin gumbultulu ayaq səsləri adamın lap başına düşürdü. Tavanın taxtaları arasından otaqlara qum da səpələnirdi. Bu, hamıdan çox Xatınbacını hövsələdən çıxarırdı. Ancaq Fərzəliyə dinə bilməzdilər. Doğrudur, arvadı Rübabə bunun üstündə Fərzəlinin abrını alardı, ancaq nə faydası? Bu sözlərdən Fərzəlinin qulağının dibində elə bil milçək vızıldardı. Vəfadar da Fərzəli ilə münasibətini ağartmazdı. Necə də olsa, qonşu idi, hər gün üz-üzə gəlirdilər. Əgər o da araya girsəydi, gərək birdəfəlik buradan yığışıb köçəydi. Çəkinirdimi? Qətiyyən yox, Fərzəli kimi adamların hülqumunu lap bir barmağı ilə üzüb atardı. Ancaq özünə həmişə toxtaq verir, arvadı ilə anasına yavaşdan deyirdi:

– Onunla nə ağardım, yenə hər gün üzbəüz gələcəyik.

Bu sözləri ona görə yavaşdan deyirdi ki, onları Fərzəligilin otağından nazik bir divar ayırırdı. Əslinə qalsa, bu divar sonralar kərpicdən hörülmüşdü. Nə danışsaydın, o biri tərəfdə aydın eşidiləcəkdi. Çünki Fərzəligilin söz-söhbəti də Vəfadargilin evindəydi. Gecəyarısı



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

tez-tez Fərzəli ilə Rübabə arasında başlayan höcət onları yatmağa qoymazdı.

İnsafən Sənəm də heç razı deyildi ki, əri durub Fərzəli ilə ağız-ağıza versin. Onsuz da Vəfadar bir dəfə böhtana düşüb, iki il qazamatda yatmışdı.

İndi, onu belə köç-külfət basdığı bir vaxtda, heç yaraşardı ki, dalaşmaq üstündə təzədən qazamata girsin, uşaqları qalsın başlı-başına? Bunlar bir tərəfə. Arada Rübabə də vardı. Canlara dəyən cavanəzəndi. Bu vaxtadək həmxanalıqda bir adama güldən ağır söz deməmişdi, bir kimsənin ürəyini sındırmamışdı. Kişilər bir qırağa qalsın, arvadlar da onun boy-buxununa, gur, xurmayı saçlarına, xoş, yüngül yerişinə həsəd aparardılar. Axır zamanlar o çox kökəlmişdi. Rübabə özü də bundan qorxuya düşürdü. Həkimlər ona demişdilər ki, kökəlsən, daha doğa bilməzsən. Darda köməyə çatan arvaddır, Rübabə. Elə xeyir-şər olmazdı ki, qollarını çırmayıb araya düşməsin. Onu karıxdıran yalnız bir şeydi: bu da küçədə, həyət-bacada kişilərin ona zillənən həris baxışları. Çox çalışardı ki, buna əhəmiyyət verməsin. Ancaq bacarmırdı. Əksinə, həris baxışlar altında o özünü daha da itirərdi. Bir dəfə elə karıxmışdı ki, az qala tramvayın altına düşəcəkdi. Əri Fərzəli hirslə deyərdi ki, onunla küçəyə çıxmağa utanır, ya gərək əlinə bıçaq alıb, onu gözləri ilə yemək istəyənlərin bəbəyini yerə töksün, ya da yerli-dibli birgə küçəyə çıxmasınlar. Mirzə kimi abırlı adam da bəzən nəfsini saxlaya bilmirdi. Xatınbacı özü bir dəfə şahid olmuşdu ki, Mirzə öz aynabəndinin pərdəsini aralayıb, həyətdə ziveyə paltar sərən Rübabənin paltarı yuxarı çəkildiyindən açıqda qalmış dolu qıçlarına gizlicə tamaşa edir. "Daha sənə sözüm yoxdur, – deyə Xatınbacı dizinə vurmuşdu. – Kaftarda bir iştahaya bax, ha!" O vaxtdan Xatınbacı Mirzə sarıdan yanıqlı idi...

## 3

Şəhər çoxdan yatırdı. Onun isə gözünə yuxu getmirdi. O biri damlarda artıq şirin yuxuda olan qonşularına həsəd aparırdı. Çoxunun xorultusunu da eşidirdi. Küçədə axırıncı, gecikmiş maşınlar da sürətlə şütüyüb keçdilər. O isə hələ də gözlərini döyürdü. Bu gecə keşikçiliyi deyəsən onun axırına çıxacaqdır. Orada işə girəli yuxusu elə bil ərşə çəkilmişdi. Budur, bir maşın da məhəllədən gurultu



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

ilə ötüb keçdi. Şəhərin hündür evlərində də işıqlar bir-bir elə bil yoxa çıxırdılar. Fərzəliyə elə gəlirdi ki, bu gecə hər şey haraya isə tələsir, şütüyən maşınlar da, söndürülən çıraqlar da, harayasa, dibsiz bir sükunətə, dincliyə tələsirlər. Sonra isə görünməyən, hiss edilməyən bir yerdə sükunətə itaətkarlıqla təslim olaraq, gecənin dərinliyinə çökürlər. O isə bacarmır, rahat bir axarla qu qanadları kimi yumşaq yuxunun rahat qoynuna girə bilmir. Kaş o da bir çıraq olaydı, söndürülən kimi qaranlıq heçliyə qovuşaydı. Yatağında çox *qurcalanandan sonra gözlərini yumub öz-özünə söyləndi:* "Yox, heç bir şey fikirləşməyəcəyəm. Bəlkə, gözümə yuxu getdi. Sayacağam: Bir... İki... Üç... On bir... Otuz iki..."

Neçəyədək saydığı yadında deyildi, birdən səsə oyandı. Qonşu damdan kimsə onların damına keçmək istəyirdi. Budur, o, əlində tutduğu ensiz taxtanı dalanın üstündən aşırdı. Fərzəli onu tanıdı. Qonşuları İsgəndərdi. Məhəllədə onu hamı "Tok İsgəndər" çağırırdı. (Bu məhəllədə çox az adam tapılardı ki, ona ayama qoyulmasın. Peşəsinə, işinə, ailəsinə görə hərə özünə bir ad qazanmışdı. İsgəndər də Volodarski fabrikində montyor olduğu üçün adı "Tok İsgəndər" qalmışdı). İsgəndər Fərzəligilin damına keçdi və Fərzəlini oyaq gördükdə təəccübləndi:

– Əəə, yatmamısan? – soruşdu.

– Qoyursan ki, yataq?

İsgəndər gülümsədi:

– Düz sözə nə zaval. Deyəcəksən ki, bu İsgəndərin başına at təpib ki, gecəyarı damları gəzir. Ancaq məni qınama, Fərzəli, hamının başına belə işlər gəlir, – deyib susdu.

Fərzəli özlüyündə bu qərara gəldi ki, yəqin quşlarından birinə İsgəndərin gözü düşüb.

– Hə, de görüm, yoxsa sarıquyruğa gözün düşüb?

– Yox! – İsgəndər başını buladı. – Bu saat quş-zad gözümdə deyil.

– Bəs nə olub?

Cavan olmasına baxmayaraq, məhəllədə hamının çəkindiyi Tok İsgəndərin belə aciz görkəm aldığını o, birinci dəfə idi ki, görürdü:

– Ada, yoxsa əlindən xata çıxıb, dalınca gələcəklər?

İsgəndər yenə başını buladı, güldü, gözlərinin üstünə tökülən saçlarını əli ilə yana verdi. Fərzəlinin qaşları birdən çatıldı. Ağlına qəribə bir fikir gəldi: "Yoxsa mənə Rübabədən deyəcək? Bəlkə



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

fabrikdə onun barəsində sözdən-sovdan bir şey eşidib?" Qəflətən onu bürümüş bu fikirdən bədəni lərzəyə gəldi.

– Ada, dinsənə, niyə ağzına su alıb susursan? – deyərək İsgəndəri tələsdirdi.

Araya çökmüş sükutun hər saniyəsi Fərzəliyə bir il qədər uzun göründü. Bacarsaydı, əlini uzadıb, İsgəndəri hülqumlar və onu danışmağa məcbur edərdi. Hərçənd ki, məhəllədə hələ bu vaxtadək heç kəs belə cəsarətdə olmayıb. Elə bu zaman İsgəndəri səslədilər. Nənəsi idi. Qarı əlində nə isə tutaraq ətrafına boylanırdı.

– Haradasan, a bala?

– Buradayam. – İsgəndər öz damlarına tərəf çığırdı. – Qoy orada qalsın.

Nənəsi əlindəki kasanı damın qırağına qoyub, yenə həyətə endi.

– Fərzəli, doğramac yeyirsən? – İsgəndər Fərzəlinin yatağı yanında yerini rahatladı.

– Ada, heç doğramacın yeridir? Sözünü de.

İsgəndər nəhayət ki, ürəyini ona açdı:

– Fərzəli, heç deməli dərd deyil. – Dərindən nəfəs aldı. – Aşiq olmuşam.

– Ada, kimə?

– Sizin qonşuya. Mirzənin qızına.

– Ay səni, İsgəndər! – Fərzəli arxayınlıqla nəfəsini çəkib səsini uzatdı. Nigaranlığı bir anın içərisində götürüldü. Sonra gözlərini qıyaraq, məzəli bir əda ilə soruşdu:

– Ada, o sənsən?

Onun sözlərindən heç bir şey anlamayan İsgəndər gözlərini bərəldib soruşdu:

– O kimdir, əəə?

– Qızın ağlını başından çıxaran da. – Əllərini bir-birinə çırpdı. – Bir işə bax ey. Kimin ağlına gələ bilərdi ki, bu sənsən?! Ada, heç xəbərin var ki, qızın ürəyinə necə od salmısan? Yazığın nə gündüzü var, nə gecəsi?

– Sən kimdən danışırsan, Fərzəli?

– Özünü məsxərəyə qoyma. Kimdən danışacağam, səndən başqa.

İsgəndərin sifəti ciddi, qayğılı bir ifadə aldı. Nazik qaşları alnında nizə kimi bir-birinə dirəndi. Fərzəlinin dedikləri ondan ötrü əsl tapmaca idi. Təəssüflə öz-özünə düşündü: "Deyəsən gecikmişəm.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Qızın başqa adamı var. Fərzəlinin dediyi adam heç cür mən ola bilmərəm. Çünki qızla mən cəmi iki-üç dəfə rastlaşmışıq. Bununla da cavan bir qızın ürəyinə od salmaq olmaz. Yox, arada başqa adam var. Görəsən kimdir. Mən onu yerin dibində də olsa, axtarıb tapacağam... Ancaq Fərzəli qoy elə bilsin ki, qızın ürəyinə od salan elə mənəm... Şər deməsən, xeyir gəlməz".

O, ayağa qalxıb öz damlarına keçdi və nənəsinin onun üçün qoyduğu doğramac kasasını götürüb qayıtdı.

– Fərzəli, gəl doğramac yeyək, – dedi.

– Yox, yemirəm. Yatanda o qədər ayran içmişəm ki, heç nəfəs ala bilmirəm.

İsgəndər ağzını marçıldadaraq, doğramacı yeməyə başladı. Fərzəli yatağında dirsəklənib həsədlə ona baxırdı. Rəziyyə kimi bir qızın ürəyini çalmaq hər adamın işi deyildi.

O biri damlarda açılmış yataqlar, güllü yorğanlar, rəngbərəng əlvan adyallar və yatanların başları aydın seçilirdi. Elə bil hər dama bir dəstə çiçək tullanmışdı. Hənirtiyə qəfəsdəki göyərçinlər də ürküşüb, quruldaşdılar. Fərzəli İsgəndərin doğramacı tamam yeyib qurtarmasını gözləmədi:

– İndi, nə eləmək istəyirsən?

– Nə barədə deyirsən?

– Nə barədə olacaq, qız barədə.

– Həə. – İsgəndər ağzındakı tikəni gəvələyərək səsini uzatdı. – Deyirsən yəni fikrim nədir?

– Hə.

– Fikrim odur ki, sən bir Mirzənin ağzını arayasan.

– Mən? – Fərzəli boğazını qabağa uzatdı.

– Səndən yaxın kimim var ki. Bir də səninlə axı qapıbir qonşudur... – O, ağzındakı tikəni tələsik udub sözünə davam etdi. – Ancaq bunu bir sən bilirsən, bir də mən. Məhəllə uşaqlarına da heç deməmişəm.

Onun öz niyyətini yaxın məhəllə uşaqlarından belə gizlədərək, təkcə ona açması Fərzəliyə qəribə göründü. Pivə içəndə onlarla içir, lotuluğa gedəndə onlarla gedir, indi nə oldu ki, Fərzəli onun üçün belə gülməşəkərə dönüb?

– Fabrikdə Rübabə bacıdan öyrəndim ki, sən bu gecə keşikdə deyilsən. Dedim ki, qoy hamı yatsın, sonra qalxım yanına.

– Yaxşı. Dedin ki, məni nə üçün axtarırsan?



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Yox, demədim. Düzü, utandım.

İsgəndər doğramacı yeyib qurtardı. Qaşığı kasanın içinə qoyub qalxdı.

– Hə, Fərzəli, nə deyirsən? Mirzənin saqqızını oğurlaya biləcəksən?

Fərzəli papiros çıxarıb yandırdı. Azca fikirləşəndən sonra dedi:

– Vallah, özüm də qalmışam məəttəl. Bilmirəm Mirzəyə necə deyim.

– Qızın anası, ya da evlərində bir nəfər qadın xeylağı olsaydı, sənə heç əziyyət verməzdim. Nənəmi göndərərdim.

Hələ də fikirdə olan Fərzəli çənəsini ovxalayaraq, başı ilə onun sözlərini təsdiq etdi.

– Orası elədir, – dedi. – Ancaq...

– Nə ancaq? Bilmirəm sən niyə Mirzədən çəkinirsən. Yəni o, belə əjdahadır?

– Əjdaha olsaydı, öhdəsindən gələrdim. Ətiacı adamdır. Sözləri onun boğazından gərək kəlbətinlə çəkib çıxarasan. Ancaq eybi yoxdur. Danışaram. Fikrini birtəhər öyrənərəm.

İsgəndər razı halda gülümsəyərək, damlarına keçdi. O gedəndən sonra yenə Fərzəlinin gözünə yuxu getmədi, qurcalana-qurcalana qaldı. Fikirdən papirosu papirosa caladı. Bir azdan boylanıb İsgəndərgilin damına baxdı. İsgəndər çoxdan yerinə girmişdi. Bəlkə də yuxuda idi.

– Yaxşı işdir də. Məni dəngəsər elədi. Özü isə gör necə yatır.

Həyətlərdən birisində bərkdən çığıran çağa, sonra küçədə sahibsiz itlərin hürüşü onun yuxusunu tamam qaçırtdı. Göyərçinlərin qurultusu daha gəlmirdi. "Quşlar da mürgüyə getdilər..." – fikirləşdi.

Fərzəli yuxuya gedəndə dənizin üzərində dan yeri sökülürdü.

## 4

Rəziyyə iki gün evdə qaldıqdan sonra bu səhər yenə geyinib dərsə getdi. Həyətdəkilər onun atası ilə dil tapdığına sevindilər. Mirzənin də eyni açılmışdı.

Sənəm işə getməyə hazırlaşan Rübabəyə dedi:

– Kişinin dərdi, doğrudan da, böyükdür. Qız, Allah bilir kimə aşiq olub.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Rübabə də gülümsünüb ona yaxınlaşdı və qulağına nə isə pıçıldadı. Sənəmin gözləri bərəldi:

– *Ola bilməz.*

– Bir az yavaşdan. Bunu Fərzəli ilə məndən başqa heç kəs bilmir.

– O ki, avaranın biridir.

– Avara niyə olur? Gəl gör fabrikdə nə hörməti var. Hamı başına *and içir.*

– Nə eləsinlər. Canlarının qorxusundan. Danışan kimi bıçağı soxacaq qarınlarına.

Rübabə güldü. Onun qabarıq sinəsi atılıb-düşdü:

– Ay səni, Sənəm, – dedi. – Heç görmüsən ki, İsgəndər bir adamın *qarnını yırtsın?*

– Mən görməmişəm, ancaq hamı deyir.

– Nə olsun ki, deyirlər. Adam gözü ilə görmədiyi şeyə inanmaz. Nə olub ona? Ağıllı, gözəl-göyçək oğlandır.

– Biz arvadların da evi o zaman yıxılır ki, gözəl-göyçəyə aldanırıq... Ondan arvad saxlayan olmaz. Mən ölü, siz diri.

Rübabə işə gecikdiyindən söhbəti uzatmadı. Fərzəli də keşikdən qayıtdı. Nazik pencəyinin altında iki göyərçin var idi. Həyətə girən kimi nərdivanla dama qalxdı. Gətirdiyi quşları qəfəsə saldıqdan sonra aşağı endi. Rübabə onun üçün bişirib hazırladığı xörəkləri stolun üstünə düzüb, tələsik evdən çıxdı.

Rübabə gedəndən sonra Fərzəli yeməkdən qabaq özünə çay dəmlədi, həyəti suladı. İçəridən kiçik stolu çıxarıb pəncərənin qabağına qoydu. Həmxanalardan birisi həyətdə yemək yediyi zaman Xatınbacı nəvələrini bayıra buraxmazdı. İndi də Fərzəlinin yemək tədarükündə olduğunu gördükdə, uşaqları həyətdən evə çağırdı.

Fərzəliyə də elə bu lazımdı. O, araq butulkasını xəlvəti bayıra çıxarıb, stolun altına qoydu və arxayınlıqla səhər yeməyinə başladı. Bir azdan həyət qapısı açıldı. Mirzə çox pərişan halda içəri girdi. Dodaqları kömür kimi qapqara qaralmışdı. Fərzəli təəccübləndi:

– Xeyir ola, a Mirzə, niyə qayıtmısan?

Mirzə əlini sinəsinə qoyaraq, yavaşdan dilləndi:

– Nasazlamışam, Fərzəli. Yoldan qayıtdım.

– Mirzə, onun dərmanı məndə. – O, araq butulkasını stolun altından çıxarıb göstərdi. – Yüz atsan canın rahat olacaq. Köpək oğlunun



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

malı məlhəmdir də, məlhəm. – O, tez bir stəkana araq süzüb, Mirzəyə tərəf uzatdı. – Buyur Mirzə, al iç.

Mirzə zorla gülümsədi.

– Çox sağ ol, Fərzəli, mənə yaramaz. – Öz aynabəndlərinə tərəf keçdi. Qapıdan asılmış qıfılı gördükdə Fərzəliyə tərəf döndü.

– Fərzəli, bizim qız çoxdan gedib?

Fərzəli ağzındakı tikəni gəvələyə-gəvələyə dedi:

– Vallah, Mirzə, xəbərim yoxdur. Mən də qabağınca gəlmişəm.

Xatınbacı söhbəti eşitdiyindən həyətə çıxdı:

– Mirzə qardaş, qız sizdən bir az sonra getdi. Dedi ki, daha yaxşı olmuşam, dərsdən qalmayım.

– Bir görürsən, – Mirzə narazılıqla əlini çırpdı. – Nahaq gedib. Tamam yaxşılaşmamışdı.

Fərzəli onun sözlərinə xısın-xısın güldü. Və özlüyündə dedi: “Ay rəhmətliyin oğlu, o sağalan dərddir bəyəm. Əgər qızın ürəyinə od düşübsə, tüstüsü hələ çox çıxacaq”.

Fərzəlinin kefi durulmuşdu. O, dördüncü qədəhi doldurub içmək istərkən öz-özünə söyləndi: “Hey, nə eləyirsən? Dur, bəsdir!” O, qədəhi butulkaya boşaltdı və ayağa qalxdı. Başı dumanlı olsa da hiss edirdi ki, yeməyi çox uzun sürmüşdür. Və bu müddətdə Xatınbacı nəvələrini içəri doldurub onları boğanaq havada saxlayır. Tez süfrəsini yığışdırdı və stolu da içəri keçirdi. Xatınbacının nəvələri ağıldan buraxılmış quzular kimi bir-birini qovalaya-qovalaya həyətə doluşdular.

Fərzəlinin yuxusuzluğu da çəkildi, nə isə bir iş görmək istəyirdi. Bəlkə, dama qalxıb, quşları qanadlandırsın? Kirdarı gəlmədi. Yoxsa nərdi qoltuğuna vurub, həyət qapısına çıxsın? Buna da həvəsi olmadı. Birdən İsgəndərin xahişi yadına düşdü. “İndi lap yeridir, – fikirləşdi. – Mirzə evdə təkdir. Xəlvətdə arxayın danışarıq”.

Bir azdan o Mirzəgilin qapısını taqqıldatdı. Mirzə özbək xalatında qapını açdı. Fərzəli qımışdı:

– Ay Mirzə, səninlə bir söhbətim var axı.

– Söhbətin?

– Söhbət deyəndə ki, bir iltimas var, onu sənə çatdıracağam.

Mirzə xoflu adamlar kimi ətrafına boylanıb, tez Fərzəlini içəri çağırdı.

– Gəl, gəl! – Qocanın səsi titrədi.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Fərzəli onun belə həyəcana düşdüyünü gördükdə dediyinə peşman oldu: "Bu kişiyə nə oldu, çinar yarpağı kimi əsir".

– Mirzə, niyə belə narahat olursunuz? Elə bir şey deyil.

Mirzə toxtaq tapdı. Fərzəli güman eləyirdi ki, Mirzə onu içəri dəvət edəcək, altına döşəkcə salacaq, qabağına da yəqin ki, çay qoyacaq. Ancaq Mirzə bunların heç birini eləmədi. Qurumuş göy dodaqlarını yaladı, iri hülqumu enib-qalxdı. Burnunun üstündə laxlayan eynəyini möhkəmlədib, eyni həyəcanlı səslə dedi:

– Buyur, Fərzəli!

Fərzəli yenə də qımışaraq, mətləbə keçdi:

– Buyurduğum odur ki, bizim məhəllədə Tok İsgəndəri yəqin ki, tanıyırsan. Görməsən də yəqin adını eşitmisən.

– Yox, tanımıram.

– Ola bilər. Məhəllədə hələ onun qabağına çıxan yoxdur. Adlı-sanlı cayıldır. Ancaq işində də möhkəm adamdır ha! Fabrikdə hamı ondan razılıq eləyir. Görməmiş olmazsan. Dolu, qəşəng oğlandır.

– Yox, görməmişəm, Fərzəli. Axı o nə eləyib?

– Heç nə eləməyib, Mirzə. O istəyir ki, sənə qohum olsun. Deyir ki, Mirzə etiraz eləməsə adamlarımı göndərərəm. Düzdür, mənimlə o qədər əlaqə-sələqəsi yoxdur, ancaq uzaqdan-uzağa bilirəm ki, qeyrətli oğlandır.

Mirzənin sinəsi araba çarxı kimi xırıldadı. Sonra öskürək onu boğmağa başladı. Yay kimi gərilib açıldı. Haçandan-haçana özünə gəldi. Nəfəsini dərərək dedi:

– Fərzəli, özün görürsən ki, Rəziyyə hələ uşaqdır. Qoy dərsini oxuyub bir yana çıxsın. Sonra baxarıq.

– Mirzə, deyirsən yəni qız məktəbi qurtaranadək İsgəndər oturub gözləsin?

– Nə üçün gözləsin? Qız hələ dörd il oxuyacaq. Sonra bəlkə yenə oxudu. Qız qəhət deyil ki. Getsin başqasını alsın.

– Mirzə, bu almadır bəyəm, birini bəyənməyəndə gedib başqasını alsın? Bəs sən Vahidin qəzəllərini heç oxumamısan? Bir qızın ki, eşqi adamın ürəyinə düşdü, onu oradan çıxarmaq çətin işdir. – Fərzəlinin özü də özünə təəccüb elədi. Araq deyəsən dilini açmışdı. – Mirzə, indi keçək bu tərəfə. Sən heç aşiq olmamısan? Cavanlığında deyirəm hey. Əlbəttə, elə adam da var ki, lap xərifləyəndə də aşiq olur... İndi deyirsən gedib başqasını alsın? Vahid deyir ki...



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

O nə qədər fikirləşdisə, qəzəl yadına düşmədi. Əlini dizinə çırpdı:

– Ehey, yadımdan çıxdı. Hə o deyir ki...

Yenə də yadına düşmədi. Mirzə, Fərzəlinin mətləbi uzatdığını gördükdə, söhbəti qurtarmaq istədi.

– Fərzəli, o dostuna de ki, getsin başına çarə qılsın. Mənim ona ərə gedəsi qızım yoxdur...

Fərzəli gözlərini Mirzənin kömür kimi qaralmış sifətinə zilləyib istehza ilə gülümsədi:

– Mirzə, mənim üçün fərqi yoxdur. Ancaq qorxuram özün peşman olasan. Çox qeyrətli oğlandır.

Mirzə söhbəti qurtarmaq lazım gəldiyini Fərzəliyə bildirmək üçün, əlini başına apardı və astadan ufuldadı.

– Başımın ağrısından bütün gecəni yatmamışam. Bu zəhrimar qan təzyiqi çox pis xəstəlikdir.

Fərzəli Mirzənin eyhamını başa düşdüyü üçün deyil, ayaq üstə dayanmaqdan yorulduğu üçün söhbətini qurtardı:

– Onda mən getdim, – dedi və qapının dəstəyindən tutdu. – Mirzə, məndən incimə, ha.

– İncimək niyə.

– Başqası üçün gəlməzdim. Ancaq bilirəm ki, o, yaxşı oğlandır. Xudahafiz.

Fərzəli çıxan kimi Mirzə tez qapının cəftəsini vurdu.

## 5

Bir gün günortadan azca keçmiş həyətə yad bir adam gəldi, çəkinə-çəkinə o yan-bu yana boylandı, heç kəsi görmədi. Həyətdə təkcə Xatınbacı qalmışdı ki, o da aynabənddə yorğan sırımaqla məşğuldu. Kiçik nəvələri də yanında oynayırdılar. Yad adam içəridən hənirtini eşidib səsləndi:

– Ay ev yiyəsi!..

Xatınbacı qıyığı yorğana batırıb dikəldi və əlini belinə qoyaraq eşiyə çıxdı. Həyətin ortasında tanımadığı bir adam durmuşdu.

– Nə lazımdır, a qardaş?

Yad adam irəli gəldi. Qarıya yaxınlaşıb, əvvəlcə üzr istədi:

– Xala, mən bir şey öyrənmək istəyirəm. Siz...



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

O, sözünün gerisini deyə bilmədi. İçəridən nəvələri çığırışa-çığırışa bayıra çıxdılar və Xatınbacının genbalaq tumanından yapışdılar. Qarı onları güclə özündən araladı, içəri göndərib, üzünü yenə yad adama tutdu:

– Buyur, qardaş, sözünü de!

– Bilmək istəyirəm, bu həyətdə Rza adlı adam yaşayırmı? Uzun, arıq bir kişidir.

Xatınbacı üzbəüzdə qapısından iri qıfıl asılmış aynabəndi göstərdi:

– Orada yaşayırlar, indi evdə yoxdurlar. Özü gec gəlir. Amma qızı gərək ki, indilərdə gəlsin.

Yad adamın gözləri birdən-birə alacalandı, əhvalı tamam dəyişdi.

– Neçə yaşında olar qızı? – deyib, udqundu.

– Maşallah, böyük qızdır. On səkkiz-on doqquz gərək olsun. Özü də...

Xatınbacı Mirzənin ona dediyi sözləri xatırlayıb, sözünün gerisini uddu. "Bəlkə, qızın ağlını çıxaran oğlanın adamlarındandır". Dediklərinə də peşman oldu. Bir istədi ki, kişinin abrını büksün ətəyinə, desin ki, o boyda kişini dərd aparıb, qızın da nə gecəsi var, nə gündüzü. Ancaq yenə də fikirləşdi ki, birdən başqa adam olar, işləri daha da xarablar.

Yad adam gözlərini Mirzəgilin qapısından ayırmadan fikrə getmişdi. İri gözlərinə açıq bir kədər çökmüşdü. Gözlərini qıfıllı qapıdan çəkib yenə soruşdu:

– Dediniz ki, qız atasından tez gəlir?

Xatınbacı ondan ağıllı-başlı şübhəyə düşmüşdü.

– Yox, qardaş, mən heç nə bilmirəm...

Bunları deyib, içəri keçdi və arxasınca aynabəndin qapısını hirslə çırpdı. İçəridən qapı cəftəsinin cıqqıltısı da eşidildi. Yad adam da yalqız, kimsəsiz həyətdə bir az gözləyib, geri döndü. O, qapıdan yenicə çıxmışdı ki, Fərzəli gəldi. Qoltuğunda yenə iki göyərçin tutmuşdu. Xatınbacı aynabənddə durub, kişinin dalınca baxırdı.

– Xala, o kişi buradan gedirdi?

– Həri, bala.

– Kimi istəyirdi?

Həyətdə hamı kimi Xatınbacı da Fərzəlinin xasiyyətinə yaxşı bələd idi. Bir şey eşidən kimi zəli olub yapışırdı adamın yaxasına. Buna görə də canını qurtarmaq üçün dedi:



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Başqa adamı axtarır. Çaşıb bizim həyətə gəlmişdi.

Fərzəli arxayın olandan sonra nərdivanı divara söykəyib qırğı kimi dama qalxdı. Xatınbacı yenə qıyığı əlinə aldı. Bu zaman böyük nəvəsi Murad bir əlində portfel, bir əlində də qəzet içəri girdi.

– Nənə, nənə, Rübabə xalanın şəklini qəzetə vurublar. Özü də gör nə boyda. – O, qəzeti aynabəndin açıq pəncərəsindən nənəsinə uzatdı. Xatınbacı qəzeti əlinə aldı, özündən xeyli aralı tutub, gözlərini qıydı:

– Doğrudan da bizim Rübabədir ki bu, – dedi. – Bəs bu nədir, yaxşı seçmirəm?

– Hansını deyirsən, nənə?

– Bax, bu qaranı deyirəm də. – O, barmağı ilə Rübabənin qarşısındakı maşını göstərdi.

Murad pəncərədən içəri boylandı:

– Hə, bunu deyirsən? Tikiş maşınıdır da.

– Deyirəm axı. Cavanəzən gör nə qəşəng çıxıb. Elə bil gəlindir, bəzənib oturub.

Fərzəli də söhbəti eşidib tez endi aşağı.

– Ada, Murad, nə dedin? Kimin şəklini vurublar?

– Rübabə xalanın şəklini. – O, tez içəri keçib, qəzeti nənəsindən alaraq, Fərzəliyə göstərdi. – Gör nə boydadır.

Fərzəli qəzeti oğlanın əlindən alıb bərəlmiş gözləri ilə baxdı. Özü idi, arvadının şəkli idi. Tikiş maşının dalında oturub gülümsəyirdi. Fərzəli əlini elə çırpdı ki, qəzet ikiyə bölündü.

– Bunu hardan aldın?

– Tindəki budkadan. Nuru dayıdan.

– Çoxdu?

– Çox. Nə qədər istəsən.

Fərzəli qəzetin parçalarını Muradın üstünə atıb, həyətdən çıxdı. O gedəndən sonra Murad qəzetdə yazılmış sözləri nənəsinə oxudu. Məlum oldu ki, Rübabə fabrikin qabaqcılıdır və planı artıqlaması ilə yerinə yetirmişdir.

Heç on dəqiqə çəkmədi ki, Fərzəli qayıtdı. Onun qoltuğunda bir yığın qəzet vardı. O, zibil yeşiyinin yanında çöməldi və qəzetləri yeşiyə atıb, kibrit çəkdi. Tüstü qalxdı. Murad tez içəri qaçıb, nənəsinə xəbər verdi ki, Fərzəli dayı qəzetləri yandırır. Xatınbacı bayıra çıxanda həyəti tüstü bürümüşdü. Qarı dizlərini döyəclədi:

– Ay Fərzəli, sən nə eləyirsən?



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Fərzəli yanan qəzetləri əlindəki çubuqla qurdaladı:

– Belə lazımdır, xala. Bircə o qalmışdı ki, onun şəklini kişilər evlərinə vursunlar...

Əlini belinə vuraraq tamaşa edən Xatınbacı başını buladı:

– Yaxşı, a bala, buradan aldıqlarını yandırdın. Başqa yerdə satılanları nə eləyəcəksən?

– Qalan yerlərdə işim yoxdur. Onu bizim məhəllədən başqa heç bir yerdə tanımırlar. Ona yazığım gəldi, dedim ki, evdə darıxır, qoy getsin başı qarışsın. Daha demədim ki, şəklini qəzetlərə vurdursun, özünü camaata göstərsin.

Bu sözləri deyərkən gözləri göydə uçan qərib bir göyərçinə sataşdı. Bir anlığa hər şeyi unutdu. Əlini gözünün üstünə qoyaraq bir xeyli baxıb, qoparaq dama dırmaşdı. Özünün bütün göyərçinlərini pırıltı ilə göyə qaldırdı. Göyərçinlər həyətin üstündə xeyli dövrə vurdular və axır ki, tənha uçan qərib göyərçini yolundan çıxarıb, aşağı endirdilər. Fərzəli də onu tutub, qəfəsə saldı. Beləliklə, Rübabənin acığını qərib göyərçindən çıxdı. Sonra kefi durulmuş halda damdan enib, fit çala-çala küçəyə çıxdı.

O, yenicə getmişdi ki, Vəfadar qabağınca QAZ-51 maşınının təkərini dığırlada-dığırlada küçə qapısından girdi, evlərinin divarına söykədi.

– Bu burada qalsın, gecə qaraja aparacağam, – deyə anasına tapşırıb, tez də getdi.

Vəfadar təkəri Seyfidən almışdı. Seyfi onların həyət qapısı ilə üzbəüzdə emalatxana açmışdı. Bu məhəllədə Seyfinin dükanı adı ilə məşhurdu. Əslinə baxsan, əvvəllər burada, qalayçı dükanı yerləşirdi. Seyfi müharibədən qayıdandan sonra bir müddət qalayçılıqla məşğul oldu. Sonra avtomobil təkərləri yamamaq, bir azdan sonra isə avtomobil hissələrini təmir etməklə onun fəaliyyəti daha da genişləndi. Bir sözlə, hər şey əlindən gəlirdi. Adı da Seyfi-Keyfi qalmışdı. Çünki dükanı kefi istədiyi zaman açır və kefi gələndə də bağlayıb gedirdi.

Seyfi müharibədən şikəst qayıtmışdı. Sağ ayağının dabanını top qəlpəsi aparmışdı. Dükanın qabağında bütün günü maşınlar durardı. Əvvəllər təkbaşına hər şeyin öhdəsindən gəlirdi. Sonralar şəhərdə maşınların çoxalması ilə Seyfinin də işi başından aşdı. Buna görə də cavan bir oğlanı özünə köməkçi götürdü. Bəzən elə günlər



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

olurdu ki, gecə də işləyirdilər. Ancaq yenə də çatdıra bilmirdi, müştərilər narazı qayıdırdılar.

Çoxdan idi ki, Vəfadar Seyfidən bir dənə təzə təkər istəmişdi. O da vəd eləmişdi ki, soraqlaşar, satan olsa, tez ona xəbər eləyər. Və səhər Vəfadar işə gedərkən Seyfi ona demişdi ki, saat ikidə bir nəfər təkər gətirəcək, ancaq gərək gətirən kimi gəlib aparasan. Satan adam istəmir ki, dükanda çox qalsın. Ona görə Vəfadar belə tələm-tələsik gəlmişdi.

Həmişəki kimi dükanın qabağı yenə də qələbəlikdi. Təkərini dəyişdirən də vardı, düzəltdirən də. Seyfi köhnə bir minik maşınının altına girib, əyləci düzəldirdi. Köməkçisi isə içəridə körük basır, kamera dəyişir, hava ilə doldururdu. Səkidə üç-dörd maşın yan-yana durmuşdu. Bir az qabaq həyətə girib Xatınbacı ilə söhbət eləyən yad adam da burada maşınların arasında dolaşırdı. Gözlərini isə 147 nömrəli evin qapısına zilləmişdi. Həyətə girib-çıxan hər adama göz qoyurdu. Vəfadarı da təkərlə həyətə girəndə görmüşdü. Ondan sonra həyətə uzun hörüklü bir qız girdi. Bunu görən kimi yad adam əl-ayağa düşdü. İstədi ki, tez küçəni keçib, həyət qapısından qızın dalınca baxsın, tramvay keçirdi, ona mane oldu. Qızın sifətini görə bilməsə də, bir ümid, bir təsəlli öz hərarəti ilə onu isitdi. Təki bu xəbər doğru olaydı, çin çıxaydı, möcüzə kimi görünsə də, həqiqət olaydı. Həyatda azmı möcüzələr olur? Qoy bu da onlardan biri olsun. Onu tərk etməkdə olan ümid təzədən bərqərar olsun, dərdli, xiffətli günlərinə bir bahar nəfəsi əssin. Tale bunu ondan əsirgəyəcəkmi? Nə amansızmış tale! Bu kiçicik insan səadəti ondan ötrü nə böyük şeymiş ki, bədbəxt bir insandan əsirgəyir?.. Bərkdən səslənən siqnal onu xoyalından ayırdı. Böyük bir yük maşınının təkəri az qala böyrünə dirənmişdi. Şofer qəzəblə çığırırdı:

– Ay yoldaş, eşitmirsən, az qala vuracaqdım? Sonra da deyəcəkdilər ki, şoferdir təqsirkar. Balam, belə də keylik olar...

O, şoferin sözlərinə əhəmiyyət verməyib kənara çəkildi. Səsə Seyfi də maşının altından çıxdı.

– Nə olub, nə çığırırsan?

– Ada, nə eləyim, görmürsən? – O, barmağı ilə yad adamı göstərdi. – Ağac kimi bitib durub maşının qabağında. Ha siqnalı basıram, eşitmir ki, eşitmir.

Yolla ötən bir nəfər dözə bilmədi:

– Özün günahkarsan, hələ bir çığırırsan da.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Şofer maşını saxlayıb yerə endi.

– Bacıoğlu, – dedi, – eyib olmasın, nədir mənim günahım, hə?

– Günahın odur ki, maşını səkinin üstünə çıxarmısan. Aydındır! – Sözünü deyib, yenə düzəldi yoluna.

Şofer üzünü Seyfiyə tərəf tutdu:

– Belələrinə nə eyləyəsən? Çəkəsən? Olmur...

Seyfi isə əlində açar dayanıb, gözlərini yad adama zilləmişdi. Şofer də Seyfinin ona əhəmiyyət vermədiyini görüb təzədən maşına oturdu və gurultu ilə uzaqlaşdı. Yad adam əvvəlcə Seyfinin nəzərlərindən yayınmaq istədi, ancaq birdən gözlərini döyəcləyib, diqqətlə baxdı. Bu baxışlar Seyfiyə çox tanış gəldi. Haradasa, bu adamla rastlaşmışdı. Seyfi qolu ilə alnının tərini silərək, bir az da yaxınlaşdı və birdən çığırdı:

– Qaraş!..

Yad adam da onu tanıdı:

– Seyfi!

Onlar qucaqlaşdılar. Ətrafdakı adamlar tamaşaya toplaşdılar. Seyfi tanış şoferlərə deyirdi ki, "biz bir yerdə vuruşmuşuq, cəbhə yoldaşı olmuşuq"...

Xatınbacı yəqin eləmişdi ki, Rübabə işdən qayıdan kimi Fərzəli onunla tutaşacaqdır. Rübabə isə bu gün nədənsə ləngiyirdi. Onun belə gecikdiyi heç olmamışdı. Fərzəlinin də vacib işi vardı, haraya isə tələsirdi. Yumurtası tərs gələn toyuq kimi çox vurnuxdu, axırda gözləyə bilməyib getdi. Ondan bir yarım saat sonra Rübabə gəldi. Xatınbacıdan ərini soruşdu:

– Bayaqdan səni gözləyirdi. Gəlib çıxmadın, o da daha gözləmədi.

– Hə, fabrikdə yığıncaq vardı, ona görə gecikdim.

Xatınbacı ilə gəlini onu qəzetdə şəklinin çıxması münasibətilə təbrik etdilər. Sonra Xatınbacı gülə-gülə dedi:

– Balam, ərin Nurunun budkasında nə qədər qəzet vardı, hamısını alıb gətirdi və zibil yeşiyində yandırdı.

– Səfehdir də, səfehə nə deyəsən? – Rübabə içəri keçdi.

Hava qaralanda Mirzə də işdən qayıtdı. Rübabəni həyətdə görüb təmkinlə gülümsədi:

– Rübabə xanım, şəklinizi qəzetdə gördük. Təbrik eləyirəm.

– Çox sağ olun, Mirzə.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Orada yazılanları da oxuduq. Qabaqcıl olmanızı bizdən niyə gizlətmişsiniz! Qapıbir qonşuyuq. Ancaq bir-birimizi qəzetlərdən tanıyırıq.

Rübabə çəkinə-çəkinə dedi:

– Nə deyəydim, Mirzə, böyük igidlikdir ki...

– Elə əsl igidlik budur. İgidlik daha nəyə deyirsiniz? Necə deyərlər, igidliyin buynuzu var? Elə bilirsiniz ki, igidlik müharibə ilə qurtardı? Yox, yox. İgidlik...

Rübabə başa düşdü ki, Mirzə onu söhbətə tutmaq fikrindədir. Buna görə də onun sözlərinin gerisini dinləmədən içəri keçdi.

## 6

2 nömrəli tramvay yuxarı məhəlləyə qalxırdı. Gecə yarısına az qalmışdı. Fərzəli işdən qayıdırdı. Doğrudur, bu gün onun növbəsi deyildi. Ancaq o biri keşikçi yoldaşı xahiş eləmişdi ki, qardaşı oğlunun toyudur, gecə on ikiyədək onu əvəz eləsin. Kişi vaxtından da qabaq gəldiyi üçün indi Fərzəli evə qayıdırdı. Sərnişin az olduğundan qoca konduktor dəri çantasını sinəsinə basaraq, mürgüləyirdi. Onunla üzbəüz oturmuş saqqallı kişi isə papirosu papiros oduna yandırırdı. Üzünü tük bassa da, o qədər yaşlı deyildi. Fərzəli fikirləşdi ki, yəqin yaslıdır, papirosa da dərddən belə güc verir. Üçüncü sərnişinin isə paltarındakı mazut ləkələrindən məlum olurdu ki, neftçidir, axşam növbəsindən qayıdır. Tramvay yırğalandıqca onun başı tez-tez sinəsinə əyilirdi. Lap qabaqda isə qoca bir qadın oturmuşdu. Fərzəli onu tanıdı. Tramvay dayanacağında papiros satırdı. Papirosu da gündüzlər deyil, gecələr, dükan-bazar bağlanandan sonra satırdı: tək-tək. Buna görə də gəliri pis deyildi. Gecəyarısı papirosu qurtaran və küçələrdə bir papiros üçün vurnuxan adamın vəziyyəti kimə məlum deyil? Belə halda o, tək bir papirosu ikiqat bahasına da almağa hazırdı. Qarı özü də papiros çəkəndi və bilirdi ki, papirosu nə vaxt satmaq lazımdır. Fərzəli üzünü şüşəyə tərəf çevirib oturmuş qarının əllərini görməsə də, pul saydığını hiss edirdi: "Bugünkü gəlirini hesablayır". Bununla belə ona acığı tutmadı. "Qoca, kimsəsiz arvaddır. Bu da onunla dolanır". Qarı da haqq-hesabını qurtarandan sonra mürgü vurmağa başladı. Dayanacaqlarda nə düşən, nə də minən vardı.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Tramvay yenə aram-aram, tələsmədən yoxuşu qalxırdı. İrəlidəki dayanacaqda minən çox oldu. Burada minənlərin əksəriyyəti Volodarski fabrikində işləyənlərdi. Onların arasında İsgəndər də vardı. O, Fərzəlini görən kimi sevincək yanında oturdu.

– Gecənin bu vaxtı haradan gəlirsən? – Əlini Fərzəliyə uzadıb, görüşdü.

– Keşikdən. Yoldaşımın yerinə durmuşdum.

– Sonra nə var, nə yox? Təzə xəbərdən-zaddan? – İsgəndər qımışdı.

– Bilirəm, nə demək istəyirsən.

– İndi ki, bilirsən, de görüm nə oldu?

– Necə olacaq. Mən əvvəldən bilirdim ki, elə bil belə olacaq. Deyir ki, qız hələ oxuyur.

– Oxusun da. Oxumağını əlindən almayacağam ki...

– Qız atasıdır da, gərək bir bəhanə tapsın, ya yox?

– Hər qız atasını özbaşına qoyarlar, bəyəm?

Fərzəli gülümsədi:

– Sən də qəribə söz deyirsən. Qızını zorla əlindən alacaqsan?

– Bəs necə? Lazım gəlsə alaram.

Fərzəli yaşlı adamlara xas bir təmkinlə dedi:

– Hövsələdən çıxmağına dəyməz, İsgəndər. Bir az səbrini bas, məktəbi qurtarar, elçi göndərərsən.

– Qız məktəbi nə vaxt qurtaracaq?

– Düzü, bilmirəm. Deyəsən, hələ dörd il də oxuyacaq.

– Ölmə eşşəyim, ölmə, yaz gələr, yonca bitər. Bilirsən, bunlar bayatıdır. Yəqin ki, fikri yoxdur verməyə.

– Səndən yaxşısına verəcək?

Söhbətin bu əsnasında tramvay növbəti dayanacağa çatdı. Gənc bir qız təngnəfəs keçib qapının ağzında oturdu. Tramvay yenicə tərpənmişdi ki, iki cavan oğlan da mindi. Qız başını aşağı dikib oturmuşdu. İsgəndər Fərzəlinin ətəyini dartdı və qıza tərəf işarə ilə yavaşdan soruşdu:

– O Rəziyyə deyil?

Fərzəli diqqətlə baxdıqdan sonra başını elə bil çiyinləri arasında gizlətmiş Rəziyyəni tanıdı.

– Odur, – dedi.

Onun arxasınca tramvaya minən cavanlar, deyəsən, sərxoş idilər. Qızla üzbəüz oturub, gözlərini ona zilləmişdilər. Sonra, biri yerindən



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

qalxıb qızın yanına keçdi. Rəziyyə yerini dəyişməyə məcbur oldu. Oğlan yenə qızın böyründə oturmaq istəyirdi ki, İsgəndər yerindən qalxdı, yavaşca yaxınlaşıb onun qulağına pıçıldadı:

– Keç yerində otur.

Oğlan əvvəlcə duruxdu. Bir an kirpiklərini döyəcləyərək mənasız baxışları ilə İsgəndəri süzdü və dili dolaşa-dolaşa dedi:

– Ada, bilirsən mən kiməm?

– Bilirəm, Yaftıməlinin nəvəsi!

İsgəndərin bu sözlərinə hamı gülüşdü. Oğlan da özündən çıxıb yumruğunu qolayladı. İsgəndər isə ona göz açmağa macal vermədi, yaxasından yapışıb pişik balası kimi yuxarı qaldıraraq öz əvvəlki yerində, yoldaşının yanında oturtdu. Buna dözə bilməyən yoldaşı da ayağa qalxdı, ancaq birdən İsgəndəri tanıdı və geri çəkilə-çəkilə yerinə oturdu, səsini belə çıxarmadı. Yoldaşı isə yenə İsgəndərin üstünə hücum çəkdi. İsgəndər onun qolundan bərk-bərk yapışıb elə burdu ki, gənc uşaq kimi çığırdı. Yoldaşı yalvarmağa başladı:

– İsgəndər, keç günahından.

İsgəndər isə onun qolunu buraxmadı, tramvay sürənə qışqırdı:

– Ada, saxla!

O da saxladı. İsgəndər oğlanı pillədən aşağı itələdi və yoldaşına:

– Sən də düş, apar zibilini, – dedi. – Bu zəhrimarı içə bilmirsinizsə, niyə içirsiniz?

O biri oğlan da səssiz-səmirsiz tramvaydan düşdü.

İsgəndərin hərəkəti tramvaydakıların hamısının ürəyindən xəbər verdi, 2 nömrəli tramvay həmişə, xüsusilə, gecə vaxtı bu küçələrdən keçərkən xuliqanlar öz bildiklərini eləyirdilər. Bir neçə dəfə konduktoru da döymüşdülər. Sərnişinlər də cürət eləyib, onların qabağına çıxa bilmirdilər. Çəkinirdilər ki, yanlarında bıçaq olar. Rəziyyə İsgəndəri tanıdı. Məhəllədə onunla çox rastlaşmışdı. Bir dəfə ona yaxınlaşıb, nə isə demək istəmişdi, ancaq cürəti çatmamışdı. Ondan sonra həmişə rastlaşanda gülümsəyib keçirdi.

Qabaqda oturan papiros satan qarı geriyə, İsgəndərə tərəf qanrılıb dedi:

– Bala sənin belə qadan gəlsin mənə. Ürəyimdən elə bil tikan çıxardın. Srağagün gecə elə beləsi mənim bir qutu papirosumu çırpışdırıb apardı. Nə qədər çığırdım, heç kəs hayıma gəlmədi. Halal olsun anadan əmdiyin süd, qadan gəlsin o biqeyrət kişilərin ürəyinə.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Daha heç kəs dinmədi. Rəziyyə bu sözlərdən gizlicə köksünü ötürdü. O, bu dəqiqədə kirpiklərini qaldırıb İsgəndəri görmək istərdi, ancaq çəkinirdi. Fikirləşirdi ki, onun baxışları ilə rastlaşsa, qız həyasına sığmayan bu hərəkəti, sanki, hər şeyi alt-üst eləyəcəkdi. Nə üçün? Özü də bilmirdi. Bəs nə üçün məhəllədə onunla rastlaşarkən özündə belə bir istək duymamışdı? Halbuki o zaman İsgəndər sakitcə duraraq gülümsəyirdi. Onun təbəssümündə nə hədə, nə də istehza vardı. Bəs nə üçün o zaman bu təbəssümün fərqinə varmamışdı? İndi isə İsgəndərə baxmaq həvəsi içərisində az qala odlu bir ehtirasa çevriləcəkdi. Bəlkə, adamlar sakit durduqları zaman deyil, öz hərəkətləri və rəftarları ilə cazibədardırlar? Rəziyyənin yadında yalnız bir şey qalmışdı. İsgəndərin gözlərindəki yanıqlı parıltı! Görəsən, indi də onun gözləri elə işıldayırmı? Qız iki hiss arasında qıvrılıb açılırdı. Biri İsgəndəri görmək həvəsi, o birisi isə qızlıq həya və çəkingənliyindən doğan ədəb və nəzakət. "Görəsən, o, indi mənə baxırmı? Əgər baxırsa, mən bunu alqışlamazdım. Nəzərimdən düşərdi. Çünki belə mərd hərəkətdən sonra gözlərini qıza zilləyib baxmaq, sanki, onun bu hərəkətinin qız tərəfindən necə qiymətləndirilməsini öyrənmək, guya xudbin gənclərin adətidir... Bu ani baxış onun ümid və təsəvvürünü alt-üst edə bilərdi. Ancaq bununla belə yoxlamaq, sınamaq istəyirdi. Öz şəxsi mülahizəsinə görə İsgəndər gərək belə etməsin. Fövri qərara gəlməli idi. Heç olmasa adi maraq xatirinə. O, saçlarını üzündən yığmaq bəhanəsilə başını arxaya verərkən, ötəri oğrun nəzərlə istəyinə nail oldu. Ürəyi sinəsinə sığmadı. İsgəndər başını aşağı dikib oturmuşdu. Demək, o, öz mülahizəsində yanılmamışdır. Belə oğlanlar çox nadir olur.

– Ada, burada saxla!

Fərzəlinin səsi idi. Tramvay onların qapısına yetişmişdi. Tramvayçı saxladı. Fərzəli ayağını çəkə-çəkə qabağa gəldi.

– Rəziyyə, çatmışıq, – dedi.

Rəziyyə, onun dalınca Fərzəli, sonra da İsgəndər tramvaydan düşdülər. Rəziyyə ətrafa boylandı:

– Bu axşam məktəbdə iclasımız vardı. Atam dalımca tramvay dayanacağına gəlmədi idi. Bilmirəm, niyə gəlməyib.

Qız sözünü qurtarmamışdı ki, Mirzə özbək xalatında həyət qapısında göründü.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Yuxuya qalmışam, – dedi və Fərzəlini görəndə rahat nəfəs aldı. – Çox yaxşı ki, rastlaşmısınız.

Onların dalınca gələn İsgəndər Rəziyyənin bərkdən dediyi sözləri aydın eşitmişdi.

## 7

Vəfadar yenicə işdən gəlib yeməyə başlamışdı ki, həyətə iki milis işçisi gəldi. Bunlardan biri sahə rəisi, o birisi isə milis mayoru idi. Onlar Vəfadargilin aynabəndinə söykədilmiş təkəri görən kimi yaxınlaşdılar. Təkərin o yan-bu yanına diqqətlə baxdıqdan sonra mayor aynabəndin şüşəsini taqqıldatdı. Səsə Sənəm çıxdı. Milisləri görən kimi yarpaq kimi əsməyə başladı. Dili söz tutmadı.

– Kim lazımdır, qaaardaş?

Milis mayoru təkəri göstərib soruşdu:

– Bu təkər sizindir?

– Bəəəli, ərimindir.

– Əriniz evdədir?

– Bəəəli...

Arvadın qorxduğunu hiss edən milis mayoru mehribanlıqla dedi:

– Zəhmət olmasa, onu bayıra çağırın.

Rəngi kağız kimi ağarmış Sənəm karıxmış halda içəri keçib ərinə xəbər verdi ki, onu milis işçisi istəyir. Vəfadar xörəyini yarımçıq qoyub ayağa qalxdı.

Milis mayoru uzun tüklü qaşları altından Vəfadarı zəndlə süzüb soruşdu:

– Bu təkər sizindir?

– Bəli. Bu gün almışam... otuz...

Mayor onun sözünü kəsdi:

– Kimdən və neçəyə aldığını bilirik. Onu bilirsiniz ki, bu oğurluq maldır?

Vəfadar çiyinlərini çəkdi:

– Haradan bilim? Dedilər ki, satlıqdır, mən də aldım. Təkər sarıdan çox əziyyət çəkirəm. Uzaq yola çıxanda anadan əmdiyim süd burnumdan tökülür.

– Akt bağlamalıyıq. İçəridə yer olar?

– Nə üçün olmur. Buyurun içəri.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Onlar akt yazdıqdan sonra Vəfadardan xahiş etdilər ki, onlarla getsin. Orada məsələ ayırd edilməli idi.

Vəfadar milis idarəsində özündən başqa çox adam gördü. Deyəsən, onun kimi təkər alanlardı. Seyfi də bir qıraqda oturmuşdu. Vəfadarı görən kimi işarə ilə başa saldı ki, qorxulu bir şey yoxdur. İki saat müddətində təkərlərin haradan oğurlandığı aşkar edildi. İyirmi beş-iyirmi altı yaşlarında bir cavan hər şeyi yerli-yerində boynuna aldı, təkərləri haradan və necə oğurladığını təfərrüatı ilə danışdı. Təkər alanları da bərk danladılar.

– Siz bilmirsiniz ki, bu təkərlər bazarda satılmır? Nə üçün maraqlanmadınız, soruşmadınız ki, bu təkərlər sənin üçün haradandır?..

Milis mayoru çox söz dedi. Hamı başını sallayıb dinləyirdi. Yalnız Vəfadar dilləndi:

– Düz deyirsiniz, yoldaş mayor, günahkarıq, soruşmamışıq. Təkəri görəndə elə sevinmişik ki, hər şey yadımızdan çıxıb. Susuz qalmış bir adam su görən kimi hər şeyi yaddan çıxarır, heç yadına düşmür ki, soruşsun bu çeşmənin suyu haradan gəlir. Biz yox, siz olaydınız, nə edərdiniz?

Onun sözləri mayorun xoşuna gəlməsə də, dinmədi. Ancaq bununla belə təkər alanların hamısı iyirmi beş manat cərimə olundu.

Bu müddət ərzində Vəfadargilin evində hamı bir-birinə dəymişdi. Sənəm göz yaşını saxlaya bilmirdi. Uşaqların da bir neçəsi analarına qoşulub ağlaşırdı. Xatınbacı gəlinə də, uşaqlara da təpindi:

– Bəsdir gözünüzün qorasını sıxdınız. Allah eləməmiş, balama nə olub ki, belə yasxana açmışsınız? Qoy oğurlayıb satanların cəzasını versinlər. O nə eyləsin? Satıblar, o da alıb.

Bununla belə özü də bərk nigaran idi. Günorta çağı həyətə gəlib Mirzəni və Rəziyyəni soruşan adam, düzü, heç xoşuna gəlməmişdi. "Bəlkə, oğrunun biridir, bəlkə, oğurluq eləyən elə o adamdır; bəlkə, gəlib öyrənsin ki, həyətdəkilər nə vaxt işə gedir və nə vaxt qayıdırlar. Mən ağbirçək də açdım sandığı, tökdüm pambığı. Bircə qoy uşağım evə qayıtsın, gedib hamısını danışacağam Məşədi Rzaya. Dünyagörmüş adamdır, bir çarə qılar".

Vəfadar evə qayıdandan və evdəkilər hamı sakit olandan sonra Xatınbacı özünü verdi Mirzəgilə. Ev sahibi, əynində özbək xalatı və başında da özbək araqçını, döşəkçənin üstündə oturub, çay içirdi. Rəziyyə isə öz kiçik otağında idi. Xatınbacı orada olduğu müddətdə



Created with
nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

qız bir dəfə də olsun qapını açıb bu otağa keçmədi. Mirzə özü də kefsiz görünürdü. Xatınbacı Mirzənin göstərdiyi ikinci döşəkçənin üstündə oturub, bu gün həyətə yad adamın gəldiyini və onun nələr soruşduğunu yerli-yerində qocaya danışdı:

– Qızın yaşını və saat neçədə məktəbə getdiyini soruşanda barmağımı dişlədim, – deyə əlavə etdi. – Düzü, xoflandım, Mirzə qardaş. Qapını çəkib girdim içəri. O da çıxıb getdi.

Mirzənin ovqatı yaman pozuldu, əlindəki nəlbəkini yerə qoyub fikrə getdi. Xatınbacı tez araya söz saldı, qızın otağına tərəf işarə eləyib soruşdu:

– Hə, o necədir?

Bu sual Mirzəni düşündüyü vəziyyətdən ayırdı. Barmağını dodaqlarına aparıb yavaşdan pıçıldadı:

– Sss. Yavaş... Qanı qaradır, sənə dediyim məsələdən ötrü. Bir az yaxına gəl. O, eşitməsin.

Xatınbacı döşəkçəni azca qabağa çəkdi. Mirzə də qollarını yerə dayaq verib, ona yaxın oturdu.

– Xatınbacı, deyirsən ki, Rəziyyə barədə nə soruşdu? – Mirzə əyilib, az qala qarının qulağına pıçıldadı.

Xatınbacı heç düşünməzdi ki, deyəcəyi sözlər Mirzəni belə təşvişə sala bilər. Onun hər sözü təkrar-təkrar soruşması, danışarkən bir gözünü qızın qapısından çəkməməsi kişinin çox narahat olduğunu göstərirdi. Xatınbacı yad adamın Rəziyyə barədə soruşduğunu yenə təkrar eləyəndə Mirzə uzun barmaqlarını əsəbiliklə bir-birinə keçirir, ovxalayır, elə bil ki, onlarla nə edəcəyini kəsdirə bilmirdi.

– Özü də qəribə adama oxşayırdı. Üz-gözünü görsəydin ürəyin yanardı, ancaq di gəl əməllərinə bax. Deyirəm bəlkə... – Xatınbacı sözünün gerisini deməyə ehtiyat edirdi. Bilmirdi ki, Mirzəyə necə təsir eləyəcək. Ancaq özünü saxlaya bilmədi. – Deyirəm, bəlkə o, dediyin oğlanın adamlarındandır. Kim bilir, hə? – Xatınbacı sonra dodaqlarını büzüb öz-özünə danışırmış kimi əlavə etdi: – Bəlkə də oğrudur, onu da bilmək olmaz...

Mirzə heç cür rahatlıq tapa bilmirdi. Gecəyarısı qalxıb mətbəxdə neft pilətəsini yandırdı, çay dəmlədi. Tünd çay içəndən sonra yuxusu daha da ərşə çəkildi. Gözləri tavana zillənib qaldı. On səkkiz il qabaqkı hadisəni düşündükcə, bütün bədəni lərzəyə gəlir, onu soyuq tər basırdı.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Aynabəndin şüşələri çoxdan bozarmışdı. Həyətdən hənirti gəldi. Pərdəni aralayıb baxanda Vəfadarı gördü. Gözlədi ki, o yuyunub qurtarsın. Vəfadar evinə girəndən sonra Mirzə həyətə çıxdı. Raziyənin qapısı hələ də bağlı idi, ancaq yatmırdı, çoxdan oyanmışdı. Dərsə gecikse də, atası ilə rastlaşmaq istəmirdi. Mirzə portfelini götürüb evdən çıxandan sonra, o, qalxmaq istəyirdi ki, həyətdən yenə atasının səsi gəldi. Gözləməli oldu.

Mirzə küçəyə çıxıb, tramvay yoluna baxdı. Sübh günəşindən gözləri qamaşdı. Əlini gözlərinin üstünə qoyub, yenə baxmaq istəyəndə Seyfinin dükanında oturmuş yad adamı gördü. Bədənini təzədən titrətmə bürüdü. Dükanda Seyfi ilə söhbət eləyən yad adam isə yaxşı ki, onu görmədi. Mirzə tez içəri keçdi, şüşəbəndlərinin qabağını süpürən Xatınbacını həyət qapısına çağırdı. O, qapını örtüb, onun çürük taxtaları arasından küçəyə baxdı. Xatınbacı da yaxınlaşıb yanında durdu. Mirzə qapının taxtaları arasından aydınca seçilən dükanı və dükanda Seyfi ilə birlikdə oturmuş yad adamı Xatınbacıya göstərərək soruşdu:

– Gör dünən buraya gələn o adamdır?

– Odur, Mirzə qardaş! – dedi. – Özüdür. Tanıyırsan ki?

– Hə! – Mirzə qeyri-ixtiyari verdiyi cavaba peşman oldu və tez sözünü dəyişməyə çalışdı. – Onu yox, dükançını tanıyıram.

– Sən Seyfini deyirsən, Mirzə qardaş!

– Hə, hə. O birini birinci dəfədir ki, görürəm. Yaxşı, Xatınbacı, sən get. İşindən avara elədim.

– Eyibdir elə sözlər, ay Mirzə qardaş.

Bu zaman tramvay düz qapıda dayandı. Belə təsadüfdən sevinən Mirzə bir sıçrayışla həyətdən çıxıb, tramvaya oturdu. Məlum oldu ki, tramvayı Fərzəli saxlatdırıb. O, qoltuğunda da bir təndir çörəyi tramvaydan düşdü və Mirzə ilə ağızucu salamlaşıb həyətə keçdi. Seyfinin dükanında oturanlardan heç biri Mirzənin tramvaya oturduğunu görmədi. Mirzə bütün yolboyu fikirləşdi: "Əgər o buralara gəlib çıxıbsa, demək qulağına söz çatıb. Yəqin ki, belədir. Elə-belə gəlsəydi, bu on səkkiz ildə gələrdi..."

O, Fərzəli ilə rastlaşanda ağlına ani bir fikir gəlmişdi. İndi çox götür-qoy eləyəndən sonra qəti qərara gəldi ki, elə bu axşam Fərzəli ilə danışsın.

Rübabə yaxşı bilirdi ki, əri işdən qayıdan kimi həşir qoparacaq. Buna görə də dünən gecədən özünü döyüşə hazırlamışdı. O, həmişə



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Fərzəliyə güzəştə gedərdi. Fərzəlinin ürəyincə olmayan çox şeylərdən ona hörmətinə görə imtina etmişdi. Əri bu vaxtadək, onu bir dəfə də olsun yanına salıb qohumlarından birigilə, ya da kinoya, teatra aparmamışdı. Şəhərin mərkəzindəki mağazalara, univermağa həsrət qalmışdı. İşdən gec gəldiyi günlərdə Fərzəli bir haray salardı ki, qonşular tamaşaya çıxardılar. Rübabə ha desin ki, bu gün istehsalat müşavirəsi idi, ya da yerli komitə seçirdilər. Fərzəlinin başına batmazdı. Ancaq bununla belə Rübabə onu sevirdi. Yad kişilər lap mələk olsalar da, dönüb gözünün ucu ilə də baxmazdı. Könlünü birinci gündən Fərzəliyə elə bağlamışdı ki, özünü bir saat belə onsuz təsəvvür edə bilmirdi.

Fərzəli isə evə gələn kimi dama qalxmışdı. Bir azdan aşağı endi və evin içində boş-boşuna var-gəl etdi. Fikirləşdi ki, haradan başlasın və necə başlasın. Axırda stolun arxasına keçib oturdu. Barmaqlarını stola döyəcləyərək, altdan-yuxarı arvadını süzdü.

– Dünən niyə gec gəlmişdin?

Rübabəyə də elə bu lazım idi. Əllərini belinə vurub, qabağa gəldi. Qollarını çırmadığından kənardan baxana elə gəlirdi ki, indicə dolu ətli qolları ilə Fərzəlini boğazlayacaqdır.

– Mənə bax! – dedi və bədənini əsdirdi. – Bu vaxtadək mən hamısını udurdum. İndi görürəm ki, sənin qabağından qaçdıqca sən kişiləşirsən. Atamın goru haqqı, əgər bu dəqiqə ağzını açıb bir söz desən, məni daha görməyəcəksən! Eşidirsən! Eşitmirsənsə, qulaqlarını aç, yaxşı eşit.

Fərzəli istehza ilə ona baxdı:

– Özünü yandıracaqsan?

– Nəəə? Sənin kimi səfehlərin üstündə? Bircə onu görməyəcəksən! Yenə deyirəm, bu axmaq söhbətlərini yığışdırıb bir kənara qoymasan, o avara quşbaz yoldaşlarınla oturub-durmağı tərgitməsən, vallahı, atamın qızı deyiləm ki...

Fərzəli Rübabənin getdikcə səsini ucaltdığını gördükdə təpindi:

– Həyan olsun, qonşulardan eyibdir!

– Qonşulardan niyə eyib olsun? Mənim başım hamının yanında ucadır. Qoy eybi olan utansın. Daha sənin kimi səhərdən axşamadək damlarda gəzmirəm. Gumbultudan uşaqlar yata bilmir. Mən nədən utanacağam?

– Yaxşı, yaxşı, bəsdir. Lap ağ elədin.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Rübabə hücumunda davam edirdi. Ona elə gəlirdi ki, əgər ara verərsə, Fərzəli yenə onu üstələyəcək. Buna görə çoxdan bəri susaraq demədiklərini, addayıb üstündən keçdiklərini bir-bir sadalayıb, araya tökdü:

– İclasda saxlayırlar, deyirsən ki, harda qaldın. Maaş almaq üçün ləngiyəndə, deyirsən ki, niyə gecikdin. Tramvay xarab olub gecikəndə, daha bilmirsən ki, nə oyun çıxardasan. Nə vaxtadək başıma belə oyun açacaqsan? Mən dinməyəndə sən elə bilirsən ki, günahkaram? Həyama sığınıram, qonşulardan utanıram. Yox, daha bəsdir. Mən bu vaxtadək ona görə dözürdüm ki, səni sevirdim... hə, mən o zaman axmaq oldum ki, səni sevdim. Sənin isə öz sevgililərin var.

Fərzəli döyükdü:

– Bu da təzə çıxdı? Kimdir mənim sevgililərim?

– Kim olacaq, bax, damdakılar. Hər gün qoltuğuna qoyub, ürəyinin üstündə gəzdirdiyin göyərçinlər.

Fərzəlinin arıq sinəsi atılıb-düşdü. Papiros çəkməkdən saralmış dişləri göründü.

– Hi, hi, hi. Mən də deyirəm, sevgililərim kimdir. Sevgiliyə *bax! Hi, hi...*

– Əlbəttə, indi gülərsən. Ancaq gülənin ağlayan günü də olur. Bir quşun başqalarına qoşulub gedəndə, bilmirsən daha nə eyləyəsən. Bəs qorxmursan ki, bir gün arvadın da belə qaça bilər? Onu da yoldan çıxararlar? Heç bu barədə fikirləşirsən, ya hələ yuxudasan?

Fərzəli birdən dikəldi. Elə bil sərxoş adamın başına bir vedrə buzlu su tökdün. Arvadının onunla belə sərt, belə açıq-saçıq danışdığını birinci dəfə görürdü. Qaşları çatıldı. Sifətinin bütün əzələləri gərildi. Rəngi kəhrəba sarılığı aldı:

– Bəsdir daha, lap xəriflədin. Belə eləmə ki...

– Sən də çox qışqırma! – Rübabə onun sözünü ağzında qoydu.

İndi o, heç bir hədə qarşısında geri çəkilən deyildi. Möhkəm qət etmişdi ki, tutduğu mövqeyi axıradək əlində saxlasın. Bununla belə dünən gec gəlməsinin səbəbini ərinə deməyi və onu şübhədən qurtarmağı lazım bildi.

– Özün on beş dəqiqə gecikən kimi hey salırsan ki, amandır gecikdim, şələ-küləmi atacaqlar bayıra. Bəs başqası barədə niyə fikirləşmirsən? Dünən hamımızı toplamışdılar kluba. Böyüklərdən gələn vardı. Məni də çıxardıb oturtdular lap yuxarı başda. Özün de, mən nə



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

eləyə bilərdim? Deyəydim ki, yox, mən istəmirəm, mən evə gedirəm? Getməsəm, ərimin başına cürbəcür axmaq fikirlər gələr? Sən o qədər camaatın içərisində deyərdin ki, mən evə tələsirəm, arvadım nigaran qalar? Hə, deyərdin? Cavab ver də, niyə dinmirsən?.. Yox, günah məndədir ki, sənin kimisini sevirəm. Elə bil adam qəhətdi başıma...

Fərzəlini tanımaq olmurdu. Rübabənin ardı-arası kəsilməyən həmlələri qarşısında elə karıxıb qalmışdı ki, özünü müdafiə etməyə bir söz belə tapa bilmirdi. Arvadının dediyi: "Sənin bir göyərçinin başqalarına qoşulub..." sözləri beynində dəhşətli bir uğultu ilə əks-səda verirdi. Sanki, yüzlərcə, minlərcə adam ağız-ağıza verib, bu sözləri təkrar edirdi. O, qulaqlarına inanmırdı. Bu sözləri deyən doğrudanmı onun arvadı Rübabə idi?.. Yadına Rübabənin gəlin gətirilməsi düşdü. Onu maşında gətirmişdilər. Elə gözəl, elə yaraşıqlı idi ki... Yengə arvadın dediyi sözlər təzədən qulaqlarında eşidildi: "Mən sənə qız yox, mələkə gətirmişəm..." Rübabə o zaman doğrudan da mələkə kimi gözəldi, zərifdi. Fərzəli fikirləşirdi ki, belə gözəl arvadı necə saxlayacaq... Bu səhnələr kino lenti kimi sürətlə gözünün qabağından ötüb keçdi.

Fərzəli ilk vuruşda sarsıdıcı zərbə yemiş adamlar kimi heç cür özünə gələ bilmirdi. Rübabə də susdu. Ərinin aldığı yazıq görkəmə ürəkdən acıdı. Onu düşdüyü vəziyyətdən çıxarmaq məqsədilə saymazyana dedi:

– Qəndimiz qurtarıb, dur get qənd al.

Fərzəli yerindən tərpənmədi. Belə olduqda, Rübabə özü örpəyini başına salıb dükana getdi.

Arvadı gedəndən sonra o, xeyli müddət ovsunlanmış avam kimi yerindən qımıldanmadı. Sonra yadına düşdü ki, damda quşların qəfəsini açıq qoymuşdur. Tez yerindən sıçrayıb dama qalxdı. Günəş buludun arxasında gizləndiyindən hava xeyli sərinləmişdi. Dəniz də gömgöydü. Yox, Fərzəli dənizi heç zaman belə gözəl görməmişdi. Hündür evlərin arxasında Zığ burnundan tutmuş Bayıl burnunadək elə bil gömgöy bir xalı döşənmişdi. Aşağılarda yay-qış gah köpüklənən, dalğaları şaxə qalxan, gah da bugünkü kimi astaca uğuldayan dəniz heç zaman onun yadına düşmürdü. Elə bil belə bir dənizin varlığından tamam xəbərsizdi. Bu gün isə o, dənizi görmüşdü, onun sakit, dinc maviliyi gözlərini oxşamışdı. Qəfəsin qapısı doğrudan da açıqdı.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Ancaq xoşbəxtlikdən göyərçinlərdən bayıra çıxanı olmamışdı. Küçə qapısından qulağına arvadının səsi gəldi, aşağı əyildi. Rübabə tanımadığı uzunboy arıq bir kişi ilə danışırdı. Tramvay və maşınların səsi, qonşu həyətdə uşaqların qışqırığı onların söhbətini eşitməyə mane oldu. Sonra, yad adam ayrılıb, o biri səkiyə keçdi, Seyfinin dükanına getdi. Seyfi ilə nə barədə isə danışmağa başladı. Ancaq gözlərini yenə də onların qapısından çəkmirdi. Başqa vaxt olsaydı, Fərzəli arvadını sıxma-boğmaya salıb, kiminlə danışdığını, nə barədə danışdığını lap kəlbətinlə boğazından çəkib çıxardardı. Ancaq bayaqkı söhbətdən sonra soruşmağa cəsarət etmədi, içəridən qıvrıla-qıvrıla qaldı. Rübabə onun nə çəkdiyini hiss etdiyi üçün sözü özü açdı və tanımadığı adamın Rəziyyə barədə soruşduğunu xəbər verdi.

## 8

Həyətin lap dib tərəfində kiçik bir hin vardı, iki köhnə çarpayıdan düzəldilmişdi. Xatınbacı burada toyuq saxlayırdı. Axşamüstü toyuqların yumurtasını götürmək üçün hinin üstünə əyildikdə, orada iki yumurta əvəzinə birini görüb, dizlərinə vurdu.

– Ay səni xeyrətə qalasan, çil toyuq. Yenə yumurtasını azdırıb. Kişidən yenə xəcalətli qaldım. – Tək yumurtanı götürüb, deyinə-deyinə, aynabənddə kasanın içinə qoydu. – Allah bilir, yenə harda yumurtlayır. İndi kişiyə mən nə deyim?

Xatınbacının cəmi iki toyuğu vardı, ikisi də yumurtlayan. Çil toyuq tez-tez yumurtasını itirirdi. Bir də görürdün ki, heç ağıla gəlməyən yerdə üç-dörd yumurta qoyub. Bu gün də Xatınbacının nəvələri həyəti ələk-vələk elədilər, ancaq yumurtalar heç yerdə tapılmadı. Xatınbacı yumurtaları Mirzəyə satırdı.

– Xəstə, sinəgir kişidir, – deyirdi. – Qoy içsin, savabdır.

Nəvələri isə yumurta üzünə həsrət idilər. Axşam Mirzə işdən qayıtdıqdan sonra Xatınbacı boşqaba iki deyil, təkcə bir yumurta qoyub onlara getdi.

– Mirzə qardaş, Allah çil toyuğun üzünü qara eləsin. Məni sənin yanında xəcalətli qoydu.

Mirzə çox fikirli idi. Xatınbacının sözlərinə o qədər də əhəmiyyət vermədi.

– Eybi yoxdur, eybi yoxdur, – dedi.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Xatınbacı hiss etdi ki, Mirzənin onunla danışmağa həvəsi yoxdur. Buna görə də ləngimədi. Qapıdan çıxarkən arxadan Mirzənin səsini eşitdi:

– Xatınbacı, gör Fərzəli evdədirsə, mənim yanıma gəlsin.

– Baş üstə.

Xatınbacı Mirzənin iltimasını çatdıranda, Fərzəli heyrətlə soruşdu:

– Nəyinə lazımam Mirzənin?

– Mən nə bilim, qadan alım. Məndən xahiş elədi, mən də sənə deyirəm.

Fərzəli əvvəlcə getmək istəmədi. Əlində vacib işi vardı, iki gün idi ki, Rübabə onun baş-qulağını aparırdı ki, ütü xarab olub, apar ver düzəltsinlər. Bu gün də ütünü özü düzəltmək istəyirdi. Tamam söküb-tökmüşdü, onu qurtarmayınca qalxmaq fikrində deyildi. Sonra fikirləşdi ki, Mirzə onu bəlkə İsgəndərin işindən ötrü çağırır. "Bəlkə, razılıq verəcək. Belə şeyi ləngitmək olmaz". Tez ayağa qalxdı.

Fərzəli içəri girəndə Rəziyyə öz otağına çəkilib, qapını içəridən bağladı.

– Fərzəli, xoş gəlmisən, əyləş! – Mirzə ona yaxındakı yumşaq döşəkçəni göstərdi. Fərzəli oturdu. Sevinirdi ki, bu axşam İsgəndərə şad xəbər verəcəkdir. Çünki Rəziyyənin tez qalxıb öz otağına çəkilməsi də göstərirdi ki, söhbət onunla İsgəndər barədə gedəcək. Mirzə isə susurdu. Əlində çevirdiyi kəhrəba təsbehin şaqqıltısı otağa yayılmışdı.

– Fərzəli, biz müsəlman adamlarıq, – nəhayət o, yavaşcadan (əlbəttə, Rəziyyə eşitməsin deyə) sözə başladı. Başqaları kimi papağımız günə yanmır. O kişi ki, öz əyalının qiryətini çəkmədi, o müsəlman deyil...

Fərzəli onun sözlərindən heç bir şey başa düşmürdü, matdım-matdım baxırdı.

– Mirzə, mən başa düşmürəm siz nədən danışırsınız?

Mirzə başını yırğaladı:

– Bizim sadəliyimiz də elə bundadır. Çox şeyə əhəmiyyət vermirik. Çox şeyi başa düşmürük. Başa düşəndə isə gec olur.

Mirzənin sinəsi körük kimi qalxıb-enirdi, elə bil havası çatışmadığından ağzını həmişə açıq saxlayırdı. Fərzəli onun öskürəcəyindən qorxurdu, başlasaydı, yarım saat çəkəcəkdi.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Bir neçə gündür ki, bizim qapıda orta yaşlı bir kişi hərlənir. Özü də bizim məhəllə adamı deyil, yoxsa tanıyardım, – deyə Mirzə sözünə davam etdi. – Gözü elə həmişə bizim qapıdadır. Üz-gözündən qadın düşkününə oxşayır. Bilmirəm kimdir onun bu həyətdə tayı, kimin dalınca düşüb?.. Belələrinin dərsini vermək lazımdır. – Barmağını xalatın altından geydiyi zolaqlı jiletinin cibinə saldı və qızıl zənciri düyməyə keçirilmiş saatını çıxarıb, qapağını qaldırdı. Saata baxıb, başını buladı və təzədən cibinə qoydu. Sonra yenə gözlərini ona zilləmiş Fərzəliyə müraciətlə sözünə davam etdi: – Fərzəli, mən özümdən çox, sənin üçün deyirəm. Biz, bəlkə, günü elə sabah köçdük. Təzə mənzil veriblər...

Fərzəli susurdu. Lakin Mirzə onun dodağını necə gəmirdiyini gördü və başa düşdü ki, həmxanasının yaralı yerinə toxunmuşdur. Ona da elə bu lazımdı. Fərzəli boğula-boğula qalmışdı. Mirzənin dediyi adamın bu gün qapı ağzında Rübabə ilə danışan adam olduğuna heç şübhəsi qalmadı. Doğrudur, Rübabə yalan deməzdi. Həmin kişinin Rəziyyəni xəbər almasını Mirzənin sözləri də təsdiq edirdi. Bununla belə Mirzənin eyhamla dediyi sözlərdə bir həqiqət də vardı. Qapı ağzında Rübabə ilə söhbət edən cavan oğlan olsaydı deyərdi ki, bu qapıya Rəziyyə üçün gəlib. Halbuki o, Rəziyyənin atası yerində idi. Bu bir tərəfdən onu hövsələdən çıxarır, müvazinətini pozur, o biri tərəfdən arvadının bugünkü söhbətindən sonra ondan şübhələnməyi özü üçün təhqir hesab edirdi. Bəs Mirzənin dediyi sözlər?.. Əgər başqa birisi onunla belə söhbət etsəydi, ağzını yeddi yerdən cırardı. Mirzə isə hörmətli bir adam kimi, ata kimi deyirdi.

Mirzə Fərzəlinin tərəddüd içində çırpındığını hiss edib, onun içərisinə saldığı yanğını təzədən alovlandırmağa çalışdı.

– Belə namussuz adamlar hələ də vardır, – dedi. – Belələrinin qabağından qaçsaq, gərək qulaqlarımızı zəfəranlayaq.

Fərzəlinin gözləri hirsindən qanla dolmuşdu.

– Mirzə, mən indi nə etməliyəm?

Mirzə xısın-xısın güldü:

– Mən sənə nə deyə bilərəm? Cavan vaxtım olaydı belələri çıxaydı qabağıma... Ancaq indi... Sənə də demirəm ki, get bıçağı yort qarnına. Əstəğfürullah! Səni çağırmışam ki, məsləhətləşim, görək onun ayağını bizim qapıdan necə kəsə bilərik. – O, dərindən köks ötürdü. – Eh, cavanlıq, cavanlıq, niyə belə ələdüşməz olmusan?..



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Fərzəli! Fərzəli!

Həyətdə kimsə çağırırdı. Fərzəli üzr istəyib çıxdı. Mirzə söhbətin qırılmasına təəssüflənmədi, əksinə, sevindi. Mirzəninki buraya qədərdi, gerisinə ehtiyac yoxdu. Yaralanmış heyvan daha dəhşətli olur. Fərzəlinin xata törədəcəyinə arxayındı. Nə olursa-olsun, o adamın ayağı bu qapıdan kəsilməlidir.

Fərzəlini çağıran Seyfinin köməkçisi idi.

Fərzəli dükana girdikdə, gündüz qapıda arvadı ilə danışan adamı da burada görüb pərt oldu. İndicə Mirzənin onun barəsində dediyi sözlər hələ də qulağından çəkilməmişdi: "Bu nədir, – fikirləşdi, – yoxsa Seyfi onunla oyun oynayır? Ya da çağırılmamış qonağın əcəli çatmışdır?"

Seyfi əlindəki kameranı tiyandakı çirkli suyun içinə buraxıb, Fərzəliyə yaxınlaşdı. Əllərini çirkli önlüyünə silərək, kətildə oturmuş yad adamı göstərdi:

– Fərzəli, Qaraş mənim cəbhə yoldaşım olub. İndi təsadüfən rastlaşmışıq. Aradan on altı il keçəndən sonra. Bilirsən nə var, Fərzəli? Biz gərək ona kömək eləyək.

Hələ də qəzəbi soyumamış Fərzəli, kişiyə baxmadan əsəbiliklə soruşdu:

– Nə kömək?

– Əyləş, özü bu saat sənə danışsın.

Havanın artıq qaralmasına və Seyfinin emalatxananı bağlamağa hazırlaşmasına baxmayaraq, Qaraş başına gələnləri təfərrüatı ilə danışdı. Axırda köksünü ötürüb dedi:

– Heç olmasa, onu bir dəfə yaxından görsəydim, tanıyardım.

Fərzəli on-on beş dəqiqənin içərisində tamam dəyişmişdi. Bircə saat qabaq tanımadığı bu adamın qanını tökməyə hazır olduğu halda, indi onun sözlərindən kövrəlmiş, ürəyi şəfqət hissi ilə dolmuşdu. Məlum oldu ki, Mirzənin bu adam barəsindəki dedikləri tamam uydurma və böhtandır. Hələ bir fitnəkarlıqla arvadı Rübabəni də bu işə qoşmaq istəyirdi. Fərzəli dişlərini qıcadı: "Müsəlmana bax, qeyrətə bax!" Heyif ki, qonağın dediyi sözlər onun qabağını kəsirdi. "Ancaq hələlik onun özünə bir söz deməyin, duyuq salarıq. Ya da mənə yazılanlar, bəlkə, düz deyil. Bəlkə, doğrudan da onun öz bacısı qızıdır..." Yoxsa Fərzəli elə bu dəqiqə gedib Mirzə ilə haqq-hesabı çürüdərdi.

O, qarşısında oturmuş bu məhzun və bədbəxt adamın halına elə acıdı ki, onun hər bir xahişini yerinə yetirməyə söz verdi. Birinci



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

növbədə Rəziyyəni sabah ona göstərməli idi. Ancaq elə eləməli idi ki, qız özü də bunu hiss etməsin.

Fərzəli gedəndən sonra Qaraş oturub Seyfi ilə birlikdə ötmüş günləri xatırladılar. Seyfi, o qılınc kimi kəsən şaxtalı yanvar gecəsində səngərdə ayaq barmaqlarının necə donmasından danışanda Qaraşın don vurmuş barmaqlarının ağrısı elə bil təzədən tutdu.

– İndi də bərk şaxtalarda barmaqlarımda elə ağrılar başlayır ki, heç dura bilmirəm.

– Bəs sən məni görəsən. Soyuqlarda bütün barmaqlarıma elə bil iynə batırırlar... Yadındadır, yazıq Seyran gülüb deyərdi ki, oxşayır bir-birinizi yarışa çağırmısınız. Necə oldu ki, ikinizin də bir vaxtda üç barmağı dondu? Eh, məzəli oğlandı. Görəsən, yazığın başına nə gəldi? Nə ölüsündən xəbər çıxdı, nə də dirisindən.

Qaraş təəccübləndi:

– Necə yəni xəbər çıxmadı?

– Oğluna ancaq bir parça kağız gəlib ki, atan itkin düşüb:

Qaraşın gözləri bərəldi:

– Ola bilməz! – bərkdən dedi. – Onu mən öz əllərim ilə basdırmışam.

– Sən nə danışırsan?

– Özü də çox igidliklə öldü. Üç yerindən ağır yara alsa da, axır nəfəsinədək vuruşdu... Oğlu harda olur?

– Bizim məhəllədə yaşayırlar. Tinin axırında.

Bu təzə xəbər Seyfini də sevindirdi, əlindəki işini bir kənara qoyub, Qaraşın yanındakı ikinci kətilə oturdu. Qaraş fikrini bir yerə toplamağa çalışdı.

– Səni hospitala yola salandan bir həftə sonra başımıza çox bəlalar gəldi. Rotamız mühasirəyə düşdü. Seyran deyirdi ki, əgər bundan qurtarsaq, bizə daha zaval yoxdur. O, üç yerdən yara aldı. Ancaq avtomatı əlindən düşməmişdi. Mühasirədən qurtarhaqurtarda dördüncü güllə onu yerə sərdi... Axırıncı sözləri indiyədək yadımdadır... "Qaraş, ölümdən qorxmuram. Ancaq oğlum başsız qaldı..." Qaraş boğazını arıdıb, sonra yenə sözünə davam etdi. – Oğlu, indi yəqin ki, yekəlib.

– Çox çətinliklə böyüyüb. Müharibənin üçüncü ili anası da ölüb. Nənəsinin qanadı altına sığınıb. Çox igid oğlandır. Bu məhəllədə onun bir dediyi iki olmur.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Nəçidir özü?

– Yaxşı montyordur. Fabrikdə işləyir.

– Sonra gərək bir evlərinə dəyək. Oğlu da bilsin ki, atası necə qəhrəmanlıqla ölüb.

– Məndən tez-tez soruşardı ki, de görüm atam necə vuruşub? Mən də danışardım. Ancaq hiss eləyirdim ki, Seyranın itkin düşməsi onu yaman əyib... İstəyirsən, bu saat evlərinə gedək.

– Gedək.

Seyfi paltarını dəyişib, qapını qıfılladı və lampaları hələ yandırılmamış alaqaranlıq küçə ilə İsgəndərgilə getdilər. Lakin İsgəndər evdə tapılmadı. Nənəsi dedi ki, hansı kəndəsə toya gedib, gecə qayıdacaq.

O gecə İsgəndər, doğrudan da, gec qayıtdı. Şağan kəndində toyda idi. Bir az da vurmuşdu. Ona görə başını balışa qoyan kimi yuxuya getdi. Ertəsi gün də bazardı, doyunca yata bilərdi. Səhər toyuq qaqqıltısına diksinib oyandı, fikir verdi. Səs damdakı köhnə su çənindən gəlirdi. Bir azdan çil toyuq qaqqıldayaraq, çəndən dama sıçradı və yatağında uzanan İsgəndəri görən kimi qanadlanıb, dalanın üstündən Fərzəligilin damına sıçradı, oradan həyətə endi. Başa düşdü ki, çil toyuq Vəfadargilindir. Çünki məhəllədə təkcə Xatınbacı toyuq saxlayırdı.

İsgəndər daha yatmaq istəmədi, qalxıb geyindi. Ancaq aşağı enməmişdən yaxınlaşıb çənin içərisinə baxdı. Gördüyünə təəccübləndi. Çənin içərisinə atılmış cır-cındırın üstündə on dənə yumurta vardı. Bir uşaq kimi sevindi və əyilib yumurtaları papağının içinə yığdı. Onun damdan enib tələsik küçəyə çıxdığını görən nənəsi arxasınca çağırdı:

– A bala, hara getdin? Bəs çay-çörək?

– Bu saat gəlirəm, – deyə İsgəndər həyət qapısını dalınca örtdü. Rəziyyəni bir də görmək məqsədilə əlinə düşmüş bu fürsəti itirmək istəmədi. 147 nömrəli həyətə girəndə nəzərləri birinci növbədə Mirzəgilin qapısına dikildi. Qapıdan asılmış iri qıfılı görəndə gəldiyinə peşman oldu. Heç güman eləməzdi ki, bazar günü onlar evdə olmasınlar. Geri qayıtmaq istədi, ancaq gec idi: Xatınbacı onu görmüşdü.

– Mirzəni istəyirsən, qadan alım? Elə indicə bazara getdi. Qızı isə içəridə yatır.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Yox, Mirzə lazım deyil, – dedi və papağını Xatınbacıya uzatdı. – Sizin yumurtaları gətirmişəm.

– Nə yumurtadır, başına dönüm?

– Sizin toyuq gəlib bizim damda yumurtlayıb.

– Ay səni, çil toyuq, – Xatınbacı əlini dizinə çırpdı. – Gör bir haraya gedib çıxıb. – Yaxınlaşıb, yumurtaları papağın içindən ətəyinə yığdı. – Heç olmasa kişinin xəcalətindən çıxaram. Gündə bir yumurta ilə keçinmək olar?

İsgəndər onun dediyini başa düşmədi.

– Kişi kimdir, xala?

Xatınbacı başı ilə Mirzəgilin şüşəbəndinə tərəf işarə elədi:

– Mirzəni deyirəm də. Gərək gündə iki yumurta içsin. Sinəgir kişidir.

İsgəndər yumurtaları gətirməyinə peşman oldu. Bilsəydi ki, *Mirzəyə qismət olacaq, elə dalandaca sındırıb tökərdi yerə.*

O, həyət qapısını hirslə çırpıb, küçəyə çıxdı. Evlərinə tərəf burularkən, o biri səkidən Seyfi onu görüb səslədi:

– İsgəndər, İsgəndər, bura gəl, təzə xəbər var.

Nədənsə İsgəndərin xəyalında dərhal Rəziyyənin surəti canlandı. Onun üçün ən şad xəbər ancaq Rəziyyə barədə ola bilərdi. Bu arzu ilə tramvay relsini adlayıb Seyfinin yanına gəldi.

– Nə xəbər?

– Atan barədə.

Bu sözləri deyərkən Seyfiyə elə gəlirdi ki, İsgəndər sevincdən uşaq kimi atılıb-düşəcək. Ancaq İsgəndər, əksinə, onun sözlərinə tutuldu. Çünki o, elə bilirdi ki, indicə Seyfi onun atasının hansı ölkədə sağ-salamat olduğunu söyləyəcək. Demək, camaatın vaxtı ilə dedikləri öz yerini tutur: atası xain çıxmışdır. O, qəzəbli gözlərini Seyfiyə zilləyib susmuşdu. Seyfi çiyinlərini çəkərək gülümsədi:

– Sənə nə oldu, niyə mənə elə baxırsan? Sevinmirsən ki, atandan təzə xəbər var?

– Yox! – deyə İsgəndər qəzəblə səsləndi.

– Başa düşmürəm. Özün mənə deyirdin ki, hamı sənə söz atır ki, atan keçib o taya, qorxaq çıxıb. İndi isə onların hamısının ağzından vura bilərsən. Sənin atan Seyran qəhrəmanlıqla həlak olub.

İsgəndərin dodaqları əsdi. Seyfi onun yıxılacağından qorxub qolundan tutdu.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Əyləş, əhvalatı sənə danışım.

Seyfi onu kətilə oturtdu və Qaraşın Seyran barədə dediklərini yerli-yerində ona danışdı.

– Dünən axşam onunla gəlmişdim sizə. Evdə olmadın. Nənən dedi ki, toya getmişsən.

– Hə. Şağandaydım. De görüm indi o haradadır?

– Günortadan sonra evdə ol, gələcəyik.

İsgəndər evlərinə cumdu. Nənəsinə dedi ki, plov tədarükündə olsun, qonağı gələcək. Özü də zənbil götürüb bazara yollandı.

## 9

Günortadan azca keçmiş 147 nömrəli evin həyətində elə şivən qopdu ki, səsə bütün qonşular töküləşüb gəldilər. Xatınbacı həyətin ortasında oturub dizinə döyürdü.

– Ay camaat, balalarım yetim qaldı. Vay, vay! – O, saçlarına da əl atdı. Qonşu arvadlar onu sakitləşdirib təsəlli verməyə çalışırdılar.

– Ay arvad, özünə yazığın gəlsin, bir de görək nə olub, axı?

Xatınbacı hıçqırıqdan boğula-boğula dedi:

– Balam Vəfadar avariyaya düşüb. Balalarım yetim qaldı, ay Allah! – O, yenə saçlarını yoluşdurmağa başladı.

Qonşu həyətdən gəlmiş hündür boylu bir gəlin qabağa çıxıb qarının qollarından yapışdı. Qarı çox çırpındı, ancaq qonşu gəlinin qüvvətli biləkləri arasından çıxa bilmədi. Bu dəmdə gəlini Sənəm əlində zənbil hövlnak özünü içəri saldı. O, hələ küçədə qayınanasının səsini tanımışdı. Xatınbacını bu halda görən kimi zənbili bir tərəfə atıb qayınanasını qucaqladı. Kartof, soğan həyətə səpələndi. Xatınbacı Sənəmin başını sinəsinə basdı.

– Yetim qaldıq, a balam. – Bərkdən ah-zar elədi. – Vəfadar avariyaya düşüb. Adam da basıb...

Qayınanasının bu sözlərindən sonra Sənəm də Xatınbacıya qoşulub həyətdə əsl yasxana açdılar. Vəfadarın uşaqları da evdən hücum çəkib onlara sığındılar. Böyük qız da içini çəkib ağladı.

Qonşu arvadlar mat-məəttəl qalmışdılar. Qarıdan ağıllı-başlı bir söz qoparmaq mümkün deyildi. Yaxşı ki, bu həngamədə Fərzəli içəri girdi. Arvadları aralayıb qabağa keçdi. Xatınbacı ilə Sənəmin



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

qucaqlaşaraq ağlaşdıqlarını gördükdə qorxuya düşdü, üzünü onların başına toplaşan arvadlara tutub soruşdu:

– Nə olub?

Qonşu arvadlardan biri Vəfadarın maşın qəzasına düşdüyünü söylədi. Fərzəli əyilib qayınana ilə gəlinin qabağında çöməldi. Xatınbacı yaşlı gözlərini imdad diləyən adamlar kimi Fərzəlinin üzündə gəzdirdi.

– Fərzəli, qadan alım, Vəfadar avariyaya düşüb.

– Harada? Kim xəbər gətirib?

Xatınbacının nəfəsini dərərək, qırıq-qırıq dediyi sözlərindən başa düşdü ki, həkim Baxşəlinin evinə zəng vurub xəbər veriblər. Bu ara məhəllədə telefon təkcə həkimin evindəydi. Fərzəli xəbəri dürüstləşdirmək məqsədilə qalxıb Baxşəlinin evinə getdi. Həkimin qızı dedi ki, telefonda onların səsini çox pis eşidib.

– Səs elə bil quyunun dibindən gəlirdi. – Əlavə etdi: – Sözləri güc-bəla ilə ayırd eləyə bilirdim. Onu başa düşdüm ki, Vəfadar avariyaya düşüb, xəstəxanaya aparıblar.

– Soruşmadın ki, halı necədir?

Fərzəlinin bu sualı qarşısında qız başını buladı.

Fərzəli qayıdıb həyətə girəndə qayınana ilə gəlinin göz yaşı hələ də kəsilməmişdi. Bir azdan Mirzə də gəldi. Arvadların ağlaşdığını görüb Fərzəlidən soruşdu:

– Nə olub burada?

Seyfinin və qonağı Qaraşın Mirzə barədəki sözlərindən sonra Fərzəli qonşusuna nifrət eləsə də, yenə ona cavab verməməyə üzü gəlmədi.

– Xəbər gəlib ki, Vəfadar avariya eləyib, adam basıb.

Mirzə başını buladı:

– Mən bilirdim ki, əvvəl-axır onun əlindən bir xəta baş verəcək.

Fərzəli hirsindən dişlərini qıcadı:

– Haradan bilirdin?

Mirzə tövrünü pozmadan yenə əvvəlki təmkinlə dedi:

– Yadındadır, mən sənə qabaqlar da deyirdim ki, ondan heç bir xeyir gözləmə. Nə oldu, bu da axırı!

– Boş sözdür. Vəfadar həmişə xeyirə-şərə yarayıb.

Mirzə istehza ilə dodaqlarını büzdü:

– Adam basıb öldürmək nə vaxtdan xeyir iş olub?



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Heç bir şofer adamı bilə-bilə basmır, qəziyyədir, düşüb. Bu hamının başına gələ bilər.

Fərzəli axırıncı sözləri elə qəzəblə deyib evinə keçdi ki, Mirzə duruxub qaldı. Fərzəlinin onunla bu tövr söhbəti heç olmamışdı.

Mirzənin vaxtından qabaq işdən qayıtması Fərzəlinin planını pozmuşdu. O, Seyfinin dostuna söz vermişdi ki, Rəziyyəni bu gün ona göstərəcəkdir. Mirzə ki, evdə oldu, iş bitdi, yazıq qız bayıra çıxa bilməyəcək. Əgər Mirzə həmişəki kimi kiçik stulunu götürüb qapı ağzına çıxarsa, Fərzəli bu məsələdən əlini birdəfəlik üzməli idi. Elə də oldu. Mirzə bir azdan stulunu qoltuğuna vurub, küçə qapısına çıxdı. Səhər-axşam öz həyət qapısında oturan qoca camadar Qafar da Mirzəni görən kimi stulunu götürüb onun yanına gəldi. Və mırt başlandı.

Fərzəli Rübabənin islanmağa qoyduğu düyünün suyunu süzüb neft pilətəsinin üstündə qaynayan qazana tökdü. Sonra əti krantın altında yumaq üçün həyətə çıxanda Xatınbacı ilə Sənəmi daha görmədi. Qonşu arvadlar da getmişdilər. Vəfadarın uşaqları həyətə səpələnmiş kartof-soğanı yığırdılar. Fərzəli əti yuyandan sonra içəri keçib, onu doğramağa başladı. Xatınbacı indi içəridə ağlayırdı. Nazik arakəsmədən onun sözləri aydın eşidilirdi:

– Yazıq balamı təzədən tutub dama basacaqlar. Bu qədər köçkülfətlə mən nə eləyəcəyəm? Evim yıxıldı, tifağım dağıldı...

Xatınbacı elə zarıldayır, elə sızıldayırdı ki, Fərzəlinin ürəyi davam gətirmədi, onun yanına keçdi.

– Ay Xatınbacı özünə yazığın gəlsin. Bu qədər ağlamaq olar? Nə üçün özünü belə üzürsən? Basdığı adam bəlkə, heç ölməyib. Qız öz dili ilə dedi ki, çox sözləri yaxşı eşitməyib.

– Yox, Fərzəli, balamın başında bir bəla olmasa, bizi nigaran qoymaz. Evim yıxılıb, Fərzəli.

Sənəm başını ovucları arasına alıb içini çəkirdi. Uşaqlar quzu kimi bir-birinə sığınmışdılar.

Fərzəli oradan dama qalxdı. Qapı ağzında Mirzə ilə camadar Qafar şirin söhbətdə idilər. Fərzəlinin camadar Qafardan heç xoşu gəlməzdi. O, həmişə cır-cındır içində gəzərdi. Halbuki, qonşuların dediyinə görə altında böyük yatırı vardı. Əgər yığdığını xərcləsəydi, lap nəvə-nəticəsinə də çatardı. Di gəl nə yeməyi vardı, nə də içməyi. Qırx il hamamda işlədiyindən indi ayaqları yel xəstəliyinə



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

tutulmuşdu. Peşəsi səhərdən axşamadək qapı ağzında mırt vurmaqdı. Məhəllədə ona çənə Qafar adı qoymuşdular. Deyirdilər ki, guya çox danışmaqdan çənəsi iki barmaq qabağa çıxıb. Doğrudan da belə idi, kişinin çənəsini elə bil kəlbətinlə çəkib irəli dartmışdılar. Axır zamanlar saqqal saxladığından çənəsi daha uzun görünürdü. Fərzəli Mirzənin nədən danışdığı ilə maraqlandı. Damın qırağında çömbəlib oturdu. Vəfadardan danışırdılar. Mirzə eşitdiyinin üstünə beşini də qoyub, bəzəyirdi:

– Qazamata öyrəşəni daha saxlamaq olmaz. Bəli, ha, öyrənənə nə tövbə. Elələrini iki-üç il saxlayıb buraxanda belə olar da.

– Deyirsən, yəni ölüb?

– Ölüb də sözdür? O boyda maşın adamın üstündən keçə, o, sağ qalar? Xıncım-xıncım olub, da.

– Vay, vay. Yəqin evdə bir çətən köç-külfəti var.

– Gözümüz görə-görə qırıb tökürlər camaatı...

Söhbət bu yerə çatanda Fərzəli daha səbir eləyə bilmədi. Quşlar üçün su saxladığı iri tası götürüb, suyunu onlar tərəfə səpələdi və İsgəndərgilin damına keçdi. Oradan da həyətə enib küçəyə çıxdı. O biri səki ilə Seyfinin dükanına gəldi. Seyfi yox idi. Dükanda bir az ayaq saxladı. Qocalar dama boylanırdılar. Fərzəli ağır addımlarla onlara yaxınlaşdı. Mirzə onu görən kimi təəccüblə soruşdu:

– Sən damda deyildin?

– Yox. Nə olub ki?

– Kimsə oradan başımıza su tökdü.

İkisinin də üst-başı su içindəydi. Qafar cibindən çirkli yaylığını çıxarıb saqqalını silirdi. Fərzəli özünü gülməkdən güclə saxladı.

– Görəsən, bunu kim eləyib? – Mirzə deyindi.

– Kim eləyəcək? Uşaqlar. Gündə damdadırlar, – deyib, Fərzəli içəri keçdi. Xatınbacının səsi kəsilmişdi. Sənəm həyətə çıxdı.

– Fərzəli, doktorun qızı yenə gəlmişdi, – dedi. – Bu dəfə Vəfadar özü zəng vurub.

– Doğrudan? Halı necədir?

– Fərzəli qardaş, adamı Vəfadar vurmayıb. Başqa şofer vurub. Vəfadar isə onu yoldan qaldırıb, xəstəxanaya aparıb.

– Belə de. Allaha şükür.

– Doktorun qızı telefonda birinci dəfə yaxşı başa düşməyib.

Fərzəli Xatınbacıya gözaydınlığı verdi:

– Gözün aydın, ay xala.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Xatınbacının cavabını gözləmədən Fərzəli evə keçib neft pilətəsinin üstündəki qazanı götürdü, düyünü aşsüzənə boşaltdı, buğ otağı bürüdü. Düyünü qazana töküb dəmə qoyandan sonra Seyfinin gəlib-gəlmədiyini öyrənmək məqsədilə küçəyə çıxdı. Mirzəgil hələ də qapıda oturmuşdular.

– Ay Mirzə, deyilənlər yalan çıxdı, – dedi.

– Nə yalan çıxdı?

– Vəfadarın əhvalatı, da. Heç demə adamı o basmayıb. Başqa maşın basıb. O isə yolda qanına bulaşmış adamı görən kimi maşını ilə xəstəxanaya aparıb.

– Doğru deyirsən?

– Bəli, bəli, arxayın ola bilərsiniz.

– Olsun, olsun. Çox şadam.

Fərzəli özlüyündə onun qarasına söyləndi: "Yalan deyənin atasına lənət, sən şadsan, yəni?!"

Fikirləşdi ki, Mirzə nə qədər ki, qapıda əyləşib Rəziyyəni heç cür Qaraşa nişan verə bilməyəcək. Bundan başqa Seyfi də, Qaraş da nədənsə bu gün heç dükanda görünmürdülər. Dükanda Seyfinin köməkçisi cavan oğlan Səfər tək işləyirdi.

## 10

İsgəndər bazardan qayıtdı. Dolu zənbili mətbəxə qoyub, nənəsinə tapşırdı ki, o qayıdanadək göyərtiləri arıdıb təmizləsin.

– Bəs özün haraya gedirsən? – nənəsi soruşdu.

– Dükana içki üçün gedirəm. Tez qayıdacağam.

– Bala, axı heç demədin qonağın kimdir?

İsgəndər astanada ayaq saxladı. Nənəsinin kövrək təbiətinə bələd olduğu üçün əvvəlcə demək istəmədi. Ancaq bununla belə onun ürəyini qırmadı.

– Atamın yoldaşıdır, – dedi.

– Atayın? – Qarının ayağı elə bil yerdən üzüldü. Yerə çöküb kədər dolu gözlərini nəvəsinə zillədi. – Sən nə danışırsan, bala?

– Hə, atamla birlikdə vuruşub. Atamı da elə o... – Gerisini demədi. Nənəsinin düşdüyü vəziyyət ürəyini ağrıtdı. Qoluna girib, onu ayağa qaldırdı. – Gecdir, nənə, indilərdə gələrlər. Sən süfrəni səliqəyə sal, mən də gəlirəm.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

O, getdi. Nənəsi ayaqlarını güclə çəkə-çəkə həyətə çıxıb, krantın yanında göyərtiləri arıtdı və sonra suyun altında təmiz yuyub süfrəyə qoydu.

İsgəndər on dəqiqədən sonra qonaqlarla birlikdə qayıtdı. Seyfi həyətə girən kimi emalatxananın açarını cibində görüb İsgəndərdən üzr istədi:

– Bir bax, açarı da özümlə götürmüşəm. Məni bir dəqiqə bağışlayın. Açarı verib qayıdım. Yoxsa, işin axırında qalarlar məəttəl.

Seyfi getdi. İsgəndər Qaraşla birlikdə evə keçdilər. Nənəsi qonağın qabağına çıxıb onun ayaqlarına tərəf əyildi. Qaraş qadının bu hərəkətindən özünü itirdi, tez onun qollarından yapışıb qaldırdı.

– Sən nə eləyirsən, ana? – dedi.

Qarı gözlərinin yaşını silib, qəhərlənmiş boğazını arıtdı.

– Oğul, əhdim vardı, – dedi. – Seyran sağ-salamat qayıtsa ayaqlarından öpüm. O, qayıtmadı. Sən gəldin əvəzinə. Nə fərqi var, sən də mənim oğlum.

Qaraş nə deyə bilərdi? Onun qarşısında sinəsi dağlı bir ana durmuşdu. Evinin-eşiyinin yeganə dirəyi vardı, onu da itirmişdi. Neçə-neçə arzusu nakam qalmışdı. Nisgil tutmuşdu ürəyi. Müharibənin ağır illərində o, dəhşətli səhnələrin şahidi çox olmuşdu. Ancaq oğlu sinəsi dağlı anaların müsibəti qarşısında dözə bilməmişdi. Ərimişdi, şam kimi. Azad etdikləri kəndlərdə almanların qaçarkən öldürdükləri adamların şaxtalarda qaxaca dönmüş cəsədləri üstündə anaların qopardığı şivən indiyədək qulaqlarından çəkilməmişdi. O illərdə fəğan və göz yaşları dağları əridərdi, o ki, insan qəlbi ola.

O faciəli günlərin acısı təzədən ürəyini doldurdu. Əyilib qarının qırış tutmuş alnından öpdü, onu bağrına basdı. Lakin kişilərə xas bir təmkinlə özünü saxlaya bildi, kövrəlmədi.

İsgəndər nənəsinə dedi:

– Nənə, yaxşı, bəsdir. Get plovu çək.

Qarı gözlərini qaldırıb Qaraşın solğun sifətində gəzdirdi. Qaraş bu baxışlarda daha nələr oxumadı! Oğul iyini başqasından almağa çalışan bir ananın həsəd dolu üzüntüsü. İlıq və mehriban ana məhəbbətilə isinmiş bir ümidin son parıltıları. O da oğlunun bir gün bu qapıdan girəcəyini gözləmişdi. Ancaq haradan biləydi ki, illərin ağır və işgəncəli intizarından sonra tale ondan üz döndərəcək, doğma balası ayağını bu evin astanasından birdəfəlik üzəcəkdir? Qarı



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

indi oğlu əvəzinə gəlmiş bu adamın gözlərinə baxarkən kim bilir xəyalında nə büsat qurmuşdu?! Qarşısında durmuş bu adamın sifətində yəqin ki, o, öz oğlunu da görməyə çalışırdı. Nə qədər dadlı idi, nə qədər xoş idi qarı üçün bu aldadıcı anlar. Sonra bir göz qırpımında bu büsat dağılır. Qarı yenə tək qalır: oğulsuz-övladsız...

İsgəndər Qaraşın qolundan tutub açıq pəncərənin qabağına gətirdi və talvardan saçaq kimi sallanan tənəklərin zolaqlarını göstərib dedi:

– Bu tənəkləri atam müharibədən üç ay qabaq basdırmışdı.

O, yarpaqların arasından görünən iri salxımları yaxından göstərmək üçün Qaraşı həyətə apardı. Və sözünə davam etdi:

– Nənəm qar düşənədək üzümləri dərməyə qoymur. Qəribə arvaddır. Deyir "bəlkə qayıtdı. Özü əkib, özü də gəlib dərər". İndiyədək onun yolunu gözləyir.

İsgəndər cibindən bıçaq çıxarıb, salxımlardan dərmək istədi. Qaraş qoymadı:

– Lazım deyil, – dedi. – Nənənin ürəyini sındırma, qoy qalsın.

– Özü mənə deyib sizin üçün üzüm dərim.

İsgəndər ayağının altına kətil qoyub yarpaqların arasındakı dolu salxımlardan dərməyə başladı. Bu zaman mətbəxdən nənəsinin səsi eşidildi:

– Yaxşılarından dər, a bala!

İsgəndər Qaraşa baxıb qımışdı.

– Yaxşılarından dərirəm, nənə, arxayın ol.

Sonra salxımları vedrəyə yığıb krantın altına qoydu, suyu açdı.

Nənəsi süfrəni hazırlamışdı. Plovu da gətirəndən sonra onları içəri çağırdı. İsgəndər saatına baxdı:

– Bəs bu Seyfi harada qaldı?

– Gələr. Yəqin müştərilərindən yaxa qurtara bilmir.

Onlar içəri keçib oturdular. Seyfi gələnədək Qaraş İsgəndərdən xahiş etdi ki, atasının itkin düşməsi barədə aldığı kağızı ona göstərsin. İsgəndər divar şkafından rəngi gedib, bir neçə yerdən pas atmış kiçik bir sandıqça çıxartdı. Açarı salıb, bir dəfə buranda sandıqçadan musiqi səsi eşidildi. İkinci dəfə burandan sonra sandığın yaylı qapısı öz-özünə açıldı. Qaraşın yadına gəldi ki, belə bir sandığı o vaxtilə dayısıgildə də görmüşdü. Uşaqlıqda sandığın səsinə qulaq asmaq üçün günlərlə düşüb qalardı dayısıgildə. O da, dayısı uşaqları özləri



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

də sandığın səsinə qulaq asmaqdan yorulmazdılar. Dayısının vəfatından sonra deyəsən, sandıqçanı qonşuya satmışdılar. İndi İsgəndərin açdığı sandıqçanın səsi ona yetimliklə keçirdiyi uzaq uşaqlıq illərini xatırlatdı. İsgəndər sandıqdakı kağızları çox eşələdikdən sonra vaxtı ilə rayon hərbi komissarlığından aldıqları məktubu tapıb, Qaraşa verdi.

– Onu nənəmdən gizlədirəm, – dedi.

– Nə üçün?

– Neçə dəfə gəlib görmüşəm ki, kağızı qabağına qoyub ağlayır. Bəzən lap yasxana açırdı. Axırı məcbur oldum ki, götürüb gizlədim. Kağızın üstündəki ləkələri görürsünüz? Onun göz yaşlarından olub.

Qaraş rəngi solub saralmış kağızın qatını açdı. Yazılar güclə oxunurdu. Xəbər verilirdi ki, döyüşçü Seyran İsmayıl oğlu Kərimov cəbhədə itkin düşmüşdür.

Qaraş bu sözləri oxuyub, məktubu əsəbiliklə stolun üstünə atdı:

– Yalandır, – dedi, – o, itkin düşməyib. Qəhrəmanlıqla ölüb. Onu öz əllərimlə dəfn etmişəm. Yerini də göstərə bilərəm... Bu qərargah çinovniklərinin səhvidir. Gəlib görəydilər necə vuruşurdu. Yaralı ola-ola neçə frisi yerə sərmişdi. Axırıncı gülləsinədək vuruşdu... İtkin düşüb! – deyə Qaraş istehza ilə gülümsədi. – Yazmağa nə var ki, qələmdir də...

Qaraş danışdıqca, İsgəndərin bədəni elə bil qılınc kimi kəsən soyuqdan buz bağlayırdı. Sırsıralar asılırdı qaşlarından, qulaqlarından. Sonra haradansa isti bir nəfəs duymağa başladı. Bu nəfəs tilsimli bir qüvvə ilə onun bədənini qızdıraraq buzunu tamam açdı. Özünə gələndən sonra isə başa düşdü ki, onun bədənini donduran da, sonra isidib buzunu açan da Qaraşın sözləridir. Eyni sözlər onu həm titrətdi, həm də isidib, damarlarında hərarət yaydı...

Həyət qapısının səsi gəldi. Seyfi idi. İçəri girən kimi pencəyini çıxarıb mıxdan asdı.

– Yaman gecikdim, hə? Çıxa bilirdim ki. Biri deyir mənə filan şeyi tap, o biri deyir bir dəqiqəliyə motora qulaq as, gör niyə belə işləyir. Bir sözlə, güc-bəla ilə əllərindən qurtara bilmişəm.

Seyfinin əynində boz rəngdə təzə kostyum vardı. İsgəndər birinci dəfə idi ki, onun belə təmiz geyindiyini görürdü. Elə bil üst-başı və üz-gözü mazuta bulaşıq olan əvvəlki Seyfi deyildi. İndi saçlarını da səliqə ilə yana vermişdi. İsgəndər indicə kəşf elədi ki, Seyfi doğrudan da gözəl kişidir.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

İsgəndərin gözlərini ona zilləyib belə baxmasından Seyfi şübhəyə düşdü:

– Sən niyə mənə elə baxırsan?

İsgəndər zarafatla dedi:

– Düzü, sənin belə gözəl kişi olduğunu bilmirdim.

– Niyə, yetim əlində qoğal əcaibdir?

Gülüşdülər.

– Hə, başlayın. Plov lap soyudu, – deyə İsgəndər Seyfini Qaraşın yanında oturtdu, sonra nimçələrə plov çəkməyə başladı. Qarı hər şeyi bütün dəsgahı ilə hazırlamışdı: qatıq, sirkəyə qoyulmuş badımcan, kəhrəba rəngli zərif bibərlər. Sonra da iki-üç cür xuruş. Düyünün ətri otağı doldurmuşdu. Qaraş bundan məst oldu. Dörd il cəbhə həyatı, səngərlər, barıt qoxusu, sonra da uzun illər doğma şəhərindən kənarda yaşaması ona ləziz və ədviyyatlı xörəklərin dadını unutdurmuşdu.

İsgəndər soyuducudan araq və konyak çıxarıb süfrəyə qoydu.

– Kim nə içəcək? – İsgəndər Qaraşa müraciətlə soruşdu.

Seyfi bibərdən birini ağzına aparıb, zarafatla dedi:

– Sən əvvəlcə onların ağzını aç. İyi burnuma dəyməyincə deyə bilmərəm nə içəcəyəm.

Qaraş başını buladı:

– Ay, Seyfi, sən elə həmən Seyfisən ki, durmusan. Heç dəyişməmisən. Üç flakon odekolonu içdiyin yadına gəlir?

– Bəs nə eləyəydim? İçməsəydim, qırx dərəcə şaxtaya davam gətirə bilərdim? – Sonra İsgəndərin açdığı butulkaları iylədi.

– Hə, mənim üçün konyak tök, arağın xoşuma gəlmir.

– Elə hamımıza konyak süz! – Qaraş da öz qədəhini İsgəndərə uzatdı.

– Mən araq içəcəyəm, – deyə Qaraşla Seyfinin qədəhinə konyak süzəndən sonra İsgəndər özünə araq tökdü. – Əgər icazə versəniz...

Birinci badəni qonağın sağlığına içdilər. Seyfi onun barəsində çox danışdı. Birgə vuruşduqları aylarda ad çıxarmış Qaraşın kəşfiyyatdan heç zaman boş qayıtmadığını, hər dəfə azı bir-iki almanı əsir tutub gətirdiyini danışanda, Qaraş təvazökarlıqla onun ətəyini dartırdı:

– Yaxşı, bəsdir. Bunlar çoxdan olmuş şeylərdir.

Seyfi isə onun sözlərinə etinasızlıqla davam edirdi:



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Yadındadır, bir dəfə məni ölümdən qurtardın, ay kişi oğlu? – O, İsgəndərə müraciət etdi: – Birdən kolun dibindən üstümüzə qəflətən üç alman hücum elədi. Birini o dəqiqə mən aşırdım. İkincisini rəhmətlik Seyran barmaqları ilə boğdu. Gözləyirdim ki, üçüncüsü üstümə atılacaq. Demə vurub yıxdığım alman hələ diri imiş. Avtomatını mənə tuşlayanda Qaraş başının üstünü aldı. Yadındadır, hə?

Qaraş başı ilə onun sözlərini təsdiq etdi.

Sonra ikinci, üçüncü badəni içdilər. Seyran tez-tez yad edildi. Nənəni mətbəxdən çağırdılar, onun da sağlığına içdilər. İsgəndər böyük qədəhlə içdiyindən tamam pörtmüşdü.

Qaraş nənəyə oğlundan uzun söhbət açdı. Konstantinovka kəndi ətrafında meşədə düşmən əhatəsinə düşdüyü ağır günləri xatırladı.

– Başımıza çox bəlalar gəldi, – deyib köksünü ötürdü. – On gün idi ki, dilimizə heç bir şey dəymirdi. Biz, nə olursa-olsun mühasirəni yarıb, öz hissəmizə qovuşmalıydıq. Qanlı döyüş başladı. Bu döyüşlərdən birində Seyran...

O, qarının örpəyin ucu ilə göz yaşını sildiyini görüb susdu. Araya çökmüş sükutu daha heç kəs pozmaq istəmədi. Qarı qalxıb, mətbəxə keçdi. O, çıxan kimi çox içməkdən göyərmiş İsgəndər başını stola dayadı. Qaraş qorxuya düşdü:

– İsgəndər, İsgəndər, sənə nə oldu? – Onun çiynindən tutub silkələdi. İsgəndər başını qaldıra bilmədi, çiyinləri atılıb-düşdü, hönkürtü ilə ağladı.

– Özünü ələ al, İsgəndər! – Qaraş bir ata nəvazişilə onun saçlarını tumarladı. Sən sevin ki, atan qəhrəmanlıqla ad çıxarıb.

İsgəndər başını qaldırıb, yaşlı gözlərini Qaraşın kədərli sifətində gəzdirdi:

– Məni də yandıran odur ki, sevinməmişəm. Camaatın yanında başım aşağı, gözüm qırpıq olub. Kimə deyirdimsə atam itkin düşüb, əyilib qulağıma pıçıldayırdı ki, səs-küy salma, bəlkə o tərəfə keçib, diri-diri adam itkin düşməz... Çoxu mənə gözünün ucu ilə baxırdı. Mən də bir gün evə gəlib, nənəmdən gizlin atamın şəklini götürüb yerə çırpdım. "Biqeyrət ata, – dedim. – Sən nə üçün başqaları kimi vuruşmadın, nə üçün qorxaq çıxdın?" Doğma atamın şəklini yerə çırpdım. Mən, onun oğlu. – O, yenə hönkürdü. Qaraş ona təskinlik verməyə çalışdı.

– Yaxşı, İsgəndər, bəsdir, özünü ələ al.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Axı mən atamın... – O, göz yaşları içərisində boğula-boğula təkrar etdi.

– Bundan ötrü nahaq darılırsan. Tək sən deyilsən, çoxlarının başına belə iş gəlib. Bilə-bilə eləsəydin, günahkardın. Atan sağ qalsaydı, o da günahından keçərdi.

– Yox, bunu heç zaman özümə bağışlamayacağam! Onun ruhu mən naxələf övladı həmişə təqib edəcək.

– Yaxşı, sən də... – Seyfi ərklə əlini onun çiyninə vurdu. – İndi ki, hər şey aydınlaşdı, bu sənin üçün daha günah deyil.

– Neçə il onun yolunu gözlədim. Gedənlər qayıtdı. Onun qayıtmadığını görən bəzi adamlar yenə deyirdilər ki, elə biz deyəndir, atan indi yəqin ki, o taydadır. Məhəllə uşaqlarının üzünə baxa bilmirdim. Onlar salamat qayıtmış atalarının medallarını sinələrinə taxıb məhəlləyə çıxanda, mən qaçıb gizlənirdim. Elə bilirdim ki, mənə acıq verirlər...

Qaraş diqqətlə onu dinləyirdi. Seyfi isə papirosunu üflədərək, ara-sıra gözlərini qıyıb, İsgəndərin həyəcandan titrəyən əllərinə baxırdı.

– Atasız böyüdüm. Çöl otu kimi. Qayğı duymadım, nəvaziş görmədim. Çəkmə sildim. Papiros satdım. Məktəbdən məni qovdular ki, alverçi uşaq bizə lazım deyil. Nənəm getdi, yalvardı-yaxardı. Başa düşdülər ki, mən papiros satmasam, acından ölərik. Sonra axşam məktəbinə girdim. Gündüzlər körpüdə işləyirdim, axşamlar oxuyurdum. Qorxurdum ki, komsomoldan da məni çıxaralar. Deyələr ki, atan itkin düşüb, kim bilir, bəlkə də elə o tərəfə keçib. Ancaq toxunmadılar. Heç üstünü vuran olmadı. – O, Qaraşa baxaraq, zorla gülümsədi. – Ancaq bir dəfə məhəllə uşaqlarından birini yaxşıca əzişdirdim. Ondan sonra daha heç kəs cürət eləyib mənə atam barədə söz deyə bilmədi. – Dərindən ah çəkdi. – Nə yaxşı ki, sizə rast gəldim. Yoxsa atamdan nisgilli qalacaqdım.

– Sən o barədə heç darıxma. Mən hər şeyi yoluna qoyaram. Günü sabah sizin rayon hərbi komissarlığına gedəcəyəm. Qoy Konstantinovkaya yazsınlar. Oradan tez cavab gələr.

İsgəndər mətbəxdə əlləşən nənəsini səslədi:

– Ay nənə, krantın altına üzüm qoymuşam. Onları gətir gəl. Samovara od salmısan?

– Bu saat od salıram. Siz əvvəlcə yaxşıca yeyin.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Bir azdan nənə iri bir qabda üzüm gətirdi. Fındıq böyüklüyündə olan gilələrin üstündə su damcıları işıldayırdı. İsgəndər salxımlardan birini seçib, Qaraşa uzatdı:

– Buyurun. Yəqin ki, belə üzüm heç yerdə yeməmisiniz.

Qaraş salxımı aldı və ondan iri bir gilə qoparıb ağzına atdı. Gilə dişinin altında şaqqıldadı. Ağzına elə bil nanəcövhər dadı yayıldı.

– Nə qiyamət üzümdür, – deyərək ağzını marçıldatdı. – Adı nədir?

– Adını bilmirəm, nənəm deyir ki, onun çubuğunu atama Dağıstandan göndəriblər. Mən ona nanəcövhərli üzüm deyirəm. Bizdə üzüm yeyən yoxdur. Nə nənəm yeyir, nə də mən. Kefinə qonşu uşaqları baxırlar. Biz evdə olmayanda damdan düşüb yoluşdururlar. Nənəm də dinmir. Deyir ki, ehsandır, qoy yesinlər. Mən də danışmazdım. Ancaq meynələri sındırıb tökürlər. Bilsəydim ki, hansı uşaqlardır, özümüz onları çağırıb paylarını verərdik. Bir dəfə lap talvarı da sındırmışdılar. Axırda mən kağız yazıb talvardan asdım.

– Elə şey olmaz?! – Seyfi əllərini bir-birinə çırpdı. – Sən Allah, de görüm kağızda nə yazmışdın?

– Yazmışdım ki, ay uşaqlar, meynələri və talvarı sındırmayın. Özünüz gəlin, payınızı verək. Lap artıqlaması ilə verərik.

– Nə oldu, gələn oldu? – deyə Qaraş maraqla soruşdu.

İsgəndər başını buladı:

– Yox, heç kəs gəlmədi. Ancaq mənim asdığım kağızın altına karandaşla yazmışdılar ki, çox sağ olun, payınız artıq olsun. Biz onsuz da öz payımızı aparırıq.

Bərkdən gülüşdülər.

– Əslinə baxsan, mən bilirəm bu məhəllə uşaqlarından kimin işidir. Üzünə vurmuram. Deyirəm ki, madam nənəm onu ehsan hesab eləyir, qoy yesinlər.

Nənəsi həyətdə samovarı odlamışdı. Bu zaman həyət qapısı döyüldü. İsgəndər yerindən tərpənənədək nənəsi qapını açdı. Bununla belə İsgəndər də yerindən qalxıb, pəncərənin qabağına gəldi ki, qapı döyənin kim olduğunu yaxşı görsün. Seyfinin köməkçisi Səfər qapıda görünəndə, İsgəndər Seyfiyə tərəf döndü:

– Seyfi, sizin uşaqdır.

– Kim, Səfər? – Seyfi də ayağa qalxdı və evdən çıxmaq istədi. İsgəndər qoymadı:

– Sən otur, gəlsin görək nə deyir. – Sonra qapıya tərəf çığırdı. – Səfər, içəri gəl. Seyfi buradadır.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Səfər içəri girəndə Seyfi onun sözlü adama oxşadığını hiss etdi:

– Hə, xeyir ola, dükanı niyə qoyub gəlmisən?

– O inspektor yenə gəlib.

– Hansı inspektor?

– O motosiklli QAİ inspektoru da. Srağagünkü.

– Hə, nə deyir?

– Deyir ki, siz burada gizlində bir "Pobeda" maşını təmir eləmisiniz. Halbuki o maşın böyük avariya eləyib, şoferi də qaçıb.

– Demədin ki, bizdə elə şey olmayıb?

– Dedim, çox dedim. İnanmadı ki, inanmadı. Axırda dedi ki, bu saat Seyfini yerin dibindən də olsa, tap gətir.

– Deyəydin ki, bilmirəm hardadır.

– Dedim, çox dedim, ona da inanmadı. Dedi ki, mən oturub burada gözləyəcəyəm. Sən onu haradan olsa tap gətir.

– Əcəb işə düşdük də. Yaxşı sən get, mən də bu saat gəlirəm.

Səfər gedəndən sonra Seyfi deyinə-deyinə pencəyini geyindi:

– Qəribə işdir, bir şey olan kimi əvvəlcə mənim boğazımdan gəlib yapışırlar. Sən belə eləmisən, sən filan şeyi düzəltmisən. Bir şeyi onlara sübut eləyənədək mənimki mənə dəyir. Yaxşı, getdim, xudahafiz!

O, həyətdə İsgəndərin nənəsi ilə sağollaşıb getdi...

## 11

O gün axşam bütün məhəllə Vəfadardan danışırdı. Xatınbacıgilin evində toy-bayram idi. Oğlu sağ-salamat qayıtdığından, Vəfadarı yoluxmağa gəlmiş məhəllə cavanlarının başına ev adamları fırfıra kimi dolanırdılar. Həyətdə çay dəsgahı açılmışdı. Xatınbacı ilə Sənəm evdə şirniyyatdan əllərinə nə keçirdisə, süfrəyə düzürdülər. Vəfadar özü yuxarı başda oturub gələnləri qəbul eləyirdi. Ona heç nə olmamışdı, azca rəng-ruyu avazımışdı. Fərzəli içəri girəndə məclisdəkilər deyə-gülə içirdilər. Fərzəli duruxdu, qapıları bağlı idi. Güman elədi ki, Rübabə həyətdəki məclisə görə evdə otura bilməyib, haraya isə gedib. Və özlüyündə arvadının bu hərəkətini bəyəndi: "Yaxşı eləyib ki, gedib". Ancaq sonra yadına düşdü ki, Rübabə bu gün toyda olmalıdır. Fabrikdə işləyən qızlardan biri onu öz toyuna çağırmışdı.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

O, evlərinin qapısını açanda Vəfadar onu gördü. Salamlaşdılar.

– Balam, bu nə əhvalatdır? – Fərzəli soruşdu.

– Uzun haqq-hesabdır, Fərzəli. Sonra danışaram. Gəl çay iç.

– Çox sağ ol!

Tez qapını açıb içəri keçdi, soyuducudan bir stəkan buz kimi ayran töküb içdi. Stolun üstündəki kağız gözünə sataşdı. Rübabə yazmışdı. Arvadı xahiş eləyirdi ki, axşam on birədək gəlməsə, qabağına çıxsın. Çəmbərəkəndin qurtaracağındakı tramvay dayanacağında onu gözləsin. Toy həmin dayanacağın böyründəki üçmərtəbəli evdə idi. Saatına baxdı. Hələ iki saat vardı. Dincini almaq üçün divana uzandı. Bir də həyətdə hənirti kəsiləndə bayıra çıxdı. Qonaqlar getmişdilər. Vəfadar Mirzə ilə söhbət edirdi. Mirzə də öz mənzilinə çəkiləndən sonra Xatınbacı bayırda palazın üstündə nəvələrinin yerini salmağa hazırlaşdı. Fərzəli də uşaqların yuxusuna xələl qatmamaq üçün Vəfadarı dama çağırdı:

– İstəsən, bir nərd də atarıq.

Vəfadar razılaşdı. Fərzəli nərdi qoltuğuna vurdu, dama qalxdılar. Aydınlıq idi. Fərzəli palazı açdı, oturdular. Fərzəli nərdi araya qoyub, daşları şaqqıltı ilə xanalara doldurmağa başladı.

– Hə, indi danış görək nə olmuşdu?

Vəfadar zəri nərdtaxtanın üstünə atdı.

– Dünən şəhərdən gecəyarısı çıxmışdım. Vacib iş vardı. Salyana xeyli qalmış yolun ortasında bir ağartı gördüm. Yaxınlaşanda gördüm ki, adamdır. Üzüüstə düşüb qalmışdı. Tamam qan içindəydi. Qulağımı sinəsinə qoyub qulaq asdım. Ürəyi döyünürdü. Fikirləşdim ki, onu Salyana aparsam, gec olar. Yaxın kəndlərdə yəqin ki, tibb məntəqəsi olar. Qaldırıb maşına qoydum, qazı basdım. – O, zərləri qoşalayıb atdı. – Beş qoşa... Hə, kənddə doğrudan da tibb məntəqəsi vardı. Doktoru yuxudan oyatdılar. Tez qan vurmaq lazım idi. Həkim öz qanından vermək istədi, sonra məlum oldu ki, yaramır. Belə olanda dedim ki, məndən götürün. Mənim qanımdan vurdular. Sonra həkim onun yaralarını tikməyə başladı. Hələ də özünə gəlməmişdi. Ancaq səhərə yaxın gözlərini açdı. Mən çoxlu qan verdiyim üçün özümü zəif hiss edirdim. Doktor məni buraxmadı. Dedi ki, iki-üç saat gərək dincələsən. Yaralı kişi danışırdı ki, tarladan evə qayıdırmış. Yola çıxır, qabaqdan bir "Pobeda" maşınının gəldiyini görür. Əlini qaldırır. Şofer maşını saxlamır. Əksinə,

onu vurub qaçır... Sə qoşa... Sonra da məlum oldu ki, böyük adamdır. Kolxozun briqadiridir, Sosialist Əməyi Qəhrəmanıdır.

– Bəs "Pobeda"nın şoferini tutmayıblar?

– Mən gələndə axtarırdılar.

Oyun qızışmışdı. Arada Fərzəli enib ayran dolu qrafini gətirdi və soyuducudan çıxarılmış bir qrafin buz kimi ayranı oyunun axırınadək içib qurtardılar. Fərzəli tez-tez saatına baxırdı. Vəfadar soruşdu:

– Deyəsən, gedəcək yerin var?

– Saat on birdə Rübabənin dalınca gedəcəyəm.

– Onda dur get də.

– Yox, hələ vaxt var. Bir əl də oynaya bilərik... Yaxşı yadıma düşdü. Bayaq Mirzə nə deyirdi?

– Heç, hal-əhval tuturdu. Deyirdi ki, bu gün də gəlməsəydin, gələcəkdim dalınca.

Fərzəli istehza ilə gözlərini qıydı:

– Sən də inandın?

– Sözdür, deyir də. Naxoş adam haraya gələcəkdi... Nə üçün soruşursan? Yoxsa aranızda bir söz-söhbət olub?

– Yox, elə bir söz-söhbətimiz olmayıb. Ancaq heç xoşuma gələn adam deyil.

– Ondan nahaq inciyirsən; tıxsız balıqdır. Heç inanmıram ki, o, bir adamın ürəyini qıra bilər.

Fərzəli gəc nəzərlərlə qonşusunu süzdü. Köç-külfət sahibi olan bir adamın belə uşaq sadəliyinə heyifsiləndi. Rəziyyə barədə eşitdiyi sözlər, Seyfinin dostunun danışdığı əhvalat doğru çıxardısa, həyətdəkilər Mirzəni onda tanıyacaqdılar. Seyfinin xahişinə görə hələlik bu söhbət onların üçünün arasında qalmalı idi.

Küçədə gediş-gəliş azalmışdı. Fərzəli üzr istəyib qalxmalı oldu. Yaxşı ki, qapı ağzında tramvayı çox gözləməli olmadı. Axırıncı oyun, görünür, çox uzanmışdı. On birə on dəqiqə qalırdı. Fikirləşirdi ki, Rübabə, yəqin, indi onu dayanacaqda gözləyir. Elə də oldu. Rübabə gəlmişdi, söyləndi:

– Düz iyirmi dəqiqədir ki, gözləyirəm. Ötüb keçənlərdən də xəcalət çəkirəm. Deyərlər ki, gecəyarısı bu arvad kimi gözləyir? Bunu başına vurursan, ya yox?

O, haqlı idi. Fərzəli söz tapmadığından, günahı saatın üstünə yıxdı.

– Saatıma heç bilmirəm nə olub. Deyəsən, axır günlərdə çox geri qalır.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Quşlardan başın ayrılsa, saatını düzəltdirərsən.

Tramvayı çox gözləməli oldular. Axırda pay-piyada yola düzəlmək istəyirdilər ki, uzaqdan tramvayın zəng səsi eşidildi. Bir azdan tramvay özü də yoxuşun başında göründü. Axırıncı tramvay idi, ona görə də tısbağa kimi sürünürdü. İçərisində də cəmi üç nəfər sərnişin vardı. Bunlardan ikisi qoca idi, deyəsən, ər-arvad idilər, üçüncüsü isə qabaq skamyada oturmuş orta yaşlarda nazik bığlı, şıq geyimli bir kişi idi. Barmağında qoz boyda qaşlı üzüyü vardı. Üzüyü görəndə Fərzəlini gülmək tutdu. "Kişi də barmağına belə üzük taxar? – fikirləşdi. – Hələ bir utanmaz-utanmaz əlini dizinin üstünə qoyub üzüyünü göstərir".

Onlar tramvaya oturandan kişi gözlərini Rübabədən ayırmadı. Rübabə də onun həris baxışlarını hiss etdiyindən üzünü Fərzəliyə tərəf çevirib oturdu. Fərzəli kişinin bu həyasız baxışları ilə rastlaşanda o, tez gözlərini yayındırdı. Rübabə Fərzəlinin narahatlığını hiss etdi. Buna görə də onu söhbətə tutub, başını qatmağa çalışdı. Fərzəli öz işində idi. Arvadının suallarına cavab versə də, gözlərini kişidən çəkmirdi. Arada yerindən sıçrayıb, onun üstünə hücum çəkmək istədi. Ancaq nəyə əsasən? Buna görə də içəridən qıvrıla-qıvrıla qalmışdı. Qabaqdakı dayanacaqda tramvaya minən üç nəfərin arasında İsgəndəri görəndə elə bil bütün dünyanı ona bağışladılar. İsgəndər salamlaşıb yanlarında oturdu.

– Deyəsən, gəzməkdən gəlirsiniz, – dedi və Fərzəlidən bir papiros istədi. – Bir saatdır ki, papiros üçün dəli-divanəyəm. Yaxşı ki, sənə rast gəldim.

Fərzəli papiros qutusunu İsgəndərə uzatdı və gözünün ucu ilə yenə kişiyə tərəf baxdı. Bayaqkı həyasız sərnişin indi başını aşağı əyib, sakitcə oturmuşdu. Fərzəli dərhal başa düşdü ki, kişi İsgəndəri tanıyıb, buna görə də fürsəti əldən buraxmadı.

– İsgəndər, o qabaqda oturan bığlı kişini tanıyırsan? – soruşdu.

İsgəndər diqqətlə baxdı. Bu baxışdan kişi özünü tamam itirdi.

– Yox, tanımıram. Kimdir ki?

– Sifəti mənə tanış gəlir. Dedim, bəlkə, sən tanıyırsan.

– Yox, tanımıram.

Kişi karıxdığından nə edəcəyini bilmirdi. "Hə, əclaf, gözlərini belə gizlədərsən ha" – deyərək Fərzəli gülümsədi. Elə bu zaman kişi yerindən qalxdı və tramvay gedə-gedə yerə atıldı. Fərzəli



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

bərkdən güldü. Rübabə də məsələnin nə yerdə olduğunu hiss edib ərinə qoşuldu. İsgəndər təəccüblə ər-arvada baxırdı.

– Nə olub? – soruşdu.

Rübabə tez araya söz qatdı:

– Fərzəlidir də... De görüm xeyir işin necə oldu?

Rübabənin bu məsələdən söz açması İsgəndərin ürəyindən oldu. Tramvayda onlara rast gələrkən sevinmişdi ki, bu barədə danışa bilər. Ancaq söhbəti başlamağa çəkinirdi.

– Əgər atasının cavabını oturub gözləsəm, gərək qızdan əl çəkəm. Ona görə də elə günü sabah elçi göndərmək istəyirəm. Deyirlər gərək əvvəlcə arvadlar getsin. Qalmışam belə, bilmirəm nənəmlə kimi göndərim. Rübabə bacı, sözün düzü, dünən fabrikdə istəyirdim sizə deyim, ancaq üzüm gəlmədi.

– Nəyi?

– Deyirəm, bəlkə, nənəmlə siz gedəsiniz?

– Mən?

– Bəli. Bəlkə, sizin üzünüzdən keçmədi. Axı necə olsa, qapıbir qonşusunuz.

Rübabə azca fikrə gedəndən sonra ərinə müraciətlə soruşdu:

– Sən necə bilirsən, Fərzəli?

Fərzəli İsgəndər üçün heç nə əsirgəməzdi. Elə azca qabaq arvadını yaramazın murdar baxışlarından qurtaran o deyildimi?

– Get də. Bəlkə, doğrudan da üzündən keçmədi, – dedi.

Danışdılar və qərara aldılar ki, sabah axşam İsgəndərin nənəsi Fərzəligilə gələcək və Rübabə ilə birlikdə Mirzəgilə gedəcəklər.

Evə çatandan sonra tramvaydakı kişinin həris baxışları Fərzəlinin gözü qabağından çəkilmirdi. Rübabə çoxdan soyunub yatağına uzanmışdı. Fərzəli isə dama qalxmağa tələsmirdi. Rübabə ərinin mətbəxdə boş-boşuna vurnuxduğunu görüb soruşdu:

– Niyə gedib yatmırsan?

Fərzəli irişə-irişə yaxınlaşdı.

– Qalxaram da, – dedi və arvadının çarpayısı yanında oturdu. Rübabə bürkülü otaqda həmişə tamam soyunub yatardı. Fərzəli arvadının ağappaq kiçik ayaqlarını, dolu baldırlarını, yumru dizlərini və dizlərindən yuxarı bir qaydada bütövləşən budlarını görəndə bu gecə dama qalxmaq fikrindən daşındı.

– Hə, nə var? – Rübabə soruşdu.

– Heç nə. Baxmaq olmaz?



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– İşığı keçir, yatıram.

– Bu saat keçirərəm. Mən də evdə yatmaq istəyirəm.

O, mətbəxə keçdi. Soyuducudan bir stəkan ayran götürüb içdi, sonra işığı keçirib, arvadının yanında uzandı. Bir müddət gözlərini alaqaranlıqda çilçırağın parıldaşan salxımlarına zilləyib susdu. Rübabə gözlərini yummuşdu, ancaq yatmamışdı.

– Rübabə, tramvaydakı kişini gördün sənə necə baxırdı? Elə bil ki, ac canavardı.

– Hə, nə olsun? – Rübabə dilləndi.

– Yaxşı ki, mən yanındaydım.

– Yanımda olmasaydın, nə ola bilərdi?

– Nə?

– Hə.

– Bir az da dözəcəkdim.

– Sonra?

– Sonrası isə əngini əzəcəkdim.

– Doğrudan? – Rübabə bərkdən güldü. – Əlindən gələrdi?

– Sən inanmırsan ki, gələrdi? Atamın goru üçün elərdim.

– Nə üçün axı?

– Necə yəni nə üçün? Sənə elə baxdığı üçün. Az qalmışdı ki, səni gözləri ilə yesin.

– Baxanda nə olar ki?

– Necə yəni nə olar? Sən zarafat eləyirsən? Yad kişi baxanda sənə ləzzət eləyir?

– Yox, ləzzət eləmir. Əksinə, elə baxan kişilərdən zəhləm gedir.

– Bəs daha niyə elə deyirsən? Eləsinin əngini əzməsən, başqasına da dərs olmaz.

Rübabə səsini dəyişdi.

– Nə üçün axı? Nə üçün? Ona görə ki, baxır? Baxanda nə olar, arvadını əlindən alar?

– Sən nə danışırsan, Rübabə?

– Düzünü deyirəm də. Kişinin arvadı namuslu olandan sonra bütün dünya kişiyə dönüb ona baxsa da, heç bir şey olmaz.

– Bunu mənə deyirsən?

– Həm sənə, həm də o adamlara ki, arvadlarına inanmırlar.

Fərzəli dinmədi, fikrə getdi. Arvadının bu sözlərindən özü üçün məna çıxarmağa çalışdı...



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

## 12

İşə gələn kimi Seyfi öz şagirdini göndərib Fərzəlini dükana çağırtdırdı. Günəş sübh tezdən həyət-bacanı təndir kimi qızdırmışdı. Günortaya yaxın heç nəfəs almaq olmurdu. Fərzəli Rübabənin hazırlayıb qoyduğu yeməklərə əl vurmadı. Həyətdən çıxdı. Küçə daha boğanaqdı. Sürətlə şütüyüb keçən maşınların qopardığı toz boz tül kimi havada sallanıb dururdu. Seyfinin müştəriləri bu gün nədənsə azdı. Seyfi özü dükanın dib tərəfində (bura adətən sərin olurdu) oturub qəzet oxuyurdu. Bu, Seyfinin adəti idi. Şagirdi təzə qəzet alıb gətirən kimi, əlində vacib işi olsa da, qəzeti axıra çıxmayınca yerindən tərpənən deyildi. İstəyir müştərilər lap haray-həşir qoparsınlar, eyninə almazdı. Fərzəli içəri keçib oturmaq istərkən kislota iyi ürəyini bulandırdı. Burnunu yaylıqla tutdu:

– Mən burada dayana bilmirəm, – dedi. – Çıxaq bayıra.

Seyfi gözlərini qəzetdən ayırdı:

– Sənə nə olub, ə? Allergiyan var, nədir? – dedi.

– Allergiya nədir? Mənim allergiyam-zadım yoxdur. Burada adam dayana bilər? Az qalır ki, boğulasan. Bilmirəm, sən bütün günü buna necə dözürsən.

Seyfi qəzeti əlində Fərzəli ilə küçəyə çıxdı. Qapı ağzına alçaq bir kətil qoyub oturdu, qəzeti ona göstərdi.

– Xəbərin var? Dostunu qəzetə vurublar.

– Mirzəni?

– Yox, əşşi, Mirzə kimdir! Vəfadarı deyirəm. Kişinin oğlu, doğrudan da mərdlik eləyib. Başqa maşının vurduğu adamı, nəinki götürüb xəstəxanaya aparıb, hətta öz qanını da verib. Əhsən, Vəfadara!.. Bəs bu boyda əhvalatı eşitməmisən?

– Eşitmişdim, ancaq belə yox.

– Vurulan da məşhur adammış ey... Sosialist Əməyi Qəhrəmanı. Səni çağırtdırmışam ki, bu qəzeti onlara verəsən. Yəqin ki, qəzetdən xəbərləri yoxdur. Bax, bu məqalədir: "Sürücünün fədakarlığı" – O, barmağı ilə dördüncü səhifədəki kiçik bir məqaləni göstərdi. – Mənim onlara gediş-gəlişim yoxdur. Yoxsa özüm aparardım.

Fərzəli qəzeti ondan aldı. O, uşaq kimi sevinirdi. Kənardan baxan dərhal deyərdi ki, qəzetdə ya onun özü barədə yazılıb, ya da ən yaxın qohumlarından biri barədə.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Bəs qonağın bu gün gəlməyəcək?

– Yox. Bu gün onun çox vacib işi var.

Fərzəli qəzeti dördqat bükərək cibinə basdı və ayağını çəkə-çəkə sol tərəfdən gələn tramvayın qabağından dəcəl uşaqlar kimi atılıb keçdi.

Xatınbacı həyətdə zivəyə yorğan-döşək sərirdi. Döşəyin birindəki iri yaş ləkədən məlum olurdu ki, Vəfadarın uşaqlarından hansı isə gecə yerini isladıb. Elə gün olmazdı ki, bu döşək bayıra çıxarılıb, günə verilməsin. Fərzəlinin yadındadır, bir dəfə Mirzə Xatınbacıya deyirdi ki, uşağı gərək həkimə göstərəsiniz. Bəlkə, böyrəkləri xəstədi. Xatınbacı da bunu oğlu Vəfadara çatdırmışdı. Vəfadar "boş sözdür, balacalıqda elə hamı yerini isladıb, böyüdükcə keçib gedəcək" – demişdi.

Fərzəli yaxınlaşıb zivənin bu tərəfində durdu. Cibindən qəzeti çıxarıb qatını açdı.

– Xala, Vəfadarı qəzetə vurublar, – dedi.

Bu sözlərdən qarının qolları yanına düşdü, nitqi qurudu.

– Niyə a bala, o yazığın günahı nədir?

– Qorxma. Yaxşılığına vurublar. Yazırlar ki, şücaət göstərib.

Zivənin o tərəfində yazıq görkəm almış Xatınbacı rahat nəfəs aldı.

– Ay səni, Fərzəli! – dedi. – Ürək-göbəyimi lap salmışdın. Dedim, görəsən, tifilə yenə nə böhtan yapışdırıblar.

– Böhtan nədir, a xala, tərifdir, tərif! – O, bu sözləri bilərəkdən bərkdən deyirdi ki, əgər Mirzə evdəydisə, yaxşı eşitsin. Çünki qapılarında qıfıl yoxdu. Fərzəlinin ürəyi bununla da soyumadı. Qəzeti yuxarı qaldırıb bərkdən oxumağa başladı. Bir gözü isə Mirzəgilin qapısındaydı. İçəridəkinin kim olduğunu bilməsə də, səsini elə qaldırmışdı ki, qonşu həyətlərdə də onu eşidirdilər. Ancaq Mirzəgilin qapısını nə açan oldu, nə də pərdəni qaldırıb həyətə baxan. Fərzəli qəzeti oxuyub qurtarandan sonra Xatınbacıya uzatdı.

– Al, xala. Al saxla, bir gün lazım olar.

O, qəzeti verəndən sonra ildırım kimi şığıyıb həyətdən çıxdı. On-on beş dəqiqədən sonra qoltuğunda bir yığın qəzet qayıtdı. Qəzetləri birbaşa aparıb Mirzəgilin qapısına qoydu. Xatınbacı təəccüblə soruşdu:

– Qadan alım, Fərzəli, yenə yandıracaqsan?

– Yandırmaq niyə? Qoyuram ki, Mirzə onları oxusun.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Biri bəs deyil?

– Yox, xala, biri bəs deyil. – O, Mirzənin qapısından asılı qıfılı görüb, səsini bir az da ucaltdı: – Qoy çox olsun. Yazılanlar ox kimi gözünə batsın. Heyif ki, gecikdim, çıxıb gedib.

– Mirzə evdə deyildi. Qızı idi. İndicə getdi.

– Eybi yoxdur. Qoy qəzetlər burada qalsın. Əl dəyməyin. Gələndə oxuyar.

Onun bu hərəkətindən heç cür baş açmayan Xatınbacı yaxınlaşıb az qala pıçıltı ilə soruşdu:

– Sənə nə olub, Fərzəli? Mirzə ilə niyə belə düşünüşmüsən?

– Mənə nə olduğunu sonra biləcəksiniz, xala. Siz bilmirsiniz Mirzə nə yuvanın quşudur.

Bunları deyib hirslə evinə keçdi. Rübabənin hazırladığı yeməkləri yedi, sonra çay qaynatdı. Hirsi soyumuşdu. Fikirləşdi ki, onun bu hərəkəti İsgəndərin xeyir işinə zərər yetirə bilər. Onsuz da qızı ona verməmək üçün Mirzəyə kiçicik bir bəhanə lazımdır. Çox götür-qoy elədi, otaqda gəzişməyə başladı: "Nə olursa-olsun, qəzetləri götürməyəcəyəm. Qoy oxusun, bağrı çatlasın".

Rübabə işdən qayıdanda Fərzəli qəzetdə Vəfadar barədə yazılanları ona da danışdı:

– Qəzetdən əlli dənə almışam, – dedi.

– Əlli dənə qəzet nəyinə lazımdır?

– Qoymuşam Mirzəgilin qapısına, gələndə oxusun, görsün ki, Vəfadar o deyən adam deyil. Fikri özünə getməsin.

Rübabə aynabəndin pərdəsini aralayıb Mirzəgilin qapısına tərəf baxdı. Qapıya qoyulmuş qəzetləri görəndə başını yellədi:

– Eh, Fərzəli, Fərzəli. Bəzən lap uşaq kimi iş görürsən, – dedi. – Əvvəlcə elə bildim ki, zarafat eləyirsən. Get, bu saat qəzetləri götür.

– Nə üçün götürüm?

– Götürmək lazımdır. Yoxsa bu səfeh hərəkətinlə işləri xarablaya bilərsən. Axşam elçiliyə gedəcəyik, indi isə onu lağa qoyub, dolayırsan. Get, götür. Getmirsənsə, mən gedim.

Fərzəli tərəddüd içində qalmışdı.

– Qoy birdəfəlik başa düşsün ki, bu adamlar onun kimi əclaf deyillər.

– Mən heç nə eşitmək istəmirəm. Get bu saat qəzetləri götür. İsgəndər də eşitsə yaxşı olmaz. Bilirsən nə deyər? Deyər, əcəb dostsan ki, bərk ayaqda işimə pəl vurursan.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Naəlac qalmış Fərzəli qalxıb qəzetləri içəri gətirdi.

– İndi mən bu qədər qəzeti nə eyləyəcəyəm?

– Onu özündən soruş. Apar ver Vəfadargilə.

Fərzəli arvadının dediyi kimi elədi, qəzetləri Xatınbacıya verəndən sonra daha evə qayıtmadı. Oradan küçəyə çıxdı. Seyfinin emalatxanasının qabağında qəribə bir maşın dayanmışdı. Onun tünd badımcanı rəngi bir neçə yerdən bozarsa da, uzaqdan baxanda təzə görünürdü. Maşını daha yaxından görmək üçün Fərzəli dükana gəldi, dörd tərəfinə dolandı.

– Seyfi, bu hara maşınıdır? – soruşdu.

– Alman maşınıdır: "Oppel". Təzəliyi çox yaxşı olub. İndi köhnəlib.

Fərzəli maşının şüşələri endirilmiş pəncərələrindən içəri baxdı. Maşının oturacağına çəkilmiş dəri bir neçə yerdən yeyilib bozarmışdı. Hətta, bir yerində yamaq da vardı. Bayır tərəfdən qapının üstündə faşist svastikasının izi qalmışdı. Onun üstündən rəng çəkilsə də yenə bilinirdi. Seyfi bulaşıq əllərini tiftiyə silə-silə maşının altından çıxdı. Fərzəli qapının üstündəki svastika izini ona göstərdi:

– Görürsən, yeri bilinir.

– Bilirəm. Yiyəsi də deyib ki, maşını təzədən rəngləyim.

– Yiyəsi kimdir ki?

– Bir nəfər istefaya çıxmış kapitandır. Almaniyadan qənimət gətirib.

Fərzəli fikrə getdi:

– Görəsən qabaqlar kimin olub?

– Kimin olacaq, faşist generallarından birinin. Aşağıda bir neçə güllə yeri var. Görünür, cəbhədə çox olub. Başdan-ayağa təmir olunmalıdır.

– Alman maşınlarından başın çıxır ki?

– Nə üçün çıxmır? – Seyfi gülümsədi. – Cəbhədə onlardan o qədər görmüşəm ki. Birdən-birə iyirmisini-otuzunu ələ keçirirdik. İnsafən yaxşı maşınlardır. Bir dəfə İsgəndərin atası Seyranın başçılıq etdiyi kəşfiyyat dəstəsi belə bir maşının içindən general ələ keçirmişdi.

– Yaxşı, İsgəndərdən xəbərin var ki, evlənir?

– Doğrudan? Bəs bizə heç bir şey deməyib.

– Bu gün elçi göndərir.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Kimin qızına?

– Qonşumuz Mirzənin. Sənin dostun Qaraşın dediyi qıza.

– Belə de. Qaraşın dediyi doğru çıxarsa, nə yaxşı olar. Seyranın ruhu da sevinər.

– Hələ bir görək Mirzə nə deyir, qızı verəcəkmi?

– Ondan artıq oğlana verəcək? İsgəndərə kömək eləməliyik. Əlimizdən gələni əsirgəməməliyik. Seyranın təkcə yadigarıdır.

## 13

Axşam hava qaralar-qaralmaz Fərzəli yenə qapı ağzına çıxdı. İsgəndər indilərdə nənəsi ilə birlikdə gəlməli idi. Seyfinin dükanı qabağında maşınlar seyrəlmişdi. Seyfi şagirdi ilə köməkləşib alman maşınını içəri çəkirdi. Fərzəli qapı ağzında Mirzənin düzəltdiyi skamyada oturdu. Seyfigil "Oppel"i içəri çəkəndən sonra qapını daldan bağladılar. Bu vaxtlar adətən qapını bayır tərəfdən qıfıllayıb evə gedən Seyfinin hərəkəti Fərzəliyə qəribə göründü. Sonra yadına düşdü ki, Seyfi maşını rəngləməli idi. Yəqin buna görə qapını içəri tərəfdən bağlayırdı. Əlbət, içəridə işləyirlər.

Hava tamam qaralmışdı. Dirəklərin lampaları yandırıldı. Bir az aralıdakı Mirzəməməd meydançasında uşaqlar çığır-bağırla futbol oynayırdılar. Tramvay onların yanından ötəndə zəngini tez-tez basırdı. Başları oyuna qızışmış uşaqlar bəzən bu zəng səslərini heç saya almırdılar. Sürücü də tramvayı saxlamağa məcbur olurdu. Nəhayət, İsgəndər göründü. Nənəsi də yanınca yanını basa-basa gəlirdi.

– Deyəsən, gecikmişik, hə? – İsgəndər qımışdı.

– Yox, elə vaxtında gəlmisiniz. İkisi də evdədilər.

– Yaxşı, nənə, sən keç! – İsgəndər nənəsinin qolundan tutub, içəri keçirdi və sonra Fərzəliyə dedi: – Mən yarım saata qayıdıram. Vacib işim var. Özün işləri yoluna qoyarsan.

İsgəndər getdi. Fərzəli qarını evlərinə apardı. Rübabə çoxdan geyinib oturmuşdu. Daha gecikmək olmazdı. Mirzə bu vaxtlar adətən kiçik stulunu qoltuğuna vurub qapı ağzına çıxardı. Rübabə ilə İsgəndərin nənəsi Mirzəgilə girəndə Xatınbacı onları gördü və tez Fərzəliyə yanaşdı.

– Xeyir ola, ay Fərzəli?

– Xeyirdir, Xatınbacı xala. Elçiliyə gedirlər.

– Kimin üçün?

– Montyor İsgəndər üçün.

– Allah xeyir versin, yetim uşaqdır.

Fərzəli evə keçib divanda uzandı, eləcə də yuxuya getdi. Rübabənin nə vaxt qayıtdığından xəbəri olmadı. O, içəri girib aynabəndin işığını yandıranda, Fərzəli oyandı. Əvvəlcə gözlərinə inanmadı. Otaqda elə bil onun tanımadığı gözəl bir mələykə gəzişirdi. Pərvərdigara, belə də gözəl qadın olar? Bu onun arvadı Rübabə deyil?.. Yox, Fərzəli öz arvadını heç zaman belə gözəl, füsunkar görməmişdi. Belə mehriban baxışlar, lətif, zərif çöhrə, boy-buxun, məlahətli yeriş, yəni, onun arvadındadır? Fərzəli özündə qəribə bir qürur hissi duydu. O, bu füsunkar arvadın əri idi.

Rübabə çəhrayı ipək koftasını soyundu. Mərmər kimi hamar sinəsində qabarıq xırdaca döşləri öcəşkənliklə gecə köynəyinin altında gərilmişdi. Fərzəli elə bu an yaxınlaşıb onu bağrına basmaq, ağ çəhrayı bədənindən qalxan ətri doyunca ciyərlərinə çəkmək, meyxoş olunca başını onun sinəsinə dayayıb atəşini söndürmək həvəsinə düşdü. Bu niyyətlə yaxınlaşıb, onun sinəsindən öpmək istəyəndə Rübabə əli ilə onu özündən uzaqlaşdırdı və ərklə dedi:

– Dayan bir görək, sən də vaxt tapdın...

Sonra güllü xalatını əyninə geyib, aynanın qabağında saçlarını sahmana salmağa başladı. Fərzəli ağzıaçıla qalmışdı. Rübabə aynadan ona nəzər salıb razılıqla soruşdu:

– Bəs heç soruşmursan ki, necə oldu?

Fərzəlinin elə bil indi yadına düşdü ki, arvadı nə üçün Mirzəgilə getmişdi.

– Hə, nə oldu?

Rübabə başını dala atıb, saçlarını çiyinlərinə yaydı.

– Əvvəlcə heç yaxına qoymadı. Mən də əl çəkmədim. Əvvəlcə dedi ki, qız hələ oxuyur. Mən də dedim ki, nə eybi var, oğlan gözlər, qoy ancaq nişanını eləsin. Sonra başladı ki, yaşı hələ azdır. Mən yenə dedim ki, eybi yoxdur, o da qəbuludur, onu da gözlər. Təki barmağına üzük taxsın. Bir sözlə, əl çəkmədim, zəli kimi yapışdım boğazına. Axırda fikrə getdi. Deyəsən yumşaldı. "Rübabə xanım, – dedi, – siz gəldiyiniz üçün icazə verin beş-altı gün fikirləşim. Ancaq sizin xatirinizə...".



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Ax, köpək oğlu! – Fərzəli dişlərini qıcıb, yumruğunu düyünlədi.

– Yaxşı, başlama. Sənə bir söz deməli deyil, o saat qırsaqqız olub yapışırsan... Sən İsgəndərə deyinən qoy hazırlığını görsün. Mən, əvvəl-axır, qızı ondan qoparacağam. Qız özü də deyəsən razıdır. Ondan bildim ki, bizi görən kimi dodaqucu gülümsədi.

Ertəsi gün təkcə həyət-bacada deyil, bütün məhəllədə xəbər tutdular ki, İsgəndər Mirzənin qızına elçi göndərib. Seyfi bunu Qaraşa da xəbər verəndə kişinin gözləri bir anlığa kədər qarışıq bir sevinclə qıyıldı. Seyfi onun daxilən sevindiyini hiss etdi.

– Nişan üzüyünü mən alacağam, – deyə Seyfi qürurla əlini sinəsinə vurdu. – Dostumuzun yeganə yadigarıdır. Elə bu gün aparıb verərəm.

Elə o axşam Seyfi İsgəndərgilə gedib, ona brilyant bir üzük bağışladı. İsgəndər əvvəlcə almaq istəmədi, çünki çox bahalıydı. Seyfi təkid etdi:

– Götür, götür, biz nə qədər eləsək, azdır. Onun bizim boynumuzda haqq-sayı çoxdur.

İsgəndər axır ki, üzüyü götürməyə məcbur oldu. Ancaq bununla belə, sanki, ağır bir yükün altına girdiyini hiss edirdi. Düzdür, atasının dostudur, bir yerdə duz-çörək kəsiblər, bir şinel altında yatıblar. Ölümün gözü içinə də bir baxıblar. Ancaq bu heç də haqq vermir ki, onun oğlu bu bahalıqda hədiyyə alsın.

Rübabə işdən qayıdandan sonra oturub tikiş maşınında özünə paltar tikməyə başladı. Fərzəli isə darıxırdı, əvvəlcə divanın üstündə oturub arvadının paltarın üstündə gəzən iti barmaqlarına bir xeyli tamaşa elədi. Sonra soyuducunu açdı, bir stəkan soyuq ayran içdi. Radionu açdı, pambıqdan danışırdılar. Rübabə onun darıxdığını hiss etdi.

– Nə var, evdə cücə çıxarmısan? Çıxsana küçəyə.

– Sənə mane oluram?

– Mane olmursan. Ancaq görürəm ki, bir yerdə qərar tuta bilmirsən. Çıx bir az havanı dəyiş...

Fərzəli arvadının bu sözündən sonra küçəyə çıxdı. Qapı ağzındakı skamyada oturdu və tində tumsatan oğlanı çağırıb, ondan bir stəkan tum alaraq cibinə tökdü. Həyat qapılarından küçəyə boylanan Çənə Qafar Fərzəlinin qapı ağzında oturduğunu görən kimi qatlama



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

stulunu qoltuğuna vuraraq, Fərzəlinin yanına gəldi. Fərzəli öz-özünə mızıldandı: "Bəli də, yaman yerdə axşamladıq. Baş-qulağım gedəcək". Özünə söz verdi ki, Çənə Qafar nə desə, cavab verməsin. Qatlama stulunu açıb onun yanında oturan Qafar insafən bir on dəqiqəyədək qaradinməz oturdu, susdu. Fərzəli də bilərəkdən danışmırdı. O, gözlərini Seyfinin dükanına dikmişdi. Dükanın qapısının bir tayı çəkili idi. Fərzəli onu da sezdi ki, bu gün bütün işlər səkinin üstündə görülür. İçəri girib-çıxan yoxdu. Seyfi həmişə oturduğu kətili qapının açıq tayının qabağına qoymuşdu. Bu o demək idi ki, içəri girmək olmaz. Fərzəli bütün bu gördüklərinin nə demək olduğunu özlüyündə götür-qoy edərkən, Çənə Qafar başladı:

– Yaponiyaya atom bombası atan zabiti, deyəsən, məhkəməyə verəcəklər. Sən necə bilirsən, ona iş kəsərlər?

Fərzəli dinmədi. Əslinə baxsan, Çənə Qafarın dediklərindən heç bir şey başa düşmədi. Onun gözləri ancaq Seyfinin dükanına zillənmişdi.

– Yox, ağlım kəsmir ki, iş kəsələr, – deyə Qafar özü öz sualına cavab verdi. – Axı o zabit neyləsin, ona deyiblər, o da atıb. Elə deyil, yəni?

Çənə Qafar Fərzəlinin zəhləsini lap apardı. Axırda səbir eləyə bilmədi, hirslə çımxırdı:

– Ay Qafar dayı, sən nə həmişə olub-keçən söhbətləri eləyirsən!

Qafar onun sözlərinə əhəmiyyət vermədi.

– Bu davada müsəlmanlar da çox şey qazandılar. İndi hamının öz dövləti var.

– Nə olsun? Mirzə də müsəlmandır.

– Niyə? – Çənə Qafar səsini uzatdı. – Mirzə Rza pis adamdır? Kişi vaxtında namazını qılır, orucunu tutur. Daha nə istəyirsən?

Fərzəli Mirzənin ünvanına yenə bir neçə söz yağdıracaqdı ki, üç nəfər kişinin Seyfinin dükanına girdiklərini görüb susdu: "Orada nə olub, bəlkə, yenə oğurluq təkər satıblar?" – fikirləşdi.

Onlar içəri keçəndən sonra dükan qapısının açıq tayı da örtüldü. Təzə gələn müştərilər tez-tez qapını döyürdülər. Hər dəfə içəridən Seyfinin səsi aydın eşidilirdi: "Bağlıdır, bu gün işləmirik!" Müştərilərin isə biri gedir, biri gəlirdi. Axırda dükanın qapısı aralandı. Seyfi əlində iri bir kağız parçası bayıra çıxdı. Kağızı eşikdən qapıya yapışdırıb, yenə içəri keçdi. Fərzəli yerindən qalxıb, kağızı oxumağa



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

tənbəllik elədi, ətrafına göz gəzdirdi. Qonşu qapısında oturan oğlanı görüb, səslədi:

– İbrahim, oğlum, get gör dükanın qapısına yapışdırılmış kağızda nə yazılıb?

Oğlan bir göz qırpımında yerindən sıçrayıb, tramvay yolunu addadı və Seyfinin dükanının qapısına yapışdırılmış kağızdakı sözləri oxuyub geri qayıtdı.

– Oxudun?

– Oxudum. Yazıb ki, bu gün işləmirik.

Məsələ məlum idi. Nə isə mühüm bir hadisə baş vermişdi. Qonşu həyətdə birdən radio səsləndi. Xan oxuyurdu. Bayaqdan bəri özü deyib, özü eşidən Çənə Qafar əlini qulağına qoydu, səsin hansı həyətdən gəldiyini yəqin elədikdən sonra, bayaqkı oğlanı çağırdı:

– Bala get de, onun səsini qaldırsınlar.

Oğlan getdi. Radionun səsini daha da qaldırdılar. Bayatı-Şirazın füsunkar təranələri bütün küçəyə yayıldı. Çənə Qafar başını buladı.

– Səsə bax hey, elə bil Keçəçioğlu oxuyur. Balam, bu Qarabağ yetişdirir də... Cavanlığımda mənim də səsim pis deyildi. Kisə çəkdiyim adamlar həmişə məndən xahiş edərdilər ki, bala-bala bir ağız deyim. Mən də başlardım. Hamamın günbəzi az qalırdı ki, partlamağa gəlsin.

Fərzəli onun belə cəfəng sözlərindən lap təngə gəldi. Qalan tumu hirslə yerə səpələdi.

– Qafar dayı, hamamda mənim nənəm də bülbül kimi ötər, – *deyib uzaqlaşdı.*

Çənə Qafar onun dalınca deyindi:

– Yox, elə demə, Fərzəli. Quyuya su tökməklə quyu sulu olmaz. Su gərək quyunun dibindən çıxa.

Fərzəli onun dediklərini eşitmədi. Tindən çıxan maşın Mirzəməd açıqlığında futbol oynayan uşaqları xəbərdar etmək üçün bərkdən siqnal verirdi. Fərzəli özünü tindəki pivə budkasına verdi. İki parç sərin pivə içdi. Məhəllə uşaqları ilə bir az söhbət edib o biri səki ilə evə döndü. Seyfinin dükanının qabağından müştərilər dağılışmışdılar. Ancaq dükanın qapısı hələ açıq idi. İçəridən küçəyə gur işıq düşmüşdü. Fərzəli yaxınlaşıb qapıdan dükanın içərisinə baxdıqda məhəllə cavanlarından bir neçəsini orada gördü. Seyfi alman maşını “Oppeli” göstərərək nə isə danışırdı. Fərzəli də yaxınlaşıb qulaq asdı. Seyfi deyirdi:



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Maşının qabaq qapısının şüşəsi axıradək yerinə oturmurdu. İçəri tərəfdəki lövhəni çıxarıb, dəstək yayını yoxlamaq istədim. Bu zaman iki-üç dənə brilyant üzük yerə düşdü. Lövhəni tamam çıxartdım. Bir ovuc üzük yerə səpələndi. İçərisində qızıl halqa üzüklər də vardı. Saydım, əlli üç dənə idi. Aparıb hökumətə təhvil verdim. Sonra da özləri gəlib təzədən maşını axtardılar. Daha bir şey tapılmadı.

Məhəllə cavanlarından biri əllərini dizlərinə vurdu:

– Səfehsən, vallah, səfeh! – dedi. – Mənim üçün belə iş düşəydi, on-on beşini ötürərdim cibimə.

Yoldaşlarından biri ona bərk qapaz ilişdirdi:

– Elə ona görə də sənə belə bir şey rast gəlmir də. Seyfi düz iş tutub, haram maldır. Bəlkə, camaatı soyublar?

Məhəllə cavanlarından üçüncüsü də ona tərəfdar çıxdı:

– Əhsən, Seyfi, düz iş tutubsan. Yəqin ki, bu üzükləri faşistlər güclə camaatın barmağından çıxarıblar. Özlərini də yəqin öldürüblər.

Bu əhvalat elə o axşam bütün məhəlləyə yayıldı. Evlərin çoxunda gecə yarısınadək bundan danışdılar. Seyfini tanımayanlar da tanıdılar. Adı dillərə düşdü.

Təkcə İsgəndər ikinci növbədə işlədiyi üçün bu əhvalatdan hamıdan gec xəbər tutdu. Gecəyarısı tramvayla işdən qayıdarkən məhəllə uşaqlarından eşitdi. O dərhal Seyfinin ona bağışladığı üzüyü xatırladı, tükləri ürpəşdi və özündən asılı olmayaraq, cinayət yoluna düşmüş adam kimi, özünə nifrət etdi. "Seyfi bu işi yəqin mənim xatirimə görə eləyib. Bütün üzükləri hökumətə təhvil verib, birini isə mənim üçün götürüb... Bu ki, cinayətdir!" O, Seyfinin tutduğu bu işi dərindən təhlil etdi: "Bəlkə, birini deyil, çox götürüb? Seyfi belə iş tuta bilərmi?" Atasının dostu, müharibədə olmuş bir adam barədə belə fikrə düşməyindən özü də xocalət çəkdi. "Yox, yox, bu ola bilməz. Müharibənin dəhşətlərini görmüş bir adamdan belə şey gözləmək olmaz heç cür, heç vaxt!"

Nənəsinin onun üçün hazırladığı xörəyə heç əlini də vurmadı, iştahası tamam kəsilmişdi. Nənəsi çox təkid elədi, o isə bir qaşıq da ağzına apara bilmədi. "Fabrikdə yeyib gəlmişəm" – deyib yaxasını nənəsinin əlindən qurtarmağa çalışdı. O, indicə ancaq bir şeyə təəssüflənirdi: üzüyü nə üçün nənəsinə vermişdir. Özündə olsaydı səhər tezdən aparıb Seyfiyə qaytarardı. Nə adla, nə bəhanə ilə indi onu nənəsindən alsın? Deməz ki, vermisən, daha niyə geri alırsan?



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

O yataq otağına keçib soyundu, dama qalxmağa da həvəsi gəlmədi. Atasının guya düşmən tərəfinə keçdiyi barədə o məşum günlərdə də heç belə vəziyyətə düşməmişdi... hər şey göz qabağında idi. Seyfi ona faşistlərin kiminsə barmağından çıxartdığı üzüyü vermişdi. Bu aydın bir həqiqət idi. Damarlarında, gicgahlarında qanın qaynadığını hiss etdi. Yatağına uzanıb yuxuya getməyə çalışdı, bacarmadı. Bürkülü otaqda havası çatmadı. Yerində çox qurcalandı, haçan yuxuya getdi, özü də bilmədi. Burnuna yanıq iyi gəldi. Otağı tüstü bürümüşdü. Diqqətlə ətrafına baxdıqda yanğının nənəsinin köhnə sandığı saxladığı yerdə olduğunu gördü. Yanan sandıqdı. Qalxıb yanğını söndürmək istədi. Ayaqları qalxmadı. Elə bil ki, hərəsi bir ton ağırlığında idi. Barmaqları da tərpənmirdi. Yanğın isə getdikcə şiddətlənir, köhnə sandığın çıtırtısı otağı bürüyürdü. Birdən bu alov içərisində atasının surəti canlandı: "Ata, sənsən?!", "Mənəm oğlum, mənəm", "Ata, sən niyə gəldin, nə üçün gəldin?", "Mən gedirəm oğul, gəldim xəbər verim ki, yanğın nədəndir", "Nədəndir, ata?" "Yanan üzükdür, oğul. Onu qaytar getsin. Heç bilirsən ki, o haradandır? O cavan bir gəlinindir. Sərxoş alman zabiti əvvəlcə onu zorladı. Sonra barmağındakı bu üzüyü çıxarmaq istədi. Üzük çıxmadı. Zabit güllə ilə gəlinin barmağını üzüb, üzüyü barmaqqarışıq götürdü. Diqqətlə baxsan üzükdəki qan ləkəsini görərsən. Qaytar onu, oğlum. Onda evimizdəki bu yanğın da özözünə sönər". Bunu deyib atasının surəti buxar kimi evin divarlarında yoxa çıxdı... İsgəndər hövlnak yuxudan ayıldı. Tamam tər içindəydi. Qaranlıq otağı xırıltı səsi götürmüşdü. Nənəsinin səsi idi. Həmişə belə xoruldayırdı. İsgəndərin gözünə daha yuxu getmədi. Mələfəni çiyninə ataraq nənəsini oyatmamaq üçün pəncələri üstündə otaqdan çıxıb, dama qalxdı.

Şəhərin üstünə aydın bir gecə çökmüşdü. Aşağıda dəniz sakit-sakit mürgü vurur, ulduzlar isə onun yuxusuna elə bil nur çiləyirdilər. Qonşu damlarda hamı şirin yuxuda idi. İsgəndər onlara həsəd apardı: "Gör necə rahat yatırlar!" Fərzəligilin damına boylandı. Orada palazın üstündə yataq açıldığını görsə də, yatan adamın kim olduğunu ayırd eləyə bilmədi. Dalanın üstündən addayıb Fərzəlinin yanına keçmək istədi, ancaq dərhal fikrindən daşındı. "Bəlkə, yatan o deyil, arvadıdır". Yerindən tərpənmədi, Fərzəli olsaydı, özünə qulaq yoldaşı eləyərdi.

O, mələfəyə bürünüb, bu üzüntülü gecəni birtəhər başa vurmağa çalışdı. Atasının xəyalı yenə də gözlərinin qabağında peyda



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

olurdu. Gah dənizin üzərində, gah da hündürdəki ulduzların arasında görünür və elə o dəqiqə də yoxa çıxırdı. Elə bil bu ağır gecədə onu tək-tənha buraxmaq istəmirdi. İsgəndər sanki onun doğma nəfəsini sübh açılanadək həndəvərində hiss etdi. Dan şəfəqində aşağı endiyi zaman nənəsi narahat oldu.

– Haradasan, a bala? – soruşdu. – Bəs niyə bircə mələfədə?

– Yuxum yoxdur, nənə.

– Yoxsa bir ağrıyan yerin var? Bəlkə, qızın xiffətini eləyirsən, hə?

– Yox, nənə.

İsgəndər içəri keçib geyindi, sonra eyvanda elektrik çaynikini cərəyana qoşdu. Hava çoxdan bozarmışdı. Həyətin üstünə çətir kimi sərilmiş üzüm tənəkləri günəşin ilk şəfəqlərinin həyətə yayılmasına mane olurdu. Buna görə də aynabənd hələ alaqaranlıq idi. Nənəsi həyətdə su krantının yanında idi. İsgəndər onu səslədi:

– Nənə, gəl üzüyü mənə ver.

Nənəsi əvvəlcə elə bil onu başa düşmədi. Əlini qulağına apardı:

– Nə dedin, bala?

– Deyirəm ki, gəl üzüyü mənə ver.

– Nəyinə lazımdır?

– Lazımdır, aparıram.

– Haraya? "Həri" veriblər ki?

– Qızgilə aparmıram. Aparıram ki, qaytarım.

– Niyə? – Nənəsinin gözləri bərəldi.

– Sonra deyərəm. Sən üzüyü ver.

Nənəsi daha bir söz demədən itaətkarlıqla sandığı açıb, üzüyü ona verdi.

İsgəndər Seyfinin yanına tezdən getmək istəyirdi ki, dükanda müştərilərdən heç kəs olmasın və üzüyü nə üçün qaytardığını ona başa salsın.

Uzaqdan emalatxananın açıq olduğunu gördükdə sevindi, addımlarını yeyinlətdi. Seyfi İsgəndərin belə erkən onun yanına gəlməsindən təəccüblənmədi. Çünki məhəllədə hamının qulağına səs dəymişdi. İsgəndər dükanda müştəri görmədikdə, tez üzüyü cibindən çıxarıb, Seyfiyə uzatdı.

– Seyfi, al bunu. Bilirəm, hörmət eləyib bu bahalıqda üzüyü mənə bağışlamısan. Buna görə çox sağ ol. Ancaq istəmirəm, çox xahiş eləyirəm, geri götürəsən.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Dükanda onlardan başqa ancaq Seyfinin şagirdi Səfər idi, o da dükanın dib tərəfində körük basırdı. Körük elə fısıldayırdı ki, Səfər yəqin ki, onların söhbətini eşitmirdi.

Seyfi İsgəndərin sözlərindən duruxdu. Onun hərəkətini özlüyündə götür-qoy elədi.

– Bəlkə, elə bilirsən ki, mən bu üzüklərdən çox götürmüşəm? Atanın ruhuna and içirəm ki, ancaq bircəsini götürmüşəm, o da səndən ötrü. Qalanların hamısını vermişəm. Nəyə də istəyirsən, and içim.

– And niyə içəsən, inanıram. Ancaq mən istəmirəm. O adamın əlini yandırır. Ondan adamın qulağına ah-nalə gəlir. Sübhədək çimir vurmamışam. Bircə dəqiqəliyə gözümü yummuşam, onda da yuxuda atamı gördüm. O da dedi ki, apar qaytar. Götür, xahiş eləyirəm. Allah bilir o hansı günahsızın barmağından çıxarılıb. Qan iyi gəlir ondan.

Seyfi gözlərini İsgəndərin yuxusuzluqdan rəngi boğulmuş çöhrəsindən ayırmadan fikrə getdi. İsgəndərin sözlərində bu vaxtadək dərk etmədiyi, ya da fərqinə varmadığı sərt bir həqiqətlə rastlaşdı. İsgəndərin hər bir sözü çılpaq gəlin və qızlara çevrilib, xəyalında dolandı. Ağlar gözlər, pərişan saçlar, sonra... Sonra isə qan süzülən zərif barmaqlar... Qulağına da səslər gəldi: boğuq hıçqırtılar, ürək parçalayan çığırtılar. Bunlar birlikdə qaynayıb bir-birinə qarışdı. Sonra dəhşətli bir əks-səda ilə elə bil emalatxananın divarlarında da guruldadı. İsgəndərin ona uzatdığı üzüyü almağa cəsarəti çatmadı.

– Götür, götür! – İsgəndər təkid edirdi.

– Sən haqlısan, İsgəndər, – dedi. – Başa düşürəm. O üzüklərin hamısı gəlin-qızlarımızın barmaqlarından çıxarılıb. – Sonra dərindən nəfəs aldı. – Ancaq mən indi onu nə eləyim?

– Onu da apar ver.

– Yox, İsgəndər, verə bilmərəm. Şübhəyə düşərlər. Fikirləşərlər ki, birini götürən, beşini də götürə bilərdi.

– Bəs neyləyəcəksən?

– Mən də elə onu fikirləşirəm ki, neyləyim.

Qəflətən ağlına nə gəldisə, üzüyü İsgəndərin əlindən alıb Səfərin körük vurduğu ocağa yaxınlaşdı. Bir anlığa duruxdu, sonra alovdan qamaşan gözlərini qıyaraq, üzüyü qızarıb şölələnən kömürlərin üstünə atdı. İsgəndərə tərəf qanrıldı:



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Belə yaxşıdır, – dedi.

Seyfinin yanından çıxanda İsgəndər özünü elə rahat hiss edirdi ki, həmişə dükanın qapısında büzüşüb yatan qıllı köpək də ona bu səhər çox sakit göründü. Köpək başını qaldırıb baxanda İsgəndər heyvanın qırmızı gözlərində bir mehribanlıq duydu. "Bu qara köpək əvvəllər də görəsən mənə belə mehribanlıqla baxırmış? – İsgəndər düşündü. – Yoxsa, yalnız bu səhər belə mülayim bir heyvana çevrilmişdir?" Əvvəllər İsgəndər onun yanından ehtiyatla ötüb keçərdi. Ona elə gələrdi ki, öz qəzəbli qırmızı gözləri ilə onu izləyən köpək indicə üstünə atılacaq. "Yoxsa, mən bu səhər hər şeyi başqa cür görürəm? Bəlkə, yuxusuzluqdandır? Yox, hamısı ondandır ki, ürəyim rahatdır...".

Belə fikirlər içərisində o, çörəkçi dükanının qabağından keçərkən, çörək üçün duran adamların arasında Rəziyyəni gördü.

Rəziyyənin əynində yüngül yay paltosu, ayaqlarında isə boğazlı tüklü qış tuflisi vardı. Qız onu görmürdü, kənarda durub, doyunca ona tamaşa etdi. Onun kiçik burnu, ətli dodaqları, azca sivri çənəsi elə bil rəssam qələmindən çıxmışdı. İsgəndər yenə aramını itirdi. Bir az qabaq ağır həyəcandan xilas olmuş sinəsi təzədən körük kimi qalxıb-endi. O, qızı eşikdə gözləməyi qərara aldı. Çörəkçi dükanından bir az aralıdakı söyüd ağacının altında düzəldilmiş uzun skamyada oturdu.

Ağacın altına çoxlu dondurma kağızı, papiros kötüyü tökülmüşdü. Gündüzlər burada, ağacın kölgəsində dondurma satan oğlan qızğın alver edərdi. Axşamlar isə bura məhəllə cavanlarının ixtiyarında idi. Gecə yarısınadək nərd atardılar. Dalan qonşuları qəssab Bədəl əlində zənbil çörək almağa gedirdi. Onun yanından keçərkən İsgəndər salamlaşmaq istədi. Bədəl isə onu görmürmüş kimi üzünü yan tutaraq ötüb keçdi. İsgəndər istədi onun dalınca çığırıb desin ki, "Ay Bədəl əmi, yenə nə olub, yan keçirsən?" Yadına on gün qabaqkı söhbətləri düşdü və hər şey ona aydınlaşdı. "Almır, almasın, heç lazım deyil mənə onun salamı. Yekə kişidir, utanmır gör mənə nə deyir?" "Gəl bizim elektrik sayğacını elə düzəlt ki, pulu az gəlsin". "Guya pulu az düşüb. Bu vaxtadək camaatın cibini soyub, indi də hökumətin cibinə əl atmaq istəyir".

Rəziyyə əlində çörək dükandan çıxdı. İsgəndər tez qalxıb ona tərəf getdi. Salamlaşdı. Rəziyyənin solğun yanaqlarına qızartı çökdü, yay paltosunun yaxalığını çəkib güllü xalatının altından görünən



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

sinəsini örtdü. İsgəndər onun karıxdığını sezdi. Və özü də qızla söhbətə söz tapmadı. Bir xeyli duruxub, sonra soruşdu:

– Bəs atan fikirləşib qurtarmadı?

Rəziyyə gülümsədi:

– Bilmirəm, – dedi və ondan aralandı.

İsgəndər durub onun arxasınca baxırdı. Rəziyyə də həyətə keçəndə dönüb İsgəndərin durduğu səmtə baxdı. İsgəndər onun sifətində xoş bir təbəssüm gördü.

## 14

Qaraş iki gün məhəllədə görünmədi. İsgəndərlə Fərzəli onu iki-üç dəfə Seyfidən soruşdular. O da bir şey bilmirdi.

– Bir işə bax, ha! Heç harada yaşadığını da öyrənməmişəm, – deyə Seyfi özünü təqsirləndirdi.

Bir gün işdən sonra İsgəndər birbaşa Seyfinin yanına gəldi. Qaraşdan yenə bir xəbər yoxdu. Damda quşlarını uçurdan Fərzəli də İsgəndəri dükanda görən kimi aşağı enərək, onların yanına gəldi.

– Hə, kişidən xəbər çıxdı?

– Yox, – Seyfi əlində sökdüyü maşın hissəsini içində benzin olan tasa qoyub, əllərini sildi. – Bu günü də gözləyək, görək nə olar.

– Fərzəli, pivə ilə necəsən? – deyə İsgəndər əlini Fərzəlinin çiyninə qoydu. – Bu gün mükafat almışam. Qonaq eləyə bilərəm.

– Mən pivədən nə vaxt boyun qaçırmışam?

– Elə isə gedək. Seyfi, sən nə deyirsən?

– Yox, mən gedə bilməyəcəyəm. Əlimdə vacib işlərim çoxdur. Siz gedin.

Onlar dükandan çıxarkən astanada Qaraşla rastlaşdılar. Onun gəlişi hamını sevindirdi. Seyfi ərklə gileyləndi:

– Balam, sən bizi lap nigaran qoydun, belə də şey olar? Dedim yəqin xəstələnmisən.

– Heç xəstələnmək zamanıdır? – Qaraş dodaqucu gülümsədi. – İki gündür ki, rayon hərbi komissarlığındayam. Axır ki, bu gün Konstantinovka kəndinə məktub göndərdilər.

İsgəndər minnətdarlıqla atasının dostunu süzdü. Düşünürdü ki, belə xeyirxahlığın qarşısında bu nəcib adama necə xidmət edə bilər.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Qaraş üzünü İsgəndərə tutub, sözünə davam etdi:

– Güman eləyirəm ki, tezliklə cavab çıxar.

Söhbətin bu yerində Fərzəli birdən səsləndi:

– Odur, baxın. Qapıda qoca arvadla söhbət eləyən qızdır!

Qaraş gözlərini Fərzəligilin qapısında söhbət eyləyən qadınlara dikdi, həyəcanından heç bir şey görmədi.

– Gözlərim yaxşı seçmir.

– Soldakı qırmızı yaylıqlı qızdır. Çıxın, yaxından baxın.

Qaraş dükandan çıxdı, o biri səkiyə keçdi.

Heç bir şeydən xəbəri olmayan İsgəndər mat-məəttəl qalmışdı. Fərzəli Qaraşa Rəziyyəni göstərdi. "Bu nə ola bilər? – fikirləşdi. – Qaraşla qızın nə əlaqəsi?" – Tez Fərzəlinin qolunu dartdı.

– Fərzəli, başa sal görüm, bu nə məsələdir?

Fərzəli gözlərini o biri səkiyə keçən Qaraşdan çəkmirdi. O qorxurdu ki, Qaraş o biri səkiyə çatanadək Rəziyyə həyətə keçsin. Yaxşı ki, onunla söhbət edən arvad qızı tezliklə buraxmaq fikrində deyildi. Qaraş o biri səkiyə keçəndən sonra iki-üç dəfə arvadların başına dolandı. Rəziyyə içəri keçəndə Qaraş da dükana qayıtdı.

Qaraşın rəngi ağappaq ağarmışdı, əlləri əsirdi. Kətilin üstünə çökdü. Fərzəli ondan söz soruşmağa cəsarət etmədi. Çünki kişi hələ də özünə gəlməmişdi. Qaraş köynəyinin üst düymələrini açdı. Əlini ürəyinin üstünə apardı.

– Ürəyim xəbər verir ki, o özüdür. – Sinədolusu nəfəs aldı. – Əgər, o isə, mənim həyatda daha heç bir arzum yoxdur.

Qaraşın sözləri İsgəndəri daha da şübhəyə saldı. Bu dəfə Fərzəlinin qolundan dartıb kənara çəkdi.

– De görüm, nə olub? Özün bilirsən ki, mənim zarafatdan xoşum gəlmir.

Fərzəli üç nəfərin arasında gizli qalacağına söz verdikləri üçün məsələni birdən-birə İsgəndərə demək istəmədi. Buna görə də əvvəlcə Qaraşın fikrini öyrənmək istəyirdi. Onu da bilirdi ki, Qaraş İsgəndərin də bu məsələdən agah olmasına etiraz etməyəcək. Bu məqsədlə də dedi:

– Qaraş qardaş, neçə gün qabaq İsgəndər Rəziyyə üçün elçi göndərmişdi. Güman eləyirəm ki, indi məsələni ona açmaq olar.

Qaraş kədərli gözlərini minnətdarlıqla İsgəndərin sifətində gəzdirdi.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Bəs mənə niyə deməmisən? – gileyləndi.
– Qaraş əmi, ondan sonra sizi görməmişəm.
Fərzəli daha fürsəti əldən vermədi.
– İsgəndər, indi sən də bil. Qaraş qardaş şübhələnir ki, Rəziyyə Mirzənin qızı deyil.
– Bəs kimin qızıdır?
Nə qədər ki, məsələ aydınlaşmamışdı, əlbəttə, Fərzəli deyə bilməzdi ki, Rəziyyə Qaraşın qızıdır. Buna görə də cavabını bir qədər yayındırmalı oldu.
– Onu hələ bilmirik. Ancaq Qaraş qardaşın da belə bir qızı olub.
İsgəndər ərkyana dedi:
– İstəyirsiniz mən Rəziyyənin özündən soruşum.
Qaraş başını silkələdi:
– Rəziyyə özü bilməz. Çünki onu Mirzənin himayəsinə verəndə çox körpə idi.
İsgəndər üçün çox şey hələ qaranlıq qaldı. "Əgər qız Qaraşındırsa, nə üçün onu Mirzəyə verib? – fikirləşdi. – Bəs indi ki, şübhələnir, nə üçün gedib, qızını tələb etmir?" Fərzəli də İsgəndərin nigarançılıq içərisində qaldığını başa düşürdü. Buna görə məsələnin ucundan-bucağından bir neçə kəlmə dedi:
– Qaraş qardaşın balaca bir qızı varmış. Cəbhəyə gedəndə anası olmadığı üçün onu Mirzəyə tapşırır. Bir neçə aydan sonra Mirzə cəbhəyə məktub yazır ki, qızı ölüb. Bax, məsələ belə olub.
– Sonra?
– Sonrası yoxdur. İndi qıza baxmaq istəyirdi ki, görsün o körpəyə oxşayır, ya yox.
– Oxşayır?
Bu dəfə Qaraş özü cavab verdi:
– Onu demək çətindir.
İsgəndər Qaraşın özünün söhbətə qarışmasından elə bil ürəkləndi:
– Güman eləyirsiniz ki, Rəziyyə sizin qızınızdır? Bəs adından bilmirsiniz?
Seyfi öz işi ilə məşğuldu. İçəri darısqal olduğundan çox istərdi ki, Qaraşgil bayıra çıxıb söhbətlərini orada davam etdirsinlər. Bunu onlara deməyə çəkinirdi, qorxurdu ki, ürəklərinə toxuna. İsgəndər isə səbirsizliklə Qaraşın cavabını gözləyirdi.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Körpəlikdə onun adı başqa idi, – deyə Qaraş haçandan-haçana dilləndi. – Əgər Rəziyyə haman qızdırsa, görünür, Mirzə sonradan onun adını dəyişib.

– Bəlkə, özü ilə danışasınız.

– Yox, bu lazım deyil. Onu qorxuda bilərəm. Əvvəlcədən gərək bir şeyi öyrənəm. Bunu da ancaq qadınlar bacarar. Eşitdiyimə görə Mirzə öz bacısı qızını da körpəlikdən götürüb saxlayıb. Bəlkə, Rəziyyə elə öz bacısı qızıdır.

İsgəndər bütün işlərində olduğu kimi bu işdə də qətiyyətlə hərəkət etmək istədi. Rəziyyənin Qaraşın qızı olacağı onu sevindirdi. O, atasının ən yaxın dostu ilə qohum olacaqdı. Rəziyyə indi İsgəndərin nəzərində daha ucaldı. O, Mirzə kimi qaraqabaq, tısbağa tək həmişə qınında gizlənən bir adamın deyil, müharibənin alovları içərisindən çıxmış əsl döyüşçünün qızıdır. Ancaq bununla belə deyilənlər doğru çıxmasa, yəni, məlum olsa ki, Rəziyyə Qaraşın qızı deyil, Mirzənin İsgəndəri rədd edə biləcəyi təhlükəsi də onu narahat edirdi. İsgəndər özünü elə aparmalı idi ki, Mirzə bu işdə onun da barmağı olduğunu seçməsin.

– Qaraş əmi, mən elə bilirəm ki, siz Mirzənin özü ilə danışsanız, pis olmaz. Əgər həqiqət meydana çıxarsa və o, qızı verməkdən imtina edərsə, gerisi mənim boynuma. Rəziyyə sizin olacaq.

Kətil üstündə oturmuş Qaraş altdan-yuxarı onu süzdü.

– Deyirsən, yəni, bu bizə kömək edər?

– Əlbəttə, edər.

– Mənsə qorxuram ki, işi daha da dolaşdıra bilərik.

– Heç bir şey dolaşmaz.

Qaraş fikrə getdi. O, İsgəndərin sözlərində həqiqət görsə də, kələfin ucunu daha da dolaşdıracaqlarından qorxurdu. Bu iş qəfildən, gözlənilmədən edilməli idi. Əgər Mirzəni duyuq salsalar, o, hər şey etməyə qadirdir. Ancaq, bununla belə, daha başqa yol yoxdu. Əgər Mirzə Rəziyyənin öz bacısı qızı olduğunda təkid etsə, qadınlar işə qoşulmalıdır. İsgəndərin fikri ilə Seyfi də razılaşdı.

Qərara alındı ki, sabah Mirzənin yanına getsinlər. Ancaq Fərzəli İsgəndərin onlarla getməsini məsləhət bilmədi.

– Bilirsiniz niyə? – dedi. – Mirzə sonra ona qız verməz.

Hamı bu fikirlə razılaşdı. İsgəndərin də ürəyindən oldu. Artıq hava qaraldığı üçün Seyfi də işini qurtardı. Dördü birlikdə pivə içməyə getdilər.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

## 15

Mirzə ilə qızı gecə yarısınadək yır-yığışla məşğul oldular. Rəziyyə yalnız bir şey bilirdi: atasına təzə mənzil veriblər. Sabah sübh tezdən köçməlidirlər. Mebel sarıdan bir o qədər də çətinlik yoxdu. Evlərində ancaq bir paltar dolabı, bir yazı masası və üç dənə də köhnə stul vardı. Qalanları da xırda-xuruş idi ki, onları da çamadanlara doldururdular. Rəziyyə hər şeyin belə təcili görülməsindən şübhələnmədi. Atasının dediyinə görə, sabah tezdən köçməsələr, ev, başqaları tərəfindən tutula bilərdi.

Səhər yeddidə qapıda maşın siqnalı eşidildi. Mirzə tez çıxdı və bir azdan iki nəfərlə evə qayıtdı. Gələnlər əldən-ayaqdan çox cəld idilər. Heç on beş dəqiqə çəkmədi ki, evin şeylərini maşına yükləyib yola düşdülər. Həyətdə onların köçməsindən ancaq Xatınbacı xəbər tutdu. Vəfadar alaqaranlıqdan getmişdi. Fərzəli isə gecə keşiyindən hələ qayıtmamışdı. Xatınbacı Mirzədən belə xəbərsiz köçmələrinin səbəbini soruşanda, Mirzə demişdi: "Vallah, mən özüm də dünən axşam xəbər tutmuşam. Dedilər ki, sübh tezdən köçməsən, ev əldən çıxar".

Fərzəli gecə keşiyindən qayıtdı. Qapılarını döydü. Rübabə bu gün ikinci növbədə işlədiyi üçün hələ də yatmışdı. Arvadı qapını açınca Xatınbacı Mirzəgilin köçdüyünü ona xəbər verdi. Fərzəli yerindəcə döyüküb qaldı:

– Haçan köçdülər?

– Elə indicə, sənin qabağınca.

– Haraya köçdülər, demədilər?

– Vallah, mən Mirzədən soruşdum, dedi ki, hələ heç özüm də ağıllı-başlı bilmirəm. Öyrənib, sonra gəlib deyərəm.

Qapını açıb, əri ilə Xatınbacının söhbətinə qulaq asan Rübabə heyrətlə soruşdu:

– Bəs necə köçdülər ki, heç xəbər tutmadım?

Xatınbacı başını yellədi:

– Vallah, qadan alım, elə səssiz-səmirsiz köçdülər ki, həyətə çıxmasaydım, mən də heç görməyəcəkdim.

– Ay səni, Mirzə! – deyə Fərzəli əlini çırpdı. – Gör aradan necə çıxdı. – O, Mirzəgilin qapılarına yaxınlaşıb qıfılı yoxladı. Bağlı idi. İçəri baxa bilmədi, çünki həmişə boyaboy çəkili pərdələr öz yerində idi. – Bəs pərdələrini niyə çıxarmayıblar?



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Görəsən, nə kələyi var, – deyə xalatını geyinib həyətə çıxan Rübabə də yaxınlaşıb, pərdələrin arasından içəri baxmaq istədi, mümkün olmadı. Pərdələr həmişə kimi kip çəkilmişdi.

– Mən bilirəm pərdələri niyə çıxarmayıb. O istəməyib ki, həyətdəkilər onların yığışdıqlarını görsünlər. Bir də köhnə pərdələrdi, maliyyəti nədir ki?

Fərzəlinin bu sözləri Xatınbacının da ağlına batdı:

– Elədir, bala, düz deyirsən. Gör necə yığışıblar ki, heç birimiz xəbər tutmamışıq.

– Eybi yoxdur, Mirzə. – Fərzəli yumruğunu qolayladı. – Sən Mirzə ol, mən də Fərzəli. Mən sənə göstərərəm ki, qızı aradan çıxarmaq adama neçəyə başa gələr!

## 16

Təzə mənzilə köçəndən sonra Rəziyyəyə məlum oldu ki, mənzili onlara hökumət verməyib. Atası bu iki göz otağı aylıq haqq vermək şərtilə kirayələyib. Özü də müvəqqəti. Ev sahibi hərbi xidmətçi idi, iki illiyə xarici ölkəyə ezamiyyətə getmişdi. Üç gözdən ibarət olan mənzilin bir otağında isə ev sahibinin anası qalırdı. Bütün bunları da Rəziyyəyə o qadın danışmışdı. Qadının yetmişə yaxın yaşı olardı. Nə gözləri yaxşı görür, nə də qulaqları eşidirdi. Bütün günü evdə idi. Ancaq həftədə bir dəfə bazarlığa gedərdi. Qız, atasının köhnə həyətdə Xatınbacıya təzə mənzil almaları barədə dediyi yalanı üzünə vurmamışdı. Ancaq atasının niyyətini başa düşmüşdü. Bu günlərdə o, İsgəndərin elçilərinə cavab deməli idi. Elə buna görə də tələsik yığışıb, qaçmışdı.

Təzə köçdükləri mənzil ürəkaçandı. Üç hündür pəncərə mərkəzi küçəyə baxırdı. Otaqlardan həm bir-birinə, həm də dəhlizə qapı vardı. Bu, Rəziyyənin ürəyindən oldu. Ara qapını bağlayıb, dəhlizdən öz otağına girib-çıxacaqdı. Buna görə də paltar dolabını ara qapının qabağına qoymaq istədi. Atası razı olmadı. Qız təkid eləyəndən sonra, Mirzə daha bir söz deyə bilmədi. Dolab ara qapının qabağına qoyuldu və beləliklə də otaqlardan bir-birinə olan yol kəsildi. Mirzə birinci növbədə pəncərə pərdələrinin qeydinə qaldı. Mağazaya gedib üç pəncərənin üçünə də boyaboy pərdə aldı.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Axşamadək otaqların bütün əyər-əskiyi düzəldi. Mirzə əllərini ovxalayaraq qımışdı:

– Hə, görürsən də, bunların hamısını səndən ötrü eləmişəm. O xuliqanların əlindən ki, qurtardıq, hər şeyə dəyər.

Rəziyyə dinmədi, dəhlizdən öz otağına keçib, qapını içəri tərəfdən bağladı. Bir azdan Mirzə onun yanına keçmək istədi. Qapını bağlı gördükdə dəstəyi möhkəm çəkdi. İçəridən Rəziyyənin səsi eşidildi:

– Gəlməyin, paltarımı dəyişirəm.

Mirzə qapıdan çəkilmədi, durub gözlədi. İçəridən cavab çıxmadıqda, qulağını qapıya dayadı. Səs-səmir gəlmirdi. Sonra açar yerindən içəri baxdı. Rəziyyənin ancaq çılpaq ayaqları görünürdü. Bu zaman ev sahibəsi öz otağından dəhlizə çıxdı. Mirzə tez uzun özbək xalatının ətəklərini yığıb otağına keçdi. Bir azdan Rəziyyə işığı keçirib yatağına uzandı. Mirzə ara qapıya yaxınlaşıb soruşdu:

– Rəziyyə, yatdın?

Rəziyyə səsini çıxarmadı. Mirzə iki ağız da çağırdı. Qızdan cavab çıxmadığını görüb, yatağına qayıtmağa məcbur oldu.

Rəziyyə bütün gecəni yatmadı. Köhnə həyətdən yarım saat içərisində buraya köçmələri ona yuxu kimi gəlirdi. Əslində onlar köçməmişdilər, qaçmışdılar. Oğru adamlar kimi qaçmışdılar. Belə olmasaydı, Xatınbacı soruşanda atası təzə evin ünvanını deyərdi, gizlətməzdi. Hər şeyi yerli-yataqlı yadında saxlayan atası indi necə oldu ki, təzə mənzilin ünvanını unutmuş oldu? Ancaq köçəndə İsgəndər orada olsaydı, ünvanı öyrənməmiş əl çəkməzdi. Buna inanırdı. Ona da inanırdı ki, İsgəndər gec-tez buranı tapacaq. Gözünün qabağında İsgəndərin surəti durmuşdu. Çörəkçi dükanı qabağında rastlaşdıqları yadına düşdü. Yarızarafatla soruşduğu: "Bəs atan fikirləşib, qurtarmadı?" sözlərindən onun odlu qəlbinin çırpıntısını duymuşdu. Bəs tramvaydakı hərəkəti? Bir qız qəlbini tora salmaq üçün bundan artıq nə romantika! Qızın sinəsindən sanki dolu bir nəfəs qalxdı. Yaxşı ki, İsgəndərin məhəbbəti varmış, belə dəqiqələrdə onu isidir, ona təsəlli verirdi. Yoxsa atasının bu qəribə hərəkətlərinə dözüm gətirə bilməzdi. Neçə dəfə özünə əl qaldırmaq xəyalına da düşmüşdü. Yox, yox, o, İsgəndəri heç zaman belə odlu bir istəklə yanında görmək arzusunda olmamışdı, onun üçün belə darıxmamışdı. İndi isə ona İsgəndər lazım idi. Qərib bir ölkədəydi elə bil. İsgəndər onun pənahı, ümidi, xilaskarı olmalıydı.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

## 17

İşdən çıxandan sonra İsgəndərin yadına düşdü ki, bu gün fotoqrafın yanına getməlidir. Düz onuncu gündür, şəkil hazır olmalı idi. Qabaqdakı duracaqda tramvaydan düşüb, şəhərin mərkəzinə gedən avtobuslardan birinə oturdu. Özünü vaxtında çatdırdı. Bir az da gec gəlsəydi, fotoqraf çıxıb gedəcəkdi. Şəkli alıb diqqətlə baxdı. O heç zaman özü ilə atasının arasındakı belə oxşarlığı seçməmişdi. İki il qabaq çəkdirdiyi bir şəklini xatırladı. Atasının bu şəkli ilə o şəkli bir-birindən çətin ayırmaq olardı. Evə qayıdandan sonra da iki şəkli yanaşı qoyub, diqqətlə baxdı. Sonra nənəsini çağırdı:

– Ay nənə, bir bura gəl.

Nənəsi gəldi. İsgəndər hər iki şəkli nənəsinin qabağına qoyub, soruşdu:

– Nənəcan, de görüm bunlardan hansı sənin oğlun və hansı nəvəndir?

Nənəsi gözlərini örpəyinin ucu ilə silib çox baxdı, ancaq seçə bilmədi.

– Bala, ayırd eləyə bilmirəm. Sən de görüm Seyran hansıdır?

İsgəndər atasının şəklini göstərdi:

– Budur, nənə. Böyütdürmüşəm. Evin divarından asacağam.

Nənəsi göz yaşlarını saxlaya bilməyib, bayıra çıxdı.

İsgəndər eyni boyda, eyni biçimdə olan şəkilləri otağın yuxarı başında divara vurdu. Sonra da durub uzaqdan onlara tamaşa etdi. Atası mehriban baxışları ilə şəkildən ona baxırdı. Ancaq bu mehriban baxışlarda bir üzüntü, bir kədər, bir giley vardı ki, onu sezməmək mümkün deyildi. Bəlkə, neçə illər qabaq İsgəndərin tutduğu o məşum əməldən yenə incikdir. Belə deyildisə, bəs baxışlarındakı bu nisgil nədir? İsgəndərin dodaqları qeyri-ixtiyari ayrıldı: “Ata, unutmadınmı o məşum günü? Niyə dinmirsən? Gözlərindəki o danlaq və məzəmməti nə üçün üzümə çırpırsan? Ataların ki, ürəyi geniş olur, unutmadınmı o günü?” İçərisindən dəhşətli bir səs baş qaldırdı. Elə bil ki, hakim kimi hökm verirdi: “Nə üçün unutsun, naxələf övlad! O ki, canını sənin yolunda qoydu. Doğma evinə qayıtmadı. Ocağı söndü, ürəyində övlad həsrəti ilə getdi. Son nəfəsində yoldaşına dediyi sözlər dağları əridərdi: “Mən ölümdən qorxmuram, ancaq oğlum başsız qaldı”. Naxələf övlad! O, belə ata idi. Sənsə onun şəklini əlinə alıb...



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

İsgəndər qulaqlarını tutub bərkdən çığırdı: "Bəsdir, susun! Daha eşidə bilmirəm, kifayətdir. Onsuz da içəridən çəkdiyimi çəkirəm. Tutduğum iş heybətli, ecazkar bir kabus kimi addımbaaddım arxamca sürünür...".

O, atasının şəkli qabağında diz çökdü. Tənha otaqda onun gileyli baxışları ilə göz-gözə durdu. İçəridən qəhər onu boğduğundan dinə bilmirdi. Gözlərindən isə yaş axırdı, qeyri-ixtiyari, yanaqları ilə üzüaşağı...

– Ata! – nəhayət dilləndi. – Keç günahımdan. O gün şəklini əlimə aldığım dəqiqədə kaş məni ildırım vuraydı, o işi tutmayaydım...

Sözlər yumağa çevrilib, boğazını tıxadı.

Qapı arxasından nənəsi İsgəndərin içəridə kiminlə danışdığına təəccübləndi, tez içəri keçdi.

– A bala, sən burada kiminlə danışırsan? – dedi.

İsgəndər atasının şəkli qabağında diz çökmüşdü. O, qanrılıb baxanda, nənənin sinəsinə elə bil dağ çəkildi. İsgəndərin gözlərindən yaş süzülürdü.

– Sənə nə oldu, mənim təkcə balam? Nə üçün özünü bu günə qoydun? Qalx, qalx, bəsdir.

O, nəvəsinin qolundan tutub qaldırmaq istədi. Həyətdə kim isə çağırırdı:

– İsgəndər, İsgəndər!

İsgəndər Fərzəlinin səsini tanıdı. Tez qalxıb, gözlərini sildi, üzünə bir-iki ovuc su vurub, həyətə çıxdı.

– Ada, haradasan, bayaqdan hey çağırıram.

– Nə olubdur ki? – İsgəndər Fərzəlinin həyəcanlı olduğunu hiss etdi.

– Xəbərin var ki, Mirzəgil köçdülər?

– Necə yəni köçdülər?!

– Köçdülər də. Haraya köçdüklərini də heç kəs bilmir.

– Bəs bir nəfər soruşmayıb ki, haraya köçürsünüz?

– Həyətdə təkcə Vəfadarın anasıymış. Mirzədən soruşub, heç cavab verməkk istəməyib.

Nənəsi içəridən məhrəba gətirib, nəvəsinə verdi. İsgəndər üzünü qurulaya-qurulaya hələ də təəccüblə Fərzəliyə baxırdı:

– Axı nə üçün birdən-birə köçmək fikrinə düşdülər?

– Bilmirsən niyə? Rəziyyəni götürüb qaçıb.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

İsgəndər Fərzəlinin fikri ilə razılaşmadı:

– Yox, Fərzəli, bu deyil. Bəlkə, deyirəm, Qaraşın öz qızını axtarmasından xəbər tutub? Sən ona bu barədə bir şey deməmisən ki?

– *Heç nə deməmişəm.*

Bununla belə İsgəndər inanmırdı ki, qızı ona verməyin dərdindən belə təcili başqa yerə köçsünlər.

– Bəs indi Seyfi ilə Qaraş haradadırlar? – O, qol saatına baxdı. – Saat səkkizdə onlara getməli idiniz.

– Yəqin Seyfinin dükanında məni gözləyirlər.

– Onda gedək.

İsgəndər tez ayaqqabılarını geyib, Fərzəli ilə birlikdə çıxdı.

Pivə budkasının yanında qarpız satırdılar. İri Qroznı qarpızı idi. Fərzəli tez qarpızlardan ən irisini seçib çəkdirdi və qoltuğuna vurdu. Seyfinin yanına gəldilər, Qaraş Seyfinin yanında idi. Hər ikisi səliqə ilə geyinib Fərzəlini gözləyirdilər. Seyfi qarpızı görüb soruşdu:

– Bunu da aparırsan?

– Heç yana aparmıram. Onu yeməli olacayıq.

– Gedib gələrik, sonra yeyərik.

– Əlhəminizi zay eləməyin. – Fərzəli gülümsədi. – Keşiş qaçıb, *Əslini də özü ilə aparıb.*

İsgəndər Fərzəlinin atmacalarından əsəbiləşdi. Məsələnin nə yerdə olduğunu danışandan sonra onları öz evinə dəvət etdi. İstəyirdi ki, birlikdə oturub tədbir görsünlər. Fərzəli isə onları öz evlərinə çağırdı:

– Gedək, damda oturarıq. Qarpızı da yeyərik, söhbətimizi də elərik.

İsgəndər daha etiraz eləmədi. Fərzəligilin həyətində Vəfadarın uşaqları çığır-bağırla qaçdı-tutdu oynayırdılar. Fərzəli qonaqlarını dama çıxartdı. Özü də aşağıdan nimçə və bıçaq götürüb, dostlarının yanına qalxdı. Damda stol və yanında da dörd dənə alçaq kətil vardı. Damın kənarına bərkidilmiş dirəkdən lampa asılmışdı. İsgəndər başını buladı:

– Belə getsə, leysanda evdə otura bilməyəcəksən.

– Nə üçün? – *Fərzəli soruşdu.*

– "Nə üçün"ü yoxdur ki. Sən ki, damda belə dəsgah düzəltmisən, hökmən axacaq. Az qalıb ki, çarpayını da dama çıxarasan.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Fərzəli güldü. Qaraş aşağıda ovuc içi kimi görünən dənizə, onun sakit mavi sinəsinə, artıq işıqlarını yandırmağa başlayan gəmilərə baxıb, sinədolusu nəfəs aldı:

– Bura ki, əsl bulvardır. Təkcə ağacları çatışmır.

İsgəndər zarafatla dedi:

– Fərzəliyə nə var. İstəsən lap ağac da əkər.

Fərzəli isə öz işində idi. Stolun üstünə süfrə salıb nimçə düzmüşdü. Sonra da qarpızı iri mis məcməyinin ortasına qoyub bıçaq çəkdi. Qarpız şaqqıldadı.

– Hə! – deyə İsgəndərə müraciətlə dedi. – Sən qarpızı doğra, mən də düşüb ceyran südü gətirim.

– Yox, lazım deyil. – İsgəndər qoymadı. – Qarpızla araq tutmaz.

Qan kimi, şirin və şax qarpız dilimləri dişlərinin altında xırçıldayırdı. İsgəndər dostlarını arxayın salırdı ki, narahat olmasınlar, Rəziyyə, necə olsa, özü barədə xəbər verəcək. Ünvanları məlum olandan sonra təzə mənzillərinə gedərlər. Fərzəli də bu fikirdə idi. Rəziyyə onları nigaran qoymayacaqdı.

– Ancaq mən yenə o fikirdəyəm ki, Mirzənin qulağına söz çatdığı üçün qaçıb. Bəlkə də sizi, – o, Qaraşa müraciət etdi, – bu ətrafda görüb, ona görə də təcili köçüb. İnanmıram ki, ancaq mənə görə Rəziyyəni götürüb qaçıb.

– O da ola bilər. – Seyfi də onun sözlərinə qüvvət verdi. – Hər gün qapının ağzında idi. Ola bilməzdi ki, səni görməmiş olsun.

Küçədən eşidilən hənirtilər onların söhbətinə mane oldu.

– O nədir, küçədə bir nəfər lüt adam durub?!

Seyfinin bu sözündən sonra hamı damdan küçəyə boylandı. Doğrudan da Seyfinin dükanından azca aralı, dalanın ağzında bir nəfər çılpaq durub, nə isə gözləyirdi. Əynində təkcə qara trusı vardı. Camaat dövrəsinə toplanmışdı. Çox diqqətlə baxdılar. Alaqaranlıqda onun kim olduğunu heç kəs ayırd edə bilmədi.

– Kimdirsə, başına hava gəlib. Mən bu saat gəlirəm.

İsgəndər sürətlə damdan endi. Fərzəli başını buladı:

– Həya yox, abır yox. Gör arvad-uşağın qabağında necə də durub. Beləsini dar ağacından asmaq da azdır.

İsgəndərin çılpaq adama yaxınlaşdığını və onu güclə aparmaq istədiyini gördükdə Fərzəli:

– Gedək biz də, – dedi. – Qorxuram ki, İsgəndərin əlindən xata çıxar.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Hər üçü aşağı endi, Fərzəli yaxınlaşıb çılpaq adama baxanda gözlərinə inanmadı:

– Bu ki, Mirinin oğlu Şirzaddır, – deyə çığırdı. – Ada, belə niyə? Yoxsa, başına hava gəlib?

Toplaşanlardan biri istehza ilə onun sözünü kəsdi:

– Başına hava gəlsəydi yaxşı idi, qumarda uduzub. Uduzan gərək bir saat öz qapılarında çılpaq dursun.

– Belə de. Evini Allah tiksin... Belə şeydən də adam qumar oynar?

Şirzad iyirmi beş yaşlarında, ata və anasının yeganə övladı idi. Körpəlikdən əziz-xələf böyüsə də, çox çəlimsizdi. Evdə heç bir xahişi yerə düşməmişdi. Məhəllədə ən yaxşı geyinib-kecinəndi. Atası Miri Bayıl yolunda mağaza müdiri idi. Güzəranı yaxşı keçirdi. Şirzad axır illərdə məktəbi buraxmışdı, atası onu sallaqxanada işə düzəltmişdi. Cəmi iki ay işlədi. Elə o vaxtdan məhəllədə boş-boşuna veyllənir.

İsgəndər onu dalanın içərisinə çəkib, evlərinə aparmaq istəyirdisə də, oğlan ayaqlarını yerə dirəyib durduğu yerdən qopmaq bilmirdi. Fərzəli də İsgəndərin köməyinə çatdı. Şirzad isə ürəkkeçmə xəstəliyinə tutulmuş adamlar kimi, elə bil ikiqat, üçqat qüvvə alıb onların əlində çırpınırdı. Kimsə çığırdı:

– Atasına xəbər eləyin gəlsin də. Nə gözləyirsiniz?

Uşaqlardan birini Mirinin dalınca göndərdilər.

Miri gəlib oğlunu bu vəziyyətdə görəndə iki əlli başına vurdu.

– Bu nə haldır, görəcək günlərim varmış! – deyə adamları araladı və oğluna yaxınlaşaraq, onun qolundan yapışdı. Şirzad getmək istəmədi.

– Bir saat burada durmalıyam, getmirəm! – dedi.

Bu zaman onun üzünə vurulan şillə mis kimi səsləndi. Oğlan şillədən ikiqat oldu və itaətkarlıqla atasının qabağına düşüb evlərinə getdi.

İsgəndər onun dalınca baxaraq, köksünü ötürdü:

– Əclaflar görün bir nədən qumar oynayırlar! – dedi və üzünü toplaşmış adamlara çevirib soruşdu: – Bəlkə, biləniniz var, qumarı harada oynayıb?

– Harada olacaq, Çəp Mədətin evində, – deyə adamların içərisində kimsə səsləndi. – Ancaq ondan belə işlər çıxır.

Çəp Mədətin adını eşidən kimi İsgəndər damarlarında qanın qaynadığını hiss etdi, gicgahları şiddətlə vurdu, bədəninə sanki elektrik



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

cərəyanı buraxıldı. Onun Çəp Mədətlə köhnə haqq-hesabı vardı. Keçən il də eşitmişdi ki, o, qumar oynadıqları adamların qabağına dəhşətli şərtlər qoyur. Guya onunla qumar oynayan adam uduzarsa, qabağına çıxan ilk adamın qanını tökməlidir. Bunu eşitmişdi, ancaq belə hala hələ rast gəlməmişdi. Bu gün isə onun törətdiyi səhnənin şahidi oldu. Köhnə qisas hissi İsgəndərin qəlbini oynatdı: "Dayan, Mədət, daha mənim əlimdən qurtarmayacaqsan! – Öz-özünə pıçılda-dı. – Sən nə vaxtadək cavanları bu cinayət yoluna məcbur eyləyəcək-sən? İndi gözlə, gör, atamın intiqamını da səndən alacağam".

O, heç kəsə bir söz demədən Çəp Mədətin evinə tərəf yollan-dı. Fərzəli arxasınca çığırdı:

– İsgəndər, haraya?

İsgəndərdən cavab çıxmadı, Fərzəli bir də çığırdı:

– İsgəndər, səninləyəm, axı haraya gedirsən?

İsgəndər yenə cavab verməyəndə məhəllə uşaqlarından biri dedi:

– Görmürsən hara gedir? Mədətin evi o tərəfdədir də.

– Mədətin evinə? – Fərzəli həyəcanla çığırdı və ayağını çəkə-çəkə İsgəndərin dalınca yüyürdü. Yaxınlaşıb qolundan tutdu:

– Sən nə eləyirsən? Qayıt, baş qoşma!

İsgəndər qolunu güclə onun əlindən çıxardı:

– Mane olma, Fərzəli! – dedi.

– Sən əliboş, o isə Allah bilir, bıçaqla, beşbarmaqla. Qayıt, ağlı-nı başına yığ!

Qaraşla Seyfi də özlərini ona çatdırdılar. İsgəndər heç nəyə əhəmiyyət vermədən Mədətin evinə qalxan yoxuşu dırmaşırdı. Qaraş onun qabağına keçdi:

– İsgəndər, qayıt! Deyirlər o çox yırtıcı adamdır.

İsgəndər bir anlığa ayaq saxlayıb, Qaraşın həyəcanlı sifətinə baxdı:

– Sizə hörmətim var, atamın dostu kimi, əsgər, döyüşçü kimi. Ancaq xahiş eləyirəm, çəkilin yolumun üstündən. Mənim onunla çoxdan haqq-hesabım olmalıydı. Qurtarmalıyam. Siz isə qayıdın, çox xahiş eləyirəm.

– İndi ki, belədir, biz də səninlə gedəcəyik. – Fərzəli ərkyana qabağa keçdi.

– Yox, getməyəcəksiniz. Mən tək gedəcəyəm.

Fərzəli gördü ki, İsgəndər heç cür ipə-sapa yatmayacaq, əyilib Qaraşın qulağına pıçıldadı:



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Gedək sahə milisinə xəbər verək. Qoy köməyə gəlsinlər.

Onlar ayaq saxladılar. İsgəndər bir azdan yoxuşun başında gözdən itdi.

Mədət məhəllənin ən ucqar yerində yaşayırdı. Onun evindən o yana çöl idi. Axşamlar hava qaralan kimi buralarda səs-səmir kəsilirdi. Alçaq evlərin pəncərələrinə pərdələr salındığından bayıra qətiyyən işıq düşməzdi. Hər həyətdə iri bir köpək bağlanmışdı. İsgəndərin ayaq səslərinə həyətlərdə itlər hürüşürdü. Ən axırıncı evin həyət qapısında İsgəndər ayaq saxladı. Taxta çəpər arasına alınmış həyətin qapısı dəmirdəndi. Qapıda yontalanmamış taxtalardan, uzun, enli bir skamya düzəldilmişdi. İsgəndər qapını döymək istəyirdi ki, içəridən hənirti eşidildi və kimsə soruşdu:

– Kimdir?

– İsgəndər Çəp Mədəti səsindən tanıdı.

– Mənəm. İsgəndərdir.

Qapının cəftəsi qaldırıldı. Həyətdəki qoca köpək boğuq, xırıltılı səsi ilə hürməyə başladı. Mədət ona çımxıran kimi köpəyin səsi kəsildi. Dəmir qapılar cırıltı ilə açıldı. Mədət qaranlıqda güclə seçilən İsgəndəri görən kimi, kəmərinin altından pırtlayıb çıxan maykasının ətəklərini tez şalvarının içərisinə dürtdü.

– İsgəndər? – Təəccüblə səsləndi. – Səndən nə əcəb? Gəl, gəl içəri!

Mədət onunla danışsa da, gözü tamamilə başqa səmtə baxırdı.

– Yox, içəri girməyəcəyəm.

– Nə üçün? İçəridə iki-üç nəfər məhəllə uşağı da var.

– Yox, elə burada danışarıq.

Mədət özünü skamyanın üstünə yaydı:

– Elədə, buyur, görək nə deyirsən?!

Mədət özünü təmkinli göstərsə də, İsgəndərin canavar gözləri kimi qızmış gözlərindən içərisində bir rəşə duydu. Və başa düşdü ki, ehtiyat etdiyi bu adam onun yanına xeyirliyə gəlməmişdir. Mədətin çuxura düşmüş çəp gözü, maykasının yaxasından pırtlayan kürən tükləri İsgəndərdə elə bir ikrah doğurdu ki, dişlərini qıcamağa məcbur oldu. İsgəndərin gözlərini ona zilləyərək susmasından Mədət daha da vahiməyə düşdü:

– Gəlmisən, bəs niyə susursan? Yoxsa ödünü udmusan? – Səsi xırıldadığından, boğazını arıtdı.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Səndən ancaq dovşanın ödü dağılar.

– Yaxşı eşitmədim, bir də de görüm. – O, yerindən qalxmaq istədikdə, İsgəndər qabağa yeridi:

– Qulaqlarını yaxşı açsan, eşidərsən. De görüm camaatın uşaqlarını nə vaxtadək belə günə salacaqsan?!

– Yaxın gəlmə, qarnını yırtaram! – deyə Mədət əlini cibinə apardı. İsgəndər hər ehtimala qarşı hazır olsa da, Mədətin cibində bıçaq olmadığını başa düşmüşdü. Buna görə də daha ürəklə onun üstünə yeridi. Mədət oturduğu yerdə geri çəkildi. Deməк, İsgəndər yanılmamışdı. Yanında silah olan adam heç cür belə həsləməz. Bununla belə Mədət yenə çığırdı:

– Yaxın gəlmə, deyirəm!

İsgəndər Mədətin nə üçün bərkdən çığırdığını başa düşürdü. O istəyirdi ki, içəridə başları qumara qarışmış adamlar onun harayına çatsınlar.

– Çığırmaq əvəzinə mənim sualıma cavab ver! – İsgəndər səsini ucaltdı. – De görüm Mirinin oğlunu niyə o günə salmısan? Nə vaxtadək bu oyundan əl çəkməyəcəksən, biqeyrət oğlu, biqeyrət?!

Təhqirə dözə bilməyən Mədət bu dəfə yerindən qalxıb İsgəndərin üstünə atılmaq istədi. İsgəndər yumruğunu onun çənəsinin altına elə ilişdirdi ki, Mədət müvazinətini itirib skamyanın üstünə sərildi. Mədət İsgəndərin məhəllədə şöhrət tapmış yumruğunun dadını ilk dəfə hiss edirdi. İsgəndər gözlədi. Mədət ayağa qalxmaq istərkən onun başının üstünü aldı. Mədət bundan qorxuya düşdü:

– Ancaq namərdlər əliboş adamın üstünə belə gələrlər! – O, uzandığı yerdə aşağıdan-yuxarı İsgəndərə baxdı:

– Nahaq elə güman eləyirsən. – İsgəndər hər iki cibini çevirib astarını göstərdi. – Onu ancaq sənin kimi rəzillər eləyərlər. İndi sualıma cavab ver: o uşağı niyə o günə qoymusan?!

İsgəndərin silahsız olmasından ürəklənən Mədət səsini yenə qaldırdı:

– O öz işimizdir! – dedi. – Başqasına dəxli yoxdur!

– Dəxli çoxdur, biqeyrət oğlu, biqeyrət!

İsgəndər yenə Mədətin üstünə hücum çəkdi. Hələ ilk yumruqdan özünə gələ bilməyən Mədət ikinci yumruğu yedi.

– Biqeyrətsən! Bunu mən sənə deyirəm. Biqeyrət olmasan, o cavan oğlanı o günə qoymazdın. Küçənin ortasında lüt durub gözləyir. Arvad-uşağın arasında.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Hənirti səsi gəldi. İsgəndər bir anlığa qulaq verib hənirtinin haradan gəldiyini öyrənmək istədi. Bundan istifadə edən Mədət onun üstünə atılıb, yerə yıxdı. İsgəndər özünü itirmədi. Mədəti çiyni üstündən aşıraraq, arxası üstə yerə vurdu. Çılpaq qollarından tutub silkələdi.

– Deyirəm, qulağında sırğa olsun! Bir də məhəllə uşaqlarını o günə salsan, özünü ölmüş bil!

Mədət bütün qüvvəsini toplayıb, ayağı ilə İsgəndərin sinəsindən vurdu, İsgəndər özünü saxlaya bilməyib, arxası üstə yıxıldı. Mədət tez onun başının üstünü aldı. Ayağını sinəsinin üstünə qoydu. İsgəndər altdan-yuxarı onun gicgahına necə ilişdirdisə, Mədət arxaya, onun ayaqları üstünə yıxıldı. İsgəndər fövri sıçrayıb onun *sinəsinə qondu. Sonra qolundan yapışıb ayağa qaldırdı.*

– Hə, dur. Yadındadır ki, mənə deyirdin guya atam almanların gündəymәzini öpür? – deyə İsgəndərin gözləri alacalandı. – O zaman öz payımı vermişdim. İndi isə al, atamın da payını verirəm.

O yenə yumruğunu işə saldı. Mədət iki metr aralıqda yerə sərildi.

Yenə bir gözü elə qapıda idi. Ancaq içəridən nə bir çıxan vardı, nə də haraya gələn. Görünür ki, başları qumara bərk qızışmışdı. Hənirtilər isə artırdı. Ancaq bu hənirtilər Mədətin gözlədiyi kimi həyətdən deyil, aşağıdakı evlərin arasından gəlirdi.

– Sən ancaq bir parça iti dəmir qəhrəmanısan, əclaf! Başını it başı kimi əzərdim, heyif ki, adam öldürmək mənim qanunumda yoxdur.

Hənirtilər daha da yaxınlaşdı. Bir azdan qabaqdakı evin böyründə iki milis işçisi göründü. Onlardan biri sahə milisi idi. Dallarınca da Qaraş, Seyfi və Fərzəli gəldi. Milislər yaxınlaşıb Mədəti qaldırmaq istədikdə, İsgəndər dedi:

– İçəridə qızğın oyun gedir. Oraya gedin. Bu isə heç yerə tərpənə bilməyəcək.

Fərzəli İsgəndəri sağ-salamat görüb dərindən köks ötürdü:

– Vallah, sən şir ürəyi yeyibsən ki, boş əllə buralara gəlib çıxıbsan.

Hələ də yerə sərilmiş olan Mədət döyüküb qalmışdı.

– Yaxşı, dur ayağa, – *deyə İsgəndər onun üstünə çımxırdı.* – Bəsdir yer ölçdün!

Bir azdan milislərdən biri bayıra çıxdı və Mədəti qabağına salıb içəri apardı.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Akt bağlamalıyıq. – Sonra Qaraşgilə müraciətlə sözünə davam etdi: – Siz də buyurun içəri.

İçəridə üç nəfəri qumar oynayan yerdə haqlamışdılar. Onlardan biri alt tuman-köynəyində idi. Kostyumunu, şalvarını və üst köynəyini uduzmuşdu.

Bir saatdan sonra məhəllənin dar döngələri ilə iki milis işçisi, qabaqlarında da dörd nəfər dustaq, üzüaşağı enirdilər.

## 18

Rəziyyə, atası evdə olduğu vaxtlarda, otağının qapısını həmişə içəri tərəfdən bağlardı. Onun yerli-yersiz içəri girib-çıxması qızı axır vaxtlar çox karıxdırmışdı. Bu gün də o dərslərinə hazırlaşarkən qapı döyüldü, atasının səsini eşitdi:

– Rəziyyə, aç, mənəm. Sözüm var.

Qız qapını açmağa məcbur oldu. Mirzə içəri girdi. Otaqda bir xeyli var-gəl eləyəndən sonra qızına yaxınlaşıb, onun çiyni üstündən dəftərlərinə, kitablarına baxdı. Elə bil ki, onun nə işlə məşğul olduğunu yoxlamağa gəlmişdi. Sonra, yenə çəkilib, otaqda gəzişdi. Rəziyyə onun sözlü adama oxşadığını hiss edirdi. Nəhayət dilləndi:

– Eşitdim ki, yataqxanaya köçmək istəyirsən?

Rəziyyə bu sözdən diksinib başını qaldırdı. Atası istehza ilə ona baxıb, gülümsəyirdi. O, bunu haradan öyrənib? Rəziyyənin qaşları çatıldı. Yox, bunu o, heç kimdən öyrənə bilməzdi. Yəqin ki, ondan söz almaq istəyir. Buna görə də qətiyyətlə səsləndi:

– Bunu kimsə uydurub.

Mirzə yenə xısın-xısın gülümsədi:

– Bəlkə, başqası sənin yerinə ərizə yazıb?

O, əlini özbək xalatının dərin cibinə salaraq oradan ikiqat bir kağız çıxardı. Rəziyyənin yadına düşdü ki, texnikumun müdirinə yataqxana barədə yazdığı ərizənin qaralaması yadından çıxıb cibində qalmışdır. “Bəs necə olub ki, o atamın əlinə düşüb?!”

– Demək, siz mənim ciblərimi də axtarırsınız? – Rəziyyə çığırdı və qəzəbindən qəhərləndi. – Gedin, xahiş edirəm ki, gedin!

Mirzə isə yerindən tərpənmədi, irişə-irişə durdu. Onun papirosdan saralmış iri qabaq dişləri bu dəqiqə Rəziyyəyə yırtıcı vəhşi



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

bir heyvanın dişlərini xatırlatdı. Mirzə yenə iri addımlarla otaqda gəzişdi və sonra pəncərəyə yaxınlaşaraq, arxasını divara dayadı.

– Onu bil ki, sən bu evdən heç yana getməyəcəksən! Nə yataqxanaya, nə də o xuliqanın evinə! – Mirzə səsini ucaltdı. – Sən mənimsən və mənim yanımda da qalacaqsan! Bunu birdəfəlik bil. Səni mən böyütmüşəm və mənim də olacaqsan!

Onun sözlərindən Rəziyyənin bədəni lərzəyə gəldi. Tükləri ürpəşdi. Gicgahları döyündü, başında dəhşətli bir uğultu qopdu.

– Utanın bir! – dedi. – Görün ata öz qızı barədə nə düşünür?

Mirzə əsl iblis kimi iyrənc qəhqəhə ilə güldü:

– "Qızım!" "Qızım!.." Onu da bil ki, sən mənim qızım deyilsən... Eşitdin ki, mənim qızım deyilsən?.. İndi nə deyirsən?

Rəziyyənin gözləri bərələ qaldı. Otaq, ətrafındakı bütün şeylər bir an içində Mirzə qarışıq hərlənməyə, burulmağa, qaynayıb-qarışmağa başladı. Elə bil ki, burulğana düşmüşdü. İşıqlı otaq gözlərində birdən-birə qaranlıq, zülmət, soyuq bir boşluğa çevrildi. Bu boşluqda yalnız bir söz eşidildi: "Mən sənin atan deyiləm. Mən sənin atan deyiləm!" Bu sözlər dəhşətlə əks-səda verir, qulaqlarında vahiməli bir gurultu ilə təkrar olunurdu: "Mən sənin atan deyiləm...". Demək, o neçə illərdi ki, yad bir adamla bir damın altında yaşayır. Onu özünə ata bilib, məhrəm sanıb. Dəhşət!

O, hələ də pəncərənin qabağında durub, sırtıq və həyasızlıqla ona baxaraq irişən Mirzənin iyrənc sifətini gördükdə var gücü ilə çığırdı:

– Çıxın! Bu saat çıxın! Yoxsa pəncərəni açıb, küçəyə çığıraram!

Mirzə qızın belə çığırtısından qorxuya düşdü. Onun gözəl, mehriban gözləri, sanki qan çanağına dönmüşdü. Əgər tezliklə buradan çıxmasaydı, onun səsinə nəinki küçədən ötənlər, ev sahibi qarı da indicə haraya gələ bilərdi. Buna görə söhbətinin gerisini, daha sakit bir vəziyyətdə davam etdirmək məqsədilə sonraya saxlayıb, otaqdan çıxdı. O, çıxan kimi Rəziyyə yerindən sıçrayıb qapını açarla bağladı. Sonra da üzüüstə çarpayısına yıxıldı. Onun boğuq hıçqırtıları otağı doldurdu. Azca qabaq eşitdiklərini xatırlamağa da qorxurdu. Bu ona yuxu kimi gəlirdi. On səkkiz ilə qədər tamamilə yad bir adamı özünə ata bilmişdi, onu özünə məhrəm saymışdı. Bunu düşünərkən başından alov qalxır, özünü yanan, şölələnən bir ocağın içində hiss edirdi. Eşitdiyi sözlərin dəhşətindən beyni də elə bil korşalmışdı, heç bir rəzalət onun düşdüyü vəziyyət qədər iyrənc



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

*və dəhşətli ola bilməzdi... Yox, yox, yox! O, yaxasını dartışdırdı.* "Yaşamamaq daha yaxşıdır. Başqaları mənim faciəmdən xəbərsiz olsalar da, mən öz vicdanımın qarşısında xəcil oluram... "O, "Qız qalası" barəsindəki əfsanəni xatırladı. O zavallı qızın taleyi ilə onun taleyi necə də oxşardı. Rəziyyə də özünü köpüklü ləpələrin üstünə atır. Paltarları qu lələkləri kimi pərvazlanır. Dənizin uğultusunu, ləpələrin qəzəblə qala divarlarına çırpıldığını eşidir. Demək, indicə qaya parçası kimi dənizin dibinə çökəcək, ürəyinin bütün arzuları ilə birlikdə boğulacaq, məhv olacaqdı. Bu nədir, o suya çatmamış, küləkdən yellənən paltarları əsl quş qanadlarına çevrilib, onu havada saxlayır? Ayaqları suya toxunsa da, özü havadan asılı qalmışdır. Bu zaman sudan bir yunis balığının çıxdığını gördü. Balıq ağzını bir neçə dəfə açıb-örtdü. Deyəsən danışırdı. Ləpələrin gurultusu ara verdikdə yunis balığının dediyi bu sözləri eşitdi: "Sən nə səfeh qızsan. Xan qızının çarəsi yoxdu. Sən nə üçün belə eləyirsən? Sənin ki, dostların var. Dərdini onlara danışsan köməyinə çatarlar. Bunlar bir tərəfə, səni həsrətlə gözləyən İsgəndər var. Səməndər quşu kimi özünün bir tükünü yandırsan köməyinə çatar. Yandır, yandır, niyə dayanmısan? Qoy dadına çatsın!"

Rəziyyə gözlərini açdı. Qaranlıq otaqda hər şey onu tərk edib çəkilmişdi: dəniz də, yunis balığı da. Ləpələrin uğultusu isə hələ də qulaqlarında idi. Divarın o tərəfində qonşunun saatı gecə on ikini vurdu. *Pəncərənin qabağında neçə saat qabaq Mirzənin dediyi* sözlər təzədən qulağında səs saldı: "Mən sənin atan deyiləm!" "Bəlkə, yalandan deyir? – Rəziyyəni qəribə bir hiss bürüdü. – Camaatın tənəsindən qorxduğu üçün, bəlkə, belə deyir? Bəs mənim anam hanı?.. O nə üçün anamın şəklini mənə göstərməkdən boyun qaçırır? Hər dəfə bir bəhanə tapır. Bəlkə, anamı öldürmüşdür! Kimə deyim dərdimi? Kimə ürəyimi boşaldım ki, sonra xəcalət çəkməyim? Əgər mənim vəziyyətimdən xəbər tutsalar, dillərdə dastan olacağam. Hamı şəhərdə barmağı ilə məni göstərib deyəcək: baxın, atası aşiq olan qız budur... Ana! İndi sən hardasan? Heç olmasa bir saatlığa gəlib, qızının halına tamaşa edəydin. Xoşbəxtsən, ana, uzaqdasan, bunları görmürsən..."

Sübhədək daha gözünə yuxu getmədi. Divarın o tərəfində qonşunun saatı ikini vurdu, üçü, dördü...

Hava bozaranda Mirzə qapını tıqqıldatdı:



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Rəziyyə, mən işə gedirəm. Səfeh olma. Ağlını başına yığ.

Mirzənin ayaq səsləri dəhlizdə uzaqlaşaraq kəsildi. Sonra küçə qapısı bərkdən çırpıldı.

Pəncərənin pərdəsi dalından günəşin şüaları otağa yayılmağa başladı. Rəziyyəyə yubanmaq olmazdı. O, qalxıb ən vacib paltarlarını çamadana yığdı, tələsik evdən çıxdı. O, yataqxanaya gedə bilməzdi. Mirzə onu tapa bilərdi.

## 19

Vəfadarın uşaqları bir ağızdan çığırışdılar:

– Rəziyyə xala gəldi! Rəziyyə xala gəldi...

Səsə Xatınbacı həyətə çıxdı. Rəziyyə doğrudan da, əlində çamadan, Fərzəligilin qapısında durmuşdu.

– Qızım, sənsən? Qayıtdınız? – Xatınbacı sevincək ona yaxınlaşdı.

Rəziyyə başını buladı.

– Bəs belə xeyir ola?

– Rübabə xala ilə işim var. Görəsən, evdədir?

– Deyəsən, evdədir. Qapını döy, açsın. İşə günortadan sonra gedəcək.

Rəziyyə aynabəndin şüşəsini taqqıldatdı. Bir azdan Rübabə içəridə aynabəndin pərdəsini aralayıb həyətə çıxdı. Əvvəlcə gördüyünə inanmadı, gözlərini döyüb başını şüşəyə yapışdıraraq təzədən baxdı. Gələn adamın Rəziyyə olduğunu yəqin elədikdən sonra tez xalatını çiyninə ataraq, qapını açdı və Rəziyyəni içəri çağırdı. Qızın əlindəki iri çamadan onu heyrətə saldı.

– Bu nədir, ay qız?

Rəziyyə yaz buludu kimi dolub dayanmışdı. Bir sözə bənd idi. Başını Rübabənin sinəsinə dayayıb hönkürtü ilə ağladı.

– Yaxşı, sakit ol, Rəziyyə, əvvəlcə keç əyləş.

Rübabə çamadanı onun əlindən alıb, otağın bir küncünə qoydu, sonra Rəziyyənin qolundan tutaraq, onu divana əyləşdirdi. Qız hələ də içini çəkərək ağlayırdı.

– Siz evdə olmasaydınız, heç bilmirəm, nə edəcəkdim...

– Yaxşı, yaxşı, darıxma. Sən gəlməsəydin İsgəndərlə Fərzəli sabahdan səni axtaracaqdılar.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Qız bir azdan sakitləşdi və evdən çıxmasının səbəbini içəridən göynəyə-göynəyə Rübabəyə danışdı. Rübabənin həmişə gülər üzü qəzəblə gərilmişdi. Ancaq bununla belə, tez-tez Rəziyyəyə təsəlli verir və evdən çıxmasına bəraət qazandırırdı.

– Yataqxanaya da gedə bilməzdim. Haradansa bilib ki, yataqxanaya getmək istəyirəm. Gəlib orada məni tapardı.

– Yaxşı eləmisən getməmisən. Qalarsan bizdə.

Bir azdan Fərzəli gəldi. Rəziyyəni evlərində görüb təəccüblənmək əvəzinə, uşaq kimi sevindi. Çünki həyətə girəndə Qaraşı Seyfinin yanında görmüşdü. Onu öz evlərində Rəziyyə ilə arxayınlıqla tanış edə bilərdi. Rübabə Fərzəlini tələsdirdi. Göndərdi ki, tez İsgəndəri tapıb gətirsin.

– O da bu gün ikinci növbədə işləyir. Deyinən tez gəlsin.

Fərzəli əvvəlcə Seyfinin dükanında Qaraşa şad xəbər verib onu sevindirdi və tapşırdı ki, İsgəndəri tapandan sonra birlikdə evlərinə gedərlər.

Fərzəli gedəndən sonra Rübabə qızı güclə də olsa yedirtdi. Zavallının rəng-ruyuna baxmaq olmurdu. Elə bil neçə ilin xəstəsi idi. Sonra öz-özünü məzəmmətlədi:

– Biz də qonşuyuq da. Gör sənə necə əziyyətlər verib, heç birimizin xəbəri olmayıb. Gərək elə burada olanda ucundan-qulağından İsgəndərə danışaydın. Ona bir od tutardı ki, ömürlük yadından çıxmazdı.

Həyətdə kişilərin hənirtisi eşidiləndə Rəziyyə qalxıb, o biri otağa keçmək istədi. Rübabə qoymadı.

– Otur, otur. Utanmaq lazım deyil. Qoy gəlsinlər, bir tədbir tökərlər.

Fərzəli, dalınca İsgəndər, onlardan sonra isə Rübabənin tanımadığı Qaraş içəri girdi. Rübabə duruxdu. Fərzəli tez Qaraşı arvadına təqdim elədi:

– Rübabə, Qaraş qardaşdır. Yadına gəlir, onun barəsində sənə demişdim.

Rübabə Qaraşı tanıdı. O gün qapı ağzında ondan Rəziyyəni xəbər alan kişi idi. Və indi buraya nə üçün gəldiyini də başa düşdü, tez onlara yer göstərdi. Qaraş üçün hətta içəri otaqdan təzə, yumşaq stul gətirdi.

Rəziyyə İsgəndəri görən kimi qızarıb başını aşağı dikdi. Rübabə onun evdən çıxdığını xəbər verəndə İsgəndərin uçmağa təkcə



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

qanadı çatmadı. Qaraş da neçə gündən bəri keçirdiyi həyəcanlara son qoymaq üçün əlverişli imkan düşdüyünə sevindi. O, gözlərini qızdan çəkmirdi. On səkkiz il əvvəlki iki yaşlı yeganə körpəsini gözlərinin qabağına gətirdi və onun yadında qalan əlamətlərini indi qarşısında oturaraq başını yuxarı qaldırmağa belə çəkinən bu gənc qızın gözəl çöhrəsində axtarmağa başladı. Qızı Yeganənin saçları o zaman qara idi. Rəziyyənin saçları isə tünd şabalıd rənginə çalırdı. Körpənin çənəsi də Rəziyyənin çənəsi kimi belə sivri deyildi. Gözlərini isə müqayisə eləyə bilmədi. Nə qədər çalışdısa, körpənin gözlərinin rəngini yadına sala bilmədi. Yox, bu əlamətlərlə o, heç bir şey müəyyən edə bilməyəcəkdi. Ümidi təkcə körpə Yeganənin belindəki iri qara xala qalmışdı. Bunu da ancaq qadınlar aşkara çıxara bilərdilər.

Rübabə Rəziyyənin, xüsusilə, heç tanımadığı Qaraşdan daha çox çəkindiyini hiss edib, dedi:

– Rəziyyə, Qaraş qardaşdan çəkinmə. Onun da bir qızı olub. Sonralar itirib. İndi onu axtarır. İstəyir ki, səndən bəzi şeylər öyrənsin.

Rübabə bayaqdan Rəziyyə ilə Qaraş arasında ümumi oxşar cizgilər axtarmağa çalışırdı. Özünün qısa müşahidəsindən sonra belə qərara gəldi ki, Qaraşla Rəziyyənin üzlərini örtərək, çox çətin ki, onları bir-birindən ayırd etmək mümkün olsun: eyni mehriban baxışlar, eyni tərzdə qıyılan gözlər!

Rübabə Qaraşa müraciətlə dedi:

– Hə, Qaraş qardaş, nə soruşmaq, nə öyrənmək istəyirdinizsə, buyurun. Mən də sizə çay süzüb gətirim.

O, aynabənddən nazik arakəsmə ilə ayrılmış mətbəxə keçdi.

Heykəl kimi quruyub qalmış Qaraş gözlərini hələ də Rəziyyədən ayırmadan ümidlərinin puça çıxmasından məyusluğa qapılmış adamlar kimi çox həvəssiz bir halda və elə bil öz-özünə danışırmış kimi sözə başladı:

– Əgər Mirzə Rza öz bacısı qızını da körpəlikdən götürüb saxlamasaydı, qəti deyərdim ki, Rəziyyə, mənim qızım Yeganədir. Bacısı qızının adı yadımdadır ki, Rəziyyə idi. Cəbhəyə gedəndən altı ay sonra Mirzədən kağız aldım ki, Yeganə ölmüşdür. Guya skarlatinadan ölüb. Ancaq bu günlərdə uzaq qohumlardan birindən məktub aldım. O mənə xəbər verirdi ki, ölən Yeganə deyil, Rəziyyədir. Mən də onun sözü ilə yığışıb gəldim. Bakıya çatandan sonra öyrəndim ki, kişi rəhmətə gedib.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Bu sözləri eşidəndə Rəziyyə həyəcanından əsməyə başladı. İndiyəcən özünə ata bildiyi Mirzənin dediyi dəhşətli sözlər yenə qulaqlarında cingildədi: "Mən sənin atan deyiləm, mən sənin atan deyiləm". Qız dillənmək istədi. Ancaq yenə həyasına sığınıb susdu. İsgəndər isə odlu nəzərlərini ondan çəkmirdi.

– Məni qınayan olar ki, nə üçün müharibə qurtaran kimi Bakıya qayıtmadım, – deyə Qaraş sözünə davam etdi. – Bacarmadım. Çünki qayıtsaydım, hər şey mənə arvadım Xədicənin, körpə balam Yeganənin ölümünü xatırladacaqdı. Xədicə öləndən sonra evim dağıldı. Onda Yeganə iki yaşında idi. Çox keçmədi ki, müharibə başladı. Orduya çağırıldım. Yeganəni körpələr evinə vermək istədim. Mirzə o zaman qonşum idi, razı olmadı. Dedi ki, ver mən saxlaram. Bacım qızı Rəziyyə ilə birlikdə oynarlar. Bacım da kömək edər. Razı oldum. Xədicədən qalan şey-şüyü, evin bütün müxəlləfatını satıb, yarısını Mirzəyə verdim, yarısını da Yeganənin adına əmanət kassasına qoydum və kitabçanı da Mirzəyə verdim ki, birdən sağ qayıtmasam, böyüyəndə Yeganəyə versin.

Rübabə çay gətirdi. Rəziyyənin xəyalında hər şey burulub açılır, fikirləri gah qaynayıb-qarışır, gah da durulurdu. Elə bil ki, yuxuda gördüyü əhvalatlar, çoxdan onu tərk etmiş hadisələr tədriclə yadına düşür, aydınlaşırdı. Ancaq bir şeyi özünə müəyyənləşdirə bilmirdi, bunları yuxuda görmüşdü, ya da doğrudan baş vermiş hadisələrdi. Mirzə ilə onun arasında baş vermiş hadisə isə yuxu deyildi. Özünü saxlaya bilmədi:

– Dünən mənə dedi ki, "mən sənin atan deyiləm".

– Bu, ola bilməz. Bu sözü o sənə heç cür deyə bilməz. – Qaraş heyrətlə qıza baxdı. – Çünki onun xeyrinə deyil. Əgər deyibsə, görəsən nə məqsədi var?

Rəziyyə dinmədi. Rübabə Qaraşa tərəf əyilib, yavaşdan pıçıldadı:

– Sonra mən sizə danışaram, onda bilərsiniz o, nə üçün belə deyib.

Fərzəli də söhbətə qarışdı, arvadını bir kənara çəkib, Qaraşın xahişini ona yetirdi. Rübabə başını Qaraşa tərəf əydi və bununla onun xahişinə əməl edəcəyini bildirdi.

– Siz çayınızı için, biz də bu dəqiqə qayıdırıq.

Rübabə Rəziyyənin qolundan tutub, o biri otağa apardı.

Qaraş üçün yenə ağır dəqiqələr başladı. İndi onun son ümidi o otağa idi. Əgər bu da puça çıxardısa, bütün əziyyət və iztirabları



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

heçə gedəcək, uzun illər çəkdiyi övlad həsrəti ömürlük ürəyində nisgil qalacaqdı. O otaqdan eşidilən kiçik bir xışıltı belə ürəyini yerindən oynadırdı. Dəqiqələr isə uzanırdı. İntizarın üzüntülü acısını belə daddığı heç olmamışdı. Görəsən, orada niyə ləngiyirlər? Niyə hər dəqiqə bir il qədər belə uzanır? Halbuki, Rübabə xanım onun xahişini bir dəqiqəyə yerinə yetirə bilərdi. Budur, ara qapı cırıltı ilə açıldı. Rübabə xanım astanada göründü, üzü gülürdü. O, başı ilə Qaraşa tərəf işarə edərək, ehtimalının doğruluğunu bildirərkən, işıqlı otaq bir göz qırpımında dibsiz, zülmət bir boşluğa çevrildi. Elə bil ki, göyün yeddinci qatından qoparaq bu dibsiz qaranlığa yuvarlandı. Oturduğu stuldan arxası üstə yerə sərildi.

Hamı vahiməyə düşdü. İsgəndər tez ona tərəf cumaraq, başını yerdən qaldırdı. Qaraşın gözləri süzülmüş, rəngi bir anın içərisində divarın əhəngi kimi ağarmışdı. Rübabə səsləndi:

– Qorxmayın, heç bir şey yoxdur. Ürəyi keçib. Tez su verin.

O, Qaraşın köynəyinin düymələrini açdı, sinəsini yelləməyə başladı. Sonra üzünə sərin su çilədilər. Aynabənddə baş verən hadisədən xəbər tutan kimi Rəziyyə o biri otaqdan özünü içəri atdı və Qaraşın üstünə yıxıldı.

– Ata! – deyə ürək parçalayan bir səslə çığırdı.

Rübabə onu huşsuz halda atasının üstündən qaldırdı.

– Qorxma, Rəziyyə huşunu itirib, bu saat özünə gələr.

İsgəndər çağırdı:

– Fərzəli, pəncərələri aç! Qoy içəri hava gəlsin.

Pəncərələr açıldı. Qaraş haçandan-haçana özünə gəlib gözlərini ətrafına toplaşmış adamların üzündə gəzdirdi. Rəziyyə əyilib atasını qucaqladı:

– Ata!

Qaraş taqətsiz halda yanına düşmüş qollarını güc-bəla ilə qızının boynuna doladı:

– Qızım, Yeganə...

Göz yaşları qeyri-ixtiyari yanaqları ilə süzülürdü. Köməkləşib onu yerdən qaldırdılar. Divanın üstündə uzatmaq istəyirdilər, razı olmadı.

– Yox. İndi yaxşıyam. Stulda oturacağam.

Hamı susmuşdu. Qızı atasının dizlərini qucaqlayıb oturmuşdu. Qaraş onun saçlarını tumarlayaraq dedi:



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Ağlama, qızım. Sevin ki, axır səni tapdım. Ancaq bilmirəm, Mirzə nə üçün adını dəyişib Rəziyyə qoymuşdur.

Rəziyyə dinə bilmirdi. Qəhərdən boğulurdu. Gözlərini qaldırıb Qaraşın yaşlı gözlərində elə bil ki, itirilmiş ata məhəbbətini axtarır, gec də olsa, onun odu ilə isinməyə çalışırdı. O, üzünü görmədiyi anasının məhəbbətini də bu məhzun baxışlarda tapacaqdı.

Qaraş qızının başını sinəsinə sıxaraq, saçlarını tumarlayır, yanaqları ilə qeyri-ixtiyari süzülən göz yaşları ilə onu isladırdı.

– Düz on altı ildir ki, ananın xəyalı məni təqib edir: "Sənə bir körpə tapşırmışdım, – deyir, – onu da saxlaya bilmədin. Hardadır, mənim balam, hardadır? Onu tapıb qəbrimin üstünə gətirməsən, səni rahat buraxmayacağam..."

Otaqdakılar ata ilə qızının görüşünə ürəkağrısı ilə tamaşa edirdilər. Rübabənin də gözləri yaşarmışdı.

Rəziyyənin də xəyalında getdikcə hər şey duruldu. Unutduğu çox şeylər tədriclə yadına düşdü. Xatırladı ki, o vaxtlar Mirzənin sənədləri arasında iki yaş kağızı görmüşdü. Sonralar Mirzə həmin bu yaş kağızları ilə iki pasport da çıxartmışdı. Bu pasportlardan biri Yeganə Qaraş qızının adına idi. Ancaq başqa adamın adına olan pasporta, Rəziyyənin şəkli yapışdırılmışdı. Yadına gəlir ki, Mirzədən soruşmuşdu:

– Ata, bu nədir, başqa qızın adına pasportda mənim şəklim var?

Qız Mirzənin əvvəlcə karıxıb özünü itirdiyini hiss etmişdi. Sonra o izah etmişdi ki, bütün pullarını, o böyük qızı Yeganənin adına qoymuşdur. İndi pullar batmasın deyə, Yeganənin pasportuna onun şəklini yapışdırıb ki, əmanət kassasına gedib, pulları Rəziyyənin adına köçürsün. Düzdür, atasının cavabı onun üçün dumanlı qalmışdı, ancaq bunu daha üzə vurmamışdı. Bir neçə gündən sonra Mirzə Rəziyyəni özü ilə əmanət kassasına aparmış və Yeganənin adına olan pulları guya Rəziyyənin adına köçürtmüşdü. Sonralar Yeganənin adına olan pasport yerli-dibli yoxa çıxmışdı. Bir dəfə də onlar əmanət kassasına getmişdilər. Bu dəfə Rəziyyənin pasportu ilə onun adına olan pulları Mirzə öz adına köçürtmüşdü. İndi Rəziyyə belə fikirdə idi ki, Yeganənin adına olan pasport itməyib. Mirzə harada isə onu gizli saxlayır...

Yadında qalan bu hadisələri otaqdakılara danışdı. Rübabə qızın sözlərini təsdiq edərək dedi:



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Sən onu düz deyirsən ki, Yeganənin adına olan pasport itməyib. Mirzə onu yəqin ki, öz pis əməlləri üçün gizlində saxlayır. – *O, üzünü Qaraşa tərəf tutub, sözünə davam etdi.* – *Mən sizə deyirəm ki, bu pasport onun nəyinə lazımdır. Bu pasport onda olduğu üçün Rəziyyəyə deyib ki, mən sənin atan deyiləm.

Rübabənin eyhamla dediyi sözlər, deyəsən, Qaraşa çatdı və dişlərini qıcaraq, Mirzənin qarasınca söyləndi:

– Rəzil!

Rübabənin eyhamı və indi Qaraşın qəzəblə dediyi bu sözün mənası təkcə İsgəndərə çatmadı. Çünki o, heç ağlına da gətirə bilməzdi ki, belə şey ola bilər. Bilsəydi, bəlkə də ömründə ilk dəfə insan qanı axıdardı.

Qaraşın qaşları çatıldı. Gözləri qayğılı bir ifadə aldı:

– Görürəm ki, biz çox qorxulu bir adamla rastlaşacağıq. Buna görə hər şeyi qanunla görməliyik. Mirzə Yeganənin yerini öyrənənədək *biz zaqsdan Yeganənin doğum şəhadətnaməsinin surətini* çıxarıb, ona təzə pasport almalıyıq. Sonra... – O, üzünü İsgəndərlə Yeganəyə tutub, fərəhlə sözünə davam etdi. – Sonra isə siz zaqsa getməlisiniz. Mən hər şeyi bilirəm, gizlətməyin mənası yoxdur. Əgər razı deyilsinizsə, bunu eləməyək.

Nə Yeganədən, nə də İsgəndərdən səs çıxdı. Əksinə, hər ikisi gizlicə bir-birilə baxışdı.

– Demək, hər şey aydındır. Sizi təbrik edirəm. – O, qızını, sonra da qalxıb, İsgəndəri qucaqladı. Gözlərində yenə yaş həlqələndi. Sakitləşəndən sonra sözünə davam etdi:

– Ondan sonra isə Mirzənin daha heç nəyə dişi batmaz.

İsgəndərə hər şey yuxu kimi gəldi. Sevincindən bilmirdi ki, nə etsin.

## 20

Onlar yoxuşu qalxdıqca, başlarının üstündə qara buludlar qaynayıb-qarışır, payız səması elə bil daha aşağı enirdi. Plaşının yaxalığını qaldırmış Qaraş boz səmaya baxdı və tezliklə yağış tökəcəyini hiss edib geri qayıtmaq istədi. Qızı razı olmadı.

– Yox, ata, gedək, – dedi. – Yağış olmayacaq.



Created with
nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

O da qızının ürəyini sındırmaq istəmədi, yoluna davam elədi. Aşağıda qalmış şəhər boz dumanda seçilmirdi. Çiskin başladı. Yeganənin saçlarına elə bil ki, iynə gözü boyda incilər qonmuşdu. Yanaqları da soyuqdan qızarmışdı. Budur, qabaqda ilk qəbirlər göründü. Qaraş ayaq saxlayıb, diqqətlə ətrafına baxdı, elə bil ki, bu yerlərə birinci dəfə gəlirdi. Bakıdan çıxdığı müddətdə qəbiristan və onun yolu tamam dəyişmişdi. Yaxşı ki, qoşa çinar əvvəlki kimi yerində idi. Qaraşın yaxşı yadındaydı ki, Xədicəni bu çinarlardan təxminən iki yüz metr sağda dəfn etmişdilər. Çətini buraya qədərdi. Bundan sonra sağ əllə bir az gedəndən sonra qabaqda kiminsə məscid şəklində tikdirdiyi bir sərdaba olmalıydı. Xədicə həmin sərdabanın böyründəcə basdırılmışdı. Qaraş bu ümidlə çinardan sağa tərəf buruldu. Heç əlli addım getməmişdilər ki, qabaqda sərdabanın günbəzi göründü.

– Hə, çatmışıq. – Qaraş arxayınlıqla səsləndi.

Dörd tərəfdə təzə qəbirlər vardı. Köhnə qəbirlər isə itib-batmışdı. Onlar, qara mərmərdən və ya da hamar yonulmuş ağ daşdan düzəldilib, dəmir barmaqlıqlar içərisinə salınmış və ətrafına gül-çiçək əkilmiş, bəzisində, hətta, oturmaq üçün skamya qoyulmuş bu bəzək-düzəkli qəbirlərin yanında çox miskin görünürdülər. Çoxu elə bil xəcalətindən yerlə-yeksan olmuşdu. Təzə qəbirlərdən bəzilərinin üstündə ölənlərin büstləri də vardı. “Nəyə lazımdır bu bəzək-düzək? – deyə Qaraş öz-özlüyündə düşündü. – Ölüyə hörmət eləmək istəyirsənsə, onu qəlbində yaşat, xatirəsini əziz saxla. Bəlkə, səhv edirəm. Ancaq məncə bu yaxşıdır...”

Ətrafdakı cavan ağacların yarpaqları xışıldayırdı. Birdən qəbirlərin sandıqçalarını ilk damcılar döyəclədi. Yeganə çətirini açaraq, atasının başı üstündə tutdu.

– Mənə lazım deyil, qızım, – dedi və çətirin altından çıxdı. – Sən başına tut, islanarsan.

Addımlarını yeyinlətdilər. Qəbirlər arası ilə düşən cığırlardan rütubət iyi qalxdı. Yağışın başlanması ilə qəbiristanı yovşan ətri bürümüşdü. Budur, sərdabanın böyründəki köhnə qəbir. Əgər onun dövrəsinə düzülmüş daşlar olmasaydı, burada qəbir olduğu heç bilinməzdi. Qaraş qəbrin yanında durub, başı ilə işarə elədi:

– Budur, ananın qəbri.

Ətrafdakı qəbirlər arasında üzərini yovşan və tikan basmış bu yoxsul qəbir öz baxımsızlığı və kimsəsiz qalması ilə qızın sinəsində elə bil ki, fəğan qopardı.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Ana! – deyə üzüüstə qəbrin yovşan və tikan basmış sarı torpağı üstünə yıxıldı. Qaraş isə ayaq üstə duraraq, on altı il qabaq Xədicəni bu torpağa tapşırdığı dəqiqələri xatırladı. O zaman o da, qızı kimi, bu yaş torpağın üstünə sərilib, ayrılmaq istəmirdi. Gözləri yaşardı. Sonra əyilib, qəbrin üstündəki yovşanı, tikanları qopardı. Qəbrin ətrafına düzdüyü daşlar mamır bağlamışdı. Demək, daşlar da bir ömür yaşamışdı. O, qızının yavaşdan dediyi sözləri eşitdi: "Ana, atamı tapdım. Bəs sən niyə məni qoyub getmisən?" Bundan Qaraşın ürəyi para-para oldu. Göz yaşları sel kimi yanaqları ilə süzülüb qəbrin üstünə töküldü. Ancaq o, bu gününü də həsrətlə gözləmişdi ki, qızını tapıb, onunla buraya gəlsin, anasının ruhunu şad eləsin.

Uzaqda, qəbirlərin dalından başlayan vadidən də o tərəfdə ildırım çaxdı. Onun son parıltılarının boz səmada əriməsi ilə bir zamanda yağış gurlaşdı. Yeganəyə heç bir şey təsir eləmirdi, anasının qəbrindən qopa bilmirdi. Ağzıüstə sərələnərək torpağını qucub hönkür-hönkür ağlayırdı. Qaraş çömbəlib qızının yanında oturdu və açılmış çətiri onun başı üstünə tutdu. Sel kimi tökən yağışdan Yeganənin ətrafında xırdaca gölməçələr yarandı. Axırda atası qollarından tutub, onu qaldırmağa məcbur oldu.

– Qalx, qızım, qalx, – dedi, – islanırıq. Sonra yenə gələcəyik. Bu zavallının qəbrinə qulluq lazımdır.

İliklərinə işləmiş soyuqdan Yeganənin dişləri bir-birinə dəyirdi. Gözləri şişmiş, yanaqları mis kimi qızarmışdı. Atası çətiri onun başı üstündə qaldıraraq qoluna girdi və boş, səssiz qəbiristandan geri qayıtdılar.

## 21

İsgəndər Mirzənin yanına istirahət günü getdi ki, onu evdə tapa bilsin. Təsadüfən qapını elə Mirzə özü açdı. İsgəndəri əvvəlcə tanımadı. Onu tanıyanda isə qapını tez örtmək istədi. İsgəndər qolunu qabağa verib, mane oldu.

– Qonağı qapıdan qaytarmazlar, – dedi və Mirzəni kənara itələyərək zorla içəri keçdi.

Mirzə ona qarşı belə zor işlədən adamı çanağı qan çəkmiş xırdaca gözləri ilə qəzəblə süzdü. Dərisi sümüyünə yapışmış arıq sifəti



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

İsgəndərə həmişə göründüyündən daha uzun gəldi. Dodağını bir cüt sapsarı iri üst dişlərinin altına salmışdı. Çox qəzəbli görünürdü.

– Nə sözün var? – Mirzə bir az da geri çəkilərək soruşdu.

– Sözüm yoxdur. Gəlmişəm ki, Yeganənin... – İsgəndər bir anlığa duruxub, sözünə davam etdi: – Sənin dilinlə desəm, Rəziyyənin şeylərini aparım.

Mirzənin düşdüyü vəziyyət bu dəqiqədə İsgəndərə quyruğu basılmış gürzəni xatırlatdı. Uzun hülqumlu boğazını qabağa uzadaraq, İsgəndərin üstünə atılmaq istəyirmiş kimi bir vəziyyət aldı. İsgəndər sinəsini qabağa verib, ona tərəf yeriyərkən, Mirzə geri çəkilməyə məcbur oldu. Onun sinəsindən ilan fışıltısına oxşar bir səs eşidildi.

– Mənim qızımı sən oğurlamısan?

İsgəndər acı-acı gülümsədi:

– Hansı qızından danışırsan? Özünə arvad eləmək istədiyin, var-yoxunu soyub, öz adına keçirdiyin, ev-eşiyini satıb cibinə qoyduğun, ya da pasportunu dəyişdiyin qızdan?! Hansını deyim! Əgər buraya gələrkən hörmətli dostlarıma and içib, vəd verməsəydim, elə buradaca sənin başını sərçə başı kimi üzərdim!

Mirzənin bütün varlığı aşkarcasına meydana qoyulmuşdu. İndi nə özünə bəraət qazandırmağın, nə də deyilənləri yalana çıxarmağın vaxtı deyildi. Yaralanmış heyvan kimi indi onun yeganə çıxış yolu atılmaq, parçalamaq idi. Bunun üçün isə o, gücsüz idi. Xırda gözlərini iynə kimi İsgəndərin üzünə dikib, dişləri arasında mızıldandı:

– Mən qızımı səndən alacağam. Prokurora, məhkəməyə şikayət eləyəcəyəm.

İsgəndər hündürdən güldü:

– Prokurora sən yox, biz şikayət eləyəcəyik. Cinayətkar, oğru, daha hansını deyim... Xahiş eləyirəm ki, Yeganənin çamadanını verəsən.

Mirzə İsgəndərin bu sözlərindən sonra itaətkarlıqla içəri keçdi. İsgəndər onun belə tez və asanlıqla yumşalmasına təəccüb elədi. Lakin, Mirzə otaqdan əlində çamadan əvəzinə bıçaqla çıxdıqda, İsgəndər onun niyyətini başa düşdü.

– Qızın yerini deməsən, bu bıçaqla axırına çıxacağam!

İsgəndər əllərini belinə qoyub gülümsəyirdi:

– Səndə yəni belə qeyrət var? Namussuz adamlarda qeyrət nə gəzir?



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

İsgəndərin axırıncı sözləri Mirzənin yeddi qatından keçdi. Əlindəki iri mətbəx bıçağını İsgəndərin sinəsinə tuşlayıb atdı. İsgəndər bir göz qırpımında bıçağı sancıldığı divardan qoparıb, əlində hərləməyə başladı. O, yenə gülümsəyirdi:

– Mirzə, səhvin var, – dedi. – Mənə bıçaq atmağı öyrətmək lazım deyil. Əksinə, mən onu tərgitmişəm.

O, bıçağı döşəmənin üstü ilə Mirzənin ayaqlarına tərəf sürüşdürdü:

– Götür, mətbəx bıçağıdır, məəttəl qalarsan.

Mirzə bıçağı qaldırmadı. Başa düşdü ki, qarşısındakı adamı bıçaqla qorxutmaq mümkün deyil. Belə bir adamla bıçaq oyunu adama baha başa gələr. O, gözlərini İsgəndərdən ayırmadan susurdu.

– Hə, nə deyirsən, çamadanı verirsən, ya yox? Bəlkə, elə bilirsən ki, mənim buna ixtiyarım çatmır, yad adamam? Buyur, baxa bilərsən. – O cibindən kəbin şəhadətnaməsini çıxarıb göstərdi. – Sən rədd elədin. Qızın öz atası isə verdi. Daha buna sözün yoxdur ki?

İsgəndərin əlindəki kəbin kağızını görəndə Mirzənin gözləri alacalandı, dişlərini qıcırtdı. Əyilib ayaqlarının yanına düşmüş bıçağı qaldıran anda, İsgəndər alıcı quş kimi başının üstünü aldı, qolunu burub bıçağı əlindən aldı. Mirzə ağrıdan inildədi.

– Mirzə, mən dedim ki, çamadanı öz xoşunla verəsən. İndi ki, belə oldu, onu özüm götürməli olacağam.

O, əlində bıçaq otağa keçdi və Yeganənin ona təsvir etdiyi yaşıl çamadanı tapıb götürdü.

– Mirzə, incimə, – dedi. – Özün vermədiyin üçün mən götürməli oldum.

O, qapıya tərəf addımlarkən, arxasında Mirzənin səsini eşitdi:

– Oğru, xuliqan!..

İsgəndər geriyə qanrıldı:

– Oğru həmişə öz adını başqasına qoyar, Mirzə. Buyur, gedək şikayət edək. Elə mənimlə gedək. De ki, bu adamı evimi soyanda tutmuşam... hə, dinmirsən? Çünki bilirsən ki, cani, oğru özünsən. Sabah olmasa da, o biri gün özünü cani kimi mühakimə eləyəcəklər, Rəzil! – deyib, İsgəndər bıçağı döşəmənin üstü ilə yenə ona tərəf sürüşdürdü. Sonra qapını dalınca çırparaq, küçəyə çıxdı...



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

* * *

Şəhərin mərkəzi küçələrindən birində hündür bir evin qabağında səhər tezdən çoxlu adam toplaşmışdı. Hamının gözləri üçüncü mərtəbəyə zillənmişdi. Danışırdılar ki, sübh tezdən oradan yaşlı bir kişi özünü küçəyə atıb öldürmüşdür. Biri deyirdi ki, guya özünü atan əmanət kassasında işləyir və ayağında çoxlu pul qaldığı üçün *belə edib. Bir başqası isə tamam başqa söz deyirdi. Ancaq onun* özünü pəncərədən atmasının səbəbini . . . küçəsində 147 nömrəli evdə yaşayanlardan başqa heç kəs dürüst bilmirdi.



Created with
nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

# KİTABDAKILAR

*Ön söz* . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 4

## HEKAYƏLƏR

"Çəyirtkə" . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 9
İstintaq . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 18
Köşk-balaban . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 28
Köçəri buludlar . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 36
Flaminqo . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 42
İntiqam . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 52
Göy delfin . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 58
*Dönüklük* . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . *65*

## POVESTLƏR

Dəniz həmişə göy olmur . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 73
Dağlı məhəlləsi . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . *129*



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Buraxılışa məsul: *Umud Rəhimoğlu*

Texniki redaktor: *Mübariz Piri*

Kompyuter səhifələyicisi: *Allahverdi Kərimov*

Kompyuter operatoru: *Lalə Cəfərova*

Korrektor: *Kamilə Dilbazi*

Yığılmağa verilmişdir 06.07.2006. Çapa imzalanmışdır 29.08.2006.
Formatı 60x90 $^{1}/_{16}$. Fiziki çap vərəqi 14,5. Ofset çap üsulu.
Tirajı 25000. Sifariş 127.

Kitab "Şərq-Qərb" mətbəəsində çap olunmuşdur.
Bakı, Aşıq Ələsgər küçəsi, 17.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional